Azərbaycan Xalq Cümhuriyyətinin yaranmasının
103-cü ildönümünə həsr olunmuş

# "Azərbaycan Xalq Cümhuriyyəti tarixi tədqiqatlarda"

mövzusunda respublika elmi konfransının

# MATERİALLARI

Bakı - 2021

*Azərbaycan Xalq Cümhuriyyətinin yaranmasının 103-cü ildönümünə həsr edilmiş*
*“Azərbaycan Xalq Cümhuriyyəti tarixi tədqiqatlarda”*
*Respublika elmi konfransı. 27-28 may 2021-ci il. Bakı*

**Təşkilat komitəsi:**

| | |
|---|---|
| **Sədr:** | |
| **Elçin Babayev** | **Bakı Dövlət Universitetinin rektoru** |
| **Sədr müavini:** | |
| **İbrahim Zeynalov** | Tarix fakültəsinin dekan vəzifəsini icra edən |
| **Üzvlər:** | |
| Hüseyn Məmmədov | Bakı Dövlət Universitetinin Elm və innovasiyalar üzrə prorektoru |
| Mais Süleymanov | Bakı Dövlət Universitetinin Elmi fəaliyyətin təşkili və innovasiyalar mərkəzinin direktoru |
| Mahir Pirquliyev | Bakı Dövlət Universitetinin Elmi fəaliyyətin təşkili və innovasiyalar mərkəzinin şöbə müdiri |
| Kəmalə Nəcəfova | Tarix fakültəsinin Elmi işlər üzrə dekan müavini |
| Bəxtiyar Nəbiyev | Tarix fakültəsinin Tədris işləri üzrə dekan müavini |
| Azad Rzayev | Azərbaycan tarixi (humanitar fakültələr üzrə) kafedrasının müdiri |
| Mehman Abdullayev | Azərbaycan tarixi (təbiət fakültələri üzrə) kafedrasının müdiri |

**Proqram komitəsi:**

**Sədr:**

| | |
|---|---|
| Fəzail İbrahimli | Azərbaycan Respublikası Milli Məclisinin sədrinin müavini, Azərbaycan tarixi (humanitar fakültələr üzrə) kafedrasının professoru |

**Sədr müavini:**

| | |
|---|---|
| Anar İsgəndərov | Azərbaycan Respublikası Milli Məclisinin deputatı, Mənbəşünaslıq, tarixşünaslıq və metodika kafedrasının müdiri |

**Üzvlər:**

| | |
|---|---|
| Yaqub Mahmudov | Qədim dünya və orta əsrlər tarixi kafedrasının müdiri |
| Əsməd Muxtarova | Türk xalqları tarixi kafedrasının müdiri |
| İradə Hüseynova | Qafqaz xalqları tarixi kafedrasının müdiri |
| Elmira Hüseynova | Avropa və Amerika ölkələrinin yeni və müasir tarixi kafedrasının müdir əvəzi |
| Abutalıb Cəlilov | Slavyan ölkələri tarixi kafedrasının müdiri |
| İqbal Ağayev | Asiya və Afrika ölkələri tarixi kafedrasının müdiri |
| Kərəm Məmmədov | Arxeologiya və etnoqrafiya kafedrasının müdiri |
| Qabil Əliyev | Qafqaz xalqları tarixi kafedrasının professoru |
| Nuru Məmmədov | Azərbaycan tarixi (humanitar fakültələr üzrə) kafedrasının professor əvəzi |
| Fazil Baxşəliyev | Slavyan ölkələri tarixi kafedrasının professor əvəzi |
| Cəmilə Rüstəmova | Azərbaycan tarixi (humanitar fakültələr üzrə) kafedrasının professor əvəzi |
| Bəymirzə Şəbiyev | Azərbaycan tarixi (təbiət fakültələri üzrə) kafedrasının dosenti |
| Məmmədağa Baxışov | Avropa və Amerika ölkələrinin yeni və müasir tarixi kafedrasının dosenti |
| Sevda Hüseynova | Slavyan ölkələri tarixi kafedrasının dosenti |
| Sənubər İsmayılova | Türk xalqları tarixi kafedrasının dosenti |
| Boran Əziz | Azərbaycan tarixi (humanitar fakültələr üzrə) kafedrasının dosenti |
| Elvira Lətifova | Qədim dünya və orta əsrlər tarixi kafedrasının dosenti |
| Sevinc Qasımova | Mənbəşünaslıq, tarixşünaslıq və metodika kafedrasının dosenti |

| | |
|---|---|
| Rövşən Hətəmov | Avropa və Amerika ölkələrinin yeni və müasir tarixi kafedrasının dosenti |
| Ələmdar Şahverdiyev | Azərbaycan tarixi (humanitar fakültələr üzrə) kafedrasının dosent əvəzi |
| Arifə Adıgözəlova | Azərbaycan tarixi (humanitar fakültələr üzrə) kafedrasının dosent əvəzi |
| Səidə Quliyeva | Dünya azərbaycanlıları: tarixi demoqrafiya ETL-nin böyük elmi işçisi |
| Günel Əliyeva-Məmmədova | Asiya və Afrika ölkələri tarixi kafedrasının baş müəllimi |
| Zəhra İslamova | Azərbaycan tarixi (təbiət fakültələri üzrə) kafedrasının müəllimi |
| Hicran Mahmudova | Arxeologiya və etnoqrafiya kafedrasının müəllimi |
| Sevil Heydərova | Azərbaycanın maddı mədəniyyət tarixi ETL-nin böyük laborantı |

# ÖN SÖZ

Azərbaycan xalqının müstəqillik uğrunda apardığı mübarizə 1918-ci il mayın 28-də Azərbaycan Xalq Cümhuriyyətinin elan olunması ilə nəticələndi və bu dövr tariximizin mühüm mərhələsini təşkil edir. İstiqlal Bəyannaməsi ilə müstəqilliyini bütün dünyaya elan edən Azərbaycan Xalq Cümhuriyyətinin qarşısında çox vacib dövlət quruculuğu işləri dayanırdı. XX əsrin əvvəlləri Azərbaycan tarixinə silinməz izlər buraxmışdır.

Şərq və müsəlman aləmində xalq hakimiyyəti və insanların bərabərliyi ideyalarına əsaslanan ilk respublikanın – Azərbaycan Xalq Cümhuriyyətinin tarixinin araşdırılması məqsədilə 2021-ci il mayın 26-da Bakı Dövlət Universitetində 28 may - Respublika Günü və Azərbaycan Xalq Cümhuriyyətinin yaranmasının 103-cü ildönümünə həsr olunmuş "Azərbaycan Xalq Cümhuriyyəti tarixi tədqiqatlarda" mövzusunda Respublika elmi konfransı keçirilmişdir.

Konfransın plenar iclasında BDU-nun rektoru Elçin Babayev giriş sözü ilə çıxış edərək Azərbaycan Xalq Cümhuriyyətinin xalqımızın müstəqillik tarixinin ən şanlı səhifələrindən biri olduğunu bildirdi və qeyd etdi ki, cəmi 23 ay yaşamasına baxmayaraq, Azərbaycan Xalq Cümhuriyyəti milli dövlətçilik sahəsində bir sıra zəruri tədbirlər həyata keçirməklə, Azərbaycanı beynəlxalq səviyyədə tanıtdırmağa nail olmuş, həyata keçirilən tədbirlərlə müstəqil dövlətçiliyimizin gələcək inkişaf yolunun müəyyənləşdirilməsi baxımından mühüm addımlar atmışdır. Rektor Azərbaycan Xalq Cümhuriyyəti dövründə elm və təhsilin inkişafı sahəsində atılmış addımlar haqqında geniş məlumat verdi, BDU-nun təsis olunmasından və onun milli kadrların hazırlanmasında əvəzsiz töhfələrindən bəhs etdi. Bildirdi ki, çox mürəkkəb və ziddiyyətli tarixi şəraitdə fəaliyyət göstərməsinə baxmayaraq, Xalq Cümhuriyyətinin əsas fəaliyyət istiqamətlərindən biri elm və təhsil siyasəti ilə bağlı olmuşdur. Azərbaycan Xalq Cümhuriyyətinin hökumətinin bu sahədə həyata keçirdiyi siyasətin araşdırılması, ölkəmizdə elm və təhsilin inkişafı tarixinin öyrənilməsi baxımından müstəsna əhəmiyyətə malikdir.

E.Babayev çıxışında bildirdi ki, xalqımızın Ümummilli Lideri, müasir Azərbaycan dövlətinin qurucusu və memarı Heydər Əliyev Azərbaycan Xalq Cümhuriyyətinin fəaliyyətinə yüksək qiymət vermiş, bu tarixi hadisənin xalqımızın taleyində müstəsna rol oynadığını qeyd etmişdir. Ulu Öndər Heydər Əliyev hələ ölkəmiz müstəqilliyini əldə etməmişdən öncə böyük cəsarət nümayiş etdirərək Azərbaycan Xalq Cümhuriyyətinin dövlət rəmzlərini - üçrəngli bayrağımızı və gerbimizi Naxçıvan Muxtar Respublikanın dövlət rəmzləri kimi təsdiq etdirmişdir. Bu, olduqca qətiyyətli və uzaqgörən bir addım idi. Daha sonra BDU-nun Ümumi dilçilik kafedrasının müdiri, Milli Məclisinin deputatı Nizami Cəfərov "Azərbaycan Xalq Cümhuriyyətinin dil siyasəti", Milli Məclisinin deputatı Cavid Osmanov "Azərbaycan Xalq Cümhuriyyətinin

idarəetmə sistemi", BDU-nun Azərbaycan tarixi (humanitar fakültələr üzrə) kafedrasının müdiri Azad Rzayev "Azərbaycan Xalq Cümhuriyyətinin Azərbaycan tarixində yeri və rolu", BDU-nun Dövlət və hüquq nəzəriyyəsi və tarixi kafedrasının professoru Xəyyam İsmayılov "Azərbaycan Xalq Cumhuriyyətinin hüquq sisteminin inkişafı məsələləri", BDU-nun Beynəlxalq münasibətlər kafedrasının müəllimi Eldar Cəfərov "Azərbaycam Xalq Cümhuriyyətinin beynəlxalq münasibətlərdə uğurları" mövzusunda məruzə ilə çıxış ediblər. Plenar iclasına 500-dən artıq iştirakçı qatılıb. Konfrans öz işini bölmə islaslarında davam etdirib.

27 may tarixində Tarix fakültəsində Elmi işlər üzrə dekan müavini Kəmalə Nəcəfovanın moderatorluğu ilə keşirilən bölmə iclasında 7 məruzə dinlənilmişdir. Giriş sözü ilə çıxış edən Tarix fakültəsinin dekanı İbrahim Zeynalov Azərbaycan Xalq Cümhuriyyətinin yaranmasının milli dövlətçilik tarixində mühüm yerindən danışdı və bildirdi ki, 1918-ci il mayın 28-də Azərbaycan xalqının həyatında baş vermiş misilsiz hadisə, Müsəlman Şərqində ilk parlamentli respublika olan Azərbaycan Xalq Cümhuriyyəti qurulması, cəmi iki ilə yaxın yaşamış olmasına baxmayaraq, zəngin dövlət quruculuğu təcrübəsi ilə milli dövlətçilik tarixində silinməz izlər qoymuş, xalqın qəlbində azadlıq və istiqlal duyğularını gücləndirməklə respublikanın gələcək müstəqilliyi üçün etibarlı zəmin hazırlamışdır.

BDU-nun Azərbaycan tarixi (humanitar fakültələr üzrə) kafedrasının dosenti Ələmdar Şahverdiyev "İstiqlal bəyannaməsinin müddəalarında Azərbaycanda milli dövlət quruculuğu məsələsi", BDU-nun Azərbaycan tarixi (humanitar fakültələr üzrə) kafedrasının professoru Cəmilə Rüstəmova "1918-1920-ci illərdə ermənilərin Azərbaycana əsassız torpaq iddiaları", BDU-nun Azərbaycan tarixi (humanitar fakültələr üzrə) kafedrasının dosenti Arifə Adıgözəlova "Azərbaycan Xalq Cümhuriyyətinin məhkəmə sistemi", BDU-nun Asiya və Afrika ölkələri tarixi kafedrasının baş müəllimi, t.f.d. Günel Əliyeva-Məmmədova "Nəsib Bəy Yusifbəyli şəxsiyyəti ibrətamiz nümunə", AMEA, Qafqazşünaslıq İnstitutu, Qafqaz siyasəti şöbəsinin müdiri, tarix üzrə fəlsəfə doktoru, dosent Elnur Kəlbizadə "Qacarlar İranı-Ermənistan münasibətləri və Azərbaycan Xalq Cümhuriyyəti", BDU-nun Mənbəşünaslıq, Tarixşünaslıq və metodika kafedrasının dosenti Aydın Məmmədov "Azərbaycan Xalq Cümhuriyyəti xadimlərinin əhali məskunlaşması və artımına dair tarixi demoqrafik baxışları", AMEA A.A.Bakıxanov adına Tarix İnstitutunun aparıcı elmi işçi, tarix üzrə fəlsəfə doktoru, dosent Vidadı Umudlu "Şimali Azərbaycanda istiqlaliyyət uğrunda mübarizə Türkiyə tarixşünaslığında" mövzusunda məruzələrlə çıxış etmişdir.

Microsoft Teams proqramı üzərindən təşkil olunmuş konfrans maraqlı müzakirələrlə yadda qaldı. Konfransa AMEA və digər ali məktəblərdən 60-dən çox tezis daxil olmuşdur. Proqram komitəsinin müsbət rəyindən sonra 35 tezis çapa məsləhət görülmüşdür.

# AZƏRBAYCAN XALQ CÜMHURİYYƏTİNİN MƏHKƏMƏ SİSTEMİ

**Arifə Adıgözəlova**
*BDU, Azərbaycanın yeni və ən yeni tarixi kafedrasının dosenti*
adigezelova@bk.ru

**Açar sözlər:** Azərbaycan Xalq Cümhuriyyəti, məhkəmə sistemi, prokurorluq orqanları
**Keywords:** Azerbaijan Democratic Republic, judicial system, the prosecutor's office

Demokratik hüquqi prinsiplər əsasında yaranmış hər bir dövlətin idarəçilik sistemində qanunverici və icra hakimiyyəti ilə yanaşı məhkəmə hakimiyyətinin də müstəqil fəaliyyəti zəruridir. Əks halda dövlət mexanizminin hüquqi dayaqları zəifləyir və idarəetmənin demokratik mahiyyəti öz əhəmiyyətini itirir. Hüquqi-demokratik dövlət qurmaq əzmində olan Azərbaycan hökumətinin ilk kabinetində Ədliyyə naziri portfeli təsis edilmiş və bu vəzifəni hüquşünas Xəlil bəy Xasməmmədov daşıyırdı. II hökumət kabinetində isə baş nazir F.Xoyski həm də Ədliyyə naziri vəzifəsini tuturdu.

Azərbaycan Xalq Cümhuriyyətinin Müvəqqəti hökuməti dövlət quruculuğunun ilk mərhələsində məhkəmə sisteminin təşkilinə xüsusi diqqət yetirilirdi. Bu həm də belə bir zərurətdən irəli gəlirdi ki, Oktyabr çevrilişindən sonra yaranan hərcmərclik dövründə Azərbaycanda məhkəmə sitemi digər hakimiyyət orqanları kimi fəaliyyətsiz bir hala gətirilmişdi. Şəhər və qəzaların çoxunda barışıq hakimləri yox idi. Gəncə şəhərində dairə məhkəməsinin fəaliyyəti də yox səviyyəsində idi: işçilərin çoxu yerində deyildi. İstintaq sahəsində vəziyyət daha acınacaqlı idi. Bəzi sahə müvəkkilləri iş yerlərində qalsalar da, öz vəzifələrini yerinə yetirə bilmirdilər. Hər yerdə özbaşınalıq hökm sürür, cinayətkarlar cəzasız qalacaqlarına əmin olduqları üçün quldurluq baş alıb gedir, cinayətlərin sayı artırdı. Buna görə də Ədliyyə Nazirliyi əsas diqqətini barışıq məhkəmələrinin və istintaq şöbələrinin bərpasına yönəldirdi.

Azərbaycan hökuməti 1918-ci il 17 iyunda xalqa müraciətində məhkəmələrin tədricən milliləşdirilməsini mühüm vəzifə kimi nəzərdə tuturdu [1, f.1046, s.2, iş 1, v.13]. Lakin çar hakimiyyəti dövründə müsəlmanlarım məhkəmə sisteminə yaxın buraxılmaması üzündən yaranan milli kadr çatışmazlığı bu məsələni ləngidirdi. Ədliyyə Nazirliyi yaranmış vəziyyətdə boşluğu doldurmaq üçün hakim və müstəntiq vəzifələrinə hüquq təhsili olmayan, lakin məhkəmə proseslərində iştirak etməklə müəyyən təcrübə toplamış barışıq məhkəmələrinin katiblərini, katib köməkçilərini, məhkəmə pristavlarını və hətta müstəntiqlərin tərcüməçiləri işləmiş şəxsləri qəbul edirdilər [5, s.349].

Hökumətin ciddi səyləri nəticəsində Gəncə Dairə Məhkəməsi fəaliyyətə başladı. Hələlik milli kadrlar yetərincə olmadığı üçün məhkəmə prosesini həm

rus, həm də Azərbaycan dilində aparmalı olurdular. Bir məsələni də qeyd etməliyik ki, qısa müddətdə yeni məhkəmə islahatı qəbul etmək mümkün olmadığından, keçmiş qanun məcəllələrindən istifadə edilirdi. Azərbaycan hökuməti 1918-ci il 23 iyunda qəbul etdiyi "Rusiya və Zaqafqaziya qanunlarının qüvvəsinin müvəqqəti saxlanılması haqqında" qərarına əsasən, daxili sabitliyi qorumaq məqsədilə bütün idarəçilik və məhkəmə sahələrini əhatə edən qanunlar hökumət tərəfindən ləğv edilənədək və ya dəyişdirilənədək qüvvədə qalırdı [2, s.193].

Azərbaycan hökuməti Bakı quberniyasında hakimiyyətini bərqərar etdikdən sonra burada məhkəmə orqanlarının yenidən təşkilinə başladı. Belə ki, Bakı Soveti tərəfindən yaradılmış məhkəmə idarələri ləğv edildi. Nazirlər Şurasının 1918-ci il 1 oktyabr qərarı ilə Bakı Dairə Məhkəməsi və prokurorluğun fəaliyyəti bərpa edildi [1, f.100, s.2, iş 7, v.52].

Bu zaman mülki məhkəmələrin əsas həlqələri barışıq və dairə məhkəmələri idi. Prokurorluq və istintaq orqanları da məhkəmələrin nəzdində fəaliyyət göstərirdi [5, s.348-349]. Ədliyyə sisteminin hüquqi bazasının yaradılması və bu əsasda təşkili dövlət aparatının fəaliyyətini tənzimləməklə yanaşı, cəmiyyətdə siyasi asayişin də təmin olunmasına zəmin yaradırdı. Lakin hüquqi bazanın yaradılması hələ mümkün olmadığından keçid dövrü üçün müvəqqəti məhkəmə-istintaq apartı təşkil edildi. Bu sistem hələ tam kamil deyildi. Belə ki, Bakı və Gəncə şəhər dairə məhkəmələrində və barışıq şöbələrində apellyasiya instansiyaları yox idi. Əvvəllər bu funksiyanı Tiflisdə yerləşən appelyasiya məhkəməsi yerinə yetirirdi. Lakin müstəqillik əldə edildikdən sonra dövlətin özünün müstəqil apelyasiya məhkəməsinə sahib olması zərurəti meydana çıxdı. Hökumətin göstərişi ilə Ədliyyə Nazirliyi apelyasiya məhkəməsi statusuna malik Məhkəmə Palatasının təsis edilməsini nəzərdə tutan layihə hazırladı. 1918-ci il noyabrın 14-də Nazirlər Şurası Azərbaycan Məhkəmə Palatasının Əsasnaməsini təsdiq etdi [2, s.252; 1,f.100, s.2, iş 7, v.61].

Əsasnaməyə uyğun olaraq, Azərbaycan Məhkəmə Palatasının idarə forması və onun nəzdində olan prokuror nəzarəti rus imperiyasının 1864-cü ilin və 1917-ci il Müvəqqəti hökumətin qanunlaşdırılmış məhkəmə nizamnaməsində nəzərdə tutulanlarla müəyyənləşdirilirdi. Azərbaycan Məhkəmə Palatasının hakimiyyəti bütün Azərbaycan Respublikası ərazisində həyata keçirilirdi [1, f.100, s.4, iş 2, v. 3].

Məhkəmə palatasının rəsmi açılışı 1919-cu il martın 16-da olmuş və onun hakimiyyəti Azərbaycan Respublikasının bütün ərazisinə şamil edilirdi. Palatanın açılışında iştirak edən Nazirlər Şurasının sədri F.Xoyski hüquqi dövlətdə ədalət məhkəməsinin həyata keçirilməsi işində müstəqil və qərəzsiz məhkəmənin roluna yüksək qiymət verərək, ölkədə hüquq qaydasının təmin edilməsinin ilk növbədə məhkəmənin fəaliyyətindən asılı olduğunu qeyd edir [3, №58, 18 mart 1919].

Azərbaycan Cümhuriyyəti dövründə prokurorluq orqanları haqqında geniş normativ hüquqi sənəd qəbul edilməmişdir. Prokurorluq məhkəmə

orqanlarının tərkibində fəaliyyət göstərməklə, əsasən məhkəmədə dövlət ittihamı müdafiə etmək funksiyasını həyata keçirirdi. Azərbaycan Məhkəmə Palatası yanındakı Prokuror Nəzarəti cinayət prosesində ittihamı müdafiə və məhkəmə orqanlarında qanunların düzgün tətbiqinə nəzarət funksiyalarını həyata keçirirdi. Respublika Prokuror Nəzarətinə Baş prokuror rəhbərlik edirdi, o, habelə Ədliyyə naziri kimi, ali məhkəmə idarəçiliyi orqanlarının rəhbəri hesab edilirdi. Başqa sözlə, Azərbaycan Xalq Cümhuriyyəti dövründə Ədliyyə Naziri eyni zamanda Respublika prokuroru vəzifəsini yerinə yetirirdi. X.Xasməmmədov, A.Səfikürdiski və T.Makinski Azərbaycan Xalq Cümhuriyyətinin ədliyyə nazirləri, eyni zamanda, Xalq Cümhuriyyətinin ilk Baş prokurorları olmuşlar [4].

Azərbaycan hökumətinin 1918-ci il 5 dekabr tarixli qərarı ilə Ədliyyə Nazirliyinə Gəncə dairə məhkəməsinin nəzdində Hərbi məhkəmə təşkil etməyi tapşırmışdı.

Ədliyyə Nazirliyinin yanında 1919-cu ilin əvvəllərində məhkəməyə dair qanun layihılırinin hazırlanması üzrə xüsusi komissiya yaradılmış, 32 qanun layihəsi Parlamentin müzakirəsinə çıxarılmışdır.

Azərbaycan hökuməti Ədliyyə Nazirliyini məhkəmə islahatı hazırlamağa məsul etmişdi. Bu məqsədlə 1919-cu il 11 fevralda Nazirlik yanında hüququ dövlətdə bütün dövlət hakimiyyəti aparatına ali nəzarəti həyata keçirən siyasi qurumun zəruriliyi nəzərə alınaraq, Azərbaycan Senatı yaratmaq qərara alınmışdı. Lakin Azərbaycanda hələ konstitusiya qəbul olunmadığına görə Senatın funksiyasından qanunların və hökumət sərəncamlarının elan edilməsi və təsdiqi hüququ çıxarılırdı [1, f.894, siy.1, iş 69, v.85-86].

1919-cu il aprelin 16-da fəaliyyətə başlayan IV hökumət kabinetində Ədliyyə naziri təyin edilən Aslan bəy Səfikürdski Ədliyyə Nazirliyinin fəaliyyətinin əsas istiqamətlərini belə müəyyən edirdi: 1) ölkədə ədalət məhkəməsini düzgün təsis etməklə bütün əhalinin hüquqlarının müdafiə və təhlükəsizliyini təmin etmək; 2) ictimaiyyəti məhkəmə işində iştiraka cəlb etmək; 3) əhaliyə yaxın yerli məhkəmələrin seçkili əsasda təşkili.

Ümumiyyətlə, Cümhuriyyət dövründə qəbul edilən qanunlar bütün vətəndaşların hüquq və azadlıqlarını nəzərə almaqla ədalətli cəmiyyət quruculuğunu nəzərdə tuturdu. Belə ki, qanunun ən ali qüvvə olduğu və bu hüquqi əsasda müstəqil fəaliyyət göstərən məhkəmə sisteminin bütün insanların siyasi, iqtisadi, mülki hüquqlarının təminatçısı olduğu halda dövlətlə cəmiyyətin siyasi vəhdəti yaranır, siyasi qarşıdurmaya yer qalmırdı.

**Ədəbiyyat siyahısı:**

1.ARDA, f.1046, s.2, iş 1, v.13; f.100, s.2, iş 7, v.52; f.100, s.2, iş 7, v.61; f.100, s.4, iş 2, v. 3; f.894, siy.1, iş 69, v.85-86.

2.Азербайджанская Демократическая Республика (1918-1920) // Законодательные акты. – Баку: Азербайджан, – 1998, – 424 с.

3. Azərbaycan qəzeti. –1919, 18 mart, – №58.
4.Abbasov İ. Azərbaycan xalq Cümhuriyyətinin ədliyyə-məhkəmə orqanlarının təşkil və fəaliyyəti //Respublika, – 2014, 18 noyabr.
5.Dəmirli M.Ə. Şərqin çağdaşlıq möcüzəsi. Azərbaycan Cümhuriyyəti: hüquq və demokratiya (1918-1920) /M.Ə.Dəmirli. – Bakı: Hüquq Yayın Evi. – 2018. – 532 s.

## AZƏRBAYCAN XALQ CÜMHURİYYƏTİ XADİMLƏRİNİN ƏHALİ MƏSKUNLAŞMASI VƏ ARTIMINA DAİR TARİXİ DEMOQRAFİK BAXIŞLARI

**Aydın Məmmədov**
*BDU-nun Mənbəşünaslıq, Tarixşünaslıq və metodika kafedrasının müəllimi, dosent*
aydinmammadov@bsu.edu.az

**Açar sözlər:** Azərbaycan Xalq Cümhuriyyəti xadimləri, əhali məskunlaşması, əhali artımı, tarixi demoqrafik baxışlar, demoqrafik vəziyyət
**Keywords:** Figures of the Azerbaijan Democratic Republic, population settlement, population growth, historical demographic views, demographic situation

Şərqdə ilk demokratik respublika olan Azərbaycan Xalq Cümhuriyyəti tərəfindən tərtib olunan və bir növ özünü təqdim xarakteri daşıyan adres kalendarda Azərbaycan əhalisi ilə bağlı qiymətli məlumatlar əks olunmuşdur. Parisdə 1919-cu ildə fransızca çap olunaraq Cenevrə Sülh konfransı iştirakçılarına, o cümlədən Millətlər Təşkilatı üzvü ölkələrinin nümayəndələrinə payladığına görə adres kalendarı həm də Azərbaycan demoqrafiyasına dair bilgi və məlumatları beynəlxalq aləmə təqdim edən ilk kitab kimi də dəyərləndirmək olar.

Belə ki, kitabın Azərbaycan əhalisi bölməsində oxuyuruq: "Azərbaycan respublikası əhalisinin sayı onun ərazisi ilə uyğundur. Əhalinin sayı haqqındakı məlumatlar həmişə rəqəmləri səhv göstərilən və gecikdirilən xüsusi hesablamadan götürülür. Axırıncı hesablamanı 1897-ci ildə Rusiya keçirmişdir. Bədbəxtlikdən indi bu hesablamanın nəticələrinə əsaslanmalıyıq. Əhalinin 20 il ərzindəki artımını da ora əlavə etməli və Azərbaycan əyalətinin 25%-nə aid rus hesablamasının rəqəmini dəyişdirməliyik. İndi bütün Zaqafqaziya əhalisinin sayı 8 081 668-dir. Onun yarıdan çoxu, 4 617 671-i Azərbaycan əhalisidir" [2, s.16]

Azərbaycan Xalq Cümhuriyyətini yaradanlar burada Çar Rusiyasının 1897-ci ildə keçirdikləri siyahıyaalmanın nəticələrinə heç də təsadüfdən təəssüflənmirdilər. Onlar Çar Rusiyasının siyahıyaalma zamanı azərbay-

canlıların sayını qəsdən azaltdıqlarını çox gözəl bilirdilər. Bu haqda M.Vəlilinin (Baharlının) fikirləri maraq doğurur.

M.Vəlinin (Baharlının) sözü gedən kitabında oxuyuruq: "Azərbaycan əhalisi 1917-ci ilin Qafqaz Kalendarı və Azərbaycan Cümhuriyətinin adres kalendarı mövcibincə, 2 milyon 861 min 862 candır. Bu statistik məlumatın əsasına 1897-ci ildə vaqe olan ümumi Rusiya siyahısı daxil edilmiş və üzərinə hər ildə artan miqdarda əlavə edilmişdir" [2, s.16-17].

M.Vəlili sözügedən kitabında təkcə Azərbaycan əhalisinin statistik göstəricilərini verməklə kifayətlənmir. Müəllif Azərbaycan əhalisinin demoqrafik göstəricilərinin reallığını əngəlləyən səbəbləri araşdıraraq, 1897-ci ilin siyahıyaalınmasının nəticələri ilə barışmadığını da dilə gətirir: "… Fəqət 1897-ci ilin siyahıyi-ümumiyyəsi ətraflı deyildi, zəif idi. Çünki islam əhalisi mədəniyyət cəhətdən ən geridə qaldıqları və həmçinin əsgər alınacaqlarından (aparılacaqlarından), torpaq mükəlləfiyyətlərindən və vergi artırılacağından ehtiyat etdikləri üçün siyahı tutulan zaman yazılmaqdan imtina edirdilər" [2, s.17].

Müəllif Azərbaycan əhalisinin doğru-dürüst statistikasını əldə etməyi əngəlləyən səbəblərdən bəhs edərkən müəllif yazırdı: "Bu xətaları çar çinovnik və polisləri bilərəkdən buraxırdılar. Onlar qəsdən siyasi nöqteyi-nəzərdən müsəlman millətlərinin qədərini azaldırdılar və yainki gizlindən buna bais olurdular. Məsələn, siyahı tutulan zaman belə şayiə buraxırdılar ki, bu siyahı qoşun yığmağa, vergiləri və zemski vergiləri artırmağa görədir. Bu səbəbə müsəlmanların əksəri qeyd olunmaqdan qaçardılar. Ona görə Azərbaycan daxilində islam tayfalarının miqdarını bu rəqəmlərdən çox ehtimal etmək olur, əslində 10% çox göstərmək olur - yəni 2.150.000" [2, s.17].

1918-ci ilin martından başlayaraq Bakıda, Şamaxıda, Qubada, Salyanda, Lənkəranda və Azərbaycanın digər qəzalarında bolşevik və erməni hərbi hissələri adı altında çıxış edən silahlı dəstələrin dinc türk-müsəlman əhalisini görünməmiş vəhşiliklə qətlə yetirmələri və əmlaklarını talan etmələri AXC hökuməti qarşısında FTK-nın yaradılması zərurətini qoydu.

Azərbaycan Xalq Cümhuriyyətinin görkəmli xadimi M.Ə.Rəsulzadənin "Azərbaycan Cümhuriyyəti", "Əsrimizin Səyavuşu", "Çağdaş Azərbaycan tarixi", "Qafqasiya türkləri" və digər əsərləri sözügedən hadisələrlə bağlı faktlarla zəngindir. Onun "Qafqasiya türkləri" əsərində Bakıda bolşevik – daşnak qüvvələrinin həyata keçirdikləri soyqırım siyasətinin demoqrafik vəziyyətə təsiri ilə bağlı oxuyuruq: "...1918 sənəsində martın 17-dən 21-nə qədər davam edən qanlı hadisələrin nəticəsində türklərdən çoluq-çoçuq, qadın və ixtiyar da daxil olduğu halda 10.000-i mütəcavüz əhali tələf oldu" [4, s.154].

Müəllif "Azərbaycan Cümhuriyyəti" adlı əsərində fikrinə davam edərək yazırdı: "Şamaxının düçar olduğu təcavüzə Lənkəran, Səlyan, Quba, Nəvahi və Kürdəmir kimi qəza, şəhər və qəsəbələri dəxi məruz qaldı" [3, s.34-37].

AXC dövrünün görkəmli nümayəndələrindən biri olan Yusif Vəzir Çəmənzəminli "Tarixi, coğrafi və iqtisadi Azərbaycan" adlı kitabında Azərbaycanın əlverişli geostrateji mövqeyindən bəhs edərək "Azərbaycanı şərq

ilə qərb arasında körpü təşkil edən bir ölkə kimi səciyyələndirir. Yusif Vəzir Çəmənzəminli haqlı olaraq yazır ki, ən qədim zamanlardan bəri yurdumuzdan müxtəlif irqlərə mənsub irqlər keçib getmişlər. Bunlardan məmləkətimizdə də yerləşib, kök salanlar da olub:" Təbiidir ki, gəlmələr ilə yerlilər arasında uzun mücadelə və mübarizə sayasində qalanlar qarışıb, din və dillər dəyişilib və nəticədə başqaca bir mədəniyyətə malik, ayrıca bir millət vücuda gəlib. Bu millət azəri türkləridir"- deyə, yazırdı. [1, s.11].

Tarixi demoqrafiya elmində əhali məskunlaşması anlayışının sinonimi kimi bəzən əhali, daha doğrusu bu və ya digər ərazini, ölkəni, dövləti, şəhəri, kəndi, qəsəbəni məskunlaşdıran insan toplumu da başa düşülür. Bu baxımdan, Əhməd Ağaoğlunun hələ 1911-1912-ci illərdə türk xalqlarının məskunlaşması ilə bağlı "Türk yurdu" jurnalında irəli sürdüyü fikirləri böyük maraq doğurur. Belə ki, Əhməd bəy Ağaoğlu türk xalqlarının tarixinin ən qədim çağlarından başlayaraq Altay dağlarından tutmuş dünyanın ən müxtəlif istiqamətlərinə doğru axınlarını dağ sellərinə bənzədir.

Əhməd bəy Ağaoğlu nəhayətsiz əraziləri əhatə edən böyük türk dünyasını demoqrafik xəritəsini çəkir. Əhməd bəy Ağaoğlunun fikrincə, türk dünyasının ərazisi təqribən Avropa və Amerikanın birgə ərazisinə bərabərdir, əhalisi isə 70-80 milyon nəfərdir [5, s.118].

Əhməd bəy Ağaoğlu siyasi və elmi fəaliyyəti boyunca qadın azadlığı ideyalarını təbliğ edən qadınlara kişilərlə bərabər geniş hüquqların verilməsini ictimai inkişafın və tərəqqinin əsas amillərindən biri kimi dəyərləndirən ilk ziyalılarımızdandır. Əhməd bəy Ağaoğlu "Sərbəst insanlar ölkəsində" adlı əsərində bir növ vaxtı ikən utopist sosialistlərin və onlardan da əvvəl dahi Nizaminin "İsgəndərnamə" poemasında yaratdığı "Xoşbəxtlər ölkəsi"ni təsvir edir. Azadlıq, hüquq bərabərliyi, ədalət, "fikir təmizliyi, söz təmizliyi, hərəkət təmizliyi", ümumun rifah yolunda fədakar əmək kimi yüksək mənəvi dəyərlər üzərində qurulan "Sərbəst insanlar ölkəsində" bütün sakinlər "sadə yaşayışa", vətəndaş fəzilətinə malikdirlər.

Beləliklə, Azərbaycan Xalq Cümhuriyyəti xadimlərinin əsərlərindəki əhali məskunlaşması və artımına dair tarixi demoqrafik baxışlar öz aktuallığı baxımından bu gün də böyük maraq doğurur.

**Ədəbiyyat siyahısı:**

1. Çəmənzəminli, Y.V. Tarixi, coğrafi və iqtisadi Azərbaycan /Y.V.Çəmənzəminli. – Bakı: BDU. – 1993. – 54 s.
2. Məmmədov, A.B. Tarixi demoqrafiya /A.B.Məmmədov. – Bakı: ADMİU, – 2019. – 232 s.
3. Rəsulzadə, M.Ə. Azərbaycan Cümhuriyyəti /M.Ə.Rəsulzadə. – Bakı: Elm. – 1991. – 112 s.
4. Rəsulzadə, M.Ə. Qafqasiya türkləri // Azərbaycan jurnalı, – 1991, №1. – s.152-164.

5. Гасанова, Э.Ю. Идеология буржуазного национализма в Турции / Э.Ю.Гасанова. – Баку: Изд. АН АзССР, – 1966. – 160 с.

## AZƏRBAYCAN XALQ CÜMHURİYYƏTİ XARİCİ SİYASƏTİNDƏ PARİS SÜLH KONFRANSININ ROLU

**Aytən Kürdədehli**
*Bakı Dövlət Universiteti, Beynəlxalq münasibətlər və iqtisadiyyat fakultəsi, magistrant*
aytenkurdadehli@gmail.com

**Açar sözlər:** konfrans, müstəqillik, diplomatiya, Azərbaycan Xalq Cümhuriyyəti, xarici siyasət
**Keywords:** conference, independence, diplomacy, Azerbaijan Democratic Republic, foreign policy

Paris Sülh Konfransı, Birinci dünya müharibəsindən sonra dünyanın taleyini həll etmək məqsədi ilə ABŞ və "Antanta" ölkələrinin Parisdə çağırdıqları sülh konfransı idi. Azərbaycan, Gürcüstan və Ermənistan - üç Cənubi Qafqaz respublikası hamısı konfransa bir heyət göndərdi. Davam edən Rusiya Vətəndaş Müharibəsinin yaratdığı təhdidlərdən qorunma cəhdləri, böyük güclərin heç birinin Qafqaz əraziləri üzərində mandat almaqda maraqlı olmaması səbəbindən xeyli dərəcədə uğursuz oldu. Bir sıra gecikmələrdən sonra, üç Cənubi Qafqaz ölkəsi, Müttəfiq güclərin Ali Şurası tərəfindən faktiki olaraq tanınmağa başladı, ancaq Batumidəki bir İngilis kontingenti xaricində bütün Avropa qoşunları Qafqazdan çıxarıldıqdan sonra. Gürcüstan 12 yanvar 1920-ci ildə faktiki olaraq tanındı, sonra Azərbaycan həmin gün, Ermənistan isə 19 yanvar 1920-ci ildə qəbul edildi. Müttəfiq liderlər Qafqaz respublikalarına yardımlarını silah, döyüş sursatı və qida tədarükü ilə məhdudlaşdırmağa qərar verdilər.

Azərbaycan missiyasına Əlimərdan Topçubaşov rəhbərlik edirdi. Ermənistan nümayəndə heyətinə Avetis Aharonyan, Hamo Ohancanyan və Armen Garo daxil idi. Gürcüstan nümayəndə heyətinə Nikolay Çxeidze, İrakli Tsereteli və Zurab Avalişvili daxil idi.

Azərbaycan Xalq Cümhuriyyəti hökumətinin Paris sülh konfransında iştirakı bu dövrün beynəlxalq münasibətlərində mühüm yer tutdu. Azərbaycanın xarici siyasətinin başlıca məqsədi ölkənin müstəqilliyinin gerçəkləşməsindən ibarət idi. Bu vəzifənin həyata keçirilməsi işinə ölkənin ən nüfuzlu şəxsləri cəlb olundu. Azərbaycan parlamenti Paris sülh konfransında iştirak etmək üçün Parisə tam səlahiyyətli nümayəndə heyəti göndərmək

haqqında qərar qəbul etdi. Parlamentin sədri Ə.M.Topçubaşov nümayəndə heyətinə başçı təyin olundu.

Azərbaycan nümayəndə heyəti Parisə yola düşdü və 1919-cu il mayın 28-də İstiqlal günü ABŞ prezidenti Vilson Azərbaycan nümayəndə heyətini qəbul etdi. Vilsona təqdim edilmiş memorandumda Azərbaycan Xalq Cümhuriyyətinin yaranma tarixi, onun 1 illik inkişaf yolu və istiqlal yolunda verdiyi qurbanlardan danışılırdı. Vilsondan Azərbaycanın istiqlalının tanınması, Vilson prinsiplərinin Azərbaycana aid edilməsi, Azərbaycanın Millətlər Cəmiyyətinə qəbul olunması, ABŞ-ın Azərbaycana hərbi ləvazimat sahəsində yardım göstərməsi xahiş olunurdu.

Vilson Azərbaycan nümayəndə heyətinə ümidverici bir şey demədi. O, sülh konfransının dünyanı kiçik hissələrə parçalamaq niyyətində olmadığını dedi və bildirdi ki, Azərbaycan məsələsi rus məsələsindən əvvəl həll edilə bilməz. Erməni nümayəndələrinin pozuculuq fəaliyyəti də bu məsələnin müsbət həllinə mane olurdu. Onlar suverenliyin tanınmasından daha çox ərazi-sərhəd məsələsinə əhəmiyyət verir, Qafqazdakı real vəziyyət barədə Avropa və ABŞ ictimaiyyətində yanlış təsəvvür yaradırdılar. Erməni təbliğatının əsas hədəfi Osmanlı dövləti və Azərbaycan idi.

Azərbaycan nümayəndə heyətinin ən əhəmiyyətli təbliğat işlərindən biri "Paris sülh konfransına Qafqaz Azərbaycanı sülh nümayəndəliyinin tələbləri" adlı kitabçası idi. Bu sənəd böyük tirajla fransız və ingilis dillərində çap edilərək yayıldı. Sənəddə Azərbaycanın mənşəyi haqqında məlumat verilir, xanlıqlar, çar Rusiyası dövründə vəziyyət şərh edilir, Azərbaycanın türk yurdu olması göstərilir, Zaqafqaziya Seymi, onun zəifləməsi, Azərbaycan Xalq Cümhuriyyətinin yaranması haqqında tarixi icmal verilir, bolşeviklərin və ermənilərin təcavüzkar hərəkətləri haqqında danışılırdı.

Azərbaycan nümayəndə heyətinin müttəfiq dövlətlərin nümayəndələrinə Azərbaycanın müstəqilliyinin tanınması barədə cavabsız müraciətlər etdi. Nəhayət, 1920-ci il yanvarın 11-də Lord Kerzonun təklifi ilə Paris konfransının ali şurasında Azərbaycan və Gürcüstanın istiqlalını de-fakto tanımaq haqqında yekdilliklə qərar qəbul olundu. İstiqlalın tanınmasından 3 gün sonra bu tarixi xəbərin sədasını almış Azərbaycan bayram edirdi.

Azərbaycan nümayəndə heyəti Paris sülh konfransında öz missiyasını uğurla başa vurduqdan sonra parlament Fransa, Böyük Britaniya, İtaliya, ABŞ və Polşanın paytaxtlarında fəaliyyət göstərəcək diplomatik nümayəndəliklərin yaradılması haqqında qanun qəbul etdi. Bundan başqa, Azərbaycanın Təbriz, Xoy, Ənzəli, Rəşt, Əhər, Məşhəd, batum, Kiyev, Krım, Aşqabad və başqa yerlərdə konsulluqları fəaliyyət göstərməyə başladı. Bakıda isə Gürcüstan, Ermənistan, İran, Belçika, Hollandiya, Yunanıstan, Danimarka, İtaliya, Fransa, İsveç, İsveçrə, İngiltərə, ABŞ, Ukrayna, Litva, Polşa, Finlandiya və digər ölkələrin müxtəlif səviyyədə rəsmi nümayəndəlikləri fəaliyyət göstərirdi.

Nümayəndə heyətinin bütün səylərinə baxmayaraq, Azərbaycan xalqının yüz illik rus əsarətindən sonra müstəqil yaşamaq, milli dövlətini qurmaq,

torpağının və taleyinin sahibi olmaq ümidləri doğrulmadı. "Vahid və bölünməz Rusiya" şüarına münasibətdə ağqvardiyaçılarla eyni mövqedə dayanan bolşeviklər 1920-ci il aprelin 28-də Azərbaycanı yenidən işğal etdilər. Cümhuriyyət mövcudluğunun 23-cü ayında süqut etdi. Parisdə çətinlik və qadağalara qatlaşaraq Azərbaycan davası aparan Nümayəndə heyətinin Vətənə gedən yolları həmişəlik bağlandı. Lakin 1920-ci ilin mayın əvvəllərində Azərbaycanın sovetləşməsi haqqında Sülh konfransında eşitdikləri acı və sarsıdıcı xəbər onları müstəqillik uğrunda mübarizədən əsla çəkindirmədi.

Dövlət müstəqilliyinin bərpası, milli dövlət quruculuğu istiqamətində aparılan siyasət nəticəsində bu gün Qafqaz regionunun liderinə çevrilmiş Azərbaycan Respublikası beynəlxalq arenada öz siması və mövqeyi ilə tanınan bir dövlətdir və Azərbaycan Xalq Cümhuriyyətinin varisidir.

**Ədəbiyyat siyahısı:**

1. Azərbaycan Xalq Cümhuriyyəti Ensiklopediyası. Bakı, – c. 2. – 2005. – 440 s.
2. Azərbaycan Respublikası Dövlət Arxivi (bundan sonra-ARDA), f. 894, iş 88, v. 1.
3. Mir - Yacoub. Le probleme du Caucase. – Paris, – 1933. – 174 p.
4. Suny, Ronald Grigor. The making of the Georgian nation (2 ed.) / R.G.Suny – Bloomington: Indiana University Press. – 1994. – p. 154.
5. Ключников Ю. Международная политика новейшего времени в договорах, нотах и декларациях / Ю.Ключников, А.Сабанин. – Москва, – Часть II. – 1928. – 472 с.

## QAFQAZ İSLAM ORDUSUNUN AZƏRBAYCANA XİLASKARLIQ YÜRÜŞÜ 20-30-CU İLLƏR MÜHACİR TARİXŞÜNASLIĞINDA

**Billurə Qurbanzadə**
*Bakı Dövlət Universiteti,Tarix fakültəsi, doktorant*
billure.qurbanzade@gmail.com

**Açar sözlər:** Azərbaycan Xalq Cümhuriyyəti, Qafqaz İslam Ordusu, 1920-1930-cu illər, tarixşünaslıq, mühacirət dövrü.
**Keywords:** Azerbaijan Democratic Republic, Caucasus Islamic Army, 1920-1930s., historiography, emigration

Azərbaycan Xalq Cümhuriyyəti dövrünün tədqiqi Azərbaycan tarixşünaslığında mühüm elmi və siyasi əhəmiyyət kəsb edən aktual problemlərdən biridir. 1991-ci ildə müstəqilliyini bərpa edən Azərbaycan Respublikası özünü Azərbaycan Xalq Cümhuriyyətinin siyasi varisi elan etmişdir. Bugünkü dövrdə müstəqil Azərbaycan dövləti üçün Azərbaycan Xalq Cümhuriyyətinin 23 aylıq fəaliyyəti dönəmində üzləşdikləri çətinliklər, xarici və

daxili problemlərə baxışı və bu problemlərin həlli dövlətçilik təcrübəsi baxımından xüsusi əhəmiyyət kəsb edir. Bu baxımdan tarixşünaslığımızda Cümhuriyyət dövrünün geniş və ətraflı tədqiqi hər zaman başlıca vəzifə olaraq qalır. Sözü gedən problemin araşdırılması zamanı diqqət yetirilməsi vacib olan ən mühüm hadisələrdən biri Qafqaz İslam Ordusunun Azərbaycana gəlməsi və ölkəmizdə xilaskarlıq missiyasını həyata keçirməsidir. Bu problemin araşdırılması nəticəsində biz Qafqaz İslam Ordusunun yaradılması və fəaliyyəti, Azərbaycanda milli ordu quruculuğu, Azərbaycanın dövlətçiliyi və ərazi bütövlüyü uğrunda mübarizə, bu məsələlər kontekstində Azərbaycan-Türkiyə hərbi əməkdaşlığı haqqında geniş məlumat əldə edirik. Peşəkar türk ordusu heyətindən, Azərbaycanın milli hərbi qüvvələrindən və yerli əhalidən ibarət çoxsaylı könüllülərdən təşkil edilmiş Qafqaz İslam Ordusunun Cənubi Qafqazda oynamış olduğu rol Azərbaycan və Türkiyənin maraqlarının vəhdətindən doğurdu və tarixin bu vacib məqamları günümüz üçün də aktualdır. Təqdim olunan məqalə tezisində 20-30-cu illər mühacir tədqiqatçılarının əsərləri əsasında Azərbaycan Xalq Cümhuriyyətinin və dövlətçilik ənənələrimizin qorunub saxlanılmasında mühüm rol oynamış Qafqaz İslam Ordusunun fəaliyyəti təhlil edilmişdir.

Azərbaycan Xalq Cümhuriyyətinin mühacir tarixşünaslığı dedikdə, 1920-ci il 27 aprel işğalından sonra mühacirətə getmək məcburiyyəti qarşısında qalan, Azərbaycandan kənarda Sovet imperiyasına qarşı mübarizə aparan Azərbaycan Demokratik Respublikasının qurucularının, ictimai-siyasi xadimlərin və görkəmli ziyalıların fəaliyyətləri və Cümhuriyyət haqqında yazdıqları əsərlər nəzərdə tutulur. Hadisələrin bilavasitə iştirakçıları və ya şahidləri olmuş, bu və ya digər dərəcədə proseslərin gedişatına təsiri olmuş siyasi və hərbi xadimlərin əsərlərində- Azərbaycanın istiqlal mübarizəsinin iştirakçısı olmuş M.Ə.Rəsulzadənin "Azərbaycan Cümhuriyyəti" əsərində, M.B. Məhəmmədzadənin "Milli Azərbaycan hərəkatı" adlı əsərində, N. Şeyxzamanlının xatirələrində türk qoşunlarının Azərbaycana gəlməsi, Qafqaz İslam Ordusunun döyüş əməliyyatları ilə bağlı digər mənbələrdə təsadüf edilməyən qiymətli materiallar mövcuddur [5, s.31].

Əli bəy Hüseynzadə yazır: "Əgər bu gün Anadolu Azərbaycanın azadlığı naminə qan tökürsə, sabah Azərbaycan Anadolunu yoxsulluqdan xilas edə bilər. Azərbaycanı xilas etməklə Anadolu həm də özünü xilas etmiş olur". Əli bəy Hüseynzadə həmçinin, 1923-cü ildə M.Ə. Rəsulzadənin Türkiyədə çap olunan "Azərbaycan Cümhuriyyəti" kitabına ön söz yazmışdır. "Bir mütaliə" adlanan kiçik məqaləsində Ə. Hüseynzadə müstəqilliyini itirən Azərbaycanın "beynəlmiləl insaf və ədalətdən doğan sülhü ümumiyyi aləmin" səyi ilə yenidən istiqlal yoluna qədəm qoyacağına ümid edir. 1914-cü ilə qədər Azərbaycanın siyasi-ictimai, mədəni həyatını yaxından izlədiyini bildirən Əli bəy qeyd edir ki, I Dünya müharibəsindən sonra Türkiyə ilə Azərbaycan arasını alan "qalın sis pərdəsi" İstanbulla Bakı münasibətlərini aydın görməyə imkan verməyib. M.Ə. Rəsulzadənin istiqlal savaşına yüksək qiymət verən Əli bəy yazır: "Bu gün pərdə yavaş-yavaş qalxıyor. Siz də bu pərdəni qaldıranlardan

birisiniz". Böyük mütəfəkkirin M.Ə Rəsulzadənin kitabına yazdığı məqalədə göstərdiyi kimi artıq saxta tarixlə gerçəkləri əks etdirən tarix arasında qalan "qalın sis pərdəsi" götürülüb [5, s.43].

Əhməd bəy Ağaoğlu isə qeyd edir ki: "Mən Bakını İstanbulda və İstanbulu Bakıda görüb də özümü o qədər bəxtiyar görürəm ki, daha ölsəm də, o qədər qəmim yoxdur, dünyadan kam almış kimiyəm" [4, s.160].

Aprel işğalından sonra Rusiya və Türkiyə kimi ölkələrdə yaşamış M.Ə.Rəsulzadə də qələmə aldığı əsərlərdə Qafqaz İslam Ordusunun əhəmiyyətindən bəhs etmişdir: "Azərbaycan xalqının tarixində bu gün 28 May qədər böyük bir dəyərə malikdir. 28 Mayda Cümhuriyyətin istiqlalı bütün cahana elan edilmişsə, 15 sentyabrda bu istiqlal maddətən təyid olunmuş, Azərbaycan hökuməti öz təbii mərkəzinə müvəffəqiyyətlə daxil olmuşdur" [4, s.10].

İstanbulda çap olunan "Yeni Qafqaz", "Odlu yurd" jurnallarında, Almaniyada çap olunan "Qurtuluş" jurnalında da Qafqaz İslam Ordusunun Azərbaycandakı fəaliyyəti haqqında məlumat verilmişdir. "Qurtuluş" jurnalında çap olunmuş maraqlı məqalələrdən biri "Bir zəfərin ildönümü" məqaləsidir. O dövrün mətbuatına diqqət yetirsək, görərik ki, yalnız zəfər, qalibiyyət, qurtuluş ifadələri işlədilir. "Bakı məsələsi", "İstiqlal zəfərinin dastanı" və s. məqalələrdə Qafqaz İslam Ordusunun Azərbaycana gəlməsi haqqında çox əhəmiyyətli məlumatlar öz əksini tapmışdır. Bakının işğal edilməsi ilə bağlı Cümhuriyyət qurucuları tərəfindən çoxlu şeirlər də yazılmışdır [3, s.77].

Ümumiyyətlə Bakının azad edilməsi çox böyük bir hadisədir. Bu tarix bizim XX əsr Azərbaycanın istiqlal mübarizəsi tarixinin ən yüksək zirvəsində duran hadisədir. Məmməd Əmin Rəsulzadə yazırdı ki, 1918-ci il mayın 28-də Azərbaycan istiqlalını sülh ilə elan etmişdiksə, 1918-ci il sentyabrın 15-də əməl ilə həyata keçirdik [2, s.90]. Bakının azad edilməsində bir faktı da önə çəkmək vacib məsələlərdəndir ki, burada azərbaycanlıların rolu, vətənpərvərliyi də mühüm rol oynamışdır. Bu faktor olmasaydı, təbii ki, Nuru Paşa qalib gələ bilməzdi.

## Ədəbiyyat siyahısı:

1. Məhəmmədzadə, M.B. Milli Azərbaycan hərəkatı /M.B.Məhəmmədzadə – Bakı: Nicat. – 1991. – 240 s.
2. Rəsulzadə, M.Ə. Azərbaycan Cümhuriyyəti / M.Ə.Rəsulzadə. – Bakı: Elm. –1990. – 116 s.
3. Rəsulzadə, M.Ə.Çağdaş Azərbaycan tarixi / M.Ə.Rəsulzadə. – Bakı: Gənclik. – 1991. – 112 s.
4. Vəliyev, A.A. Cümhuriyyət dövrü mətbuatında Qafqaz İslam Ordusu / A.A.Vəliyev. – Bakı: Nurlan. – 2007. – 185 s.
5. Yaqublu, N. Qafqaz İslam Ordusu Azərbaycanda /N.Yaqublu. – Bakı. – 2013. – 210 s.

# AZƏRBAYCAN XALQ CÜMHURİYYƏTİNİN BEYNƏLXALQ İQTİSADİ ƏLAQƏLƏRİNƏ DAİR

**Cavid Bağırzadə**
*Gəncə Dövlət Universitetinin Azərbaycan tarixi kafedrasının dosenti,*
*tarix üzrə fəlsəfə doktoru*
cavid.bagirzade@gdu.edu.az

**Açar sözlər:** Azərbaycan Xalq Cümhuriyyəti, Türkiyə, xarici iqtisadi əlaqələr, iqtisadi müqavilələr.
**Keywords:** Azerbaijan Democratic Republic, Turkey, foreign economic relations, economic agreements.

Azərbaycan Xalq Cümhuriyyəti yarandıqdan ən qısa sonra onun hökumətinin xarici siyasətində ölkənin tanıdılması, diplomatik münasibətlərin qurulması və iqtisadi əlaqələrin yaradılması başlıca xətt idi. Azərbaycan Xalq Cümhuriyyəti olduqca mürəkkəb və gərgin bir tarixi dövrdə mövcud olmasına baxmayaraq qısa zaman ərzində milli maraqlara söykənən fəal xarici siyasət kursu formalaşdırmış, bir çox dövlətlərlə iqtisadi əlaqələr qura bilmişdi.

Azərbaycan Xalq Cümhuriyyətinin iqtisadi tədbirləri sırasında ən əhəmiyyətlisindən biri də qonşu və xarici dövlətlərlə iqtisadi əlaqə yaratmaqdan ibarət idi. Bu sahədə AXC hökuməti təkcə qanun layihələri hazırlamaqla kifayətlənməyib, dünyanın bir sıra ölkələri, o cümlədən 1918-ci il iyunun 4-də Türkiyə, 1919-cu il mayın 23-də İran, İngiltərə, ABŞ, Fransa, İtaliya, Gürcüstan, Dağıstan, Orta Asiya dövlətləri ilə iqtisadi əlaqə yaratmağa nail olmuşdu. Bəzi dövlətlərlə ticarət müqaviləsi bağlamış, bəziləri ilə şifahi razılıq əldə edilmişdi [2, s.512].

Azərbaycan Xalq Cümhuriyyətinin iqtisadi proqramında xarici iqtisadi-ticarət strategiyası mühüm yer tuturdu. AXC hökuməti və parlamenti xarici iqtisadi siyasət sahəsində mühüm addımlar atmış, bir çox qanunlar layihəsi hazırlamış və qəbul etmişdir. Xarici iqtisadi ələqaləri həyata keçirən Ticarət və Sənaye Nazirliyinin nəzdində “Xarici dövlətlər və bir birinə yaxın sahələrlə əmtəə mübadiləsi komitəsi” fəaliyyət göstərirdi. Qonşu dövlətlərlə iqtisadi əlaqələrin genişləndirilməsinə xüsusi əhəmiyyət verən Azərbaycan Xalq Cümhuriyyəti, hələ özünün mükəmməl iqtisadi bazasını yaradıb başa çatdırmadığı halda, humanizm prinsiplərindən çıxış edərək, Dağıstana 50 mln. manat məbləğində yardım göstərmişdi ki, bu da respublikanın büdcə məxaricinin 1/8 hissəsini təşkil edirdi [3, s.60].

AXC-nin sıx iqtisadi əlaqələr qurduğu ölkə qonşu Gürcüstan olmuşdur. Azərbaycan və Gürcüstan müstəqillik qazandıqdan dərhal sonra iqtisadi, maliyyə, nəqliyyat və rabitə sahələrində əməkdaşlığı tənzimləmək və dərinləşdirmək zərurərti ilə üzləşmişdilər. 1918-ci il dekabrın 26-da Bakıda Azərbaycanla Gürcüstan arasında mal mübadiləsi haqqında müqavilə bağlandı. 1919-cu il

yanvarın 3-də Tiflisdə Azərbaycanla Gürcüstan arasında teleqraf rabitəsi, yanvarın 4-də isə poçt xidməti haqqında sazişlər və poçt bağlamalarının dəmir yolu ilə daşınması haqqında konvensiya bağlanmışdı. 1919-cu il martın 8-də Azərbaycanla Gürcüstan arasında dəmir yolu rabitəsi haqqında saziş imazalanmışdı. 1919-cu il iyunun 4-də Tiflisdə Azərbaycan, Gürcüstan və Ermənistan arasında əlavə Zaqafqaziya bonu buraxılması haqqında saziş, 1920-ci il fevralın 5-də Bakıda Azərbaycanla Gürcüstan arasında tranzit yüklər haqqında müqavilə bağlanmışdı. 1918-1920-ci illərdə Azərbaycanla Gürcüstan arasında imzanlanmış bu sənədlər hər iki ölkə arasında əməkdaşlığı inkişaf etdirməyə və iqtisadi əlaqələrin dərinləşməsinə imkan vermişdi.

Azərbaycan Xalq Cümhuriyyəti Rusiya ilə ilə iqtisadi əməkdaşlığa da böyük əhəmiyyət verir, neft, pambıq və başqa ixrac məhsulları üçün Rusiya bazarının əhəmiyyətini nəzərə alırdı. 1920-ci il martın 30-da Sovet Rusiyası və Azərbaycan birgə komissiyasının iclasında ticarət müqaviləsi imzalanmışdı. Lakin Rusiya Azərbaycanı qane edə biləcək bir sıra şərtlər vəd etsə də, onlara əməl etməmişdi [3, s.60].

AXC ilə Türkiyə arasında siyasi münasibətlər, hərbi əməkdaşlıq ilə yanaşı iqtisadi əlaqələr də formalaşmışdır. Azərbaycan ilə Türkiyə arasında bağlanmış müqaviləyə görə, Azərbaycan Türkiyəyə neft və neft məhsulları göndərməyi öz öhdəsinə götürmüşdü. Lakin Türkiyəyə göndəriləcək neft Batumdan keçdiyi üçün Gürcüstan hökumətinin razılığı lazım idi. Azərbaycan və Gürcüstan arasında razılaşmadan sonra Gürcüstan hökuməti Bakıdan Türkiyəyə göndərilənən neft və neft məhsullarının 1918-ci ilin oktyabr ayından Batum vasitəsilə ötürülməsinə rəsmi icazə vermişdi [2, s.516]. AXC hökuməti milli mücadilə aparan qardaş Türk xalqına da mənəvi və maddi yardımlar etmişdir. Türkiyədə milli mücadilənin ən başından etibarən AXC Anadoliya mənəvi dəstəklə yanaşı müxtəlif maddi yardımlar da göstərmişdir. AXC-nin o tarixlərdə yeni bir dövlət olduğunu nəzərə alsaq, maddi dəstək məsələsi çox önəmlidir, çünki özü dünyaya varlığını qəbul etdirmə, həyatda qalma mücadiləsi verməkdədir. Belə bir vəziyyətdə dəstəyinə ehtiyacı olduğu güclərin Türkiyədə Milli Mücadilə hərəkatının düşmənləri olmasına baxmayaraq əlindən gələn hər cür siyasi və iqtisadi köməyi verməyə çalışmışdır [5, s.123]. AXC hökuməti, Baş nazir Nəsib bəy Yusifbəyli vasitəsilə 1,5 mln. Fransa frankı dəyərindəki çek və neft sənədlərini Türkiyə Milli Mübarizə hərəkatının səlahiyyətli şəxslərinə təqdim etmişdir. Bu məsələ Mustafa Kamal Paşanının 18 may 1921 və 16 noyabr 1921-ci il tarixlərində TBMM-nin Bakı təmsilçisi Memduh Şevket (Esendal) bəyə yazdığı məktublarda da təsdiq edilmişdir. Birinci məktubda Mustafa Kamal, Memduh Şevket bəydən "İnqilabdan əvvəl, hökumət (AXC hökuməti) Mir Yusif Vəzirov (Yusif Vəzir Çəmənzəminli – C.B.) vasitəsilə müxtəlif çeklərlə bir milyon frank pul göndərmişdi. Bundan əlavə də müəyyən qədər pul göndərmişdi" deməklə, qeyd edilən məbləğin bir qisminin əllərinə çatdığını, ancaq bir milyon frank (qızıl) dəyərindəki yardımın AXC süqut etdiyinə görə göndərilmədiyini qeyd edir, Memduh Şevket bəydən bu pulun Şura Hökuməti tərəfindən təmin etmək üçün

çalışmasını istəyirdi [4, s.123-124]. Azərbaycanın Türkiyəyə (Milli Mübarizə Hərəkatına) maliyyə yardımları Azərbaycan Xalq Cümhuriyyəti dövründən başlamış, Şura hökuməti dövründə isə davam etdirilmişdir [1, s.35]. Mustafa Kamal Paşa tərəfindən qələmə alınan ikinci məktubdan da yeni Azərbaycan hökumətinin Mustafa Kamal Paşanın bu istəyini müsbət qarşıladığı aydın olmaqdadır. Təxminən beş ay sonra yazdığı bu məktubda Mustafa Kamal, AXC hökuməti dövründə söz verilmiş yardımın reallaşması səbəbiylə məmuniyyətini ifadə edtmişdir [4, s.123-124]. Azərbaycan Xalq Cümhuriyyəti dönəmində çekləri təqdim edilən pulun qalan bir milyon franklıq qismi ödənmişdir [1, s.35].

Beləliklə, qısa müddət ərzində mövcud olmasına baxmayaraq AXC hökuməti mühüm iqtisadi əlaqələr qurmuş, müqavilələr bağlamış, qardaş Türkiyə və Dağıstana özünün vəziyyətinin o qədər də yaxşı olmamasına baxmayaraq humanitar iqtisadi yardımlar göstərmişdir.

**Ədəbiyyat siyahısı:**

1. Avşar, A. Türkiyənin istiqlal müharibəsində Azərbaycan türkləri: Türkiyə arxiv sənədləri və mətbuatında (1919-1922) / A.Avşar. – Bakı: AzAtaM. – 2007. – 47 s.
2. Azərbaycan tarixi: [7 cilddə] / – Bakı: Elm. – 2008. – c.5, – 696 s.+40 s. İllüstrasiya.
3. Azərbaycan Xalq Cümhuriyyəti Ensiklopediyası: [İki cilddə] / – Bakı: Lider, – 2004, – 440 s.
4. Cəbiyev, F. Türkiyə (Milli Mübarizə Hərəkatı) ilə Azərbaycan Xalq Cümhuriyyəti arasındakı iqtisadi əlaqələr // “Azərbaycan Xalq Cümhuriyyəti-100: Müsəlman Şərqində ilk Parlamentli Respublika” adlı beynəlxalq elmi konfrans 21-23 may 2018-ci il, konfransın xülasələri, – Bakı, – 2018. – s.123-124.
5. Karabulut, K. Türkiye (Milli Mücadele Harekatı) ile Azerbaycan (Halk Cumhuriyyeti) arasındakı ilişkiler // “Azərbaycan Xalq Cümhuriyyəti-100: Müsəlman Şərqində ilk Parlamentli Respublika” adlı beynəlxalq elmi konfrans, – 21-23 may 2018-ci il, konfransın xülasələri, – Bakı, – 2018, – s.123.

## 1918-1920-Cİ İLLƏRDƏ ERMƏNİLƏRIN AZƏRBAYCANA QARŞI ƏSASSIZ TORPAQ İDDİALARI

**Cəmilə Rüstəmova**
*Bakı Dövlət Universiteti, professor*
rustamovajamila@mail.ru

**Açar sözlər**: mart qırğını, Azərbaycan Xalq Cümhuriyyəti, ərazi iddiaları, Qarabağ, ərazi bütövlüyü
**Keywords:** March genocide, Azerbaijan Democratic Republic, territorial claims, Karabakh, territorial integrity

1918-ci il may ayının 28-də Azərbaycan Milli Şurası müstəqilliyi bəyan edən İstiqlal bəyannaməsini qəbul etdi. Azərbaycan xalqının tarixinə qızıl həriflərlə yazılan bu tarixi hadisə - çox çətin və mürəkkəb bir dövrə təsadüf edir. Bu dövrdə, böyük dövlətlər regionda öz maraqlarını təmin etmək üçün, ermənilərdən istifadə etmək qərarına gəlirlər.

I Dünya müharibəsi başlayandan sonra, Rusiya Osmanlı dövləti ilə bağlı planlarını reallaşdırmaq üçün "erməni amilindən" istifadə etmək qərarına qəldi. Çarizm, ermənilərin müharibədə Rusiyanı dəstəkləcəyi və Osmanlı dövlətinə qarşı qiyam təşkil edəcəkləri təqdirdə , onlara Şərqi Anadoluda, o cümlədən Kilikiyada muxtariyyət, Rusiya ermənilərinə isə islahatlar vəd edirdi. Şərqi Anadoluda ermənilərə muxtariyyət vəd edən çarizm, həm də Osmanlı dövlətinin Rusiyada yaşayan türk-müsəlman əhali ilə əlaqələrini kəsəcək bufer bir ərazi yaratmaq istəyirdi [6, s.65-66]. Elə bu tarixlərdə Vorontsov-Daşkov Tiflisdəki Erməni Milli Şurası üzvləri ilə birlikdə şəhərin bələdiyyə rəisi Xatisyan ilə görüşərək demişdir: "Əgər Osmanlı dövlətinin 6 şərq vilayəti ermənilərin köməyi ilə ələ keçirilərsə, burada erməni muxtariyyəti tanınacaqdır" [7, s.58]. Bu iki məsələ də Rusiya üçün çox böyük əhəmiyyət kəsb edirdi və müharibə yeni başlayanda ruslar erməniləri Osmanlıya qarşı üsyan edəçəklərinə ümüd bəsləyirdilər və ermənilər də onların ümüdlərini doğrutdular. Lakin, çar Rusiyası ermənilərə verdikləri vədləri yerinə yetirə bilmədi və Fevral inqilabından sonra siyasi vəziyyət dəyişdi, rus ordusunun cəbhədə mövqeləri zəifləməyə başladı və türklər Qafqaz cəbhəsində irəliləməyə başladilar. Bu səfər qərb dövlətləri, çox düşünmədən türklərə qarşı ermənilərdən istifadə etmək qərarına gəldilər. İngiltərə və Fransa hökümətləri türk qoşunlarının Qafqaz istiqamətində irəliləməsinin qarşısını almaq üçün müharibənin əvvəllərində Osmanlı dövlətinə qarşı vuruşan ermənilərdən faydalanmaq qərarına gəldilər. 1917-ci il mayın 29-da ABŞ-ın Tiflisdəki təmsilçisi Smit erməni könüllü birliklərinin başçısı olan Andraniklə görüşüb Qafqazda türk irəliləməsinin qarşısını almaqla bağlı danışıqlar apardı. Andranik Smitə ingilis qoşunlarının Kiprdən İskəndəruna çıxarılaraq şərq istiqamətində irəliləməsini, müttəfiqlərin Türkiyə ermənilərindən ibarət hərbi hissələr təşkil etmələrini və beləliklə, hər iki cəbhədən eyni vaxtda hücuma keçərək türkləri əzməyi təklif etdi. Smit Andranikin təklifini Moskvada olan ingilis və fransız hərbi attaşelərinə və ruslara bildirdi. Andranikin planı müttəfiqlər tərəfindən məqbul sayıldı və təsdiq edildi. Ruslar Andranikin ordularını ərzaq və qeyimlə təmin etməyi, ingilislər və amerikanlar isə Andranikə maliyyə yardımları göstərməyi və erməni əsgərlərinin ailəlrini qoruyacaqlarını öz öhdələrinə götürdülər [6, s.67].

Oktyabr cevrilişindən sonra Rusiyada vəziyyət dəyişsə də rusların geosiyasi maraqları dəyişmədi, əksinə bu səfər bir addım da irəli gedərək, Rusiya Sovet Federativ Sosialist Respublikası (RSFSR) Xalq Komissarları Sovetinin V.İ.Leninin sədrliyi ilə keçirilmiş iclasında, 29 dekabr 1917-ci il (11 yanvar 1918-ci il) tarixində V.İ.Leninin və İ.V.Stalinin imzası ilə Xalq Komissarları Sovetinin "Türkiyə Ermənistanı" haqqında 13 nömrəli dekreti elan etdi ki, bunun da icrası

S.Şaumyana tapşırıldı. Bu sənəd ermənilərə "Böyük Ermənistan" yaratmağa rəvac verən ilk rəsmi sənəd oldu. Bu dekretlə Xalq Komissarlığı Soveti rus ordusu tərəfindən işğal edilmiş Türkiyə Ermənistanında erməni xalqının tam istiqlalını elan etmək dərəcəsinə qədər təyini-müqəddərat haqqını müdafiə edəcəyini bütün erməni xalqına elan edir. Bu dekretlə həm də Lenin, Oktyabr cevrilişindən sonra nəzarətdən cıxan Cənubi Qafqaz regionunda ermənilərin köməyi ilə öz hakimiyyətlərini bərqarar etmək istəyirdilər [6, s.77-79].

Lakin, daxili problemləri nəzərə alaraq, iki ay davam edən danışıqlardan sonra, Sovet Rusiyası Brest-Litovsk sülh müqaviləsini imzalayır. Rusiya bütün qoşunlarını Türkiyə ərazisindən çıxardır və bununla da ermənilərin "Böyük Ermənistan" yaratmaq istəyi baş tutmur.

Ermənilərin Türkiyə ərazisində "Erməni dövləti" yaratmaq planları puç olandan sonra, bütün diqqətlərini "sonraya" saxladıqları Azərbaycan torpaqlarına yönəldillər.

Türkiyə ərazisini tərk etməyə məcbur olan erməni dəstələri Azərbaycanın Şimal torpaqlarına -İrəvan, Naxcıvan, Şərur-Dərələyaz, Dağlıq Qarabağ, Bakı və başqa ərazilərə gəlillər. Bu hadisələrlə paralel olaraq Bakıda da ermənilər türk-müsəlman əhalisinə qarşı qırğınlar hazırlayıllar. Erməni daşnakları bolşevik bayrağı altında, əvvəlcədən hazırladıqları plana uyğun olaraq, Bakı şəhərində 1918-ci ilin martın 30-dan aprelin 1-nə kimi, üç gün ərzində müsəlmanlara qarşı qirğın törətdilər ki, bu da minlərlə insanın ölümü ilə nəticələndi [1, s.95]. Bu qırğınlar aprel ayında Şamaxı, Quba, Xaçmaz, Qarabağ, Zəngəzur, Naxcıvan, Lənkəran və digər bölgələrdə də davam etmişdi. Azərbaycan Xalq Cümhuriyyəti höküməti, ermənilərin bolşeviklərlə birgə türk-müsəlman əhalisinə qarşı törətdikləri cinayətləri təhqiq etmək ücün 15 iyun 1918-ci il tarixində Fövqaladə İstintaq Komissiyası yaradılması haqqında qərar qəbul edir və Komissiyanın sədri Ələkbər bəy Xasməmmədov təyin edilir. Komissiya 36 cilddən (3500 vərəq) ibarət istintaq materialı toplamışdır. Bu sənədlərlə tanış olduqca, ermənilərin nə qədər müsəlmanlara qarşı amansız və qəddar olduqlarının əyani şahidi oluruq.

M.Ə.Rəsulzadə 1918-ci ilin mart faciəsini sırf siyasi-milli amil kimi səciyyələndirərək, bir il sonra bu hadisələrin ildönümü ilə bağlı yazırdı: "Şaumyanların Bakıda törətdikləri hadisələr Petroqrad və Moskva hərəkətlərinə qətiyyən bənzəmirdi. Orada sinfi bir hərb, burada isə sinfi hərb adı ilə milli qətl icra edilirdi. Martın 30-dan -aprelin 1-nə qədər Bakı türk demokratiyasının qafasında partlayan toplar, müsəlmanlara edilən ədalətsizlik Azərbaycan fikrini daşıyanları, muxtariyyət və istiqlal əqidəsi ilə yaşayanları məhf etmək ücün idi" [8, s.215].

Azərbaycan xalqının milli istiqlal mübarizəsi tarixində ən böyük sinaq olan 1918-ci ilin Mart hadisələri faciə ilə nəticələnsə də bu faciə Azərbaycan xalqının istiqlal əzmini qıra bilmədi. Bolşevik-daşnak birliyi öz istəyinə nail olmadı. Faciəli mart hadisələri Azərbaycan siyasi dairələrinin rus inqilabına olan ümüdlərini puça çıxartdı, məlum hadisələrə qədər muxtariyyət uğrunda olan mübarizə, tam müstəqillik uğrunda mübarizə ilə əvəz edildi [6, s.85].

1918-ci ildə erməni silahlı qüvvələri tərəfindən Bakı quberniyasında 229 yaşayış məntəqəsi (o cümlədən Şamaxı qəzasında 58, Quba qəzasında 122), Gəncə quberniyasında 272 yaşayış məntəqəsi (Zənqəzurda 115, Qarabağda 157), İrəvan quberniyasında 211 (İrəvan qəzasında 32, Yeni Bəyaziddə 7, Sürməlidə 75, Eçmiədzində 84), Qars vilayətində 82 yaşayış məntəqəsi yerlə-yeksan edilmiş, yüz minlərlə əhali qırılmış və öz etnik ərazilərindən qaçqın düşmüşlər [4, s.117].

Ermənilər bu qırğınları törətməkdə əsas məqsədləri bu əraziləri türk-müsəlman əhalisindən təmizləmək və bu ərazilərdə Ermənistan dövləti qurmaq idi.

Azərbaycan öz istiqlalını elan etdikdən sonra da ermənilər Azərbaycana qarşı əsassız ərazi iddiaları irəli sürdülər.

Şimali Azərbaycanın dövlət müstəqilliyi elan edildikdən sonra qarşıda duran başlıça vəzifələrdən biri qonşu ölkələrlə sərhəd mübahisələri və ixtilaflarının aradan qaldırılması, Azərbaycan Cümhuriyyətinin ərazi bütövlüyünün təmin edilməsi idi [3, s.402].

Bu qırğınlara son qoymaq və Cənubi Qafqazda yaranmış siyasi vəziyyəti nəzərə alaraq Azərbaycan Milli Şurasının 1918-ci il mayın 29-da Həsən bəy Ağayevin sədrliyi ilə keçirilən iclasında İrəvanın Ermənistana güzəştə gedilməsi məsələsi müzakirə olundu və İrəvanı Ermənistana güzəştə gedilməsi məsələsi ermənilərin xeyrinə həll edilmiş oldu [6, s.169-170].

Onu da qeyd etmək lazımdı ki, bu cətin və ağrılı qərar regionda siyasi vəziyyəti nəzərə alaraq, həm də qonşu dövlətlə bundan sonra bütün ərazi məsələlərini həll olunaçağına ümüd edərək verilmiş bir qərar idi. Cümhuriyyətcilər düşünürdülər ki, belə bir güzəştdən sonra, ermənilər artiq Azərbaycana qarşı hec bir ərazi iddiası ilə cıxış etməyəcəklər və türk-müsəlman əhalisinə qarşı törətdikləri qırğınlara son qoyacaqlar. Lakin, belə bir güzəştə baxmayaraq, ermənilər Cümhuriyyət dövründə də Azərbaycana qarşı hec bir əsası olmayan ərazi iddiası irəli sürdü və oraya silahlı dəstələr göndərməyə davam etdi. Andranik, Dro və Njdenin silahlı qüvvələri 1918-çi ilin iyun-avqust aylarında Naxcıvan bölqəsində, may-avqustda isə Zəngəzurda Sisyan mahalında çoxsaylı zorakılıq hərəkətləri və vəhşiliklər törətdilər. Ermənistanın fəal təbliğatı və guclu siyasi-hərbi yardımı sayəsində Qarabağın Dağlıq hissəsində yaşayan ermənilər 1918-çi ilin iyulunda Şuşada kecirilən İ qurultayında bu mahalın müstəqilliyini elan etdi. Bunun ardınca isə 1918-ci ilin payızında Zəngəzurun bir hissəsində möhkəmlənən Andranik burada bir növ erməni “qubernatorluğu”' təşkil edərək, Gorusu onun “mərkəzi”nə çevirdi, sonra da “paytaxtı” Şuşa olacaq “Kiçik Ermənistan” dövlətini yaratmağa çalışdı [2, s.148-149].

Azərbaycan höküməti yaranmış vəziyyəti nəzərə alaraq 1919-cu ilin yanvarında Şuşa, Cavanşir, Cəbrayıl və Zəngəzur qəzalarını əhatə edən Qarabağ general-qubernatorluğu yaratdı. Xosrov bəy Sultanov Qarabağ general-qubernatoru təyin edildi. Ermənistan Respublikasının xarici işlər naziri S.Tiqranyan Qarabağ general-qubernatorluğu yaradılmasına etirazını bildirmiş, lakin Azərbaycan Xalq Cümhuriyyəti hökümətinin cavabında bu etiraz əsassız hesab olunmuş və həmin ərazilərin Azərbaycanın ayrılmaz tərkib hissəsi olması

göstərilmişdi. 1919-cu ilin sonları -1920-ci ilin yazında Zəngəzurda erməni-daşnak silahlı dəstələri dinc azərbaycanlı əhaliyə qarşı basqınlar və kütləvi qırğınlar törətdilər. Ermənilər Cavanşir qəzasında 1918-ci ilin yaz-yay aylarında qəzanın düzənlik hissəsinin müsəlman əhalisinə qarşı çoxsaylı zorakılıq aktları etdilər. Qarabağın diqər qəzasında - Cəbrayılda da erməni silahlıları dinc əhaliyyə hücüm edirdilər. 1918-ci ilin dekabrında Cəbrayıl qəzasının azərbaycanlı kəndlərinə ermənilərin hücumları genişlənmiş, 1919-cu ilin əvvəllərində daha dağıdıcı xarakter almışdı [5, s.28].

Buna cavab olaraq, Azərbaycan höküməti əks tədbirlər gördü, 1919-cu il oktyabrın sonlarında general-mayor H.Şıxlinskinin komandanlığı altında Zəngəzura və Qarabağa qoşun hissələri göndərdi. Ermənistan höküməti Azərbaycan hökümətinin bu addımını Zəngəzurun daxili işlərinə müdaxilə və dinc əhaliyyə qarşı silahlı əməliyyatlar aparılması kimi qiymətləndirirdi. Ermənistanın Bakıdakı diplomatik nümayəndəsi Bekzadyan Ermənistan-Azərbaycan konfransının cağırılması ilə əlaqədar 1919-cu il oktyabrın 12-13 -də N.Yusifbəyli və M.Y.Cəfərovla görüşərkən ərazi mübahisələri ilə bağlı məsələlərə də toxundu. Azərbaycan Cümhuriyyəti rəhbərliyi artıq İrəvanı və Ecmədzin qəzasının güzəştə gedildiyini xatırlatmaqla Azərbaycanın digər əzəli torpaqlarının, yəni Qarabağ, Naxcıvan və Zəngəzurun ona mənsubiyyəti barədə söhbətin belə ola bilməməsini qəti bildirmişdi [2, s.154]. Xosrov bəyin səyi nəticəsində 1919-cu ilin yayında Qarabağdan erməni hərbi hissələri cıxardılmış və Azərbaycanın ərazi bütövlüyü bərqərar edilmişdi.

1919-cu il noyabrın 23-də Tiflisdə Azərbaycan-Ermənistan konfransı başladı amerikalıların vasitəciliyi ilə və nəticə olaraq 5 maddədən ibarət saziş imzalandı ki, buna əsasən Azərbaycan öz qoşunlarını Zəngəzurdan cıxardı, Ermənistan isə əksinə bundan istifadə edərək bu əraziyə qoşun yeritdi. 1919-cu il 14-21 dekabrda Bakıda yenidən Azərbaycan-Ermənistan konfransı keçirildi, yalnız tərəflər heç bir razılığa gələ bilmədi, buna səbəb də, ermənilərin əsassız ərazi iddiaları irəli sürmələri idi.

Ermənilər Azərbaycana ərazi iddialarıyla cıxış etməyə davam edirdilər. Ermənilər nəyin bahasına olursa-olsun Qarabağı, Zəngəzuru və Naxcıvanı Azərbaycandan qoparmaq istəyirdilər. Məs Azərbaycan Xalq Cümhuriyyəti Hökümətinin çox saylı səyi nəticəsində, ermənilər 1918-1920-ci illərdə öz istəklərinə nail ola bilmədilər.

Azərbaycan Xalq Cümhuriyyəti dövründə Şuşada ermənilərin ən xəyanatkar silahli qiyamlarından biri 1920-ci il martın 22 -də Azərbaycan xalqının Novruz bayramı günü baş verdi. Bu separatçı qiyam Azərbaycanı işğal etməyə hazırlaşan bolşeviklərin sifarişi ilə qaldırılmışdı. Görülən hərbi-siyasi tədbirlər nəticəsində Azərbaycan Xalq Cümhuriyyəti Qarabağda suveren hüquqlarını bərpa etdi. Lakin ərazisində yaşadıqları dövlətə xəyanət edən ermənilərin Qarabağda separatçı qiyamları və törətdikləri soyqırımları 1920-ci ilin aprel işğalı ərəfəsində ölkənin şimal sərhədlərinin müdafiəsi işinə ağır zərbə vurdu və müstəqil Azərbaycan dövlətinin-Azərbaycan Xalq

Cümhuriyyətinin süqutunu sürətləndirdi [5, s.28].

1918-1920-ci illərdə Ermənistan Azərbaycan Respublikasına qarşı hec bir əsası olmayan ərazi iddiaları irəli sürmüşdü və “Böyük Ermənistan” ideyasını gerçəkləşdirmək məqsədi ilə türk-müsəlman əhalisinə qarşı etnik təmizləmə və soyqırımı həyata keçirmişdi. Onu da qeyd etmək lazımdı ki, Cümhuriyyət süquta yetəndən sonra da, ermənilər Azərbaycana qarşı ərazi iddiaları irəli sürməyə davam edirdilər.

**Ədəbiyyat siyahısı:**

1.Abışov V.Ş. Azərbaycanlıların soyqırımı (1917-1918-ci illər) /V.Abışov. – Bakı: Nurlan, – 2007, – 163 s.
2.Adıgözəlova, A.P. 1918-1920-ci illərdə erməni təcavüzünə qarşı Azərbaycan Cümhuriyyəti Hökümətinin tədbirləri / Bakı Universitetinin Xəbərləri, Humanitar elmlər seriyası, – 2018 – № 2, –147-157 s.
3.Azərbaycan tarixi: [Yeddi cilddə] / – c.5. (1900-1920-ci illər). – Bakı: Elm, – 2001. – 672 s.
4.Azərbaycan Xalq Cümhuriyyətinin Milli siyasəti / Bakı: Qartal, 1998. 199 s.
5.Ermənistan-Azərbaycan münaqişəsi: Tammətnli elektron materialları məcmuəsi. – Bakı: – 2005.
6.Qafarov, V. Türkiyə-Rusiya münasibətlərində Azərbaycan məsələsi (1917-1922) / V.Qafarov. – Bakı: Azərnəşr, 2011. – 474 s.
7.Qəhrəmanov, N. I Dünya müharibəsində Qafqaz cəbhəsində erməni amili / N.Qəhrəmanov. – Bakı: EL, –2008. – 296 s.
8.Məmmədov, X. Azərbaycan xalqının milli istiqlal mübarizəsi (XIX yüzilliyin sonları- XX yüzilliyin əvvəlləri) /X.Məmmədov. – Bakı: Elm, – 2005. – 249 s.
9.XX əsr Azərbaycan tarixi / – Bakı: Təhsil, – 2009. – c.2.– 560 s.

## AZƏRBAYCAN XALQ CÜMHURİYYƏTİNİN İQTİSADİ SİYASƏTİ

**Dünya Cəlili**
Bakı Dövlət Universiteti, magistr
dunya.celili@mail.ru
**BDU-nun dosenti: Kərəm Məmmədov**

**Açar sözlər:** iqtisadiyyat, pul, inkişaf, strategiya, neft
**Keywords:** economy, money, development, strategy, oil

Azərbaycan Xalq Cümhuriyyəti mədəniyyət, təhsil, hərbi quruculuq və s. sahələrdə olduğu kimi sosial-iqtisadi sahənin inkişafı üçün bir sıra mühüm tədbirlər görmüşdür. Müstəqil dövlət quruculuğu ideyasının həyata keçirilməsi iqtisadi və sosial sahənin müstəqilliyini təmin etmədən mümkün deyildi. AXC-

nin görkəmli liderləri M.Ə.Rəsulzadə, Fətəli xan Xoyski, Əlimərdan bəy Topçubaşovun demokratik dövlət ideyalarının əsasında cəmiyyət həyatının bütün sahələrində hüquq bərabərliyi ideyası dayanırdı, iqtisadi sfera da onlar arasında vacib yer tuturdu. Demokratik dövlət quruculuğunun iqtisadi siyasətinin əsasında xüsusi, bələdiyyə, şəxsi, dövlət mülkiyyəti növlərinin inkişafı üçün şərait yaradılması dayanırdı. Bolşevik idarəçiliyindən fərqli olaraq AXC hökuməti torpaq üzərində mülkiyyətin xüsusi növünü qəbul edir, mülkiyyət hüququnun məhdudlaşdırılmasına və mülkiyyətin mənimsənilməsinə qarşı mübarizə aparırdı. AXC-nin mülkiyyət sahəsindəki əsas məqsədi mülkiyyətin xırdalanmasının qarşısını almaq və torpaq sahələrinin səmərəli istifadəsini təşkil etməkdən ibarət idi. Dövlətin məqsədi xüsusi mülkiyyəti elə bölmək idi ki, həm kənd əhalisi gəlirlə təmin edilsin, həm də xüsusi mülkiyyətin istifadəsiz qalmasının qarşısı alınsın.

Cümhuriyyət mövcud olduğu 23 ay ərzində müstəqil Azərbaycan Respublikasının iqtisadi və siyasi həyatında da xüsusi əhəmiyyətə malik olan uğurlar əldə etmişdir: Bakı-Batum neft kəmərinin bərpasına başlanılmış, Bakı-Culfa dəmir yolunun tikintisinə yenidən başlanılmış, Kür çayının üstündə körpü tikilmiş, Cümhuriyyətin özünəməxsus pul nişanları buraxılmış, Xəzər dənizində gəmiçilik inkişafı üçün xüsusi tədbirlər görülmüşdür [1, s.63].

AXC-nin iqtisadi-maliyyə sahəsindəki fəaliyyətinin ən böyük uğuru özünəməxsus pul vahidlərinin tədavülə buraxılması idi. Maliyyə sahəsində əsas məqsəd milli volyutanın dəyərinin qorunması və alıcılıq qabiliyyətinin gücləndirilməsi idi. Milli valyutalar böhran zamanında dövriyyəyə buraxılmışdır. Azərbaycan Xalq Cümhuriyyəti 1919-cu ilin sentyabrında dövlət bankını açmışdır. Parlament xammalın xaricə ixracının xəzinəyə haqq ödəməklə mümkünlüyünə dair qanun qəbul etdi. Qızıl, gümüş və platinin gizli üsullarla ölkə xaricinə çıxarılması məsələsinə baxıldı. 1919-cu ilin avqustunda Azərbaycana idxal edilən bir sıra zinət əşyalarına müvəqqəti olaraq gömrük tarifləri tətbiq olunması yolu ilə ölkənin daxilində malların ədalətli mübadiləsini tənzimləməyə çalışmışdılar. 1920-ci ilin fevralın 9-da Azərbaycandan idxal edilən mallar üçün yeni gömrük qaydalarının tətbiqi haqqında qanun qəbul edildi. Hökumət vergi sisteminin tənzimlənməsi və dövləti xərclərinin azaldılması üçün tədbirlər görürdü.

İstiqlal bəyannaməsində digər ölkələrlə, xüsusilə yaxın qonşularla iqtisadi münasibətlər qurmaq və bu münasibətləri inkişaf etdirməyin zəruriliyi vurğulanırdı. Mühüm tədbirlər arasında malların sərbəst ixrac olunmasının təşkili də var idi. 1919-cu ilin avqust ayında Azərbaycana idxal edilən spirtli içkilərə, balıq məhsullarına gömrük rüsumunun artırılması haqqında qəbul olunmuş qanun daxili bazarın mühafizəsinə, iqtisadi böhranın əngəllənməsinə xidmət edirdi.

Parlamentdə, 1919-cu il 24 noyabr tarixində ticarətin iqtisadiyyatın inkişafı və pul münasibətlərinin səmərəli təşkilində rolu müzakirə olunmuşdur. Hökumət müstəqil dövlətin qurulmasından əvvəl digər dövlətlərlə mövcud olan iqtisadi münasibətləri inkişaf etdirmək siyasətini əsas tutmuşdur. AXC

hökuməti ölkədə mövcud olan xarici şirkətlərlə əlaqələri qoruyub saxlamışdır. Buna misal olaraq Böyükşor gölündə Nobel qardaşları şirkəti ilə olan əməkdaşlıq müqaviləsini göstərmək olar.

Azərbaycan hökumətinin iqtisadi sahədəki fəaliyyətində əsas məqsədi əhalinin ehtiyaclarını qarşılamaq və müxtəlif mənbələrdən istifadə edərək xəzinəni doldurmaq idi. Hökumət hansısa məhsulun xaricə ixracının mümkünlüyünü dəyərləndirərkən həmin məhsulun əhali üçün vaciblik dərəcəsi və dövlətin məhsulun ixracından əldə edəcəyi mənfəət dərəcəsi ətraflı müzakirə edirdi. 1919-cu ilin fevralın 20-də qəbul edilmiş qanuna görə xarici ölkələrə spirt, konyak, üzüm məhsullarının ixracına icazə verilirdi. Çünki bu məhsulların xarici bazara çıxarılması həm yerli əhali üçün, həm də dövlət xəzinəsi üçün mühüm fayda əldə olunmasına gətirib çıxarırdı.

AXC hökuməti qonşu dövlətlərlə əlaqələrin müsbət yöndə inkişaf etdirilməsinə xüsusi əhəmiyyət verdiyi üçün özünün iqtisadi vəziyyətinin tam düzəlməməsinə baxmayaraq, Dağıstana 50 mln manat məbləğində yardım etmişdir [1, s.66].

AXC-nin qonşu ölkələrlə əlaqələrinin inkişaf etdirilməsində Gürcüstanla münasibətlər mühüm rol oynayırdı. 1918-cı ilin 26 dekabrda Gürcüstanla imzalanan müqaviləyə görə ehtiyac daxilində olan malların idxal və ixrac olunması üçün gömrük xərcləri aradan qaldırılmalı, Gürcüstana satılan kerosinin miqdarı 1 milyon puddan, neft məhsullarının miqdarı isə 20 milyon puddan çox olmamalı idi [4, s.32]. Müqavilədə gömrük xərclərinə güzəşt nəticəsində əldə olunan məhsulların satışı məhdudlaşdırılmışdır. Sovet Rusiyası və Azərbaycan arasında da iqtisadi sahədə 1920-ci il 30 mart müqaviləsi imzalandı. Lakin Rusiya müqavilənin şərtlərinə əməl etməkdən imtina etdi.

AXC zamanında da iqtisadiyyatın ən aparıcı amili neft sənayesi hesab olunurdu. Buna görə də Parlament və hökumət dünya bazarında neftin cari vəziyyəti ilə maraqlanır və bu sahənin inkişafını diqqət mərkəzində saxlayırdı. Təbii sərvətlərin mövcudluğu ilə yanaşı onlardan düzgün və səmərəli istifadə edilməsi dövlətin iqtisadi qüdrətinin mühüm göstəricisi hesab olunur.

Azərbaycan Respublikası AXC-nin miras olaraq qoyduğu maddi və mənəvi irsi qoruyub saxlayır, iqtisadi, sosial, siyasi həyatın bütün sahələrində AXC irsindən yadigar qalan ənənələri nəzərə alaraq öz daxili və xarici siyasət xəttinin aparıcı istiqamətlərini müəyyən edir. Qısa zamanda mövcud olmasına baxmayaraq Azərbaycan xalqının müstəqillik və azadlığa verdiyi dəyərin ən bariz nümunəsi olan AXC hökuməti xalqımızın qürur yeri hesab olunur.

## Ədəbiyyat siyahısı:

1. Azərbaycan Xalq Cümhuriyyəti Ensiklopediyası / Bakı, – 2004, c.1. – 440 s.
2. Azərbaycan Təhsil Nazirliyi, Azərbaycan Dövlət Dillər İnstitutu, Tarix Kafedrası. Azərbaycan Xalq Cümhuriyyəti / – Bakı: Gənclik. –1998. – 69 s.
3. Əliyev, M. Məhəmməd Əmin Rəsulzadə // Odlar Yurdu, – 1997, – № 17.

4. Musa, İ. Azərbaycanın xarici siyasəti / İ.Musa. – Bakı, – 2011, – I hissə: Azərbaycan beynəlxalq münasibətlər sistemində: mart 1917-aprel 1920-ci illər, – 312 s.
5. Yaqublu, N. Cümhuriyyət Qurucuları /N.Yaqublu. – Bakı, – 2018. – 504 s.

## MÜSƏLMAN ŞƏRQİNDƏ İLK PARLAMENTLİ RESPUBLİKA: ƏRAZİSİ, ƏHALİSİ VƏ DÖVLƏT RƏMZLƏRİ

**Elçin Qarayev**
*AMEA A.A.Bakıxanov adına Tarix İnstitutunun "Azərbaycanın yeni tarixi" şöbəsinin aparıcı elmi işçisi, tarix üzrə fəlsəfə doktoru*
elchin_garayev@mail.ru

**Açar sözlər:** Azərbaycan, respublika, ərazi, əhali, rəmz;
**Keywords:** Azerbaijan, republic, territory, population, symbol

XX əsrin əvvəllərində Azərbaycanda baş vermiş milli-azadlıq hərəkatının məntiqi nəticəsi olaraq müsəlman Şərqində ilk parlamentli respublika-Azərbaycan Xalq Cümhuriyyəti yarandı. Cəmi 23 ay (28.V.1918-28.IV.1920) fəaliyyət göstərən bu respublika Azərbaycan xalqının tarixində dərin iz buraxmış və onun tarixinin dərindən öyrənilməsi müasir dövrdə də öz aktuallığını itirməmişdir.

Azərbaycan Cümhuriyyətinin bir çox məsələləri ilə bərabər, onun ərazisi, əhalisi və dövlət rəmzləri də diqqəti cəlb edən əsas məsələlərdən biridir. Fəaliyyət göstərdiyi 23 ay ərzində Azərbaycan Cümhuriyyəti ərazisini və sərhədlərini qorumaq sahəsində çox mühüm addımlar atmış, mürəkkəb beynəlxalq və daxili vəziyyətə baxmayaraq, Cənubi Qafqazdakı bütün tarixi Azərbaycan torpaqlarını birləşdirməyə çalışmış və bu sahədə hərbi əməliyyatlardan belə çəkinməmişdir. 1920-ci ildə Azərbaycanın Xarici işlər Nazirliyinin imformasiya şöbəsi tərəfindən ilk dəfə tərtib edilmiş "Azərbaycan Respublikasının xəritəsi" Azərbaycan Cümhuriyyətinin ərazisini və sərhədlərini təyin etməyə imkan yaradır. Məlumata görə, AXC-nin ümumi sahəsi 113895, 97 kv. km olmuşdur. Lakin onun bu ərazisi mübahisəsiz və mübahisəli ərazilərə bölünmüşdür. Ümumi ərazinin 97297,67 kv. km mübahisəsiz, 16598,30 kv. km isə mübahisəli ərazilər idi. Mübahisəli ərazilərin 7913,17 kv. km İrəvan quberniyasına, 8685,13 kv. km isə Tiflis quberniyasına daxil idi. Mübahisəsiz ərazilərin sahəsi AXC-nin inzibati-ərazi bölgüsü üzrə belə bölünmüşdü: Bakı quberniyası-sahəsi 39075,15 kv.km - buraya Bakı dairəsi ilə birlikdə Bakı qəzası, Lənkəran, Göyçay, Şamaxı və Quba qəzaları daxil idi; Gəncə quberniyası-sahəsi 44371,29 kv. km- buraya Gəncə, Cavanşir, Nuxa, Ağdaş, Şuşa, Cəbrayıl, Qazax, Zəngəzur qəzaları daxil idi:

Zaqatala mahalı- sahəsi 3992,54 kv.km- bu mahala Əliabad, Car-Muxax, Qax, Almalı, Balakən sahələri daxil idi; İrəvan quberniyası- sahəsi 9858,69 kv.km- buraya Naxçıvan və Şərur-Dərələyəz qəzaları daxil idi.

Mübahisəli Azərbaycan əraziləri isə Gürcüstan və Ermənistanla mübahisə obyektinə çevrilmişdir. Gürcüstanla mübahisəli ərazilərə Borçalı (Qarayazı düzü), Axalski (Tiflis qəzasının II və III polis sahələri) və Sığnaq qəzasının cənub hissələri (V polis sahəsi) daxil idi. Qarayazı düzü Gəncə və Qazax düzənliyinin davamı olub, həm etnik və həm də iqtisadi cəhətdən onunla bağlı idi. Onun sakinlərinin 90 %-i Azərbaycan türkləri olmuşdur. 1918-ci ildə Gürcüstan dövləti yarandıqdan sonra bu ərazi tutulmuş və Tiflis qəzasının tərkibinə qatılmışdır. Əhalinin 73,5 %-ni Azərbaycan türklərinin təşkil etdiyi Axalski qəzası isə Osmanlı türkləri Cənubi Qafqazı tərk etdikdən sonra Gürcüstan tərəfindən zəbt edilmişdir. Sığnaq qəzasının şərqində Azərbaycan türkləri, qərbində isə gürcülər yaşamışdır. Ermənistanla mübahisəli ərazilərə İrəvan quberniyasının qərb hissələri-Göyçə gölünün cənub hissələrini əhatə edən sahələr (I, II, III və IV polis sahələri), Üçmüəzzin qəzasının bir hissəsi (II, III polis sahələri), Sürməli qəzasının bir hissəsi (I, II, III polis sahələri) və Yenibəyazid qəzasının III polis sahəsi daxil idi.

1920-ci il xəritəsinə əsasən, AXC-nin mübahisəsiz ərazisini, sərhədlərini belə müəyyən etmək olar: şərqdə sərhədləri Xəzər dənizindən keçən AXC-nin sərhədləri Astara ərazisinin cənubundan Talış dağları istiqaməti ilə qərbə tərəf uzanmış, buradan şimala tərəb uzanaraq Araz çayına çatan sərhədlər çayın axarının əks istiqamətində irəliləyərək Naxçıvanın cənub-qərbində Sədərək yaşayış məntəqəsinə doğru uzanır, buradan şimal-şərq istiqamətində, Soğanlı məntəqəsindən isə birbaşa şimala uzanaraq Göyçə gölünə qovuşurdu. Göyçə gölü AXC ilə Ermənistan arasında sərhəd idi və Göyçə mahalının şərq hissəsi AXC-nin, gölün qərb hissəsi isə Emənistanın tərkibində idi. Göyçədən şimalda AXC-nin sərhədləri şimala doğru istiqamətlənmiş, Qazax mahalının şimalından Qabırlı çayı ilə şərqə, daha sonra yenidən şimala və şimal-qərbə Zaqatala dairəsinin şimalından cənubi-şərqə və şimali-şərqə uzanırdı. Daha sonra Samur çayı boyunca uzanan sərhədlər Xəzərə qovuşurdu.

XX əsrin əvvəllərində Azərbaycan türkləri Cənubi Qafqaz əhalisinin böyük əksəriyyətini təşkil etmişdir. Baxmayarq ki, Çar Rusiyası Gülüstan (1813) və Türkmənçay (1828) müqavilələrindən sonra Azərbaycanı işğal etdikdən sonra zaman-zaman müxtəlif ölkələrdən erməniləri, rusları və s. xalqları onun ərazisinə köçürməklə, etnik vəziyyətə ciddi təsir göstərmiş, Azərbaycan türkləri ata-baba torpaqlaından qovulmuşdular. Lakin buna baxmayaraq Azərbaycan türkləri AXC-nin dövründə əsas etnik amil olaraq qalmışdır. Ə.Topçubaşovun Antanta dövlətlətinin İstanbuldakı nümayəndələrinə təqdim etdiyi xüsusi memorandumda (1918, noyabr) Cənubi Qafqazın 237055 kv. km-lik ərazisində 7667370 nəfərin yaşadığı qeyd olunurdu ki, onların etnik tərkibi belə idi: 3306000 (43,1 %) Azərbaycan türkləri, 1641000 (21,4 %) gürcü, 1786000 (23,3 %) erməni. Həmin

sənədə əsasən AXC ərazisində 2353000 nəfər yaşatırdı ki, bu da Cənubi Qafqaz əhalisinin 30,7 %-ə bərabər idi.

Lakin Qafqaz təqviminin 1917-ci il buraxılışının məlumatları əsasında AXC-in mübahisəsiz ərazilərində daha çox- 2861862 nəfər yaşamış, bunun 1952250 nəfəri, yəni 68,2 %-i Azərbaycan türkləri olmuşdur. Sonrakı yerləri ermənilər (21,4 %), gürcülər (0,6 %), ruslar (7,5 %) və başqa xalqlar (2,3) tutmuşdular.

AXC-nin dövlət rəmzlərindən biri “Dövlət Bayrağı”dır. Dövlət Bayrağının təsisi haqqında ilk qərar 1918-ci il iyunun 21-də Gəncədə qəbul edilmişdir. Təsis edilmiş ilk bayraq qırmızı rəngli, onun üzərində ağ rəngli aypara və ağ rəngli səkkizgüşəli ulduz təsvir olunmuşdur. Sonradan 1918-ci il noyabrın 9-da hökumətin iclasında hökumətin sədri F.X.Xoyskinin məruzəsi əsasında qəbul edilmişdir. Hökumət iclasda Azərbaycanın dövlət bayrağının “yaşıl, qırmızı, mavi rənglərdən, ağ aypara və səkkizguşəli ulduzdan ibarət” olması qərara alındı. Bayraqdakı üç rəng-yaşıl islamın, qırmızı azadlıq ideologiyasının, mavi isə türkçülüyün rəmzi idi. Bu bayraq 1918-ci ilin iyununda təsdiq edilmişdir.

AXC-nin dövlət rəmzlərindən dövlət gerbi, himni və möhrünü də qeyd etmək lazımdır. AXC hökumətinin 1920-ci il yanvarın 30-da qəbul etdiyi dövlət rəmzləri layihəsinin hazırlanması haqqındakı qərarda Xalq Maarif Nazirliyinə milli himn, dövlət gerbi və möhrü layihələrinin hazırlaması üçün müsabiqə elan olunmasını tapşırmışdır. Hətta ən yaxşı dövlət himni layihəsinə görə 50 min manat, ən yaxşı gerb və möhür layihəsi üçün isə 25 min manat mükafat müəyyən olunmuşdur. Müsabiqənin nəticələri mayın 28-nədək elan edilməli idi. Lakin aprelin 27-də Sovet Rusiyasının işğalı nəticəsində dövlət rəmzləri haqqında layihənin qəbulu baş tutmamışdır. 1991-ci ildə Azərbaycan dövlət müstəqilliyini yenidən bərpa etdikdən sonra Ü.Hacıbəyovun “Azərbaycan marşı” Azərbaycan Respublikasının 1992-ci il mayın 27-i tarixli qanunu ilə dövlət himni, 1993-cü il 19 yanvar tarixli konstitusiya qanunu ilə isə dövlət gerbi təsdiq olunmuşdur.

Beləliklə, car Rusiyası Türkmənçay (10. 02. 1828) müqaviləsindən sonra Cənubi Qafqazda zaman-zaman həyata keçirdiyi köçürmələr, soyqrımları və inzibati-ərazi islahatları nəticəsində Azərbaycan torpaqlarının azaldılmasına nail olmasına çalışmış, bunun nəticəsi olaraq Azərabaycan Xalq Cümhuriyyəti dövründə onun tarixi əraziləri qonşu Gürcüstan və Ermənistanla mübahisə obyektinə çevrilmişdir.

**Ədəbiyyat siyahısı:**

1. Azərbaycan Demokratik Respublikası (tarix, ictimai-siyasi və ədəbi mədəni həyat) / – Bakı: Azərbaycan dövlət nəşriyyat-poliqrafiya birliyi, – 1992. – 191 c.
2. Azərbaycan Xalq Cümhuriyyəti Ensiklopediyası: [2 cilddə] / –Bakı: Lider, – 2004, – c.1.– 439 c.

3. Azərbaycan tarixi: [7 cilddə]. – Bakı: Elm, – 2008. – c.5. – 696 s.
4. Азербайджанская Демократическая Республика (1918-1920) // Законодательные акты (сборник документов). – Баку: 1998.
5. Əliyev, İ. Azərbaycan Respublikasının dövlət rəmzləri / İ.Əliyev. E.Məhərrəmov. – Bakı: 2000. – 40 s.
6. Həsənli, C. Ağ ləkələrin qara kölgəsi: 1920-1930-cu illərdə Azərbaycanda Sovet totalitarizmi / C.Həsənli. – Bakı: 1991.
7. Naxçıvan ensiklopediyası / – Bakı: AMEA, – 2002. – 594 c.
8. Piriyev, V. Azərbaycanın tarixi coğrafiyası/ V.Piriyev. – Bakı: Araz, – 2002. – 148 c.
9. Rəsulzadə, M.Ə. Azərbaycan Cümhuriyyəti / M.Ə.Rəsulzadə. – Bakı: Elm, – 1990. – 114 c.

## HEYDƏR ƏLİYEVİN ƏSƏRLƏRİNDƏ AZƏRBAYCAN XALQ CÜMHURİYYƏTİNİN TARİXİ ROLU

**Elnur Əbilov**
*Bakı Dövlət Universitetinin Tarix, Dil və Metodika mərkəzinin laborantı*
elnur.abilov34@gmail.com

**Açar sözlər:** Azərbaycan, Heydər Əliyev, respublika, demokratiya, azadlıq, xalq
**Keywords:** Azerbaijan, Heydar Aliyev, republic, democracy, freedom, nation

1918-ci il mayın 28-də “İstiqlal Bəyannaməsi” ilə öz müstəqilliyini bütün dünyaya elan etmiş Azərbaycan Xalq Cümhuriyyəti Şərq və müsəlman aləmində xalq hakimiyyəti və insanların bərabərliyi ideyalarına əsaslanan ilk respublika idi. Həmin tarix Respublika günü kimi Azərbaycan xalqının həyatına böyük və əlamətdar hadisə kimi əbədi daxil olmuşdur. 1998-ci il mayın 26-da Azərbaycan Xalq Cümhuriyyətinin 80 illik yubileyi münasibəti ilə təşkil olunmuş Milli Məclisin təntənəli iclasında ulu öndər Heydər Əliyev demişdir: “Azərbaycan Xalq Cümhuriyyəti az bir müddət yaşayıbdır. Ancaq o, XX əsrdə Azərbaycan xalqının həyatında tarixi bir mərhələ olub və xalqımızın gələcəyinin, müstəqilliyinin, azadlığının, suverenliyinin təməlini qoyubdur [1].

Heydər Əliyev Azərbaycan tarixinə yeni baxış konsepsiyası gətirmişdir və onun tariximizə yeni baxış konsepsiyasında əsas yerlərdən biri Azərbaycan Xalq Cümhuriyyəti tarixinə həsr edilmişdir. Elə bu səbəbdən də Xalq Cümhuriyyətinin tarixinin obyektiv öyrənilməsi və onun Azərbaycan tarixində rolunun müəyyən edilməsi Heydər Əliyevin XX əsr Azərbaycan tarixinin tədqiq edilməsi sahəsində qarşıya qoyduğu əsas vəzifələrdən biri idi. Müstəqil Azərbaycanı Xalq Cümhuriyyətinin varisi hesab edən Heydər Əliyev 1993-cü

il sentyabrın 21-də Azərbaycan Respublikası Elmlər Akademiyasında ziyalılarla görüşdə bu ictimai-siyasi hadisəyə münasibətini bildirərək Cümhuriyyət tarixinin tariximizin böyük və parlaq mərhələsi olduğunu, belə bir demokratik dövlətin mövcudluğunun Azərbaycanın sonrakı dövrlərinə müsbət mənada böyük təsir etdiyini qeyd etmişdir [2, s.153].

Azərbaycanın ilk demokratik respublikası çox ağır və mürəkkəb beynəlxalq şəraitdə fəaliyyət göstərirdi. Bir tərəfdən Rusiyada hakimiyyətə yeni gəlmiş kommunist rejimi keçmiş Rusiya imperiyasının ərazisində öz hakimiyyətini yenidən qurmağa çalışırdı. Digər tərəfdən tarix boyu torpaqlarımıza göz dikən erməni daşnaklar Azərbaycana qarşı təcavüzkar hərəkətlərini aktivləşdirmişdilər. Bununla yanaşı, Azərbaycanın daxili ictimai-siyasi vəziyyəti də olduqca gərgin idi. Şübhəsiz ki, belə bir şəraitdə ilk demokratik respublikanın fəaliyyəti böyük çətinliklərlə üzləşirdi. Ulu öndər Heydər Əliyev 1994-cü il mayın 27-də Respublika gününə həsr olunmuş təntənəli yığıncaqdakı nitqində müstəqil Azərbaycanın ilk illərini 1918-1920-ci illərdə gedən proseslərə bənzətmişdi. O, ermənilərin o zamanda Azərbaycan torpaqlarına təcavüzə başladığını xüsusi olaraq vurğulamışdı [3, s. 5].

İkinci dünya müharibəsindən sonra ermənilər bölgədə yaranmış mürəkkəb siyasi vəziyyətdən istifadə edərək, müharibədə məğlub olmuş Osmanlı imperiyasının torpaqları, habelə əzəli Azərbaycan torpaqlarının hesabına "Böyük Ermənistan" planları qururdular. Heydər Əliyev bu hiyləgər siyasətin tarixini yaxından izləmişdi. Ümumilli liderin 1999-cu il fevralın 4-də "Naxçıvan Muxtar Respublikasının 75 illik yubileyinin qeyd olunması haqqında" fərmanında bununla bağlı belə deyilirdi: "Azərbaycan Xalq Cümhuriyyətinin 23 aylıq tarixi boyu erməni silahlı quldur dəstələri İrəvan, Naxçıvan və Qarabağ bölgələrində dinc azərbaycanlı əhaliyə divan tutur, yerli azərbaycanlıların sayını süni surətdə azaltmaq üçün hər cür vasitəyə əl atırdılar. Qafqazda bolşeviklərin hakimiyyətinin bərqərar olduğu ilk günlərdən hələ 1918-ci ildə özünü mart qırğınları zamanı biruzə vermiş bolşevik-daşnak sövdələşməsi geniş vüsət aldı. Azərbaycan Xalq Cümhuriyyəti dövründəki sərhədlər alt-üst edilməyə başlandı. İlk olaraq əzəli Azərbaycan torpağı Zəngəzur mahalı Ermənistan SSR-in tərkibinə qatıldı. Əslində isə ermənilərin planları daha geniş idi və onların torpaq iddialarının əsas hədəfi məhz Naxçıvan idi. Onlar Zəngəzurun Ermənistana ilhaq edilməsini bu yolda atılmış mühüm addım hesab edirdilər. Beləliklə də Naxçıvanı Azərbaycandan ayıran Azərbaycan torpaqlarının – Zəngəzur mahalının Ermənistana verilməsi Naxçıvanın muxtariyyət məsələsini zəruri etdi [4]."

Müsəlman Şərqində qadınlara ilk dəfə siyasi hüquqların verilməsi də Cümhuriyyət tarixinin uğurlarından sayılır. 1998-ci ildə Azərbaycan qadınlarının birinci qurultayında Heydər Əliyev Azərbaycan qadınının zülmlər, əziyyətlər çəkdiyini, bir çox hüquqlardan məhrum olduğunu və buna görə də Azərbaycan Xalq Cümhuriyyəti dövründə Azərbaycan qadınına tarixdə ilk dəfə seçmək və seçilmək hüququnun verilməsini yüksək qiymətləndirmişdir.

Şərqin ilk demokratik respublikası ulu öndərində dediyi kimi qısa müddətdə və çətin şəraitdə böyük işlər görmüşdür. Görkəmli dövlət xadimi Heydər Əliyev bununla bağlı demişdir ki, Azərbaycan Xalq Cümhuriyyəti demokratik dövlət quruculuğu, iqtisadiyyat, mədəniyyət, təhsil, səhiyyə, ordu quruculuğu sahələrində atdığı mühüm addımları başa çatdıra bilməsə də, onun qısa müddətdə həyata keçirtdiyi tədbirlər xalqımızın tarixində silinməz iz buraxmış, milli dövlətçilik ənənələrimizin bərpası işində böyük rol oynamışdır. İlk ali məktəb olan Bakı Dövlət Universitetinin açılması, Müəllimlər Seminariyasının Azərbaycan şöbəsinin Qazağa köçürülməsi Xalq Cümhuriyyətinin təhsil sahəsindəki ən mühüm tədbirlərindən idi. Ümumilli lider bu işləri yüksək dəyərləndirmiş, bütün Yaxın Şərqdə şöhrət tapan Qazax Müəllimlər Seminariyasının açılmasını “Azərbaycan maarifçilərinin fədakarlığı və vətənpərvərliyinin canlı nümunəsi, Azərbaycan Xalq Cümhuriyyəti hökümətinin təhsil sahəsində yeritdiyi düzgün və məqsədyönlü siyasətin parlaq təzahürü” adlandırmışdır.

AXC hököməti çətin və xarici təzyiqlər şəraitində hərbi quruculuq sahəsində də mühüm işlər görmüşdür. 1918-ci il iyunun 26-da Milli Ordunun yaradılması haqqında fərman verildi, iyulun 11-də hərbi səfərbərlik elan edildi. Azərbaycan Milli Ordusunun yaradılmasının 80 illiyinə həsr olunmuş yubiley mərasimində Heydər Əliyev bu tarixi hadisəyə və qərara hörmət əlaməti olaraq 26 iyun gününün Azərbaycan Silahlı Qüvvələri günü elan edildiyini öz çıxışında qeyd etmişdir [1].

Heydər Əliyevin çıxışlarında istinad etdiyi tarixi şəxsiyyətlər arasında Cümhuriyyət qurucularının adları xüsusi yer tuturdu. Uzun illər sovet tarixşünaslığında AXC-nin dövlət xadimləri dövrün mövcud tələblərinə uyğun şəkildə qiymətləndirilmiş, ümumiyyətlə, Azərbaycan ziyalıları, ictimai xadimləri sovet tarixində “xalq düşməni”, “əksinqilabçı”, “pantürkist”, “panislamist” kimi xarakterizə olunmuşdur. Ümumilli lider həm tariximizin, həm də tarixi şəxsiyyətlərin fəaliyyətinin obyektiv şəkildə araşdırılmasını, ifratçılıqdan uzaq olmağı, xalqımızın tarixinin gələcək nəsillərə olduğu kimi çatdırılmasının vacibliyini hər zaman vurğulayırdı.

Cümhuriyyət cəmi 23 ay fəaliyyət göstərsədə, bu qısa müddətdə çox şərəfli bir tarix yazıldı. Bu tarix beş min illik dövlətçilik ənənələrimizin, azadlıq mübarizəmizin məntiqi nəticəsi idi. Tarixi gedişat 70 ildən sonra oxşar nəticəyə gətirib çıxartdı və Cümhuriyyətin varisi – müstəqil Azərbaycan Respublikası yarandı.

### Ədəbiyyat siyahısə

1. http://www.preslib.az.
2. Əliyev, H. Müstəqilliyimiz əbədidir: çıxışlar, nitqlər, bəyanatlar, müsahibələr, məktublar, məruzələr, müraciətlər, fərmanlar / Buraxılışa məsul R.Mehdiyev. H.Əliyev. – Bakı: Azərnəşr, – c.1. – 1997, – 612 s.
3. Əliyev, H. Müstəqilliyimiz əbədidir: çıxışlar, nitqlər, bəyanatlar,

müsahibələr, məktublar, məruzələr, müraciətlər, fərmanlar / Buraxılışa məsul R. Mehdiyev. H.Əliyev. – Bakı: Azərnəşr, – 1997, – 604 s.
4. https: //lib.aliyevheritage.org.az.

## QACARLAR İRANI-ERMƏNİSTAN MÜNASİBƏTLƏRİ VƏ AZƏRBAYCAN XALQ CÜMHURİYYƏTİ

**Elnur Kəlbizadə**
*AMEA Qafqazşünaslıq İnstitutunun Qafqaz siyasəti şöbəsinin müdiri,*
*tarix üzrə fəlsəfə doktoru, dosent*
kelbizadeh@gmail.com

**Açar sözlər:** Azərbaycan, Xalq Cümhuriyyəti, İran, Ermənistan, xarici siyasət
**Keywords:** Azerbaijan, Democratic Republic, Iran, Armenia, foreign policy

Müasir mərhələdə Ermənistan və İran arasında əlaqələrə təsir edən əsas amillərdən biri də tarixi amildir. Bu cəhətdən XX əsrin əvvəllərində Qacarlar İranı ilə Erməni (Ararat) Respublikası arasında əlaqələrin öyrənilməsi aktuallıq kəsb edir. Tədqiqatlar göstərir ki, əsrlər boyu təbəəsi olduqları Qacarlar dövləti Rusiya qarşısında məğlub olduqdan sonra İran erməniləri Rusiyanın tərəfdarına çevrilmişdilər. XIX əsr rus tarixçisi və publisisti Sergey Nikolayeviç Qlinka yazırdı: "Onlar (ermənilər-E.K.) hamının qarşısında ucadan dedilər: "İran çörəyini yeməkdənsə, rus otunu otlamaq yaxşıdır!" Ermənilərin bu fədakarlığını Lazarev dəftərçəsinə qeyd etdi" [2, s. 30].

Beləliklə, "İranın çörəyini yeməkdənsə, Rusiya çöllərində qanqal otlamağı" üstün tutan ermənilər İranın farslar yaşayan daxili vilayətlərindən Azərbaycanın İrəvan, Naxçıvan, Qarabağ bölgələrinə kütləvi şəkildə köçürülmüşdülər. Dövrün digər bir rus müəllifi İ.Şopen yazırdı ki, təkcə 1828-1829-cu illər ərzində İrandan 6976 ailə və yaxud 35 min 560 erməni bu ərazilərə köçmüşdü [5, s. 539].

Məlum olduğu kimi, Qafqazda ilk erməni dövləti – Erməni Respublikası XX əsrin əvvəllərində - 1918-ci il mayın 28-də [3] tarixi Azərbaycan torpaqları hesabına yaradılmışdı. Qacarlar İranı ilə bu qurum arasında xüsusi münasibətlər mövcud olmuşdur. Azərbaycan Xalq Cümhuriyyətinin adlandırılmasını belə özünə təhdid olaraq görən [4]. Qacarlar İranının o zaman Ermənistana yanaşması nisbətən fərqli olmuşdur. 1919-cu ildə İrandan Qafqaza ezam edilən Ziyaəddin Təbatəbainin rəhbərlik etdiyi nümayəndə heyətinin qarşısında duran əsas vəzifələrdən bir qismi də Ararat Respublikası - Ermənistanla bağlı idi. 1919-cu ilin oktyabrında Qacarlar dövlətinin Xarici İşlər Nazirliyindən rus idarəsinə ünvanlanmış sənədin "Qafqaza ezam edilən heyətin vəzifə və prinsipləri" adli hissəsində bununla bağlı yazılırdı ki, Ermənistanla dostluq münasibətləri yaratmaq, tranzit haqqı, gömrük məsələləri, poçt və teleqraf əlaqələrinə dair müvəqqəti

müqavilələr bağlamaq, habelə iranlılar və müsəlmanlara edilən zülmlərin qarşısını alaraq, aradan qaldırmaq və onların hər cəhətdən hüquqlarını qorumaq üçün Ermənistan hökuməti ilə danışıqlar aparmaq, İran təbəələrini təlim-tərbiyə etmək üçün mədrəsə təsis etmək və onun büdcəsini yerli şəraitə uyğun olaraq təklif etmək, ermənilərin dini rəhbəri üçün İranda nəzərdə tutulan hüquqlara uyğun İrəvana ruhani bir nümayəndənin göndərilməsi üçün lazım olan addımları atmaq heyətin əsas vəzifələri sırasındadır [1, s.66-67].

Qafqaz Fövqəladə komissiyasının sədənlərindən aydın olur ki, bu dövrdə Ermənistan Respublikasının İrandakı nümayəndəsi Ovsep Arqotinski (Arqutin-yan) olmuşdur. Həmin dövrdə Qacar dövləti tərəfindən Qafqaz respublikalarına göndərilmiş Fövqəladə Komissiyasının başçısı Ziyaəddin Təbatəbainin öz dövlətinin Nazirlər Kabinetinə 12 nömrəli məktubu bu cəhətdən əhəmiyyətli sənəddir. Sənəddə Z.Təbatəbai yazırdı: "Bu gün Ermənistan Respublikasının İranda nümayəndəsi olan şahzadə Arqotinski (şahzadə Arqutiyan) ilə görüşərək, ondan ezam edilmiş komissiya işlərini sona çatdırana qədər İrana yola düşməsini təxirə salmasını istədim. …Ənzəlidə yerli məmurlar lazımi səviyyədə qarşılaya bilsinlər deyə sadəcə cümə gününə qədər onu ləngitdim. Bu münasibətlə Gilan hökuməti təmsilçisi cənab Azəriyə həmin şahzadəni son dərəcə ehtiram göstərməklə Ənzəli və Rəştdə qeyri-rəsmi və dostcasına qarşılamağını yazdım. İstərdim ki, Tehrana daxil olan zaman ona lazım olan ehtiramın göstərilməsi barədə əmr edəsiniz" [1, s.97].

Bütün bunlarla yanaşı, maraqlı məsələlərdən biri Qacarlar dövlətinin bəzi uzaqgörən siyasətçilərinin hələ o zaman erməni təhlükəsini düzgün qiymətləndir-mələri ilə bağlı olmuşdur. Belə ki, İranın Azərbaycan vilayətinin qərb ərazilərində kəndlərin boşalmasından sonra iranlı diplomatlar Qafqazdakı təbəələrinin geri qaytarılıb o ərazilərdə yerləşdirilməsinə təkid edir, əks halda ermənilərin bu ərazilərə də sahiblənə biləcəyini yazırdılar. QFK-nın sədri Seyid Ziyaəddin Təbatəbainin 1920-ci il martın 20-də Qacarlar dövlətinin Nazirlər Kabinetinə yazdığı məktub bu baxımdan xüsusilə əhəmiyyətli olmuşdur. Məktubda yazıl-mışdı: "... Qafqaz İranlılarını gətirib kəndlərdə yerləşdirməklə oraları abadlaşdır-maq olar. Bir çox səbəblərə görə bu addımın tez atılmasını zəruri hesab edirəm. Çünki mənim proqnozlarıma görə ermənilər Osmanlıdan köçən çox sayda ermənini amerikalıların maddi yardımı ilə həmin ərazilərə köçürüb, boş qalan kəndləri onlara verəcəklər. Onlar bunu belə adlandıracaqlardır ki, bu ermənilər (vaxtı ilə) İrandan miqrasiya edənlərdir. İran dövlətinin də onların vətəndaşlığını rədd etmək üçün əlində sənədlər olmadığına görə hər halda çoxlu problemlərlə qarşı-qarşıya qalacaqlar. Ermənistana görə sərhədlərin yaxınlığında çoxlu sayda ermənin yerləşdirilməsi ola bilsin gələcəkdə problemlər yaratsın. Bu mühüm məsələni araşdırdıqdan sonra müsəlman iranlıların əli ilə həmin kəndləri abadlaşdırmağın nə qədər mühüm və faydalı olacağı məlumdur" [1, s.194-195].

## Ədəbiyyat siyahısı:

1. ADR-İran diplomatik münasibətləri Qafqaz Fövqəladə Komissiyasının

sənədlərinin işığında (1919-1920-ci illər) / Elmi red. R.Ə. Mehdiyev. – Bakı: Şərq-Qərb, – 2017. – 392 s.
2. Qlinka, S.N. Azərbaycan ermənilərinin Rusiya hüdudlarına köçürülməsinin təsviri / S.N.Qlinka. – Bakı: Azərbaycan, – 1995. – 62 s.
3. La République Arménienne /Délégation del la république Arménienne la conférence de la Paix. Paris: İmprimerie Veradzenount, – 1920. – 26 p.
4. Rüstəmova-Tohidi, S.Ə. Cümhuriyyətin "Azərbaycan" adlandırılması və onun tarixi əhəmiyyəti / S.Ə. Rüstəmova-Tohidi. – Bakı: Elm və təhsil, – 2018. – 176 s.
5. Шопен, И.И. Исторический памятник состояния Армянской области в эпоху ее присоединения к Российской империи /И.И.Шопен, – Санкт Петербургъ: Типографии Императорской Академии Наукъ. – 1852, – 766 с.

## AZƏRBAYCAN XALQ CÜMHURİYYƏTİ HÖKÜMƏTİNİN XALQIMIZA BƏXŞ ETDİYİ ŞAH ƏSƏR: BAKI DÖVLƏT UNİVERSİTETİ

**Əzət Dadaşova**
*Bakı Dövlət Universitetinin doktorantı*
ezet_000@mail.ru

**Açar sözlər:** Azərbaycan Xalq Cümhuriyyəti, universitet, təhsil, iclas, nizamnamə
**Keywords:** Azerbaijan Democratic Republic, university, education, meeting, charte

Azərbaycan Xalq Cümhuriyyəti dövründə mədəni-maarif sahəsində bir sıra mühüm tədbirlər həyata keçirilmişdir. Milli təhsil quruculuğu yolundakı uğurlu siyasətinin nəticələrindən biri də XX əsr Azərbaycan təhsili, elmi və mədəniyyəti tarixinə yeni səhifələr yazmış Bakı Dövlət Universitetinin yaradılmasıdır. Bakı Dövlət Universiteti sözün həqiqi mənasında Azərbaycan Xalq Cümhuriyyəti hökümətinin xalqımıza bəxş etdiyi şah əsərdir. Azərbaycan Xalq Cümhuriyyəti höküməti qarşısında duran ən ciddi məsələlərdən biri də ölkəmizdə ali təhsil müəssisələrinin yaradılması, ali təhsilli milli kadırlarının hazırlanmsı idi. Bu sahədə milli hökümət iki istiqamətdə: Ölkədə ali təhsil müəssisələrinin yaradılması və azərbaycanlı gənclərin Avropanın məşhur universitetlərinə təhsil almağına göndərilməsi üzrə iş aparırdı.

1919-cu il aprelin 14-də Nəsib bəy Yusifbəylinin sədrliyi ilə yaradılan IV hökümət kabinetinin Parlamentə təqdim etdiyi proqramda Bakıda universitet təsis edilməsi məsələsi də ön plana çəkilmişdi.Yeni hökümət kabinəsində baş nazir vəzifəsini Nəsib bəy Yusifbəyli , maarif naziri vəzifəsini isə əslən umuq knyazı olan , məşhur Sorbonna Universiteinin məzunu, sonralar Bakı Dövlət

Universitetinin təsis edilməsində bütün çətinliklərin öhdəsindən bacarıqla gələn həqiqi ziyalı Rəşid xan Kaplanov tutdu.

Yeni hökümət proqramına uyğun olaraq Zaqafqaziya Universitetini Bakıya köçürməklə bağlı uzun-uzadı danışıların aparılması, universitetin rektoru V.İ.Razumovskinin tez-tez Bakıya gəlməsi də bu ümummilli məsələni həll etməyə imkan vermədi. Nəhayət, Azərbaycan Xalq Cümhuriyyəti hökümətinin razılığı ilə Xalq Maarifi Nazirliyi tərəfindən V.İ.Razumovski Bakıya Azərbaycanda müstəqil universitet təşkil etmək üçün yaradılmış universitet komissiyasına rəhbərliyə dəvət olunur. Dəvət V.İ.Razumovski tərəfindən məmnuniyyətlə qəbul olunur.

Həmin ilin aprelində V.İ.Razumovki Bakıya gəlir. Azərbaycan höküməti xüsusi qərarla Xalq Maarif Nazirliyinə 1919-1920-ci dərs ilinin əvvəlinə kimi Bakıda Universitetin açılması məqsədilə lazımi qanun, qərar və digər sənədlərin layihələrini hazırlamaq üçün komissiya yaratmağı, müvafiq təşkilati məsələləri həll etməyi tapşırmışdı [2, s.529].

AXC hökümətinin 19 may 1919-cu il tarixli qərarı ilə Xalq Maarifi Nazirliyi yanında fəaliyyət göstərəcək Universitet Komissiyasının tərkibi və Nizamnaməsini təsdiq edir [6]. AXC hökümətinin 25 iyun 1919-cu il tarixli qərarı ilə Komissiyanın işini lazımi səviyyədə təşkil etmək, cari xərcləri ödəmək məqsədilə Xalq Maarif Nazirliyinə 1 milyon rubl vəsait də ayrılmışdı. Azərbaycan höküməti özünün 7 iyul 1919-cu il tarixli "Bakı Dövlət Universitetinin təsis olunmasına dair qanun layihələrinin bəyənilməsi və Parlamentin müzakirəsinə verilməsi haqqında" tarixi qərar ilə həmin hüquqi-normativ sənədləri AXC Parlamentinə təqdim edir. 21 avqust 1919-cu il Bakı Dövlət Universitetinin , bütövlükdə Azərbaycan təhsili, elmi və mədəniyyət tarixinin ən mürəkkəb, ən gərgin, lakin ən şərəfli günlərindən biri oldu.

Sonralar V.İ.Razumovski bu tarixi hadisələri xatırlayaraq həmin məsələnin müsbət həllində fədakarlıq, əsil vətənpərvərlik, milli mənafeyi hər şeydən uca tutmaq nümunəsi göstərən insanları universitetin həqiqi dostları adlandırır. Onların arasında M.Ə.Rəsulzadə, N.Yusifbəyli, F.Xoyski, R.Kaplanov, H.Ağayev, Ə.Pepinov, C.Hacınski və başqalarını nəzərə çatdırırdı.

Universitetin yaradılması ilə bağlı 1919-cu il avqustun 21-də hökumətin 67-ci iclası keçirilmişdi. İclasda "Musavat", "Əhrar", "Sosialist", "İttihad" və "Hümmət" partiyalarının nümayəndələri iştirak etmişdi [4, s.31]. Bakı Dövlət Universitetinin təsis edilməsinə dair 25 avqust və 1 sentyabr 1919-cu il tarixli iclaslarda ətraflı müzakirə olunaraq "Bakı Dövlət Universitetinin təsis olunması haqqında Qanun" qəbul edilmişdir. 1919-cu il sentyabrın 1-də Bakı Universitetinin təsis olunması haqqında qərar qəbul olundu [5, s.10]. Dərslər noyabrın 15-də başlandı [3, s.299]. Azərbaycan Parlamentində 18 sentyabr 1919-cu il tarixindən "Bakı Dövlət Universitetinin Nizamnaməsi"nin müzakirəsinə başlamış, həmin ayın 29-da təsdiq edilmişdir.Universitetin yaradılması haqqında Qanun qəbul ediləndən bir neçə gün sonra Universitetin Komissiyasının iclasında Universitetin rektor və dekanları seçildi. Bakı Universitetinin ilk rektoru professor

V.İ.Razumovski, tibb fakültəsinin dekanı professor A.M.Levin, tarix-filologiya fakültəsinin dekanı isə N.A.Dubrovski təyin olundular. Qanunda universitetin 4 fakültədən: tarix-filologiya (Şərq şöbəsi də daxil olmaqla), fizika-riyaziyyat, hüquq və tibb fakültələrindən ibarət olduğu göstərilirdi [2, s.81].

Bakı Dövlət Universitetində 1919-cu il noyabrın 15-dən sistematik dərslər başlanır. Dərslərin başlanması mərasimində parlamentin, hökümətin üzvləri, tanınmış ziyalılar və ictimaiyyətin nümayəndələri iştirak ediblər.Universitetdə dərs demək üçün Moskva universitetindən, Rostov, Yekaterinoslav, Xarkov və Rusiyanın digər şəhərlərindən görkəmli alim və professorlar dəvət edildilər. İlk tədris ilində universitetdə təhsil alan tələbələrin sayı 877 nəfər idi. Bundan başqa, universitetə 217 azad dinləyici qəbul edilmişdi. Maraqlı fakt odur ki, tarix-filologiya fakültəsinin 509 tələbəsindən yalnız 12 nəfəri azərbaycanlı idi [1, s.531]. Tibb fakültəsinə 10 nəfər azərbaycanlı qızın qəbul edilməsi müsəlmanlar arasında qadın həkimlərə kəskin ehtiyac duyulduğu bir şəraitdə mühüm əhəmiyyətli bir hadisə idi [1, s.531].

Bu gün böyük iftixar hissi ilə deməliyik ki, Bakı Dövlət Universitetinin məzunu görkəmli tarixi şəxsiyyət, böyük dövlət xadimi olan Ümummilli liderimiz Heydər Əliyev “Azərbaycan xalqının, Azərbaycan Respublikasının milli sərvəti, milli iftixarı” adlandırdığı Bakı Dövlət Universiteti fəaliyyət göstərdiyi müddətdə, ölkəmizin elm, təhsil, mədəniyyət sahələrinə görkəmli şəxsiyyətlər bəxş etmiş və bu gün XXI əsrdə müstəqil Azərbaycanın xoşbəxt gələcəyini təmin edəcək gənc kadrların yetişdirilməsi yolunda tarixi missiyasını ləyaqətlə davam etdirməkdədir.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev də Bakı Dövlət Universiteti haqqında bele bir fikir söyləmişdir, “ Bakı Dövlət Universiteti müsəlman Şərqinin yeni tipli ilk ali təhsil müəssisəsi kimi, Azərbaycan Xalq Cümhuriyyətinin bizə yadigarıdır”. Vətənpərvər ziyalıların, elm, təhsil və mədəniyyət fədailərinin milli təəssübkeşliyi, əzmkarlığı və mübarizəsi sayəsində 1919-cu ildə həyata vəsiqə qazanan Bakı Dövlət Universiteti ötən 100 ildə xalqımızın həyatında müstəsna rol oynamışdır. Bu bir əsrlik tarix xalqımızın tarixinə yazılmış ən dolğun və zəngin səhifələrdəndir.

**Ədəbiyyat siyahısı:**

1. Azərbaycan Xalq Cümhuriyyəti Ensiklopediyası: [II cilddən], – c.1. – Bakı: Lider, – 2004, – 440 s.
2. Azərbaycan tarixi: [7 cilddə]/ –Bakı: Elm,– 2008. – c.5. – 693 s.
3. İsgəndərov, A. Azərbaycan Xalq Cümhuriyyətinin yaranması və onun tariximizdə yeri // –Bakı: Strateji təhlil, – 2018, – 291-305 s.
4. Məmmədova, S. Azərbaycan Xalq Cümhuriyyətinin təhsil siyasəti // – Bakı: Strateji təhlil 2018, – 1-36 s.
5. Vəliyev, Ə. İstiqlal / Ə.Vəliyev. – Bakı, – 2020, – 246 s.
6. http://bsu.edu.az/az/content/tarxmz.

# AZƏRBAYCAN CÜMHURİYYƏTİNİN TƏŞƏKKÜLÜ ƏRƏFƏSİNDƏ SİYASİ-İDEOLOJİ CƏRƏYANLAR (1901-1918-Cİ İLLƏR)

**Faiq Ələkbərli**
*AMEA Fəlsəfə və Sosiologiya İnstitutunun aparıcı elmi işçisi, dosent, fəlsəfə üzrə fəlsəfə doktoru*

**Açar sözlər:** türkçülük, islamçılıq, sosial-demokratizm, milli sosial-demokratizm, milli liberalizm, maarifçilik, maaarifçi demokratizm, maarifçi romantizm
**Keywords:** Turkism, Islamism, Social Democracy, National Social Democracy, National Liberalism, Enlightenment, Enlightenment Democracy, Enlightenment Romanticism

XX əsrin əvvəllərində Quzey Azərbaycan türkləri milli azadlıqlarını yenidən əldə etmək üçün bir neçə istiqamətdə iş aparırdılar: 1) Milli kapital ya da milli iqtisadiyyatın formalaşması, 2) Milli haqlar ugrunda mübarizə və Dövlət Dumasında Türk millət (Güney Qafqaz, o cümlədən Quzey Azərbaycan) vəkillərinin təmsilçiliyi, 3) Milli təşkilatlar və partiyaların yaranması, 4) Milli mətbuatın yenidən canlanması, 5) Milli məktəblərin çoxalması fonunda Türk dilində tədrisin inkişafı, 6) Milli ədəbiyyatın yeni mərhələyə qədəm qoyması və milli fəlsəfi fikrin təcəssümü.

Ötən 80-90 il ərzində çarizmin ortaya atdığı "parçala və hökm sür!" siyasətinin, eləcə də real şərtlərin nəticəsi olmalı idi ki, XX əsrin ilk illərində Türk ziyalılarından bir qismi Quzey Azərbaycanın gələcəyini konstitusiyalı ya da sosial-demokrat (marksist) Rusiyayla, digər bir qismi isə "İslam birliyi" ya da "Türk birliyi" inancıyla Osmanlıyla birləşməkdə görürdülər. Xüsusilə də, 1905-ci il birinci Rusiya inqilabına qədər və inqilab illərində (1905-1907) Quzey Azərbaycan Türk ziyalılarının qabaqcılları arasında İslamçılıqla Türkçülük (Osmanlıyla birləşmə) və sosial-demokratizmlə liberal-demokratizm (Rusiyayla birgəliyə davam) ideyaları daha geniş yayılmışdır. Bu anlamda XX əsrin ilk on illiyində Quzey Azərbaycan türklərinin yeniləşməsi, inkişafı məsələsi böyük ölçüdə iki istiqamətli idi. Türk aydınlarından bir qismi xalqın yeniləşməsində ana prinsip kimi İslamçılıqla Türkçülüyü götürüb üzünü Osmanlı İmperiyasına tutduğu halda, digər bir qisim isə sosial-demokratizmi ya da liberal-demokratizmi qəbul edərək Rusiyanın tərkibində qalmağa üstünlük verirdilər. Həmin dövrdə ziyalılar arasında Qacarlarla birləşmək ya da müstəqillik ideyalarının tərəfdarları yetrincə deyildi.

Quzey Azərbaycanda milli fəlsəfi fikir aşağı-yuxarı məhz bu ideyaların əsaslandırılması, həmin ideyalar arasında oxşarlıqlar və ziddiyyətlərin ortaya çıxarılmasıyla bağlı olmuşdur. Hər halda Azərbaycan milli ideyasının (Azərbaycan türkçülüyünün) və onun bariz təcəssümü olan Azərbaycan Cümhuriyyətinin yaranmasında Türkçülüklə İslamçılı qədər olmasa da, sosial-demokra-

tizmlə liberal-demokratizm ideyalarının da bəlli rolu olmuşdur. Bizcə, milli fəlsəfi fikrin mahiyyəti, inkişaf yolları da məhz bir-birinə zidd görünən, ancaq bir çox hallarda da həmin ziddiyyətlərin bütünlüyündə öz ifadəsini tapmışdır. Bu anlamda Azərbaycanda fəlsəfi fikrin inkişafındakı təzadları, o cümlədən həmin təzadlı düşüncələrin müəlliflərini əsasən, anlamaq çətin deyildir. Bizim məqsədimiz, Türk aydınlarını təzadlı, bir-birinə zidd olan düşüncələrinə, yəni sosial-demokrat, liberal-demokrat, milli-demokrat, islamçı, türkçü, pozitivist və başqa bir cərəyana aid olmasından, bunlar arasında yer dəyişdirmələrindən asılı olmayaraq ana prinsipə, yəni sözün həqiqi mənasında daima Azərbaycan türklərinin maraqlarına, milli mənafeyinə sadiq qalmalarıdır. Başqa sözlə, önəmli olan daxildən və kənardan qaynaqlanmasından asılı olmayaraq hər hansı bir ideyaya tapınan Azərbaycan Türk ziyalısının həmin ideyadan öz millətinin maraq və mənafeyi naminə xidmət etməsidir. Çünki həmin ideyalar fəlsəfi və ictimai fikrə də çox ciddi təsir göstərmişdir. Hər halda milli kapitaldan tutmuş milli təşkilatların yaranması, ya da milli mətbuatdan tutmuş Türk dilinin öz varlığını hansı formada ortaya qoyması biri-birilə bu və ya digər dərəcədə bağlı olmuşdur. Burada həmin məsələlərin (milli kapital, milli mətbuat, milli təşkilatlar) geniş izahına varmadan əsasən fəlsəfi və sosial-siyasi fikrə öz təsirini göstərmiş mühüm məqamlara nəzər yetirəcəyik.

I Rusiya inqilabına qədər (1905) və inqilab illərində Quzey Azərbaycanın **siyasi-ideoloji** vəziyyət olduqca mürəkkəb və ziddiyyətli olmuşdu. Ötən əsrin əvvəllərində, özəlliklə birinci Rusiya inqilabından sonra (1905) Quzey Azərbaycan türkləri siyasi-ideoloji həyatda əsasən, üç istiqamətdə iş aparırdılar:

1. Maarifçilik (realistlər, romantiklər),
2. Mill-demokratik (islamçılıq, türkçülük, müasirlik və b.)
3. Sosial-demoktariya ya da marksizm (milli inqilabçılar, menşevizm, bolşevizm, sosialist inqilabçılar).

İlk növbədə Quzey Azərbaycanda maarifçilik cərəyanı geniş yayılmışdı. Azərbaycan Türk ziyalılarından bir qismi mövcud problemlərə tənqidi yanaşdıqları üçün realist (C.Məmmədquluzadə, Ö.F.Nemanzadə və b.), digər bir qismi (M.Hadi, A.Səhhət, H.Cavid və b.) isə daha çox utopistik düşüncələrdən çıxış etdikləri üçün romantizmə meyil göstərirdilər. Maarifçi-demokrat ziyalılar milli-demokratizmlə sosial-demokratizm arasında tərəddüd edirdilər. Çünki onlara görə, hər iki cərəyanda bir sıra məsələlərə baxışda fikirləri üst-üstə düşürdülər. Bu baxımdan sonralar onlardan xeyli bir qismi milli-demokratik, bəziləri isə marksizmə (xüsusilə bolşevizmə) üz tutdular.

Milli-demokratik cərəyan milli-dini ənənələr əsasında yaranmış, Türk millətinin həyatında həlledici rola malik olmuşdur. Çünki milli-demokratik cərəyanın başlıca qaynağı, mənbəyi Azərbaycan xalqı özü, onun XIX əsrdə yetişdirdiyi aydınlarının elmi-fəlsəfi əsərləri və görüşləri olmuşdur. I rus inqilabına qədər (1905) milli-demokratik cərəyanın müəllifləri (Əhməd bəy Ağayev, Əlimərdan bəy Topçubaşov, Həsən bəy Zərdabi və b.) əsasən, "Kaspi"

qəzeti ətrafında toplaşaraq müasir ruhlu islamçılıq, türkçülük ideyalarını yayırdılar. Daha sonra Əli bəy Hüseynzadə, Məhəmməd Əmin Rəsulzadə, Nəsib bəy Yusifbəyli və başqalrı da bu prosesə qoşuldular.

I Rusiya inqilabına qədər və inqilabdan sonra Azərbaycanda ən geniş yayılan ideyalardan biri sosial-demokratizm ya da marksizm idi. Sove ədəbiyyatında Quzey Azərbaycan türkləri arasında ilk sosial-demokratlar kimi S.M.Əfəndiyev, A.Axundov, M.Q.Mövsümov, M.Ə.Əzizbəyovun adları çəkilir. Ancaq həmin dövrdə sosial-demokratizmin bəzi müddəalarına rəğbət bəsləyən M.Ə.Rəsulzadə, M.A.Mirqasımov, M.Hacınski, A.Kazımzadə və başqaları da olub. Daha sonra Azərbaycanda sosial-demokratizmin ən tanınmış siması N.Nərimanov olub.

**Ədəbiyyat siyahısı:**

1. Ağaoğlu, Ə. Qafqazda milli məsələ / Ə.Ağaoğlu.– Bakı: Mütərcim, – 2019
2. Ağaoğlu, Ə. Seçilmiş əsərləri / Ə.Ağaoğlu.– Bakı: Şərq-Qərb, – 2007.
3. Axundov, R. Seçilmiş əsərləri / R.Axundov.– Bakı: Azərnəşr, – 1977.
4. Akçura, Y. Türkçülüyün tarixi /Y.Akçura. – Bakı: Qanun, – 2010.
5. Azərbaycan tarixi: [Üç cilddə]. – Bakı: Elm, – c.3– 1973.
6. Azərbaycan tarixi: Ali məktəblər üçün dərslik /Z.M.Bünyadovun və Y.B.Yusifovun redaktəsi ilə. – Bakı: Azərnəşr, –1994.
7. Azərbaycan tarixi: [Yeddi cilddə]/ – Bakı: Elm, – 2001. – V cild (1900-1920-ci illər).
8. Azərbaycan Kommunist Partiyasının oçerkləri / – Bakı: Azərnəşr, – 1986, – c.I.
9. Azərbaycan Xalq Cümhuriyyəti Ensiklopediyası: [İki cilddə] / – Bakı: Lider, – 2004 – c.1.
10. Azərbaycan Xalq Cümhuriyyəti Ensiklopediyası: [İki cilddə]. – Bakı: Lider, – 2005, c.2.
11. Azərbaycan Xalq Cümhuriyyəti (1918-1920). Parlament (stenoqrafik hesabatlar): [II cilddə], – I cild. – Bakı: Azərbaycan, – 1998.
12. Azərbaycan Xalq Cümhuriyyəti (1918-1920). Parlament (stenoqrafik hesabatlar): [II cilddə], – II cild. – Bakı: Azərbaycan, – 1998.
13. Azərbaycan mətbuat tarixi antologiyası: [İki cilddə]. – I cild. – Bakı: Elm və təhsil, – 2010.
14. Azərbaycan mətbuat tarixi antologiyası: [İki cilddə]. – II cild. – Bakı: Elm və təhsil, — 2011.
15. Azərbaycan publisistikası antologiyası / – Bakı: Şərq-Qərb, – 2007.
16. Balayev, A. Məmməd Əmin Rəsulzadə (1884-1955)/ – Bakı: Çıraq, – 2012.
17. Baykara, H. Azərbaycan istiqlal mübarizəsi tarixi/ – Bakı: Azərnəşr, – 1992.
18. Cəfəroğlu, Ə. Seçilmiş əsərləri / – Bakı: Mütərcim, – 2008.
19. Caferoğlu, A. Azeri edebiyatında istiklal mücadilesi izleri/Azərbaycan Yurt Bilgisi, – Yıl: 1, – sayı: 8-9, – 1932, – agustos-eylül, – İstanbul.

20. Çəmənzəminli, Y.V. Əsərləri: [Üç cilddə] / – II cild. – Bakı: AVRASİYA-PRESS, – 2005.
21. Çəmənzəminli, Y.V. Müstəqilliyimizi istəyiriksə.../ Y.V.Çəmənzəminli. – Bakı: Gənclik, –1994.
22. Ələkbərov, F.Q. Məhəmməd Əmin Rəsulzadənin dünyagörüşü / F.Ələkbərov. – Bakı: Elm, – 2007.
23. Ələkbərov, F.Q. Milli ideologiya probleminə tarixi-fəlsəfi baxış. (II hissə) / – Bakı: Elm və təhsil, – 2014.
24. Əfəndiyev, S.M. Seçilmiş əsərləri: [İki cilddə] / – S.M.Əfəndiyev. – Bakı: Azərnəşr, –1988.
25. Əfəndiyev, S.M. Seçilmiş əsərlər: [İki cilddə] / – S.M.Əfəndiyev. – Bakı: Azərnəşr, –1990.
26. Əhmədli, R. Azərbaycan milli-demokratik dövlətçilik məfkurəsi: türkçülük, müasirlik, islamçılıq / R.Əhmədli. – Bakı: Elm, – 2007.
27. Əzizbəyov, M. Sovet hakimiyyəti uğrunda alovlu mübariz Məşədi Əzizbəyov. Nitqlər, sənədlər və materiallar / M.Əzizbəyov. – Bakı: Azərnəşr, – 1976.
28. Göyüşov, A. Azərbaycanda ittihadçılıq / A.Göyüşov. – Bakı: İrşad, – 1997.
29. Hacıbəyli, Ü. Nəşrlərdə kənara qoyulmuş, ixtisar və "redaktə" edilmiş əsərləri // – Bakı, Elm, – 2010.
30. Hüseynzadə, Ə. Qırmızı qaranlıqlar içində yaşıl işıqlar / – Bakı: Azərnəşr, – 1996.
31. Hüseynzadə, Ə. Türklər kimdir və kimlərdən ibarətdir? / – Bakı: Mütərcim, – 1997.
32. Hüseynzadə, Ə. Seçilmiş əsərləri/ – Bakı: Şərq-Qərb, – 2007.
33. Hüseynov, Ş. Mətbu irsimizdən səhifələr / – Bakı: Çənlibel NPM, – 2007.
34. Həsənli, C. Tarixi şəxsiyyətin tarixi: Əlimərdanbəy Topçubaşov / – C.Həsənli. – Bakı, 2013.
35. Həsənov, H.Ə. Nəriman Nərimanov–milli təmayüllü kommunist / – Bakı: Pedaqogika, – 2004.
36. Köçərli, F.Q. Marksizm-leninizm və Azərbaycanda demokratik ictimai fikir / – Bakı: Azərnəşr, – 1976.
37. Qəhrəmanlı, N. Nəsib bəy nümunəsi / N.Qəhrəmanlı. – Bakı: Nurlan, – 2008.
38. Məmmədzadə, M.B. Milli Azərbaycan hərəkatı / – Bakı: Nicat, – 1992.
39. Mustafayev, Q. XX əsrin əvvəllərində Azərbaycanda islam ideologiyası və onun tənqidi. – Bakı: Maarif, – 1973.
40. Nəsibzadə, N. Azərbaycan Demokratik Respublikası / N.Nəsibzadə. – Bakı: Elm, – 1990.
41. Nərimanov, N. Seçilmiş əsərləri / N.Nərimanov. – Bakı: Lider, – 2004.
42. Rəsulzadə, M.Ə. Əsərləri. V cilddə, I cild (1903-1909). – Bakı: Təhsil, – 2014.
43. Rəsulzadə, M.Ə. Əsərləri. V cilddə, II cild (1909-1914). – Bakı: Təhsil, –

2014.
44. Rəsulzadə M.Ə. Əsərləri. V cilddə, III cild (1915-1916). – Bakı: Təhsil, – 2014.
45. Rəsulzadə M.Ə. Əsərləri. V cilddə, IV cild (1916-1917). – Bakı: Qanun, – 2013
46. Rüstəmov, Y. Siyasi-Hüquqi təlimlər tarixi / Y.Rüstəmov. –Bakı: – Azərbaycan Universiteti, –2000.
47. Süleymanova, S. Azərbaycanda ictimai-siyasi hərəkat (XIX əsrin sonu - XX əsrin əvvəlləri) / S.Süleymanova. – Bakı: Azərbaycan Dövlət Kitab Palatası, –1999.
48. Şeyxzamanlı, N. Azərbaycan istiqlal mücadiləsi xatirələri /N.Şeyxzamanlı. – Bakı: Azərbaycan, – 1997.
49. Topçubaşi, Ə.M. Azərbaycan Cümhuriyyətinin yaradılması / Ə.M.Topşubaşi. – Bakı: – Təknur, – 2013.
50. Vəliyev (Baharlı) M.H. Azərbaycan (Fiziki-coğrafi, etnoqrafik və iqtisadi oçerk) / M.H.Baharlı. – Bakı: Azərbaycan, – 1993.
51. Агаев, А. Панисламизм, его характер и направление // Каспий, – 1900 гг. – 14 апрел, №81, – 22 апрел, №87.
52. Агаев, А. Положение мусульманских народов // Каспий, – 1903 гг. – 14 ноябрь № 246, – 21 ноябрь №251, – 29 ноябрь №256, – 10 декабр №264, – 13 декабр №267. – 17 декабр №272.
53. Балаев, А. Азербайджанское национальное-демократическое движение в 1917-1920 гг., – Баку: Элм, –1990.
54. Большевики в борьбе за победу социалистической революции в Азербайджане. Документы и материалы 1917-1918 гг. / – Баку: Азернешр, – 1957.
55. Геюшев, З.Б. Философская мысль в советском Азербайджане / – Баку: Элм, 1979.
56. Насиров, Т. Борьба за власть в Азербайджане (1917-1920) / – Баку: Азербайджан, 1993.
57. Топчибашев, Е.М. Дипломатические беседы в Стамбуле / – Баку: Эргюн, –1994.
58. Нариманов, Н. Избранные произведения /Н.Нариманов. – Т.2, – Баку: Элм, – 1989
59. Нариманов, Н. Ответ некоторым товарищам / Бакинский рабочий, – 15 июнь, 1922 г.
60. Святоховский , Т. Русский Азербайджан 1905-1920 гг./Хазар,–1990, – №1.

# CÜMHURİYYƏT DÖVRÜNDƏ YARANMIŞ MİLLİ UNİVERSİTETİMİZ

**Firuzə Sadiqova**
*Bakı Dövlət Universitetinin dissertant*
firuzeesgerova@icloud.com

**Açar sözləri:** universitet, tarix, ilk, milli, təhsil, mədəniyyət
**Keywords:** university, history, first, national, education, culture

Qədim və zəngin dövlətçilik ənənələrinə malik Azərbaycan xalqı keçmişinin müəyyən dövrlərində tarixin hökmü ilə böyük imperiyalar tərkibinə qatılmaq məcburiyyətində qalmışdır. Azərbaycan Xalq Cümhuriyyəti məhz dünyanın siyasi nizamının yenidən qurulduğu bir vaxtda, XIX əsrin axırları və XX əsrin əvvəllərində Azərbaycanın yaşadığı parlaq mədəni yüksəliş mərhələsinin məntiqi yekunu kimi meydana çıxmışdır. XIX əsrin birinci yarısından etibarən maarifçilik ideyalarının yayılması ilə Azərbaycanda baş vermiş köklü ictimai-siyasi və mədəni dəyişikliklər təmin etməklə milli özünüdərkin gerçəkləşməsi üçün zəmin hazırladı.

Dünya tarixində yeni - respublika tipli demokratik dövlət idarəçiliyi formasının geniş yayılmağa başladığı dövrdə yaranmış Azərbaycan Xalq Cümhuriyyəti xalqımızın tarixin ən qədim qatlarından başlanan dövlətçilik ənənələrinin qanunauyğun davamı idi.

Azərbaycan Xalq Cümhuriyyəti 23 aylıq fəaliyyəti dövründə təhsil sahəsində çox mühüm tədbirlər həyata keçirdi. Ölkənin hər yerində müxtəlif pillədən olan məktəblər, gimnaziyalar, qız məktəbləri, uşaq bağçaları, qısa müddətli müəllim kursları, kitabxanalar açıldı. Azərbaycan Xalq Cümhuriyyəti Hökumətinin təhsil sahəsində uğurlu siyasətinin nəticələrindən biri də XX əsr Azərbaycan təhsili, elm və mədəniyyəti tarixinə şanlı səhifələr yazmış, “Avropa ilə Asiyanın qovuşağında yeni çıraq” adlandırılan Bakı Dövlət Universitetinin yaradılmasıdır. 1919-cu il sentyabrın 1-də Parlament “Bakı Dövlət Universitetinin təsis olunması haqqında” Qanun qəbul etdi. Milli Universitetin açılması Cümhuriyyət xadimlərinin doğma xalq qarşısında çox mühüm tarixi xidməti idi. Azərbaycan Xalq Cümhuriyyəti parlamentinin fəaliyyəti boyunca qəbul etdiyi qanunlar milli dövlətin müstəqilliyinin möhkəmləndirilməsinə, siyasi və iqtisadi inkişafa, mədəniyyət və maarif sahələrində sürətli irəliləyişə imkan verdi.

Universitet ilk tədris ilini 2 fakültə ilə - tarix-filologiya, tibb fakültələri və 1094 tələbə ilə başladı. İlk yaradılan Bakı Dövlət Universitetinin rektoru vəzifəsini Vasili İvanoviç Razumovski icra etdi. V.İ.Razumovski peşəcə cərrah idi. 1887-ci ildən Kazan Universitetinin professoru olaraq çalışıb. V.Razumovski 1909-cu ildə Saratov, 1918-ci ildə Tbilisi Universitetlərinin əsasını qoyanlardan olub. O, 1909-1912-ci illərdə Saratov Universitetinin, 1919-1920-ci illərdə isə Bakı

Universitetinin ilk rektoru vəzifəsini icra edib [1, s.467].

Azərbaycan Xalq Cümhuriyyəti hökuməti Bakı Dövlət Universiteti, Kənd Təsərrüfatı İnstitutu, Pedaqoji İnstitutu və Dövlət Konservatoriyasının açılması üçün müəyyən təşkilati işlər aparsa da, o dövrdə yaranmış tarixi-siyasi şərait yalnız Bakı Dövlət Universitetini təsis etməyə imkan verdi. Dövlətimizin tarixinə şanlı səhifələr yazmış Azərbaycan Xalq Cümhuriyyəti hökumətinin milli təhsil və dövlət quruculuğu sahəsində apardığı dövlət siyasətinin real nəticəsi kimi yaranmış Bakı Dövlət Universiteti Cümhuriyyətin baniləri olan dövlət xadimlərinin millətimizə dəyərli töhfəsidir. Ümummilli lider Heydər Əliyev Bakı Dövlət Universitetinin 75 illik yubileyinə həsr olunmuş təntənəli mərasimdə qeyd etmişdir ki, Azərbaycanda ali təhsilin, ümumi təhsilin, elmin, mədəniyyətin, iqtisadiyyatın inkişafında Bakı Dövlət Universitetinin xidmətləri əvəzsizdir. Universitetin tarixi Azərbaycan Respublikasının elminin, mədəniyyətinin, təhsilinin inkişaf tarixidir. Heydər Əliyev qürur hissi ilə vurğulayırdı "Mən çox xoşbəxtəm ki, Bakı Dövlət Universitetinin məzunuyam".

Cümhuriyyət dövründə Azərbaycanda ali təhsilli mütəxəssis kadrların hazırlamağın mühüm yollarından biri azərbaycanlı gənclərin xarici ölkələrin ali məktəblərinə göndərilməsi idi və bu barədə müvafiq qərar qəbul olunmuşdu.

Təsadüfi deyil ki, Cümhuriyyət hökuməti istər Azərbaycan, istərsə də xarici ölkə tarixçiləri tərəfindən "maarifçi hökumət", "ziyalıların hökuməti", "ziyalıların əsəri" kimi dəyərləndirilir. Çünki bu prosesi idarə edənlər Qərb və Şərq mədəniyyətlərini dərindən mənimsəmiş yüksək intellekt sahibi olan şəxslər idi. Onlar üçün çağdaş milli təhsil, maarif və mədəniyyətin qurulması dövlətin əsas atributlarından, təməl ünsürlərindən biri idi. Azərbaycan Xalq Cümhuriyyəti yarandığı ilk gündən başlayaraq xalqın maariflənidirilməsi, milli kadrların yetişdirilməsi, millətin mədəni və intellektual səviyyəsinin yüksəldilməsi istiqamətində görülməli işləri özünün ali məqsədlərindən biri elan etmiş, maarifin və mədəniyyətin inkişafını müstəqil dövlətçiliyin təməl prinsiplərindən başlıcası kimi irəli sürmüşdür.

H.Şahtaxtinski Azərbaycan Cümhuriyyəti dövründə maarif sisteminin inkişafına böyük əmək sərf etdi. O, Azərbaycanın şəhər və kəndlərində ana dilində məktəb və seminariyaların açılmasında, Bakı Dövlət Universitetinin açılışının təşkilində önəmli rol oynadı. O, eyni zamanda Azərbaycan Cümhuriyyəti Hökumətinin tapşırığı ilə xalq təhslinin yaxşı mütəxəssisi kimi Ali Pedaqoji İnstitutun yaradılması layihəsini tərtib etməyə başlamış, bu işi Azərbaycan sovetləşəndən sonra axıra çatdıraraq, Xalq Komissarları Sovetinin Sədri N.Nərimanova təhvil vermişdir.

1920-ci ilin aprelin 27-də Azərbaycan Rusiya bolşevikləri tərəfindən işğal edildikdən sonra H.Şahtaxtinski Bakı Dövlət Universitetinə dəvət olundu və o, 1930-cu ilə qədər burada müəllim işlədi. Qeyd etmək lazımdır ki, hələ 1926-cı ildə H.Şahtaxtinski həmin universitetin tibb fakültəsində də təhsil almışdır. 1929-cu ildə Universitetin yaradılmasının 10 illiyi münasibəti ilə

H.Şahtaxtinskiyə professor fəxri adı verildi.

R.Qaplanov N.Yusifbəylinin başçılıq etdiyi 4-cü Hökumət kabinetində Maarif naziri olarkən (14 mart 1919 – 12 dekabr 1919) təhsil sahəsində ciddi inkişaf baş verdi. İlk olaraq, 1919-cu ilin noyabrında Bakı Dövlət Universitetinin açılışı oldu, yüzə qədər tələbənin Rusiya, Türkiyə və Avropa universitetlərinə göndərildi. Azərbaycan Hökumətinin böyük dəstək verdiyi bu işlərin reallaşmasında R.Qaplanovun da xidməti oldu.

1919-cu ildə Azərbaycan Hökuməti tədrisi gücləndirmək məqsədi ilə Türkiyədən türk müəllimlərini Bakıya dəvət etdi. Bu dəvətin reallaşdırılmasında Maarif naziri R.Qaplanovun da əlaqələrindən istifadə olundu.

Azərbaycanın ilk ali məktəbi olan Bakı Dövlət Universitetinin təşkil olunmasında N.Şahsuvarovun da xidməti olmuşdur. 1920-ci ilin aprelin 27-də Azərbaycan Rusiya bolşevikləri tərəfindən işğal edildikdən sonra N.Şahsuvarov bir müddət Azərbaycan SSR Xalq Maarif Komissarının müavini olaraq çalışdı. Bu illərdə o, Bakıda Pedaqoji, S.Ağamalıoğlu adına Torpaq və Geodeziya texnikumlarında rus dilindən dərs dedi, sonralar isə Bakı Dövlət Universitetində rus dili kafedrasının müdiri, Azərbaycan Neft İnstitutunda isə rus dili müəllimi vəzifəsində işlədi.

Azərbaycan Xalq Cümhuriyyəti gərgin və mürəkkəb ictimai-siyasi şəraitdə cəmi 23 ay fəaliyyət göstərsə də sonrakı nəsillərin yaddaşında xalqımızın tarixinin ən parlaq səhifələrindən biri kimi həmişə qalacaqdır. Belə ki təhsildə, maarif və mədəniyyət sahəsində bu müqəddəs amalları həyata keçirən Azərbaycan Xalq Cümhuriyyəti hökuməti milli tariximizə ilk çağdaş ali təhsil və elm ocağı təsis edən, ilk milli hərbi məktəblər şəbəkəsi yaradan, ümumi icbari ibtidai təhsilə keçid prosesinə başlayan, çoxsaylı müəllim seminariyaları və pedaqoji kurslar açan, Azərbaycan türkçəsini dövlət dili elan edən və dövlət dilini təhsil müəssisələrinin əsas tədris dilinə çevirən, dövlət himayəsində ilk məktəbəqədər müəssisələrin əsasını qoyan, dövlət səviyyəsində azərbaycanlıların xaricdə təhsilinin təməlini qoyan, əlifba islahatı ilə Avropa mədəniyyətinə yaxınlaşmaq yolunda ilk addım atan demokratik, hüquqi, dünyəvi, sivil dövlət kimi daxil oldu. Azərbaycan Xalq Cümhuriyyəti hökuməti sonrakı nəsillər üçün elə bir təməl, elə bir əsas qoydu ki, bütövlükdə XX əsr Azərbaycan təhsili, maarifi, elmi və mədəniyyəti bu zəmin üzərində formalaşıb inkişaf etdi. Bu tarixi həqiqətlərlə sadəcə qürur duymaq olar!

**Ədəbiyyat siyahısı:**

1. Yaqublu, N. Cümhuriyyət qurucuları / N.Yaqublu. –Bakı: NURLAR, – 2018, – 504 s.

# NƏSİB BƏY YUSİFBƏYLİ ŞƏXSİYYƏTİ İBRƏTAMİZ NÜMUNƏ

**Günel Əliyeva-Məmmədova**
*Bakı Dövlət Universiteti, Tarix fakültəsi, PH.D, baş müəllim*
gunelaliyeva-mammadova@bsu.edu.az

Azərbaycan Xalq Cümhuriyyətinin banilərindən və rəhbərlərindən biri olmuş Nəsib bəy Yusifbəylinin həyatı, yaradıcı fəaliyyəti, maarifçilik xidmətləri, ictimai və siyasi çalışmaları, yenilməz və qüdrətli şəxsiyyəti ibrətamiz nümunədir [6 , s.3].

Orta təhsilini Gəncə klassik giymnaziyasında başa çatdırdıqdan sonra, Nəsib bəy 1902-ci ildə Odessa Universitetinin hüquq fakültəsinə daxil olur. Sonra isə rus inqilabı ərəfəsində siyasi fəaliyyətə başlayır [1, s.33].

Tələbələrin inqilabi mübarizəsindən qorxan çar hökuməti 1907-ci ildə Odessa Universitetini müvəqqəti bağlayır. Bu zaman Nəsibbəy Krımın Bağçasaray şəhərinə köçmüş və ictimai xadim İsmayıl bəy Qaspralının redaktoru olduğu "Tərcüman" qəzetində məqalələrlə çıxış etməyə başlayır.

Yusifbəyli XX əsr Azərbaycan – Krım ədəbi-mədəni əlaqələrinin əsasını qoyanlardan biridir [1, s.34].

1909-cu ildə Gəncəyə qayıdan N.Yusifbəyli şəhər bələdiyyəsində işləməyə başlayır və "Mədrəseyi-ruhaniyyə" məktəbində dərs deyir [5, s.19].

Tez-tez Bakıya gedən Yusifbəyli "Açıq söz" qəzeti redaksiyasında onun baş radaktoru Məhəmməd Əmin Rəsulzadə ilə tanış olmuşdur. 1910-1918 –ci illərdə Nəsibbəyin fəaliyyəti çox geniş və vüsətli olmuşdur. Həmin dövrdə Yusfbəyli "Azərbaycanın tarixi ədəbiyyatı" əsərini də yazıb başa çatdırır [1, s.35].

Nəsib bəy Yusifbəyli qadın təhsilini və azdlığını müdafiə edənlərdən biri olmuşdur. O, hesab edirdi ki, türk qadını öz milli xüsusiyyətlərini saxlamaqla yanaşı, təhsil almalı və ictimai həyata qoşulmalıdır [4, s. 21].

1917-ci ilin mart ayında Yusifbəyli Gəncədə "Türk Ədəmi - Mərkəziyyət" partiyasını yaratmışdır. O, 1917-ci ilin aprelində Bakıda keçirilən Qafqaz və həmin ilin mayında Moskvada keçirilən Rusya müsəlmanları qurultaylarında iştirak etmişdir [2 , s. 441].

1917-ci ildə I Müsəlman qurutayında Nəsib bəy əbədi yaddaşlara həkk edilən sözlərin müəllifinə çevilir: "Kim deyə bilər ki, biz özümüzü idarəetmə səlahiyyətində bir millət deyilik?" [3].

1918-ci ilin əvvəllərində Cənubi Qaafqazda vəziyyət son dərəcə mürəkkəb idi. Həmin ilin fevralın 23-də Tiflis şəhərində Zaqafqaziyanın qanunverici orqanı olan Seym işə başladı. Buraya Azərbaycandan Müsavat partiyasını və bitərəf demokratik qrupları təmsil edən 30 nəfər, o cümlədən N.Yusifbəyli də seçilir [5]. Nəsib bəyin Zaqafqaziya Seymindəki çıxışları bu şəxsiyyətin nə dərəcədə vətənpərvər olduğunu bir daha sübut edir.

Belə ki, çıxışların birində Seym üzvü Yusifbəyli bildirir ki, Bakını mü-

vəqqəti olaraq itirmişiksə də, lakin onu bütünlükdə və əbədi olaraq qaytarmaq üçün hər şeyi etməliyik, ikinci bir yol yoxdur, ya hamısını, ya da heçnə [7, s.19].

Zaqafqaziya Seymi Müsəlman fraksiyasının iclasları aprelin 4-dən mayın 3-nə qədər M.Ə.Rəsulzadənin sədrliyi ilə keçirilmişdir. Nəsib bəy çıxışlarının birində söyləmişdir ki, gürcü menşevikləri gürcü millətçiliyi siyasəti yeridir, "siz nə onların quyruğunda sürünürsünüz" [8, s.3].

N.Yusifbəyli 1918-ci il aprelin 22-də elan olunan Zaqafqaziya Demokratik Federativ Respublikası hökumətində maarif naziri vəzifəsini tutmuş, milli siyasətin ən çətin və ən məsul vəzifələrini icra etmişdir. Azərbaycan Xalq Cümhuriyyəti qurulduqdan sonra Fətəlixan Xoyskinin təşkil etdiyi 1-ci hökumət kabinetində N.Yusifbəyli maliyyə və xalq maarifi naziri vəzifəsini, Xoyskinin təşkiletdiyi 2-ci və 3-cü hökumət kabinetlərində də xalq maarifi və dini etiqad naziri vəzifələrini tutmuşdur.

Xalq maarifi nazirliyinin həyata keçirdiyi ilk tədbirlərdən biri Türk dilini dövlət dili elan etməsi idi. 1919-cu ildə 4-cü hökümət kabinetinin təşkili Yusifbəyliyə tapşırıldı. Aprelin 14-də elan olunan tərkibdə o, baş nazir vəzifəsindən əlavə, daxili işlər naziri vəzifəsini də tutdu [2, s.441].

Nəsib bəy Yusifbəylinin bir şəxsiyyət kimi nə qədər uca olduğunu Məhəmməd Əmin Rasulzadənin onun haqqında söylədiyi ifadə bir daha təsdiq edir: "Azərbaycan ideyasını siyasi bir tələb maddəsi şəklində formula etmək şərəfi mərhum Nəsibbəyindir".

**Ədəbiyyat siyahısı:**

1. Allahverdiyev, V. Azərbaycan Demokratik Respublikası Azərbaycan hökuməti (1918-1920) / V.Allahverdiyev, Ş.Mehdiyev. – Bakı: Gənclik, – 1990.
2. Azərbaycan Xalq Cümhuriyyəti ensiklopediyası. – Bakı: Lider, – 2005, – c.2. – 472 s.
3. Çuvarlinski, R. http://www.dak.az
4. Əbdülov, Ə. XX əsrin əvvəllərində Azərbaycanda orta təhsilin inkişafı (1990-1920-ci illər) // disser... – Bakı: 2007.
5. Qasımlı, M., Hüseynov C. Azərbaycanın baş nazirləri. – Bakı: Adiloğlu, – 2005, – 134 s. - http://elibrary.bsu.az/kitablar/867.pdf.
6. Qəhrəmanlı, N. Nəsibbəy nümunəsi / N.Qəhrəmanlı. – Bakı: Nurlan, – 2008, – 263 s.
7. Həsənov, C. Ağ ləkələrin qara kölgəsi / C.Həsənov. – Bakı: Gənclik, – 1991, – 200 s.
8. Zaqafqaziya Seyminin müsəlman fraksiyası və Azərbaycan Milli şurası iclaslarının protokolları 1918-ci il // red. Paşayev A. – Bakı: Adiloğlu, – 2006. – 216 s.

# AZƏRBAYCAN XALQ CÜMHURİYYƏTİNDƏ MİLLİ DÖVLƏT QURUCULUĞU MƏSƏLƏLƏRİ

**Xəyal Abdullayev**
*Bakı Dövlət Universiteti, magistr*
abdullayevxeyal1878@gmail.com

**Açar sözlər:** İstiqlal Bəyannaməsi, Azərbaycan hökuməti, Milli Şura, cümhuriyyət, dövlət quruculuğu, qərar
**Keywords:** Declaration of İndependence, government of Azerbaijan, National Council, republic, state establishment, decision

*Azərbaycan Xalq Cümhuriyyətinin yaradılması tarixi hadisədir. İlk dəfə olaraq, müsəlman aləmində demokratik respublika yaradılmışdır. Biz haqlı olaraq fəxr edirik ki, bu respublikanı Azərbaycan xalqı yaradıbdır. Bu, bir daha onu göstərir ki, Azərbaycan xalqı böyük xalqdır, Azərbaycan xalqı azadlıqsevər, mütərəqqi xalqdır. Azərbaycan dövləti Azərbaycan Xalq Cümhuriyyətinin qurucularının xatirəsinə böyük hörmətlə yanaşır. [1]*

**İlham Əliyev**
**Azərbaycan Respublikasının Prezidenti**

Rusiya imperiyasının dağılması nəticəsində onun tərkibinə daxil olan xalqlar imperiya əsarətindən qurtularaq azadlıq əldə etdilər. Öz istiqlalına qovuşan xalqlardan biri də Azərbaycan xalqı idi. 1918-ci il mayın 26-sında gürcü fraksiyasının Zaqafqaziya seymindən çıxması nəticəsində seym dağıldı. 1918-ci il may ayının 28-i Tiflisdə keçirilən iclasda Həsən bəy Ağayev, Fətəli xan Xoyski, Xəlil bəy Xasməmmədov, Nəsib bəy Usubbəyov, Firidun bəy Köçərli, Şəfi bəy Rüstəmbəyov, Xosrov Paşa bəy Sultanov, Hacı Molla Səlim Axundzadə və s."İstiqlal Bəyannaməsi"ni qəbul etdilər və yaradılacaq dövlətin Xalq Cümhuriyyəti (Respublika) üsul idarəsinə əsaslanan bir dövlət olacağı qeyd edildi. Respublika ərazisində yaşayan bütün xalqlara milliyətindən, dinindən, cinsindən asılı olmayaraq bərabər hüquqlar veriləcəyi, bütün qonşu dövlətlərlə dinc yanaşı yaşama prinsipi elan edildi. AXC Milli Şurasının rəhbəri cümhuriyyətin memarı Məhəmməd Əmin Rəsulzadə, icra orqanının rəhbəri isə Fətəli xan Xoyski seçildi.

"İstiqlal Bəyannaməsi" AXC-nin dövlət quruluşunu parlamentli respublika kimi təsbit etmişdi. Qanunverici orqan funksiyasını ilk dövrlərdə Müvəqqəti Milli Şura yerinə yetirirdi. Həmin iclasda ilk Müvəqqəti Hökumətin tərkibi təsdiq edildi: Fətəli xan Xoyski - Nazirlər Şurasının sədri və daxili işlər naziri, Xosrov Paşa bəy Sultanov - Hərbi nazir, Məmməd Həsən Hacınski -

Xarici işlər naziri, Nəsib bəy Usubbəyov - Maliyyə naziri və Xalq Maarif naziri, Xəlil bəy Xasməmmədov - Ədliyyə naziri, Məmməd Yusif Cəfərov - Ticarət və sənaye naziri, Əkbər Ağa Şeyxülislamov - Əkinçilik naziri və əmək naziri, Xudadat bəy Məlik-Aslanov - Yollar naziri və poçt-teleqraf naziri, Camo bəy Hacınski - Dövlət nəzarətçisi. Lakin 1918-ci il iyunun 17-si şura öz fəaliyyətini dayandırmalı oldu və bütün səlahiyyətini Fətəli xan Xoyskinin başçılığı ilə fəaliyyət göstərən hökumətə verdi [2].

AXC-nin I Hökuməti 1918-ci ilin 28 mayından həmin ilin 17 iyununa kimi fəaliyyət göstərmişdir. 1918-ci il iyunun 16-da Milli Şura və hökumət özünün fəaliyyət mərkəzini Gəncəyə köçürdü. Beləliklə, iyun ayının 19-undan Gəncədə Fətəli xan Xoyski başda olmaqla yeni Azərbaycan hökuməti formalaşdı. Təcili olaraq müstəqil Azərbaycanın dövlət quruculuğuna başlanıldı. İyunun 19-da bütün Azərbaycan ərazisində hərbi vəziyyət elan olundu. İyunun 24-də qırmızı parça üzərində ağ aypara və ağ səkkizguşəli ulduz təsvir olunan bayraq azad Azərbaycanın dövlət rəmzlərindən biri kimi qəbul edildi. İyunun 26-da Müsəlman hərbi korpusu ayrıca Azərbaycan Korpusuna çevrildi və müstəqil Azərbaycan ordusu yaradıldı. O zaman Azərbaycan ordusunun Səməd bəy Mehmandarov, Əliağa Şıxlinski, Hüseynxan Naxçıvanski, İbrahim ağa Usubov, Həmid Qaytabaşı, Kazım Qacar, Cavad bəy Şıxlinski, Həbib bəy Səlimov kimi istedadlı generalları var idi [3]. Cümhuriyyətin qəbul etdiyi qərarlar içərisində ən mühümü 27 iyun Azərbaycan-Türk dilinin bütün ölkə ərazisində dövlət dili elan edilməsi oldu. İyul ayının 15-də Fövqəladə Təhqiqat Komissiyası yaratmaq barədə qərar qəbul olundu. Komissiya I Dünya müharibəsi dövründə bütün Cənubi Qafqaz ərazisində türk-müsəlman əhaliyə qarşı törədilən soyqırımı, vəhşiliklərini və onların əmlakının talan olunması məsələlərini araşdırıb cinayətkarları məhkəmə məsuliyyətinə cəlb etməli idi. Avqustun 11-də hərbi mükəlləfiyyət haqqında qərar qəbul olundu. Avqustun 23-də Azərbaycan Xalq Cümhuriyyətinin vətəndaşlığı haqqında fərman verildi. Bütün bunlarla yanaşı, Fətəli xan Xoyski hökumətinin başlıca vəzifəsi ölkənin bütün ərazisində AXC hakimiyyətini bərqərar etmək, Bakını və onun ətraflarını Azərbaycan xalqının düşmənlərindən təmizləmək idi. Qısa müddət ərzində Milli Ordu Osmanlı dövlətinin Qafqaz İslam Ordusu ilə birlikdə Bakını və ətraf qəzaları erməni-bolşevik işğalından xilas etdi.

Həmin ilin sentyabrın 17-də F. Xoyski kabinetinin təşkilindən üç ay sonra AXC hökuməti Bakıya köçdü, Bakı paytaxt elan olundu və AXC-nin hakimiyyət dairəsi genişləndi. Noyabrın 9-da isə AXC-nin dövlət bayrağı üzərində aypara və səkkizguşəli ulduz təsviri olan üçrəngli bayraqla əvəz olundu. İctimai-siyasi, iqtisadi və mədəni həyatın müxtəlif sahələrində quruculuq işləri daha da genişləndirildi. Noyabrda fəaliyyətini bərpa edən Milli Şura özünü yenidən respublikanın yeganə qanunverici orqanı elan etdi. Noyabrın 20-də qəbul edilmiş "Azərbaycan parlamentinin yaradılması haqqında" Qanun seçki əsasında və ölkədə yaşayan bütün millətlərin təmsil olunduğu birpalatalı parlamentin yaradılmasını nəzərdə tuturdu. Dekabr ayının 7-sində H.Z.Tağıyevin qızlar məktəbinin binasında Azərbaycan parlamentinin

açılışı oldu. Bu, bütün müsəlman şərqində formalaşdırılan ilk demokratik parlament idi. Əlimərdan bəy Topçubaşov parlamentin sədri, Həsən bəy Ağayev isə onun birinci müavini seçildi.

Parlamentin fəaliyyətə başlaması münasibətilə siyasi məhbuslara amnistiya elan edildi. Parlamentin ilk müzakirə etdiyi məsələlərdən biri hökumətin hesabatının dinlənilməsi və yeni hökumətin təşkil olunması idi.

1918-ci il dekabr ayının 26-sı AXC-nin III Hökumət kabineti yaradıldı, Fətəli xan Xoyski yenidən hökumətin rəhbəri seçildi. III Hökumət kabineti 1919-cu il aprel ayının 14-nə kimi davam etdi və bir sıra mühüm qərarlar qəbul edildi. 1919-cu ilin yanvar ayının 15-də Xosrov Paşa bəy Sultanovun başçılığı altında Qarabağ general-qubernatorluğu, fevralın 28-i isə Bəhram xan Naxçıvanskinin başçılığı ilə Naxçıvan general-qubernatorluğunun yaradılması qərara alındı. General-qubernatorluqların yaradılması ilə həmin ərazilər erməni basqınlarından qorundu.

AXC-nin IV hökumətinin fəaliyyəti dövrü dövlət quruculuğu sahəsində mühüm addımlardan biri də 1919-cu ilin iyun ayında Nəsib bəy Yusifbəylinin başçılığı ilə Dövlət Müdafiə Komitəsinin yaradılması olmuşdur.

1919-cu ilin avqustunda "Vətəndaşlıq haqqında" Qanun, oktyabrında isə "Mətbuat haqqında" Nizamnamə qəbul edildi. Həmin ilin iyulunda qəbul edilmiş Müəssislər Məclisinə seçkilər haqqında əsasnaməyə görə, 20 yaşına çatmış bütün vətəndaşlara seçkilərdə iştirak etmək hüququ verildi, lakin 1920-ci ilin aprelində ölkənin Sovet Rusiyası tərəfindən işğal olunması səbəbindən seçkilərin keçirilməsi baş tutmadı [4].

AXC hökumətinin öz dəniz sərhədlərini müdafiə etmək məqsədilə ingilis komandanlığına yardım müraciətləri qismən təmin olundu. Bakı şəhərinin liman idarəçiliyi, hərbi ləvazimatın və sursatın bir hissəsi, bir neçə hərbi gəmi AXC hökumətinə verildi. Bunların əsasında Xəzərdə Azərbaycanın hərbi donanması yaradıldı.

Nəsib bəy Yusifbəylinin rəhbərliyi ilə 22 dekabr 1919-cu ildə yaradılan son hökumət ölkə daxilində pozuculuq fəaliyyəti aparan siyasi qüvvələrə qarşı sərt tədbirlərindən narazı olan sosialist nazirlərin hökuməti tərk etməsi nəticəsində 30 mart 1920-ci ildə istefa verdi. Yeni hökumətin yaradılması M.H.Hacınskiyə tapşırıldı. O isə aprelin 22-sin kimi davam edən siyasi məsləhətləşmələrin uğursuzluğu ilə əlaqədar hökumətin təşkilindən imtina etdi. Beləliklə, AXC-də işğal ərəfəsində hökumət böhranı daha da dərinləşmiş oldu. Bununla da, Azərbaycanın dövlətçilik tarixinin şanlı səhifəsini yazan AXC 1920-ci il 27 aprel tarixində Sovet Rusiyasının işğalı nəticəsində süqut etdi.

Təəssüf ki, XX əsrin əvvəlində yaranan müstəqil Azərbaycan Cümhuriyyətinin ömrü çox qısa oldu. Amma bu qısa yolda mühüm qərarlarla yadda qalan Milli Hökumətimiz bu gün də xalqımız tərəfindən anılır və dəyərləndirilir.

**Ədəbiyyat siyahısı:**

1. Abdullayev, M. Azərbaycan Xalq Cümhuriyyəti-Şərqin ilk demokratik

respublikası // Xalq qəzeti. – Bakı, – 2019, 22 may.
2. Sadayoğlu, P. Azərbaycan Xalq Cümhuriyyəti-Şərqdə ilk parlamentli respublika // Yeni Azərbaycan. – Bakı, – 2009, 26 may.
3. Süleymanov, M. Azərbaycan Xalq Cümhuriyyəti dövründə ordu quruculuğu // Xalq qəzeti, – 2019, 24 may.
4. Ümumi məlumat: Azərbaycan Xalq Cümhuriyyəti; https://axc.preslib.az/az/page/qHQJ2a Wo4P İstinad tarixi: 05.05.2021.

## AZƏRBAYCAN XALQ CÜMHURİYYƏTİNDƏ ORDU QURUCULUĞU VƏ ERMƏNİSTAN TƏCAVÜZÜNƏ QARŞI MÜBARİZƏ

**Xəyalə Əsgərova**
*Gəncə Dövlət Universiteti, B.m.*
xayala.askerova@mail

**Açar sözlər:** Qafqaz İslam Ordusu, Hərbi Nazirlik, milli ordu, hərbi təhsil, vətəni müdafiə
**Keywords:** Caucasus Islamic Army, Ministry of War, national army, military education, defending of homeland

Azərbaycan Cümhuriyyəti xalqın milli mənəvi, tarixi, fəlsəfi irsidir; zaman keçdikcə bu irs yenidən öyrənilir, araşdırılır və millətin bugünü, gələcəyi üçün dövlətçiliyin ideoloji bazası rolunu oynayır. Cümhuriyyət irsində Azərbaycan ordusunun yaranması və formalaşması məsələləri isə ayrıca bir səhifədir. Cümhuriyyətin qurulmasından sonra onun varlığı və gələcəyi birbaşa ordudan asılı idi. Ordu dövlətin yaşamasının əsas təminatçısı olduğundan onun təşkili və formalaşması prioritet istiqamətlərdən birini təşkil edirdi. Son dərəcə çətin şəraitdə demokratik bir dövlət qurmağı bacaran Cümhuriyyət yaradıcıları qısa müddətdə milli ordunu nəinki formalaşdırmış, həm də müxtəlif yerlərdə uğurlu hərbi əməliyyatlar aparmağa müvəffəq olmuşdular. Bu uğurlar dövlətin digər sahələrdə apardığı quruculuq işlərinə də öz təsirini göstərmiş, orduya arxalanaraq liderlər dövlətin gələcəyi üçün önəmli siyasi qərarlar vermişlər. Ona görə də, Cümhuriyyət irsindən danışarkən ordu quruculuğuna nəzər yetirməmək mümkün deyil [5, s.5]. 1918-ci il mayın 28-də Tiflisdə Milli Şura Azərbaycan dövlətinin müstəqilliyi haqqında "İstiqlal Bəyannaməsi"ni qəbul etdi.

Dövlət müstəqilliyinin elan edilməsi ərəfəsində yaranmış tarixi şəraitin mühüm təyin edici amili olan siyasi vəziyyətdən danışarkən həmin dövrdə, xüsusilə 1918-ci ilin yanvar ayından başlayaraq İrəvan, Bakı quberniyalarında, Qubada, Zəngəzurda, Naxçıvanda və digər yerlərdə ermənilər tərəfindən azərbaycanlıların soyqırıma məruz qoyulmasına, yaşayış məntəqələrinin dağıdılmasına, talan edilməsinə də münasibət bildirilməlidir. Bir çox ərazilərdə bolşeviklərin iştirakı və birbaşa dəstəyi ilə törədilmiş həmin kütləvi qırğın və talanların

nəticələri çox acınacıqlı olmuşdur [1]. Rus ordusunun Qafqaz cəbhəsindən çıxarılması ilə yaranan cəzasızlıq şəraitindən istifadə edən erməni hərbi birləşmələri 1918-ci ilin martına qədər təkcə İrəvan quberniyasında 199 kəndi dağımış, 100 mindən artıq türk-müsəlman əhalini məhv etmişdi. Bakıda bu zaman Birinci dünya müharibəsindən qayıdan 8 min silahlı erməni toplanmışdı. Qafqaz cəbhəsindən, habelə İrandan dönən rus əsgərləri də Bakıya yığışmışdılar. Beləliklə mart qırğını ərəfəsində Bakıda 20 minə yaxın düşmən qüvvəsi cəmləşmişdi. 1918-ci ilin mart soyqırımından sonra Bakıda hakimiyyətə tam sahiblənən S.Şaumyan və əlaltıları bolşevik Rusiyasının dəstəyi ilə daşnak-erməni hərbi qüvvələrini (sayı 18 mindən çox) yaratmağa nail oldular. Onların qarşısına qoyulan başlıca vəzifə Azərbaycanın müstəqilliyinə yol verməmək, bolşevik hakimiyyətinin təsir dairəsini mümkün olduğu qədər, hətta bütün ölkə üzrə genişləndirmək idi. Azərbaycan Xalq Cümhuriyyəti Hökuməti qarşısında duran başlıca vəzifələrdən biri ölkənin müdafiəsinin və ərazi bütövlüyünün təmin edilməsi idi. Ölkədə yaranmış son dərəcə ağır hərbi-siyasi şərait bunu tələb edirdi və Cümhuriyyətin elan edilməsinin elə ilk günlərindən həmin vəzifənin həlli istiqamətində lazımi addımların atılmasına başlandı. Hələ müstəqilliyin elan edilməsi ərəfəsində formalaşdırılmasına başlanmış Müsəlman korpusunun hissə və bölmələri də bu işə cəlb edildilər və artıq Gəncəyə doğru hərəkətə başlamış Bakı Sovetinin bolşevik-daşnak qoşunlarınm qarşısını kəsmək üçün cəbhə xəttinə göndərildilər. Lakin hələ tam formalaşmamış olan Müsəlman korpusu bolşevik-daşnak qoşunlarının və S.Şaumyanla əlbir olan quldur Andronikin yaxşı silahlanmış dəstələrinin müqavimətini qırmaq üçün kifayət qədər hərbi gücə malik deyildi. Yeni hərbi qüvvələrin formalaşdırılmasına isə vaxt yox idi. Belə bir vəziyyətdə Azərbaycan Hökuməti hərbi yardım üçün Osmanlı dövlətinə müraciət etdi. Nəticədə, soyqırımına məruz qalmış Azərbaycan xalqının köməyinə gəlmiş türk hərbi hissələri ilə milli tərkibli qoşun hissələrinin əsasında Qafqaz İslam Ordusu yaradıldı və Nuru paşa onun komandanı təyin edildi. Bununla belə, bütün imkanlar dövlət müstəqilliyinin qorunmasına səfərbər olundu. Hökumət tərəfindən Hərbi vəziyyətin elan olunması haqqında qərar, Hərbi vəziyyətin elan olunması haqqında qərara əlavə kimi mühüm sənədlər qəbul edildi, Müsəlman korpusu Əlahiddə Azərbaycan korpusu adlandırıldı [4, s.16-21]. Çağırış səfərbərlik işləri yenidən quruldu, bir sıra bölgələrdə könüllü xalq dəstələri təşkil edildi. Türkiyə və Azərbaycan hərbi qüvvələrinin birgə mübarizəsi nəticəsində 1918-ci ilin iyun-avqust aylarında Gəncə ermənilərinin tərksilah edilməsi həyata keçirildi, Qaraməryəm döyüşü, Kürdəmir döyüşü, Ağsu döyüşü, Şamaxı döyüşü, Salyan döyüşü uğurla başa çatdırıldı. Birinci Qafqaz Qırmızı Korpusunun və ingilis hərbi qüvvələri tərəfindən müdafiə olunan "Sentrokaspi diktaturası"nın qoşunlarına sarsıdıcı zərbə endirirdi. 1918-ci il sentyabrın 15-də Bakı şəhəri azad edilərək müstəqil Azərbaycan dövlətinin paytaxtına çevrildi [2, s.49].

Hökumətin və Hərbi Nazirliyin ölkənin müdafiəsinin təşkili və ordu quruculuğu istiqamətində ümumdövlət mənafelərini əks etdirən qarşılıqlı fəaliyyəti güclü hərbi qüvvələrin yaradılmasına yol açdı. Bu sahədə yeni siyasət formalaşdırıldı və

onun bütünlüklə həyata keçirilməsi təmin edildi. Qısa müddətdə Hərbi Nazirliyin aparatı formalaşdırıldı. Buraya Ümumi qərargah, Ləvazimat idarəsi, Topçu idarəsi, Hərbi-tibb idarəsi, Hərbi-baytar idarəsi, General kvartirmeyster şöbəsi və digər strukturlar daxil idi. Bundan başqa, Hərbi Nazirliyin ştatı barədə qanun, Əxzi-əsgər (çağırış) təşkilatının yaradılması haqqında qanun, Hərbi və polk məhkəmələrinin yaradılması barədə qanun qəbul edildi. Kifayət qədər hərbi biliyə və təcrübəyə malik zabitlər olan Əlağa Şıxlinski, Həbib bəy Səlimov, Murad Gəray Tlexas, İbrahim ağa Usubov, Həmid bəy Qaytabaşı, İbrahim ağa Vəkilov, Süleyman bəy Əfəndiyev, Cavad bəy Şıxlinski, Feyzulla Mirzə Qacar və başqaları məsul vəzifələrə təyin edildilər. Azərbaycanda milli ordu yaradılması, bir tərəfdən dövlət quruculuğunun mühüm tərkib hissəsi, digər tərəfdən də konkret tarixi şəraitdə Azərbaycanın ərazi bütövlüyünün qorunması üçün atılan zəruri addım idi [3, s.13]. 1919-cu il aprelin 15-də hərbi qüvvələr Bakıya daxil oldu və Salyan kazarmalarında yerləşdirildi. Azərbaycan ordusunun nəyə qadir olması Qarabağın dağlıq hissəsini Azərbaycandan qoparmaq məqsədilə həyata keçirilən erməni-daşnak təcavüzünün aradan qaldırılması üçün aparılan Qarabağ əməliyyatında özünü bir daha bariz nümayiş etdirdi. Bu təcavüz Azərbaycanın işğalı və bölüşdürülməsi məqsədilə Sovet Rusiyası ilə erməni-daşnak qüvvələri arasındakı sövdələşmə nəticəsində həyata keçirilirdi. Erməni-daşnak qüvvələri bütün Qarabağı ələ keçirməyə cəhd göstərməklə, həm də Azərbaycanın şimal sərhədlərinin müdafiəsinin tamamilə zəiflədilməsinə və bununla da bolşevik işğalının asanlaşmasına əlverişli şərait yaratmalı idi. Qarabağ müharibəsi Azərbaycan ordusunun və onun rəhbərliyinin müstəqillik dövründə rastlaşdıqları ən ağır və həm də ən şərəfli sınaq idi. Qısa müddətdə Azərbaycanın bütün müdafiə qüvvələri səfərbərliyə alındı. Vətənini və yurdunu sevən Azərbaycan oğulları ölkənin ərazi bütövlüyünün təmin edilməsi üçün əsl qəhrəmanlıq nümunələri göstərirdilər. Azərbaycanın hərb tarixinə Qarabağ müharibəsi adı ilə daxil olmuş bu müharibənin uğurla başa çatdırılması Azərbaycan ordusu əsgərlərinin, zabit və generallarının Vətənə əsl xidmət nümunəsi idi. Azərbaycan ordusunun qüdrət və qabiliyyətini nümayiş etdirdi. Erməni silahlı qüvvələri göstərdikləri bütün cəhdlərə baxmayaraq, Qarabağın Azərbaycandan qoparılmasına nail ola bilmədilər [2, s.50]. Yenicə yaranmış olan Milli Ordunun döyüşçülərinin sonrakı taleyi son dərəcə kədərlidir. 1920-ci il aprelin 28-dən 1921-ci ilin avqustunadək olan müddətdə Azərbaycanda 48 min adam qırmızı terrorun qurbanı olmuşdu.

1918-ci il iyunun 26-da yaradılmış Azərbaycan Milli Ordusunun taleyi uğurla nəticələnməsə də, Vətən tariximizdə, xalqımızın azadlıq mübarizəsində silinməz izini qoydu. Bu gün də biz Azərbaycan ordusu ilə fəxr edirik çünki, Azərbaycan ordusu öz şücaətini bir daha nümayiş etdirdi. **Azərbaycan İkinci Qarabağ müharibəsinin qalibidir**. Azərbaycan xalqı bundan sonra da öz liderinə böyük etimad göstərərək təmkin nümayiş etdirəcək, hərbi qələbəni siyasi qələbə kimi möhkəmlədirəcək, yumruq kimi Azərbaycan Prezidentinin ətrafında birləşəcək.

**Ədəbiyyat siyahısı:**

1. ARDA, f. 970, s.1, iş 144, vərəq – 66-67.
2. Azərbaycan Xalq Cümhuriyyəti Ensklopediyası: [II cilddə] / – Bakı: Lider – 2004. – 471 s.
3. Азербайджанская Демократическая Республика (1918-1920). Армия / – Баку, – 1998. – 534 s.
4. Qaliboğlu, E. Azərbaycan Xalq Cümhuriyyəti və ordu quruculuğu. Xalq Cəbhəsi. – 2020. – 17-18 noyabr. – № 114. – s.13.
5. Şüküroğlu, L. Azərbaycan Xalq Cümhuriyyəti dövründə ordu quruculuğu /L.Şüküroğlu. – – Bakı, – 2018. – 445 s.

# MÜSƏLMAN ŞƏRQİNDƏ İLK DEMOKRATİK VƏ HÜQUQİ DÖVLƏT OLAN AZƏRBAYCAN XALQ CÜMHURİYYƏTİNİN ƏRAZİSİ, ƏHALİSİ VƏ DÖVLƏT RƏMZLƏRİ HAQQINDA TARİXİ ARAŞDIRMA

**İman Vəliyev**
*Bakı Dövlət Universiteti*
imanvlyv@gmail.com

**Açar sözlər:** Azərbaycan Xalq Cümhuriyyəti, region, sərhəd, dövlət, əhali, dövlət rəmzləri
**Keywords:** Azerbaijan Democratic Republic, region, border, state, population, state symbols

*"Azərbaycan Respublikasının Milli Məclisi Xalq Cümhuriyyətinin yaratdığı parlamentin indi də varisidir. Varislik həmişə eyni zamanda, böyük məsuliyyət demək olubdur. Varislik o demək deyil ki, sən o hadisəni olduğu kimi təkrar edəsən, yaxud o səviyyədə yaşayasan. Hər bir varis varislik prinsipini əziz tutaraq, o dövrün, o hadisənin varisi olaraq o hadisəni, o dövrü, o quruluşu daha da yüksəklərə qaldırmalıdır. Biz Azərbaycanda bunu edirik və bu sahədə çox şeylərə nail olmuşuq. Hesab edirəm ki, Azərbaycanın bugünkü Milli Məclisi varislik adını şərəflə daşıyır, eyni zamanda, ötən illərdə və xüsusən son dövrdə Azərbaycanın müstəqil dövlətini inkişaf etdirmək üçün çox işlər görübdür”.*

Müstəqil Azərbaycan Respublikasının banisi Heydər Əliyev, 1998

Hər zaman olduğu kimi, tarix sübut edir ki, istənilən xalqın mədəni inkişafı

və müəyyən hədəflərə doğru yönəlməsi istiqamətində müstəqil dövlətin var olması ən labüd şərtlərdən biri hesab olunur: müəyyən yüzilliklər ərzində özünü sübut imkanlarını qazanmağa çalışan hər bir xalq ilkin olaraq milli, müstəqil dövlətini yaratmağa cəhd etmişdir. Müstəqil dövlətə aid olmaq hər bir insanın mənəvi, mədəni, iqtisadi potensialını, keçdiyi keşməkeşli mübarizə yolunu, digər xarici dövlətləri arasında layiq olan yerə nail olmaq əzmini göstərmişdir.

Azərbaycan xalqını müstəqilliyə aparan yol çox mübarizəli və əzab-əziyyətli olsa belə, bu tarixi reallıq bütün Azərbaycan Respublikasının vətəndaşlarında qürur və sevinc hissini doğurur. Azərbaycan dövlətinin 1918-ci il mayın 28-də müsəlman Şərqində müstəqilliyini elan edən ilk demokratik və hüquqi dövlət olaraq tarixə düşmüş və bu səbəbdən xalqımız qısa müddətli olsa da, öz müstəqillik idea və xəyallarına sahib olmuşdur.

Keçən əsrin əvvəllərində çar Rusiyasında baş verən mürəkkəb ictimai və siyasi proseslər 1918-ci ilin mayın 28-də Azərbaycan dövlətinə öz müstəqilliyini bəyan etmək imkanını yaratmışdır. Əldə edilən tarixi faktlar onu göstərir ki, 1918-ci il mayın 27-də müsəlman fraksiyası Gürcüstanın paytaxtı olan Tiflis şəhərində xüsusi iclas keçirərək Azərbaycan dövlətinin istiqlaliyyətini elan etmişdir. Eyni anda müsəlman fraksiyası özünü "Azərbaycan Milli Şurası" adlandırmış, beləliklə, Azərbaycan Respublikasının birinci parlamenti təsis edilmiş, rəyasət heyəti və onun sədri seçilmişdir. 1918-ci ilin may ayının 28-də Milli Şuranın 26 sayda üzvünün iştirakı ilə keçirilən həmin iclasda Azərbaycanın dövlət müstəqilliyinə dair tarixi sənəd – "İstiqlal Bəyannaməsi" qəbul olunmuşdur.

"İstiqlal bəyənnaməsi"-də deyilirdi:

1. Azərbaycan tam hüquqlu və müstəqil dövlətdir. Cənubi Qafqazın cənub və qərb hissələrindən ibarətdir. Ali hakimiyyət Azərbaycan xalqlarına məxsusdur.
2. Müstəqil Azərbaycanın siyasi quruluş forması Xalq Cümhuriyyətidir.
3. AXC beynəlxalq birliyin bütün üzvlərilə, həmsərhəd xalqlar və dövlətlərlə dostluq əlaqəsi yaradacaq.
4. Azərbaycan Xalq Cümhuriyyəti öz sərhədləri daxilində millətindən, dilindən, ictimai vəziyyəti və cinsindən asılı olmayaraq bütün vətəndaşlarına tam vətəndaşlıq və siyasi hüquqlar verir.
5. Azərbaycan Xalq Cümhuriyyəti onun ərazisində yaşayan bütün xalqların sərbəst inkişasına şərait yaradacaq.
6. Məclisi-Müəssisənin çağrılmasına qədər Azərbaycanda ali hakimiyyət xalqın səsvermə yolu ilə seçdiyi Milli Şura və Milli Şuranın qarşısında cavabdeh olan Müvəqqəti hökumət sayılır.

1918-ci ilin may ayının 28-dən sonrakı dövrdə çətin və məsuliyyətli xarici və daxili proseslərə baxmayaraq, Azərbaycan Xalq Cümhuriyyəti (AXC) ərazi və sərhəd çərçivələrinə yüksək dərəcəli əhəmiyyət verirdi. AXC hökuməti regiondakı bütün əzəli torpaqlarımızı öz nəzarətində qoruyub saxlamağa çalışırdı. Keçən əsrin 20-ci il təqvimində yaradılmış olan Xarici İşlər Nazirliyinin işləyib hazırladığı xəritə və informasiya əsasında AXC-nin ərazi

sərhədlərini əks etdirən cədvəl təqdim edilmişdi:

| **Ərazinin adı:** | **Kv. Kilometr:** |
|---|---|
| Bakı quberniyası | 39075,15 |
| Gəncə quberniyası | 44371,29 |
| Zaqatala quberniyası | 3992,54 |
| İrəvan quberniyası | 9858,69 |
| ***Cəmi:*** | **97297,67** |
| İrəvan quberniyası | 7913,17 |
| Tiflis quberniyası | 8685,13 |
| ***Cəmi:*** | **16598,30** |
| ***Yekun:*** | **113895,97** |

*Azərbaycan Xalq Cümhuriyyətinin ərazisi (kv. kilometr hesabı ilə)*

Cədvəldən də göründüyü kimi, Azərbaycan Xalq Cümhuriyyətinin dövlət sərhədləri 113,9 min kv. km idi. AXC-nin həyat dövrü ərzində ərazi bütövlüyünü və sərhədlərini qorumaq məsələlərində ciddi işlər görülürdü.

Erməni nümayəndələri İrəvan şəhərinin Ermənistanın paytaxtı edilməsi üçün Azərbaycan hökümətinə müraciət etmişdilər. Azərbaycan Milli Şurasının iclasında İrəvan şəhəri ermənilərə güzəştə getdi. Əldə edilən razılığa görə:

- Azərbaycan İrəvan şəhərini ermənilərə bu şərtlə güzəştə gedir ki, onlar Qarabağın dağlıq hissəsinə aid olan iddialarından əl çəksin.

Lakin gözləri Azərbaycan torpağında olan ermənilər 1918-ci ilin yayında Androkinin başçılığı ilə Zəngəzura hücum etdilər.

1918-ci il may-avqust aylarında Andronik Naxçıvana soxulub “etnik təmizləmə” adı ilə kəndləri dağıtmağa başladı. Bu zaman Kazım Qarabəkir paşanın başçılığı ilə osmanlı ordusu Naxçıvana daxil olub Androkinin Naxçıvan torpaqlarında olan özbaşınalığına son qoydu.

Bütün bunlara baxmayaraq, 1920-ci ilin aprel ayının 27-də yaradılmış olan AXC-nin süqutundan sonra Sovet Rusiyasının ayrıseçkilik siyasəti ilə dövlət sərhədləri azaldıldı. Süqutdan sonra yeni yaradılan “Azərbaycan Sovet Sosialist Respublikası”nın sərhədləri 86,6 min kv. km müəyyən edildi və 27,2 min kv. km-i ölkəmizin əlindən alındı.

AXC dövründə dövlət quruculuğu işində ən böyük problem milli kadrların çatışmaması idi. Nazirlər Şurasının 1918-ci il iyunun 27-də olan fərmanına görə:

- Azərbaycan (türk) dili dövlət dili elan edildi. Bununla yanaşı, dövlət orqanlarında rus dilinin də müvəqqəti olaraq işlənməsinə yol verilirdi.
- İki il ərzində dövlət orqanlarının işinin tamamilə ana dilinə keçirilməsi nəzərdə tutulurdu.

Həmin ilin 24 iyun tarixində hökümətin fərmanı ilə Azərbaycanın üzərində ağ aypara və ağ səkkizguşəli ulduz əks edilmiş qırmızı parçadan hazırlanmış

dövlət bayrağı qəbul edildi. Noyabr ayının 9-da həmin bayraq göy, qırmızı və yaşıl rənglərdən ibarət üzərində ağ aypara və ağ səkkizguşəli ulduz əks olunan bayraqla əvəz edildi.

**Ədəbiyyat siyahısı:**

1. Ələsgərov, M. AXC Parlamentinin 80 illiyi haqqında Azərbaycan Respublikası Milli Məclisinin qərarı // M.Ələsgərov. – Bakı, – 1998, – № 580.
2. Quliyev, Ü. Müsəlman Şərqində ilk parlamentli və müstəqil dövlət // Azərbaycan, – 2010, 27 may, – s.6.
3. Quliyev, M. Azərbaycan Xalq Cümhuriyyətinin 95 illiyinə həsr edilmiş Respublika elmi konfransının materialları / M.Quliyev. – Bakı, – 2014, – s.43-49.
4. Əliyev, R.M. Azərbaycan Tarixi / R.M.Əliyev. – Bakı, – 2012, – s.7-11.
5. Azərbaycan Xalq Cümhuriyyətinin yaranması // https://kayzen.az/blog/Az%C9%99 rbaycan-tarixi/5540/az%C9%99 rbaycan-xalq-c%C3%BCmhuriyy%C9%99tinin-yaranmas%C4%B1. html. İstinad tarixi: 01.05.2021.
6. Azərbaycan Xalq Cümhuriyyəti // https://axc.preslib.az/az/page/ 6DIPKCAaFE. İstinad tarixi: 05.05.2021.
7. Müsəlman şərqində ilk parlamentli respublika // http://www.azerbaijan-news.az/view-154614/M%C3%BCs%C9%99lman-%C5%9E%C9%99rqind%C9%99-ilk-parlamentli-respublika İstinad tarixi: 01.05.2021.

## CÜMHURİYYƏT ORDUSUNUN UĞURLU QARABAĞ ƏMƏLİYYATLARINDA CƏMŞİD XAN NAXÇIVANSKİNİN YERİ VƏ ROLU

**Kəmalə Qurbanova**
*Bakı Dövlət Universitetinin müəllimi, tarix üzrə fəlsəfə doktoru*
kamala-qurbanova@mail.ru

**Açar sözlər:** Azərbaycan, Cümhuriyyət, hərb, ordu, Qarabağ, Xankəndi, süvari
**Keywords:** Azerbaijan, Republic, military, army, Karabakh, Khankendi, cavalry

1918-ci il may ayının 28-də Milli Şuranın ilk iclasında "Azərbaycanın istiqlaliyyəti haqqında Bəyənnamə" qəbul edildi [6, s. 28-29]. Təbii ki, yeni dövlət özünü xarici müdaxilələrdən müdafiə etmək, daxili düşmən qüvvələri zərərsizləşdirmək üçün nizami orduya malik olmağı əsas vəzifələrdən biri kimi müəyyənləşdirmişdi.

Hələ 1918-ci ilin iyun-iyul aylarında cümhuriyyətin ordusunu formalaş-

ması prosesində fəal şəkildə iştirak edən yüzlük komandiri (yüzbaşı) rotmistr Cəmşid xan Naxçıvanskiyə 1918-ci il iyul ayının 30-da Azərbaycan Xalq Cümhuriyyyəti Hərbi İdarəsinin əmri ilə əla xidmətlərinə görə polkovnik-leytenant hərbi rütbəsi verilmişdi. Eyni əmrlə Cəmşid xan nizami hissə komandirinin köməkçisi vəzifəsinə təyin edilmişdi [7, s. 151]. O, 1918-ci ilin yazıda alay Kürdəmirdə gedən döyüşlərdə iştirak etmiş, alayın türk əsgərləri ilə birlikdə Bakının işğaldan azad edilməsi uğrunda döyüşmüşdü [3, s.30].

1918-ci ilin sentyabrında Bakıya daxil olan Qafqaz İslam Ordusu və Əlahiddə Azərbaycan Korpusunun hissələri həmin ilin noyabrında Bakını ingilislərin təkidi ilə tərk etmək məcburiyyətində qalmışdı. 1918-ci ilin dekabrında Əlahiddə Azərbaycan Korpusunun əsas qüvvəsini təşkil edən Tatar Süvari Alayı əsasında iki süvari alayı – 1-ci Tatar Süvari Alayı və 2-ci Qarabağ Süvari Alayı yaradılmışdı. Bu zaman polkovnik-leytenant Cəmşid xan Naxçıvanski 1-cü Süvari Tatar Alayınının komandiri polkovnik Nuh Sofiyevin nizami hissə üzrə köməkçisi olmuşdur. Cəmşid xan Naxçıvanskinin süvari qoşunun təşkili, bu qoşunlar üçün atların seçilməsi sahəsində bilikləri Azərbaycan Xalq Cümhuriyyəti ordusu üçün çox faydalı olmuşdur. Azərbaycan Xaq Cümhuriyyəti Hərbi Nazirliyinin 4 aprel 1919-cu il tarixli 175 nömrəli sərəncamı da məhz bunu göstərir.

Polkovnik-leytenant Cəmşid xan Naxçıvanski Azərbaycan Xalq Cümhuriyyətinin hərbi naziri, artilleriya generalı Səməd bəy Mehmandarovun 24 mart 1920-ci il tarixli 163 nömrəli əmrinin 4-cü hissəsinə əsasən 2-ci suvari Qarabağ polkunun komandiri təyin edilmişdi. Cəmşid xan Naxçıvanski 2-cü Qarabağ Süvari alayının komandirliyini Xankəndində qəbul etmiş və bu hissəni Qarabağda təxribat törədən ermənilərə qarşı mübarizəyə hazırlamağa başlamışdı. Məlum olduğu kimi, 1920-ci ilin martın 20-də Qarabağda ermənilərin qiyamı baş vermiş və Ermənistan Respublikası Azərbaycana qarşı hərbi əməliyyatlarla başlamışdı. Ermənistanın nizami hissələri və qiyamçı dəstələr Şuşa, Xankəndi, Əsgəran, Xocalı, Tərtər və digər məntəqələrdə yerləşən Azərbaycan hərbi hissələri üzərinə eyni vaxtda qəfildən hücum etdilər. Onlar teleqraf və telefon xətlərini sıradan çıxarmış, Şuşa və Əsgəran yüksəkliklərini top atəşinə tutmuş, Cəbrayıl və Zəngəzur qəzalarında hücum edərək azərbaycanlılar yaşayan bir sıra kəndləri dağıtmışdılar.

Azərbaycan Xalq Cümhuriyyəti hökuməti Qarabağda qayda-qanunu bərpa etmək, gələcəkdə mümkün ola biləcək qanlı hadisələrin qarşısını almaq üçün təcili tədbirlər görməyə başlamışdı. Cəmşid xan Naxçıvanskinin 2-ci Qarabağ Süvari Alayının komandiri vəzifəsinə gətirilməsi də bu tədbirlərin tərkib hissəsi idi. Ehtimal etmək olar ki, ordu komandanlığı erməni təcavüzünün qarşısının alınmasında polkovnik-leytenant Cəmşid xan Naxçıvanskiyə 2-cü Qarabağ süvari alayının keçmiş komandiri polkovnik Tuqanovdan daha çox etibar edirdi. Qeyd edək ki, Tuqanovdan öncə bu alayın komandiri polkovnik Süleyman bəy Əfəndiyev olmuşdur. Süleyman bəy Əfəndiyev 2-ci Qarabağ Süvari Alayının komandiri olarkən bir çox çətinliklərin öhdəsindən gələrək alaya əsil hərbi hissə görkəmini

vermiş və onu hərbi nazirə əla vəziyyətdə təqdim etmişdir. Onun hərbi fəaliyyəti hərbi nazir tərəfindən digər komandirlərdən fərqləndirilmiş və o, hərbi nazir S.Mehmandarovun məruzəsi əsasında Azərbaycan Xalq Cümhuriyyəti Nazirlər Şurasının qərarı ilə general-mayor rütbəsi ilə təltif olunmuş və I piyada diviziyasının başçısı təyin edilmişdi [5].

Qeyd etmək lazımdır ki, Xankəndinə gedərkən Cəmşid xan Naxçıvanski Ağdam istiqamətində bir müddət ləngiməli olmuşdu. Bunun səbəbi bu zaman ermənilərin Əsgəran qalasını tutmaları və Xankəndiyə Ağdamdan gedən yolu bağlamaları olmuşdur. Elə bu səbəbdən də Xankəndiyə gəldikdən sonra 2-ci Qarabağ Süvari Alayı əsas diqqəti ilk növbətə Əsgəran qalasının azad edilməsinə yönəltmişdi. Əsgəran qalasının daşnak quldurlarından azad edilməsində Cəmşid xan və əsgərləri əsl qəhrəmanlıq nümunəsi göstərmişdilər [4].

Bundan başqa Cəmşid xan Naxçıvanskinin komandirliyi ilə bu alay Ağdam və Şuşanın erməni daşnaklarından təmizləyərək təhlükəsizliyini təmin etmişdi [2, s. 91]. 1920-ci ilin aprel ayının əvvəllərində Cəmşid xanın komandanı olduğu 2-ci Qarabağ Süvari Alayı Şuşa şəhəri və Daşkənd istiqamətindəki strateji əraziləri qoruyur və Qarabağda mühüm əhəmiyyətli döyüş tapşırıqlarını yerinə yetirirdi.

Məlum olduğu kimi, 1920-ci ilin aprelində Azərbaycan Xalq Cümhuriyyətinin şimal sərhədləri istiqamətində təhlükə böyüyürdü, Sovet Rusiyasının işğalçı XI Qırmızı Ordusu Azərbaycan Xalq Cümhuriyyətinin paytaxtı Bakıya doğru irəliləyirdi. Bakıya hücumun Qafqaz cəbhəsinim komandirinin 21 aprel 1920 il 420 saylı əmrinə əsasən 27 aprel 1920-ci il tarixində həyata keçirilməsi nəzərdə tutulurdu. Bu zaman AXC hərbi hissələrinin böyük bir hissəsi, o cümlədən Cəmşid xan Naxçıvanskinin komandiri olduğu 2-ci Qarabağ Süvari Alayı Qarabağda ermənilərə qarşı mübarizə aparırdı. Nəticə olaraq, bolşeviklərə və gələn işğalçı orduya qarşı müqavimətin təşkil olunmasının qeyri-mümkünlüyünü görən Azərbaycan Xalq Cümhuriyyəti parlamenti hakimiyyətin Azərbaycan İnqilab Komitəsində (bolşeviklərə) təslim edilməsi haqqında qərar qəbul etdi. Parlament sədrinin müavini Məmməd Yusif Cəfərov və daxili işlər naziri Mustafa Vəkilov tərəfindən imzalanmış qərarın 3-cü bəndində yazılırdı:

*"3. Azərbaycan ordusu olduğu kimi qalıb, buraxılmayacaq"* [1, s. 978-979].

Nəticədə 28 aprel 1920-ci il gecə saat 2 də Azərbaycan Xalq Cümhuriyyətinin parlamenti buraxıldı. Hərbi nazir Səməd bəy Mehmandarov öz vəzifəsini bolşeviklərin yeni təyin olunmuş hərbi və dəniz komissarı Çingiz İldırıma təhvil verdi.

Azərbaycanda Sovet hakimiyyətinin elan edilməsindən sonra Xalq Komissarları Sovetinin sədri Nəriman Nərimanov Şuşaya – Cəmşid xan Naxçıvnskiyə təcili teleqram göndərmiş və polkovnik-leytenanta dərhal Bakıya qayıtmağı və ordunun təşkili işində iştirak etməyi təklif etmişdi. Cəmşid xan Naxçıvanski yaranmış vəziyyətdə bütün imkanları qiymətləndirərək və Nəriman Nərimanov kimi yeni qurulacaq hökumətin Azərbaycanın milli maraqlarına xidmət edəcəyini düşünərək Qarabağ Süvari Alayı ilə birlikdə bolşeviklər tərəfə keçmiş və onun rəhbərlik etdiyi hissə I Fəhlə-kəndli polku

adı altında XI Qırmızı Ordunun tərkibinə daxil edilmişdi.

**Ədəbiyyat siyahısı:**

1. Azərbaycan Xalq Cümhuriyyəti (1918-1920). Parlament (stenoqrafik hesabatlar) // – Bakı: Azərbaycan, – 1998, – c.2. – 992 s.
2. Cəmşid Naxçıvanski – 120. Sərkərdə ömrü // – Naxçıvan: Əcəmi, – 2015, – 96 s.
3. Quliyev, M. Xan nəslindən olan unudulmaz sərkərdə // 525-ci qəzet. – 2015. – 13 iyun.- s.30.
4. Quliyev, M. Sərkərdə // Xalq qəzeti. 2015, 8 may, – № 169.
5. Səfərov, R. Azərbaycanın ilk hərbi hissələrinin təşkilatçısı: [Elektron resurs] // http://milliarxiv. gov.az/az/ azerbaycanin-ilk-herbi-hisselerinin-teskilatcisi
6. Yaqublu, N. Azərbaycan Milli İstiqlal Mübarizəsi və Məhəmməd Əmin Rəsulzadə. – Bakı, – 1999, – 90 s.
7. Иванов, Р. Именем Союза Советских... Жизнь и гибель комбрига Нахичеванского. – Москва: Герои Отечества, – 2007, – 832 с.

## AZƏRBAYCANIN İLK ALİ TƏHSİL OCAĞI BİZİM MİLLİ SƏRVƏTİMİZDİR

**İradə Hüseynova**
*Bakı Dövlət Universitetinin "Qafqaz xalqları tarixi" kafedrasının müdiri, tarix elmləri doktoru, professor*
prof.irada.huseynova@gmail.com

**Açar sözlər**: Azərbaycan Xalq Cümhuriyyəti, dövlətçilik ənənələri, Cənubi Qafqaz, Azərbaycan Dövlət Darülfünu
**Keywords:** Azerbaijan Democratic Republic, traditions of statehood, South Caucasus, Azerbaijan State Universitety

1918-ci ildə yaranmış və fəaliyyət göstərmiş Azərbaycan Xalq Cümhuriyyəti qısa ömür sürmüş, Sovet imperiyasının işğalçılıq siyasətinin qurbanı olmuşdur. Lakin Azərbaycan Xalq Cümhuriyyəti dövlətçiliyimizin yaranması və inkişafında, xalqımızın tarixi taleyində böyük rol oynamışdır. Azərbaycan Xalq Cümhuriyyəti və onun Parlamenti çox çətin və mürəkkəb bir tarixi dövrdə meydana gəlmişdi. Həmin dövrün mürəkkəb beynəlxalq siyasi şəraiti, müstəqil dövlətimizə xarici təzyiqlərin artması nəticəsində Azərbaycan Xalq Cümhuriyyəti süqut etsə də, xalqın təfəkküründə azadlıq, demokratiya və müstəqil dövlətçilik ideyaları dərin kök salmışdır [2, s.146].

Birinci Dünya müharibəsinin başa çatması ərəfəsində və Romanovlar mütləqiyyətinin devrilməsi ilə əlaqədar olaraq formalaşmış çox mürəkkəb bir tarixi şəraitdə Azərbaycanın şimal torpaqlarında dövlətçilik ənənələrimiz

yenidən, özü də bu dəfə parlamentli respublika şəklində dirçəldi. 1813-cü ildən sonra ilk dəfə olaraq Azərbaycanın müstəqil idarə olunmasına başlanıldı. Azərbaycanın bir hissəsində - Şimali Azərbaycanda respublika quruluşu yaradıldı. Cümhuriyyət rəhbərləri tərəfindən dərhal müstəqil Azərbaycanın dövlət quruculuğu prosesinə qədəm qoyuldu.

Ölkənin qanunvericilik orqanı ana dilimizi Azərbaycanın dövlət dili elan etmiş, dövlət rəmzlərini — respublikanın himnini, bayrağını təsdiq etmiş, dövlət gerbinin yaradılması işinə başlamışdı. Dövlət quruculuğu ilə bağlı Parlament "Azərbaycan vətəndaşlığı haqqında", "Milli Bankın yaradılması haqqında", "Müəssislər Məclisinə seçkilər haqqında", "Bakı Dövlət Universiteti haqqında", İngiltərə, Fransa, İtaliya, İsveçrə, Polşa və ABŞ-da diplomatik nümayəndəliklərin təsis edilməsi, ölkədə 7 müəllim seminariyasının, 1 qadın seminariyasının, qəza mərkəzlərində orta məktəblərin açılması, uşaq bağçaları sisteminin yaradılması, yüz nəfər azərbaycanlı gəncin təhsil almaq üçün dövlət hesabına xaricə göndərilməsi barədə və s. qanunlar və qərarlar qəbul etmişdi. Parlamentdə qəbul olunan qanun və qərarlar Azərbaycan Xalq Cümhuriyyəti Hökumətinin fəaliyyətinin başlıca istiqamətlərini müəyyən etmişdir.

Milli tariximizin qızıl səhifəsi sayılan Azərbaycan Xalq Cümhuriyyətinin mövcud olduğu 23 ay ərzində həyata keçirdiyi saysız-hesabsız müsbət fəaliyyətlər içərisində ən mühüm tədbirlərdən biri ölkədə dünyəvi ali məktəbin yaradılması olmuşdur.

Məlum olduğu kimi, Çar Rusiyası dövründə bütün Cənubi Qafqazda olduğu kimi, Azərbaycanda da ali təhsil müəssisələri yox idi. Çar hökuməti müxalif ovqatlı milli ziyalıların yetişməsindən ehtiyatlandığından universitetlərin açılmasının qarşısını hər vəchlə alırdı.

Cənubi Qafqaz regionu Rusiyadan ayrıldıqdan və üç müstəqil respublika yarandıqdan sonra 1918-ci ilin iyununda Tiflisdə üç fakültədən ibarət Zaqafqaziya Universiteti yaradıldı: təbiət, tarix-filologiya və tibb fakültələri. Tədris rus dilində keçirilən universitetə rektor olaraq Kazan Universitetinin professoru, məşhur cərrah V.İ.Razumovski dəvət olunmuşdu [3, s. 42]. 1918-ci ilin payızında universitetin 2150 tələbəsi var idi. Lakin ali məktəbə maliyyə vəsaiti ayrılmadığından onun Tiflis şəhərində mövcudluğu ciddi problemlə üzləşmişdi. 1919-cu ilin martında rektor V.İ.Razumovski universitet şurasının iclasında təhsil müəssisəsinin Bakıya köçürülməsi təklifini etdi. Azərbaycan Xalq Cümhuriyyəti hökuməti ilə danışıqlar aparmaq, universitet üçün ayrılacaq binanı nəzərdən keçirmək və s. məsələlərlə əlaqədar olaraq rektor başda olmaqla komissiya üzvləri Bakıya gəldilər. Onlar yerindəcə əmin oldular ki, hökumət və ictimai qüvvələr universiteti dəstəkləməyə, onun gələcək inkişafı üçün lazımi şərait yaratmağa hazırdırlar. Belə ki, hökumət tərəfindən bu məqsədlə böyük vəsait ayrılmışdı, universitet və onun müəssisələri üçün hər cür şəraiti olan binalar hazır idi. Tiflisə qayıdan nümayəndə heyəti universitet şurasına danışıqların nəticələri barədə məlumat verdi və bəyan etdi ki, Bakının təklifinin qəbul edilməsi məqsədəuyğundur. Lakin nəyə görəsə qərar qəbul edilməsi ləngiyirdi: Zaqafqaziya

Universitetinin Bakıya köçürülməsinə münasibət birmənalı deyildi, köçürülmənin lehinə olanlar da vardı, əleyhinə olanlar da.

Təyin olunmuş vaxta qədər – 1919-cu il mayın 1-nə kimi Bakıya heç bir cavab verilmədi. Elə həmin gün Azərbaycan Xalq Maarif Nazirliyindən teleqram daxil oldu: Bakıda yeni universitet açılır. Ona görə də Zaqafqaziya Universitetinin Bakıya köçürülməsi məsələsi təbii olaraq ortadan qalxdı. Azərbaycan xalq maarif naziri Həmid bəy Şahtaxtinski Bakıda universitetin təşkilində kömək etmək üçün rəsmi xahişlə V.İ.Razumovskiyə müraciət etdi. Professor öz həmkarları ilə danışıqlar apardıqdan sonra bu təklifi qəbul etdi və Zaqafqaziya Universitetinin rektoru vəzifəsindən istefa verdi.

Azərbaycan Dövlət Darülfünununun (bugünkü Bakı Dövlət Universiteti) təsis olunması üçün tələb olunan üç qanun layihəsi - “Azərbaycan Dövlət Darülfünununun təsis edilməsi haqqında”, “Azərbaycan Dövlət Darülfünununun Nizamnaməsi”, “Azərbaycan Dövlət Darülfünununun 1919-1920-ci dərs ili üçün ştat və xərclər smetası haqqında” sənədlər qısa zaman kəsiyində hazırlandı və baxılmaq üçün Hökumətə təqdim olundu. Azərbaycan Hökuməti özünün 7 iyul 1919-cu il tarixli “Azərbaycan Dövlət Darülfünununun təsis olunmasına dair qanun layihələrinin bəyənilməsi və Parlamentin müzakirəsinə verilməsi haqqında” tarixi qərarı ilə həmin hüquqi-normativ sənədləri Cümhuriyyət Məclisi-Məbusanına (Parlamentinə) təqdim etdi.

Universitetin yaradılması haqqında məsələ 1919-cu ilin iyul-avqust aylarında parlamentdə müxtəlif komissiyalarda müzakirə edildi, sonra isə parlamentin ümumi iclasına çıxarıldı. Universitetin təsis edilməsi, onun nizamnaməsi, həmçinin ştat və 1919/20-ci tədris ili üçün xərclər smetası barədə qanun layihələri nəzərdən keçirildi.

Azərbaycan Dövlət Darülfünununun idarə olunması və onun tədris-elmi fəaliyyətinin tənzimlənməsi qaydalarını müəyyən edən nizamnamə üç ay ərzində aparılan müzakirələrən sonra 1919-cu il sentyabrın 29-da, Cümhuriyyət parlamentinin 79-cu iclasında qəbul edildi.

1919-cu il sentyabrın 1-də Azərbaycan Xalq Cümhuriyyətinin parlamenti “Azərbaycan hökumət darülfünununun təşkili haqqında” qanun layihəsini üçüncü oxunuşda qəbul edərək, Bakıda ilk universitetin yaranması barədə tarixi qərar qəbul etdi. Universitetin ilk rektoru, professor V.İ.Razumovski bununla bağlı yazırdı ki, “Azərbaycan özünün ali maarifçilik ocağını əldə etdi. Türk xalqının tarixinə yeni parlaq səhifə yazıldı. Avropa ilə Asiyanın qovuşuğunda yeni işıq yandı. Biz bu böyük, tarixi hadisənin iştirakçıları kimi özümüzü xoşbəxt sayırdıq” [4, s.16].

Təhsil sahəsinə böyük önəm verən Cümhuriyyət Parlamentinin təsdiq etdiyi qanuna əsasən, Bakıda dövlət universiteti dörd fakültədən: şərq şöbəsi ilə birlikdə Tarix-filologiya, Fizika-riyaziyyat, Hüquq və Tibb fakültələrindən ibarət olmalı idi. Universitetə hər iki cinsdən olan və tam orta təhsil almış gənclər qəbul edilirdilər. Lakin gimnaziyanın yeddi sinfini və ya “realnı məktəb”in altı sinfini bitirmiş Azərbaycan vətəndaşları da qəbul edilə bilər-

dilər, yalnız o şərtlə ki, onlar diplom almaq üçün əlavə sınağa məruz qalsınlar. Müəllimlər seminariyasını bitirmiş gənclər də universitetə daxil olmaq imkanında idilər. Universitetin təşkilat komissiyası yekdilliklə V.İ.Razumovskini rektor seçmişdi. 1919-cu il sentyabrın ortalarında tibb fakültəsinin ilk üç kursuna və tarix-filologiya fakültəsinin birinci kursuna qəbul elan edildi. Ərizələrin sayı qəbul yerlərinin sayını iki dəfə ötüb keçirdi. Hazırlıq mərhələsindən sonra, 15 noyabr 1919-cu ildə universitetdə ilk dərs günü elan edildi.

Bakı Dövlət Universiteti tarixən vətənpərvər ziyalıların fədakar əməyi sayəsində yetirdiyi ictimai-siyasi, elm və mədəniyyət xadimləri ilə Azərbaycanın mövcud simasının təşəkkülünə böyük töhfələr vermişdir. Respublikada yaradıcı elmi təfəkkürün innovativ ideyalar əsasında formalaşdırılması, hazırlıqlı kadr potensialının davamlı təkmilləşdirilməsi və elmi-intellektual mühitin inkişaf səviyyəsinin daha da yüksəldilməsi, o cümlədən Azərbaycan xalqının tarixi-mədəni dəyərlərinin və mənəvi-əxlaqi sərvətlərinin qorunub yaşadılması Universitetin dünya təhsil məkanına inteqrasiya yolu seçməklə göstərdiyi bugünkü çoxşaxəli, geniş fəaliyyətin başlıca istiqamətlərini təşkil edir[1].

**Ədəbiyyat siyahısı:**

1. Bakı Dövlət Universitetinin 100 illik yubileyinin keçirilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı // http://www.president.az/articles/25857 İstinad tarixi: 09.04.2021.
2. Hüseynova, İ. Tarix. Zaman. Düşüncələr / İ.Hüseynova. – Bakı: Elm və təhsil, – 2016, –c.1. – 512 s.
3. Атакишиев, А.М. История Азербайджанского Государственного Университета / А.М.Атакишиев. – Баку: Издательство Азербайджанского Университета, – 1989, – 830 с.
4. Разумовский, В.И. Основание университета в Баку / В.И.Разумовский. – Известия Бакинского Государственного Университета, – №2, – с.16.

## AXC DÖVRÜNDƏ CƏNUBİ QAFQAZDA QAÇQINLAR PROBLEMİ

**Qasım Hacıyev**
*AMEA Qafqazşünaslıq İnstitutu Ermənişünaslıq şöbəsinin müdiri, Bakı Dövlət Universiteti Qafqazşünasliq kafedrasının professoru, tarix elmləri doktoru,*
gasimh@mail.ru

**Açar sözlər:** Cənubi Qafqaz, Azərbaycan, Qarabağ, separatizm, qaçqınlar
**Keywords:** South Caucasus, Azerbaijan, Karabakh, separatism, refugees

1. XX əsrin əvvəllərində Cənubi Qafqazda genişlənən milli azadlıq hərəkatları ideoloji və hərbi cəhətdən hazırlaşmış olan ermənilər üçün əsl

fürsətə çevrildi. Onlar "Böyük Ermənistan" ideyalarını həyata keçirməyə, Azərbaycan ərazisində etnik təmizləmə əməliyyatlarına başladılar.

2. 1918-ci ilin fevralından davam edən qırğınlar mart-aprel aylarında kəskin vəziyyət aldı. Minlərlə azərbaycanlı öldürüldü. Bu zaman yarım milyon insan dilənçi vəziyyətinə düşdü, dağıntıya məruz qalan ərazilərdə 200 min nəfərdən artıq müsəlman əhali hər şeyini itirmişdi.
3. Erməni-daşnak quldur birləşmələrinin azərbaycanlılara qarşı deportasiya və soyqırımı siyasəti davam etdirildi. Bu zaman İrəvan quberniyasının qəzalarından qaçqın düşmüş azərbaycanlılar daha çox Gəncədə və onun ətrafında yerləşdirildi. Onların ərzaqla təmin olunması və sağlamlıqlarının qorunması üçün tədbirlər görüldü.
4. AXC hökuməti oktyabr ayında Bakıya köçəndən sonra Səhiyyə və Himayəçilik Nazirliyi 2 yerə bölündü. Səhiyyə Nazirliyi və Himayəçilik Nazirliyi ayrı-ayrılıqda fəaliyyət göstərməyə başladı.
5. Qaçqınlıq məsələsi üzrə bir sıra işlərin görülməsinə başlandı. Ermənistandan və Türkiyədən gələn qaçqınları qəbul etmək, onları ilkin zəruri ərzaq və qida məhsulları ilə, əkin üçün toxum və işçi heyvanları ilə təmin etmək, bəzi kənd icmalarında fərdi təsərrüfatları bərpa etmək üçün faizsiz kredit vermək və işlə təmin etməkdən ibarət idi.
6. Himayəçilik məsələsi üzrə bir sıra işlər görüldü.
7. 1920-ci il aprelin 28-də Bakıda Azərbaycan Xalq Cümhuriyyəti hökumətinin süqutu və bolşevik hökuməti qurulmasının elan edilməsi Gəncə quberniyasında vəziyyətə təsir göstərdi. Elə həmin gün F.Əliyevin sədrliyi ilə Azərbaycan Kommunist (bolşeviklər) Partiyası Gəncə Dairə Komitəsi Quberniya İnqilab Komitəsi yaradıldı və hakimiyyətin təhvil verilməsi haqqında Gəncə qubernatoruna ultimatum verildi.
8. SSRİ yaranana qədər (1922-ci il) Qərbi Azərbaycana (indiki Ermənistana) - öz tarixi torpaqlarına qaçqın düşmüş əhalinin yarıdan azı - cəmisi 100 min azərbaycanlı-türk qayıda bildi.
9. XX əsrin sonlarında Ermənistanın başladığı I Qarabağ müharibəsi nəticəsində Azərbaycan torpaqlarının 20 %-i Ermənistan silahlı qüvvələri tərəfindən işğal edildi. Müharibədə 20 mindən çox azərbaycanlı həlak oldu, 100 minə yaxın adam yaralandı və xəsarət aldı, 6 min adam əsir düşdü. Bir milyondan çox azərbaycanlı – ölkə əhalisinin təxminən 15 %-i qaçqına çevrildi. Onlar çadır şəhərciklərində yaşamağa məcbur oldu.
10. Azərbaycanın işğal edilmiş ərazilərində vandalizm həyata keçirildi.
11. BMT Təhlükəsuzlik Şurası münaqişənin genişlənməsinə səbəb ola biləcək hər hansı düşmənçilk hərəkətlərindən, işə hər hansı şəkildə qarışmaqdan və ya hərbi müdaxilədən çəkinməyə çağırsa da bu yalnız təcavüzkar Ermənistana daha bir xəbərdarlıq kimi yadda qaldı.

## AZƏRBAYCAN-ABŞ MÜNASİBƏTLƏRİ

**Lalə Mehtiyeva**
*Bakı Dövlət Universitetinin magistrantı*
lala.mehdiyeva@inbox.ru

**Açar sözlər:** Azərbaycan, ABŞ, ikitərəfli münasibətlər, Əsrin müqaviləsi, qarşılıqlı faydalı əməkdaşlıq
**Keywords:** Azerbaijan, USA, bilateral relations, Treaty of the Century, mutually beneficial cooperation

İki dövlət arasındakı münasibətlərin tarixinə nəzər salsaq, XIX əsrin 70-80-ci illərinə xüsusi diqqət yetirmək lazımdır. Çünki, həmin dövr ərzində Bakıda neft sənayesinin yaranması və formalaşması öz növbəsində ABŞ-ın nəhəng şirkətlərinin Azərbaycan neftinə ciddi maraq göstərməsinə səbəb olmuşdur [7, s.144]. Artıq, 1919-cu ilin 28 mayında AXC yarandıqdan sonra ikitərəfli siyasi-diplomatik münasibətlərin yaradılması istiqamətində mühüm addımlar atıldı [8, s. 50-51]. Bu çərçivədə, Parisdə, Azərbaycan parlamentinin sədri Ə.M. Topçubaşovun rəhbərliyi altında nümayəndə heyətinin ABŞ prezidenti V.Vilsonla görüşünü xüsusi vurğulamaq lazımdır. Lakin, Azərbaycan nümayəndə heyətinin tələbləri V. Vilson və digər dövlətlər tərəfindən qəbul edilmədi. Çünki nə ABŞ nə də ki digər müttəfiq dövlətlər mövcud şəraitdə Cənubi Qafqazda yeni müstəqil dövlətlərin yaranması niyyətində deyildilər [10, s. 63].

Beləliklə, 1991-ci ilin 18 oktyabrında ölkəmiz müstəqilliyini rəsmi şəkildə bəyan etdi. Daha sonra, 1991-ci il dekabrın 25-də rəsmi Vaşinqton öz müstəqilliyini elan etmiş müstəqil Azərbaycanı rəsmən tanıdığını bəyan etdi. Artıq 1992-ci il martın 18-də iki ölkə arasında diplomatik əlaqələr qurulmuşdur. 1992-ci il 17 martda Azərbaycan Respublikasının ABŞ-da səfirliyi, ABŞ-ın Azərbaycanda səfirliyi isə, həmin ilin noyabr ayında açılmışdır. ABŞ-ın Azərbaycanda ilk səfiri isə Riçard Mayls olmuşdur [9, s.507]. İkitərəfli münasibətlərdə müsbət mənada irəliləyiş, məhz Heydər Əliyev (1993-2003) tərəfindən həyata keçirilən balanslaşdırılmış xarici siyasət kursu nəticəsində özünü göstərdi. Bu baxımdan, H.Əliyevin 1997-ci ildə ABŞ-a səfəri ikitərəfli əlaqələrin inkişafında xüsusi rol kəsb edir. Səfər çərçivəsində, hər iki ölkə arasında enerji sahəsində əməkdaşlıq, həmçinin Chevron, Exxon, Mobil neft şirkətləri ilə Socar arasında Abşeron, Naxçıvan və Oğuz adlı neft yataqlarının istismarı ilə bağlı müqavilələr imzalanmışdır [1, s. 217]. 2000-ci il yanvarın 29-da Heydər Əliyevin ABŞ-ın sabiq prezidenti Bill Klinton ilə görüşü zamanı, iki dövlət arasında enerji sektorunda Əsrin müqaviləsiylə əsası qoyulan əməkdaşlığın davam etdiriləcəyi, Bakı-Ceyhan və Transxəzər boru kəmərləri kimi layihələrin reallaşdırılmasında ABŞ-ın dəstəyi və aparıcı neft şirkətləri ilə faydalı əməkdaşlığı xüsusi vurğulamışdır [6, s.342-343].

İlham Əliyev də 2003-cü ildə prezident seçildikdən sonra əsası Heydər

Əliyev tərəfindən qoyulan balaslaşdırılmış xarici siyasət strategiyasına sadiq qalacağını bildirmişdir. Çünki, Azərbaycan mürəkkəb geosiyasi, əlverişli geostrateji və zəngin geoiqtisadi mövqeyə sahib olduğuna görə, daima regional və qlobal güclərin çarpaz maraqlarının toqquşma nöqtəsi hesab olunur. ABŞ-la münasibətləri də bu çərçivədə dəyərləndirmək lazımdır. Belə ki, 2006-ci il aprel ayında İlham Əliyev ABŞ-a səfəri zamanı Azərbaycan-ABŞ münasibətlərinin sürətlə inkişaf etdiyini, ölkəmizdə və regionda irimiqyaslı enerji layihələrinin həyata keçirilməsində ABŞ-ın dəstəyini xüsusi vurğulanmışdır. Həmçinin, ölkəmizin terrorizmlə mübarizədə ABŞ-ı aktif surətdə dəstəklədiyi və bu istiqamətdə ikitərəfli əməkdaşlıqda maraqlı olduğu ifadə edilmişdir [5, s.293-294]. Bu baxımdan, 2008-ci ildən Azərbaycan ordusunun NATO standartlarına uğun olaraq təşkil edilməsi, NATO ilə inteqrasiya prosesinin sürətləndirilməsi kimi tədbirlər ikitərəfli əməkdaşlığı gücləndirdi. Hətta, ABŞ hökuməti tərəfindən ölkəmizə edilən hərbi yardımın həcmi artaraq 4,3 milyon dollara yüksəldildi [4, s.248-249].

İki dövlət arasındakı münasibətlərdə "Əsrin müqaviləsi" mühüm əhəmiyyət kəsb etdir. Belə ki, 1994-cü il 20 sentyabr tarixində Bakıda Gülüstan sarayında 8 ölkənin 13 beynəlxalq neft şirkəti tərəfindən Xəzər dənizinin Azərbaycan sektorunda yerləşən "Azəri", "Çıraq" neft yataqlarının və "Günəşli" neft yatağının dərinlikdə yerləşən hissəsinin müştərək işlənməsi və hasilatın pay bölgüsü haqqında Saziş yəni, "Əsrin müqaviləsi" imzalanmışdır. Müqaviləyə əsasən, "Azəri" və "Çıraq" yataqları bütövlükdə, "Günəşli" yatağının isə suyun dərinliyi 200 metrdən çox olan hissəsi birlikdə istismar olunacaqdır. Çıxarılan neftin 253 milyon tonu Azərbaycana çatacaqdır.

Həmin bölgələrdə neft axtarış və hasilat əməliyyatları üzrə səlahiyyət isə, Azərbaycan Beynəlxalq Əməliyyat Şirkətinə (ABƏŞ) verildi. Mega Layihə olaraq da adlandırılan saziş 30 il müddətində imzalanmışdır. İlkin hesablamalara görə "Azəri", "Çıraq" yataqlarının və "Günəşli" yatağının dərinlikdə yerləşən hissəsində çıxarıla bilən neft ehtiyatının 511 milyon ton, təbii qaz ehtiyatlarının isə 90 milyard $m^3$ olduğu hesab edilir. Maliyyə dəyəri təxminən 8 milyard dollar olan saziş XX əsr tarixində siyasi, iqtisadi və strateji əhəmiyyətinə görə ən mühüm müqavilələrdən biridir [1, s.90]. Əsrin müqaviləsinin imzalanmasından sonra neftin hansı boru kəmərləri vasitəsiylə dünya bazarlarına daşınması məsələsi gündəmə gəldi. Bu konteksdə, Heydər Əliyev tərəfindən Azərbaycan neftinin dünya bazarlarına daşınmasında Bakı-Tiblisi-Ceyhan əsas ixrac neft boru xəttinin inşası ideyası irəli sürüldü [11, s. 55]. ABŞ da, Bakı-Tiblisi-Ceyhan neft boru kəmərinin əsas ixrac boru kəməri seçilməsi istiqamətində Azərbaycana xüsusi kömək göstərmişdir. Çünki, ABŞ boru xətlərinin çoxşaxələndirilməsi (Multiple Pipe Lines) prinsipindən çıxış edərək, məsələni Cənubi Qafqazda Rusiya ilə rəqabəti çərçivəsində dəyərləndirmişdir. ABŞ-ın Trans Xəzər Boru Xətləri və Boru xətlərinin çoxvariantlılığı konsepsiyasını irəli sürməkdə əsas məqsədi, karbohidrogen ehtiyatların bir çox fərqli marşrutlar vasitəsiylə beynəlxalq bazarlara daşınmasını təmin etmək idi [1, s. 117-188].

Bundan başqa, Azərbaycan ABŞ-ın Cənubi Qafqazda ən böyük ticarət

tərəfdaşı hesab olunur. İki ölkə arasında ticarət, nəqliyyat və investisiya sahəsində imzalanmış mühüm sazişlər, sərmayə qoyuluşunun qarşılıqlı qorunması və təşviq edilməsi haqqında müqavilə və sazişlər Azərbaycan-ABŞ münasibətlərinin daha da inkişaf etdirilməsinə xidmət edir. Misal olaraq, 2016-ci il aprel ayında Azərbaycan-ABŞ arasında “ Açıq Səmalar” haqqında ikitərəfli saziş imzalanmışdır [2]. Azərbaycan Respublikası Dövlət Statistika Komitəsindən əldə edilən məlumatlara əsasən son 4 il ərzində iki ölkə arasında ticarət dövriyyəsinin həcmi illər üzrə müvafiq olaraq 2016-ci ildə 552 255,9 min ABŞ dolları, 2017-ci ildə 781 785,7 min ABŞ dolları, 2018 -ci ildə 858 501,9 min ABŞ dolları və nəhayət 2019-cu ildə isə, 791 884,9 min ABŞ dolları təşkil edir [3]. Bütün sadalanan fikirlər və statistik göstəricilər hər iki dövlətin iqtisadi sahədə əməkdaşlıqda maraqlı olduğunu və münasibətlərin hər iki dövlərin maraqları çərçivəsində inkişaf etdiyini bir daha sübut edir.

Azərbaycan-ABŞ münasibətlərindəki problemlər isə, daha çox Dağlıq Qarabağ məsələsi və bu istiqamətdə ona təsir gücünü artırmağa davam edən erməni diasporasi və lobbisinin separatçılıq meyllərinin təzahürü olaraq özünü göstərir. ABŞ Minsk Qrupu həmsədrlərindən biri və Rusiya amilini tarazlaşdıran güc statusunda olmasına baxmayaraq, ölkəsində mövcud olan erməni faktorunu (erməni lobbisi), Azərbaycana qarşı əsassız ərazi iddialarından əl çəkməyə vadar edə bilməmişdir. Əksinə vaxtiylə, ölkəmizə qarşı reallığa uyğun olmayan qərar qəbul edilmişdir. Belə ki, 1992-ci il 24 oktyabr tarixində ABŞ Konqresi tərəfindən erməni lobbisinin təsiri ilə, Azərbaycana hər cür yardımın göstərilməsini qadağan edən “Azadlığı Müdafiə Aktı” (Freedom Support Act) adlı sənəd qəbul edildi. Bu qanunun 907-ci bölməsinə edilən düzəlişə əsasən ABŞ hökümətinin Azərbaycanın rəsmi strukturlarına humanitar yardım göstərilməsi qadağan olundu.

Bütün neqativ hallara baxmayaraq, ABŞ Azərbaycanla münasibətlərin inkişafında daim maraqlıdır. Ölkəmiz tərəfindən həyata keçirilən beynəlxalq miqyaslı enerji layihələri bir çox sferalarda əməkdaşlığımızı şərtləndirir. Bu çərçivədə ölkəmiz tərəfindən həyata keçirilən BTƏ, TANAP və TAP enerji layihələri sayəsində Azərbaycan-ABŞ ikitərəfli əlaqələri qarşılıqlı faydalı əməkdaşlıq prinsipinə sadiq qalaraq, daha çox inkişaf edəcəkdir.

**Ədəbiyyat siyahısı:**

1. Aslanlı, A. Haydar Aliyev Dönemi Azərbaycan Dış Politikası (1993-2003). / A.Aslanlı, İ.Hesenov. – Ankara: Platin Yayınları, – 2005, – 282 s.
2. Azərbaycan və ABŞ: Ticarət və kommersiya tərəfdaşları/ Azərbaycan Respublikasının Amerika Birləşmiş Ştatlarındakı Səfirliyinin rəsmi inernet səhifəsi. https://washington. mfa.gov.az/az/content/167/azerbaycan-ve-abs-ticaret-ve-kommersiya-terefdaslari [Müraciət tarixi: 5 dekabr 2020].
3. Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsinin rəsmi internet səhifəsi: [Elektron resurs] // URL: https://www.stat.gov.az/source/trade/ [Müraciət tarixi: 5 dekabr 2020].

4. Beşikçi, S. Bağımsızlık Sonrası Dönemde Azerbaycan Dış Politikasındakı Stratejik Değişimler ve Yönelimler // Türk Dünyası İncelemeleri Dergisi, – Cilt 16, – Sayı 2, – 2016, – 252 s.
5. Çelikpala, M. İlham Aliyev dönemi Azərbaycan dış politikası: Sorunlar, Öncelikler ve İlişkiler. Kafkasyanın Yükselen Yıldızı İlham Aliyev Dönemi Azerbaycan / M.Çelikpala. – Ankara: Atatürk Araştırma Merkezi. –2013, – 402 s.
6. Əliyev, H. Müstəqilliyimiz əbədidir / H.Əliyev. – Bakı: Azərnəşr, – 2008, – 504 s.
7. Həsənov, Ə. Azərbaycanın xarici siyasəti: Avropa dövlətləri və ABŞ (1991-1996) / Ə.Həsənov. – Bakı: Azərbaycan Dövlət Nəşriyyatı, – 1998, – 315 s.
8. Həsənov, Ə. Azərbaycanın geosiyasəti / Ə.Həsənov. – Bakı: Zərdabi LTD MMC, – 2015, – 1056 s.
9. Musa, İ. Çağdaş Beynəlxalq Münasibətlər və Azərbaycanın Xarici Siyasəti // – Bakı: Bakı Universiteti nəşriyyatı, – 2011, – 776 s.
10. Merdanov, S. Azerbaycan-ABD ilişkilerinde belirsizlik dönemi (1991-1994) // Çankırı Karatekin Universitesi Uluslararası Avrasya Strateji Dergisi, –Cilt 2, – Sayı 1, – 2005, – 70 s.
11. Сеидов, М. Нефтяная Стратегия Азербайджана как Важный Фактор Регионального Развития и Дипломатии / М.Сеидов. – Баку Самарский научный вестник, – 2013, – 56 с.

## VƏTƏN MÜHARİBƏSİNDƏ QAZANILAN QƏLƏBƏ: TARİXİ ƏHƏMİYYƏTİ VƏ NƏTİCƏLƏRİ

**Lamiyə Süleymanlı**
*BDU-nun Beynəlxalq jurnalistika və informasiya siyasəti kafedrasının 2-ci kurs magistrantı*
lamiya.suleymanli@mail.ru

**Açar sözlər:** Qarabağ, Azərbaycan, media, informasiya, müharibə
**Keywords:** Karabakh, Azerbaijan, media, information, war

44 günlük Vətən Müharibəsi tarixi ədalətin bərpası ilə yanaşı, Dağlıq Qarabağ probleminin, Azərbaycan ordusunun döyüş bacarıqlarının bütün dünyaya tanıdılması baxımından mühüm əhəmiyyət kəsb etmişdir. Bu tanıtımda ölkənin informasiya siyasəti, qlobal informasiya məkanına çıxışı xüsusi rol oynamışdır. Prezident İlham Əliyevin xarici KİV-lərə müsahibələri, əcnəbi jurnalistlərin təmas xəttinə diqqətinin yönəldilməsi istiqamətində görülən işlər, ölkəmizdə fəaliyyət göstərən diplomatik korpusların attaşeləri ilə görüşlər, brifinqlər, qurumların sosial şəbəkələrdəki fəallığı beynəlxalq informasiya arenasına çıxışı sürətləndirmişdir. Medianın həm də gələcək üçün arxiv funksiyasını yerinə yetirdiyini nəzərə alaraq Vətən Müharibəsinin tarixi

əhəmiyyəti və nəticələrinin KİV-də işıqlandırılmasının təhlili maraq doğurur.

Ölkənin beynəlxalq miqyasda tanınması, ədalətin təmin edilməsi, qələbəyə bütün dünyada düzgün siyasi qiymət verilməsi baxımından mövzu xeyli aktualdır. Digər tərəfdən media xalqın güzgüsüdür və qələbənin dünyaya çatdırılmasında rolu böyükdür. Ötən əsrin 90-cı illərindən müharibə təcrübəsi olan və bu gün imkanlarını daha da genişləndirən kütləvi informasiya vasitələri xarici təzyiqlərə duruş gətirmək üçün əsas vasitəyə çevrilmişdir, qlobal informasiya məkanında, informasiya müharibəsində öz sözünü demişdir. Azərbaycan Mətbuat Şurasının sədri Əflatun Amaşov Birinci Qarabağ Müharibəsi dövründə kifayət qədər peşəkar repartyorlar kimi Çingiz Mustafayev, Salatın Əsgərova, Alı Mustafayev, Seyidağa Mövsümlü, Əli Qafarov, Fəxrəddin Şahbazov, Bəxtiyar Qaraca, bu gün Real TV-nin rəhbəri olan Mirşahinin Ağayevin adını çəkmişdir [2].

Ümumiyyətlə, Qarabağ uğrunda mübarizə başlandığı andan medianın üzərinə böyük məsuliyyət düşmüşdür. İnformasiya savaşı əhatə dairəsini genişləndirməyə başlamışdır. Artıq nəinki ictimai şəxslər, sıravi vətəndaşlar da insanları informasiya müharibəsində aktiv iştiraka səsləyib, sosial şəbəkələrə axın etmişlər. Kanadalı jurnalist Hauer Almaniya saytlarında yayımlanan şərhində Dağlıq Qarabağ informasiya savaşını şərh etmişdir. Nitqində qərəz hiss olunsa da, o, bildirir: "Hər iki tərəfin itkiləri çoxdur, lakin heç kim mübarizədən imtina etməyi düşünmür. Azərbaycanlıların qeyrəti o qədər çoxdur ki, hətta sülh arzulayan fəalları təhdid edir, vətən xaini kimi qəbul edirlər"[4]. Jurnalist bu sözləri ilə azərbaycanlıları kinli, aqressor kimi təqdim etməyə çalışsa da, dedikləri bir mətləbdən xəbər verirdi: Azərbaycan xalqının 30 ildir bu günü səbirsizliklə gözləməsi və qələbə əzmi!

Müharibənin mediada geniş işıqlandırılması həm də düşmənə psixoloji təsir baxımından mühüm idi. 2020-ci il 16 oktyabr tarixində Almaniyanın ZDF.de portalında Nils Metzgerin müəllifliyi ilə yayımlanan məlumatda ölkəmizin geniş informasiya siyasətindən və sosial şəbəkələrdə aparılan təbliğatların informasiya müharibəsindəki strategiyalar olmasından danışlır: "Motivlər məlumdur: öz qoşunlarının irəlilədiyini, mülki əhalinin əziyyət çəkdiyini dünyaya çatdırmaq, qarşı tərəfin mənəvi çöküşü. Rəsmi dövlət kanalları və saytlar hər saat video, infoqrafiya yayımlayır"[5].

Ermənistan eyni metoddan yararlanmağa çalışsa da, əksər məqamlarda öz yalanlarını ifşa edərək gülünc vəziyyətə düşmüşdür. Kanadalı jurnalist Neil Hauerə görə "İrəvanda Ermənistan Müdafiə Nazirliyinin videolarının başladığı kadrdakı qartal qışqırığını eşitmədən 10 dəqiqə gəzə bilmirəm"[5]. Jurnalist erməni xalqının döyüş ruhunda olduğunu sübut etməyə çalışsa da, Azərbaycanlı jurnalistlərin kadrları öz sözünü deyirdi: döyüş texnikalarında zəncirlənmiş cəsədlər məcburi döyüşə göndərilənlərdən xəbər verirdi.

Londondakı Kings College-in hərbi mütəxəssis və doktorantı Robert Lee, ZDF.de-yə verdiyi açıqlamada, iki tərəfin media strategiyalarının guya o qədər də fərqlənmədiyini söyləsə də, sonradan özünü təkzib etmişdir: "Azərbaycanın

texnoloji üstünlüyü var. Bir çox hücumları pilotsuz uçuş aparatları ilə həyata keçirilir və kameraları erməni tərəfinə nisbətən daha yaxşıdır. Erməni videolarının çoxunda atəşin düşmən mövqeyinə dəyib-dəymədiyini aydın görmək mümkün deyil. Bunları təsirli təbliğat videosuna çevirmək istəyərkən pis görüntü yaradırlar. Azərbaycanlılar isə erməni texnikalarının məhvi videolarını göstərməklə, aktivliklərini nümayiş etdirirlər". Tədqiqatçı bildirir ki, başlanğıcda Azərbaycan sosial medianı hərbi kampaniyalarının mərkəzi hissəsinə çevirməkdə ləng, Ermənistan isə əvvəldən aktiv olmuşdur. Azərbaycan isə sonradan kütləvi şəkildə sosial şəbəkələrə axın etmişdir. Hətta mütəxəssis qeyd edir ki, bu şəkildə münaqişənin qlobal qəbuluna təsir göstərmək mümkündür [5]. Bunları təhlil etsək, etiraf etmək lazımdır ki, Ermənistan lobbisi qarayaxma kampaniyasını Azərbaycan xalqına qarşı hələ 1980-ci illərdən başlamışdır. Aktiv lobbi fəaliyyətinə önəm verib, bu yolla çirkin cinayətlərini ört-basdır etməyə çalışmışdır. Lakin Vətən Müharibəsi dövründə Azərbaycan diasporu ümumxalq birliyinin simvoluna çevrilmiş və sosial şəbəkələrdə fərqlənmişdir.

Əsas tədqiqat sahəsi Cənubi Qafqaz olan almaniyalı tədqiqatçı Franziska Smolnik elmi məqalələrində beynəlxalq təşkilatların, xüsusilə də ATƏT-in Minsk qrupunun belə bir münaqişəyə laqeyd yanaşdığını vurğulayır. Onun sözlərinə görə, ATƏT-in Minsk Qrupu bu günə qədər irəliləyişə nail ola bilməmişdir: "On illərdir davam edən münaqişənin yenidən artması çox az ölkə və təşkilat üçün sürpriz olmuşdur. Münaqişənin yeni mərhələsində isə ATƏT-in fəaliyyətdə olan sədrinin şəxsi nümayəndəsinin rəhbərlik etdiyi kiçik qrupun əvvəlcədən səfərləri belə, Covid-19 pandemiyasına görə dayandırılmışdır. Ümumiyyətlə, beynəlxalq ictimaiyyət nisbətən sakit mərhələlərdə münaqişənin zahirən dondurulmuş statusu ilə barışmaqda səhv etmişdir. Hətta Almaniya və Avropa İttifaqı artan vəziyyəti diplomatiyaya daha çox cəlb olunmaq üçün təcili çağırış kimi görməlidirlər". Sonuncu cümlə digər ölkələrin münaqişəyə cəlb olunmaqda nə qədər maraqlı olduqlarını göstərir. Halbuki, Prezident İlham Əliyev dəfələrlə üçüncü tərəfləri münaqişədən kənarda qalmağa səsləmişdir [3].

Müharibənin ilk günlərindən Prezident İ.Əliyevin "Şuşasız bizim işimiz yarımçıq qalar" mesajı beynəlxalq mediada gündəmə səbəb olmuşdur. Elə bunun nəticəsidir ki, əcnəbi saytlar mütəmadi olaraq ABŞ-ın hərbi mütəxəssisi Maykl Kofmanın fikirlərini tirajlamağa başlamışdırlar. O hələ müharibənin ilk günlərindən demişdir ki, Azərbaycanın Şuşanı almaq kimi mühüm siyasi qələbələr qazanmaq və mövqe müharibəsinə keçmək istədiyindən şübhələnir [1]. Hətta bəzi əcnəbi media orqanları müharibənin ilk həftələrindən "Sərt Qafqaz qışı başlamadan Şuşa alınacaq" proqnozunu vermişdirlər. Almaniya saytları başlıqlarda Vətən Müharibəsini "Türkiyəsiz başlanmayacaq, Rusiyasız bitməyəcək müharibə" adlandrmaqla Azərbaycanın hərbi gücünə şübhə ifadə etmişdirlər.

Google-da əcnəbi dillərdə axtarış verdikdə mövzu ilə digər istifadəçilər tərəfindən ən çox axtarılan bu sözlər çıxır: "Azərbaycan və Ermənistan

arasında nə var?", "Niyə Dağlıq Qarabağ Azərbaycana aiddir?", "Ermənistan yoxsul ölkədir?", "Azərbaycanda neçə erməni yaşayır?".

Deməli, bütün dünya Azərbaycanla maraqlanır, Qarabağın ona aidliyini dərk edir. Azərbaycanda yaşayan ermənilərin yerli sakinlərlə bərabər hüquqlara sahib olduğu vaxtda Ermənistanda bir nəfər də olsun azərbaycanlının yaşamadığını bilir. Bu, əsl təcavüzkarın kimliyini göstərir. Nəticə budur. Vətən Müharibəsinin tarixi əhəmiyyəti, Prezident İlham Əliyevin dediyi kimi, Qarabağın milli qürur məsələsi olmasından irəli gəlir. Digər tərəfdən güc amilinin ön plana çıxdığı, beynəlxalq qətnamələrə əməl edilmədiyi vaxtda Azərbaycanın hərbi gücünün dünyaya tanıdılması çox mühümdür. Müharibə dövründəki fəaliyyət jurnalistikamıza bəlli imic, müsbət reputasiya qazandırmışdır. Bu isə beynəlxalq əməkdaşlıq baxımından vacibdir.

**Ədəbiyyat siyahısı:**

1. Christian Esch. Kampf um Schuscha: [Electronic resource] / URL: https://www.spiegel.de/politik/ausland/kampf-um-schuscha-a-fb284175-fe35-4273-8714-9d573e0e9fc9 . İstinad tarixi: 28.04.2021.
2. Əflatun Amaşov. Vətən müharibəsi və Azərbaycan mediası: [Electronic resource] / URL: https://ikisahil.az/post/177518-veten-muharibesi-ve-azerbaycan-mediasi. İstinad tarixi: 30.04.2021.
3. Franziska Smolnik. Berg-Karabach: Eskalation eines zu oft unterschätzten Konflikts: [Electronic resource] / URL: https://www.swp-berlin.org/publikation/berg-karabach-eskalation-eines-zu-oft-unterschaetzten-konflikts/ . İstinad tarixi: 03.05.2021.
4. Konflikt um Bergkarabach: Die zweite Front: [Electronic resource] / URL: https://taz.de/Konflikt-um-Bergkarabach/!5717078/ . İstinad tarixi: 23.04.2021.
5. Nils Metzger. Bergkarabach-Konflikt im Netz: Armenien, Aserbaidschan und der Bilder-Krieg: [Electronic resource] / URL: https://www.zdf.de/nachrichten/politik/armenien-aserbaidschan-bergkarabach-krieg-propaganda-100.html . İstinad tarixi: 05.05.2021.

## AXC DÖVRÜNDƏ HÖKUMƏTİN NEFT SİYASƏTİ

**Nailə Hüseynova**
*AMEA, A.A.Bakıxanov adına Tarix İnstitutu, aparıcı elmi işçisi,t.ü.f.d.dos.*
naile-bayramova@rambler.ru

**Açar sözlər:** neft, Nobel, Tomson, tətil hərəkatı, Qafqaz, Azərbaycan hökuməti
**Keywords:** oil, Nobel, Thomson, strike movement, Caucasus, government of Azerbaijan

1918-ci il 28 mayda öz müstəqilliyini elan etmiş Azərbaycan Xalq Cümhuriyyəti öz fəaliyyəti dövründə daha çox xarici siyasət məsələlərinə üstünlük

verirdi. İstiqlaliyyətin qorunub saxlanması kimi mühüm vəzifə ilə birlikdə iqtisadiyyatın əsasını təşkil edən amillərdən biri olan neft məsələsi də xarici amillərlə sıx bagli idi. AXC-nin neft siyasətinin tədqiqinə həsr olunmuş araşdırmalarda daha çox beynəlxalq münasibətlər müzakirə edilmişdi, istiqlaliyyətinin qorunub saxlanmasında, həmçinin AXC-nin xarici siyasətinin əsas istiqamətlərinin müəyyən edilməsində məhz neftin əsas rol oynadıgı nisbətən diqqətdən kənarda qalmışdı.

Əgər müstəqilliyin ilk dövrlərində AXC-nin xarici siyasətində Osmanlı oriyentasiyası üstünlük təşkil edirdisə,məlum 30 oktyabr Mudros sazişi ilə həmin oriyentasiya dövrü başa çatır və beynəlxalq münasibətlərdən asılı olaraq istiqamətlərdə dəyişiklik yaranır.

Dünya neft istehsalının böyük bir hissəsinin Azərbaycanın - Bakının payına düşdüyü üçün Birinci Dünya müharibəsinin sonunda İngiltərənin Azərbaycana maragı xeyli artır. İngiltərənin baş naziri Llyod Corc Almaniyanın Bakı neftinə sahiblik edəcəyi təqdirdə müharibənin sonunda nələrin baş verəcəyini aglagəlməz hesab edir. İngilis hökuməti öz maraqlarını qorumaq üçün Qafqazda yaranmış müstəqil dövlətlərə nümayəndə göndərərək iqtisadi vəziyyətlə tanış olur. İngilis hökuməti Azərbaycan hökuməti qarşısında götürdüyü öhdəliyə, yəni beynəlxalq konfranslarda onun müstəqilliyini müdafiə edəcəyini, Qafqazda olan ordusunun buradakı xalqların daxili işlərinə qarışmayacagına söz verməsini poza bilmədiyi üçün Andronikin dəstələrinin silahlandırılması və maliyyələşdirilməsi hesabına Qafqaz xalqlarının, o cümlədən Azərbaycan hökumətinin daxili və xarici siyasətinə bilavasitə, dolayısıyla müdaxilə edir.

Azərbaycanda çar müstəmləkəçiliyi dövründə iqtisadiyyata,xüsusilə də neft sənayesinə kapital qoyan xarici kapitalistlər öz kapitallarını nə bolşeviklərə, nə də Azərbaycan hökumətinə güzəştə getmək fikrində deyildilər. Azərbaycan Xalq Cümhuriyyəti dövründə parlament və hökumət də öz növbəsində neft hasilatı və emalının vəziyyətini vaxtaşırı təhlil edir, dünya neft bazarını izləyirdi.

AXC hökumət üzvləri tərəfindən ABŞ prezidenti V.Vilsonun "14 maddə"sinə uygun olaraq "azsaylı xalqların hüquqlarının qorunması" şüarının alqışlarla qarşılanması da təsadüfi hadisə deyildi. Azərbaycanın istiqlaliyyətinin və ərazi bütövlüyünün qorunmasının vacibliyi həm Ə.Agayev, həm də M.Ə.Rəsulzadə tərəfindən parlament iclaslarında dəfələrlə vurgulanır. M.Ə.Rəsulzadə Tomsonun tumsalında müttəfiqlərin Azərbaycanın beynəlxalq konfransda müstəqilliyinin və hüquqlarının qorunmasının təminatçısı olacagı vədini parlament iştirakçılarının nəzərinə çatdırması da birmənalı qarşılanmır.

İstiqlaliyyətin qorunub saxlanılmasında nefti əsas vasitə hesab edən Azərbaycan hökuməti və ticarət, sənaye naziri Behbudxan Cavanşir 1919-ci il 26 dekabrda Gürcüstan hökuməti ilə neft və mazutun dəniz yolu vasitəsilə Gürcüstana ixrac edilməsi haqqında müqavilə imzalayır.

Azərbaycan hökumətinin 1919- cu il 4 fevralda keçirilən parlament iclasın-

da daxili işlər naziri Xəlil bəy Xasməmmədov Qazax qəzasında baş verən özbaşınalıqdan - neftin Akstafaya, oradan isə müxtəlif şəxslər tərəfindən fərqli yollarla Gürcüstan və Ararat respublikasına aparılmaqla böyük məbləgdə pula satması haqqında çıxış edir. Neftin tacirlər tərəfindən gürcü və ermənilərə satılmasına və bütün sərhəd boyunca neftin aparılmasına nəzarət etmək üçün türklər tərəfindən komissiya yaradılır, neftin hər pudu üçün 20 rubl dəyərində məbləg müəyyən edilir. Toplanan məbləg ordunun ehtiyaclarına sərf olunrdu. Sənaye və ticarət naziri T.Səfərəliyev yalnız Gürcüstana daşınan neftə görə deyil, həm də Ukrayna şirkətləri ilə imzalanan müqavilələrə əsasən aparılan neft və neft məhsullarına görə Azərbaycana daha çox pul ödənilməsi tələbini irəli sürür. Bakı XKS-nin 2 iyun 1918-ci il neft sənayesinin milliləşdirilməsi haqqında verdiyi qərardan sonra irəli sürülən belə bir tələb haqlı tələb idi. Bu məsələ ilə əlaqədar olaraq hökumət maraqlı tərəflərlə ikitərəfli müqavilələr imzalamaga hazır idi.

AXC dövründə poçt, teleqraf və yollar naziri X.B.Məlikaslanov nefti Azərbaycanın əsas sərvəti hesab edərək parlamentin iclaslarının birində neftin illik hasilatının 500 mly.pud oldugunu qeyd edir və 1913- cü ildə neftin az bir hissəsinin 40 mly. pudunun Batuma, qalan çox hissəsinin isə Rusiyaya daşınmasını bildirir. Nazirin təklifinə görə sözügedən dövrdə də hökumət nefti Batuma qədər göndərə bilər, lakin sonrası sual altında qalırdı. Almanlar Batumdan sonra neftin daşınması üçün paraxodlar vəd etsələr də bu reallaşmır. Ukrayna ilə də danışıqlar orada baş verən dövlət çevrilişi ilə əlaqədar baş tutmur. İllik dünya neft hasilatı 4 mlyd. pud olmuşdur ki, onun 1/6 hissəsi Azərbaycanın payına düşürdü. Bu zaman Amerika ilə rəqabətə tab gətirmək üçün Gürcüstanla tranzit müqaviləsinin imzalanması zərurəti an məsələsi idi.

Dünya bazarında neftin qiyməti qalxdıqca AXC hökuməti istiqlaliyyətinin tanınması və bununla da ərazi bütövlüyünün qorunmasında maraqlı olan dünya dövlətlərinə haqlı olaraq təsir edəcəyi ümidində idi. Lakin sahibkar müəssisələrində baş verən tətil hərəkatı neft hasilatına öz mənfi təsirini göstərdikcə AXC hökuməti fəhlələrin maddi və mənəvi vəziyyətinin yaxşılaşdırılması üçün tədbirlər görürdü.

Mart soyqırımının ildönümünün qeyd edilməsi ilə əlaqədar keçirilən mitinq və tətillər 1919-cu ilin may ayında belə davam etməsi neft hasilatına mənfi təsir göstərirdi. Tətil hərəkatı atdıqca fəhlələrin işdən uzaqlaşması ilə iki gün ərzində neftin küçələrə axacagı və neftin qiymətinin aşagı düşəcəyi təhlükəsi yaranmışdı. Belə bir vəziyyətdə Azərbaycan hökuməti bu çətinlikləri dəf etmək üçün müxtəlif müqavilələr imzalamaga hazır oldugunu bildirir. Nobellər formal olaraq qeyd edilən maneələri aradan götürmək üçün neftin əsas hissəsinin yalnız gəmi vasitəsilə 3.500000=3 mln. 500 min pud neftin daşınmasını Azərbaycan hökumətinə vəd edir. Çətinlik də elə verilən həmin vədlərin gerçəkləşməməsi ilə əlaqədar idi. Dünya dövlətləri qarşısında neftlə əlaqədar elə tələblər, şərtlər qoyula bilərdi ki, AXC-nin istiqlaliyyəti üçün dogurdan da neft əsas qarant ola bilərdi.

Digər bir maneə Mart hadisələrinin ildönümündən bolşeviklərin məha-

rətlə istifadə edərək fəhlələri tətilə çagırmaları idi. Azərbaycan hökumətinin rəhbəri fəhlə tətillərinə münasibətini bildirərək, qeyd edirdi ki, Azərbaycanın müstəqilliyi Azərbaycan demokratiyası üçün o qədər qiymətlidir ki, nəinki neft ehtiyatını, hətta o özünü belə qurban verməyə hazır idi. AXC hökumətinin neft siyasəti dövlətin müstəqilliyinin qorunub saxlanması üçün müstəsna əhəmiyyətə malik idi.

**Ədəbiyyat siyahısı:**

1. "Azərbaycan" qəzeti №1, – Bakı, – 1919, 1 yanvar. H.Cavid adına Əlyazmalar İnstitutu.
2. "Azərbaycan" qəzeti. №16, – Bakı, –1919, 11 yanvar.
3. "Azərbaycan" qəzeti. №28, – Bakı, –1919, 7 yanvar.
4. "Azərbaycan" qəzeti. №31, – Bakı, – 1919, 11 fevral.
5. "Azərbaycan" qəzeti. №38, – Bakı, – 1919, 8 may.
6. Qədimov, K. Azərbaycan Xalq Cümhuriyyətinin Rusiya ilə münasibətləri. (1918-1920-ci illər)/ tarix üzrə fəlsəfə doktoru dissertasiyası/. – Bakı, – 2008. – 149 s.
7. Səlimov, Ş. Cümhuriyyət dövründə beynəlxalq münasibətlərdə Azərbaycan neft məsələsi/ Ş.Səlimov. – Bakı. – 2004. – 166 səhifə.
8. Фонд 157, оп.1, дела 12. РГАСПИ. AMEA A.A.Bakıxanov adına Tarix İnstitutunun elmi arxivi. – Bakı, – 2011. – c.2.

## ŞƏRQDƏ İLK DEMOKRATİK DÖVLƏT - AZƏRBAYCAN XALQ CÜMHURİYYƏTİ

**Nurlan İsgəndərov**
*Bakı Dövlət Universitetinin Beynəlxalq münasibətlər və İqtisadiyyat fakültəsinin Politologiya və Sosiologiya kafedrasının magistri*

**Açar sözlər**: Azərbaycan Xalq Cümhuriyyəti, Müstəqillik, Parlament, Dövlət rəmzləri, Ərazi problemləri
**Keywords:** Azerbaijan Democratic Republic, Independence, Parliament, State Symbols, Territorial Problems

XX əsrin əvvəlləri Azərbaycan tarixinə silinməz izlər buraxmışdır. Milli Şuranın özünün müstəqilliyini təntənəli sürətdə elan etməsindən sonra Azərbaycan Xalq Cümhuriyyətinin qarşısında çox vacib dövlət quruculuğu işləri dayanırdı. İlk öncə dövlət müstəqilliyinin möhkəmləndirilməsi ən vacib işlərdən biri idi. Bu yolda AXC-nin qarşısında Sovet hakimiyyəti altında olan Bakı və erməni quldur dəstələri dayanırdı.1918-ci ilin yayında AXC öz mərkəzini Gəncəyə köçürdükdən sonra onun üzərinə təyziqlər dahada artdı. Nəticədə hərbi toqquşmalar baş verdi. Qardaş Osmanlı qüvvələrinin də köməyi ilə düşmən geri

oturduldu. Bu silahlı münaqişərin sonu Azərbaycan Və Türk hərbi birləşmələrinin Bakını azad etməsilə sona çatdı. Uzun sürən mübarizədən sonra Bakı yenidən AXC-nin tərkib hissəsi oldu. İndi əsas məsələ parlamentin yaradılması idi. Hər bir demokratik dövlətdə olduğu kimi qanunları parlament qəbul etməlidir, məhz bu səbəbdən AXC öz qanunverici orqanını yaratmağa məcbur idi. Noyabr ayında buraxılmış Milli Şura yenidən bərpa edildi. Milli Şura hökumətlərlə birlikdə parlamentin formalaşdırılması yolunda dayanmadan işlər görürdü. Milli Şuranın 1918-ci il, 16 noyabr tarixli iclası parlamentin çağırılmasının indiki şəraitdə qeyri-mümkün olmasını və digər fövqəladə şərtləri nəzərə alaraq Şuranın Azərbaycan parlamentinə çevrilməsini qərara aldı. Növbəti günlərdə isə parlamentin formalaşdırılması istiqamətində konkret addımlar atıldı[1]. Qanun layihələrinin işlənib hazırlanması ilə məşğul olan xüsusi komissiya "Azərbaycan Parlamentinin yaradılması haqqında" qanunu hazırladı. Adıçəkilən qanun Milli Şuranın 20 noyabr, 1918-ci il tarixli iclasında qəbul edildi, bununla da parlamentin yaradılması istiqamətində ən vacib hüquqi-siyasi addım nəhayət ki, atıldı. Qanunda Azərbaycan parlamentinin təmsil olunmasının əsas prinsip və müddəaları da yar almış, qanunvericilik texnikası baxımından vacib sayılan bir çox məsələlər öz həllini tapmışdı. Qanuna görə, parlament birpalatalı idi. Onun əsas nüvəsini Milli Şuranın ilk tərkibində yer alan 44 azərbaycanlı deputat təşkil edirdi. Parlamentin yaradılması yolunda ingilislərin, rus və ermənilərin ciddi təyziqlərinin olmasına baxmayaraq, Milli Şura və hökumət kabineti öz yollarından dönmürdülər. Bütün bu təzyiqlərə baxmayaraq, 1918-ci il dekabrın 7-də Azərbavcanm tarixində böyük hadisə baş verdi. Belə ki, Bakıda H.Z.Tağıyevin qız məktəbinin binasında Azərbaycan Xalq Cümhuriyvətinin parlamenti Milli Şuranın sədri M.Ə.Rəsulzadənin giriş sözü və təbrik nitqi ilə açıldı[2, s.94] Təsis iclasında başda F.X.Xovski olmaqla, Nazirlər Kabinetinin bütün nümayəndələri iştirak edirdi. "Müsavat" fraksiyanın təklifi ilə Əlimərdan bəv Topçubaşov parlamentin sədri, Həsən bəv Ağayev isə onun müavini seçlldi. Bitərəf və ixtisasca hüquqşünas olan Ə.M.Topçubaşov diplomatik və digər dövləti işlərlə əlaqədar olaraq parlamentdə iştirak etmirdi. Parlamentin ilk idaslarında Azərbaycan parlamentarizmi ənənələrinin əsası yaradıldı. Parlamentin qarşısında dayanan ilk və ən vacib məsələlər Azərbaycanın qonşu dövlətlərlə ərazi problemlərinin həll edilməsi və dövlət struktur mövqelərinin möhkəmləndirilməsi idi. Cümhuriyyətin ərazisi 113,9 min kv. km-ə bərabər idi. Eyni zamanda bu ərazinin 97.3 min kv. km-i mübahisəsiz, qalan 16.6 min kv.km-i isə qonşu dövlətlərlə mübahisəli ərazilər idi. Birinci dünya müharibəsində məğlub olan Osmanlı imperiyası hərbi qüvvələrini Cənubi Qafqazdan çıxaran kimi ermənilər Azərbaycana qarşı ərazi iddiası ilə çıxış etməyə başladılar. Ermənistan Azərbaycanın tarixi torpaqlarına olan iddialarını həyata keçirmək üçün Qarabağ, Zəngəzur, Naxçıvan və digər ərazilərdə soyqırımlarını daha da genişləndirdi. Naxçıvanda bu siyasətin qarşısını almaq üçün 1918-ci ilin noyabrında Araz Türk Cümhuriyyəti yaradıldı və bu Cümhuriyyət sonra Qarsda yaradılan Cənub-Qərbi Qafqaz Demokratik Cümhuriyyəti

ilə birləşdirildi. Son dərəcə mürəkkəb beynəlxalq və daxili vəziyyətə baxmayaraq, Azərbaycan Xalq Cümhuriyyəti ərazi və sərhəd məsələlərinə həyati əhəmiyyət verirdi. Cümhuriyyət Hökuməti Cənubi Qafqazdakı bütün tarixi Azərbaycan torpaqlarını öz nəzarəti altında saxlamağa çalışırdı. Azərbaycan hökuməti 1919-cu ilin yanvarın 15-də Zəngəzur, Şuşa, Cavanşir və Cəbrayıl qəzaları hüdudlarında Qarabağ general-qubernatorluğu təsis edir və Xosrovbəy Sultanov qubernator təyin olunur. Erməni tərəfi bu qərarı ermənilərin ərazi hüquqlarına qarşı qəsd adlandıraraq etiraz etdikdə Azərbaycan hökuməti onlara layiqli cavab verir və bildirir ki, həmin ərazilər Azərbaycanın mübahisə doğurmayan əraziləridir və Ermənistanın etirazı Azərbaycanın daxili işlərinə qarışmaq kimi qiymətləndirilməlidir. Beləliklə, Qarabağ məsələsində daşnaqlar susdurulur. Qarabağ general-qubernatorluğunun fəaliyyəti nəticəsində daşnaq Andronikin dəstələri darmadağın olunur, Şuşada ermənilərin özbaşınalığına son qoyulur və avqust ayında Dağlıq Qarabağ erməniləri ilə danışıqlar aparılaraq onların bu ərazidə Azərbaycanın suverenliyini qəbul etmələri barədə razılıq əldə olunur. 1919-cu ilin noyabrın 23-də Azərbaycan və Ermənistan hökumətləri arasındakı razılaşmaya görə tərəflər Zəngəzurdan qoşun hissələrini çıxarmalı idi. Azərbaycan hökuməti məsələnin tam həllini gözləmədən öz qoşunlarını Zəngəzurdan çıxardı. Ermənistan isə vəziyyətdən istifadə edib bölgəyə əlavə qoşun hissələri yeritdi və Zəngəzurda daha iri miqyaslı əməliyyatlar keçirdi. Zəngəzurdakı vəziyyətin nizamlanması uzun mübarizəyə səbəb oldusa da, Qarabağdakı uğurlu döyüşlərdən sonra Azərbaycan üçün müsbət həll olundu. Gürcüstan müstəqil respublika elan edildikdən sonra, yeni yaranmış dövlətin ərazisi və sərhədlərinin müəyyənləşdirilməsinə başlandı. Gürcüstan hökuməti vaxtilə çar Rusiyasının xüsusi məqsədlə Tiflis quberniyasının tərkibinə daxil etdiyi tarixi Azərbaycan torpaqlarına iddialarla çıxış etdi. Bu məqsədlə həm müvafiq xəritələr tərtib olunur, həm də əməli addımlar atılmasına cəhd edilirdi. Gürcüstan Sığnaq qəzasının cənub-şərq hissəsinə, Tiflis qəzasının Qarayazı düzünə, Borçalı qəzasının orta hissəsinə, həmçinin Zaqatala dairəsinə ərazi iddiaları qaldırırdı. Adı çəkilən ərazilərin əhalisinin böyük hissəsi müsəlman olması da bu ərazilərin tarixi Azərbaycan torpağı olmasını sütut edir. Aralarında ərazi problemi olmasına baxmayaraq Azərbaycan və Gürcüstan yaxın münasibətlərdə olmuşlar. 23 ay ərzində iki respublika arasında 10dan çox sənəd, 6 müqavilə imzalanmışdır. Buraya hərbi, siyasi, sosial, iqtisadi və inzibati-ərazi sənəd və müqavilələri daxildir. Ermənistan və Güstüstandan başqa AXC cənubdan İranla şimaldan isə dağlılar respublikası isə kiçik ərazi problemləri yaşamışdır. Lakin düzgün aparılan siyasət nəticəsində bu problemlər aradan qaldırılmış hətta bu respublikalarla dostluq münasibətləri qurulmuşdur. AXC dövründə ərazimiz 114 min kv.km olsada sovet hakimiyyətinin Azərbaycana olan qərəzli mövqeyi nəticəsində ərazilərimiz zamanla digər qoşulara gah onların torpaqları kimi gah da hədiyyə kimi onlara verilmişdir [6].

Cümhuriyyətin rəmzlərinin təyin olunması müstəqilliyin təməlini təmin edən əsas şərtlərdən biri idi. Dövlət rəmzi dedikdə ilk öncə dövlət bayrağı ağlımıza gəlir. Üçrəngli bayrağın təsdiq edilməsi haqqında qərar Azərbaycanın

müstəqilliyi və azadlığı uğrunda çox çətin şəraitdə mübarizəyə başlayan müvəqqəti milli hökumətin fəaliyyətinin Gəncə dövrünün ilk günləri milli dövlətçiliyimiz üçün çox əhəmiyyətli bir sıra qərarların, o cümlədən, Azərbaycan Xalq Cümhuriyyətinin dövlət bayrağının təsdiq edilməsi 21 iyun 1918-ci il haqqında qərarların qəbul edilməsi ilə tarixi yaddaşımıza daxil olmuşdur. İlk bayrağımız qırmızı rəng üzərində təsvir edilmiş aypara və səkkiz güşəli ulduz təsvir edilmişdi. Bu bayrağ demək olar ki, Osmanlı bayrağına bənzəyirdi. Buna görə Cümhuriyyətə Antanta dövlətlərindən başqa İngiltərə olmaqla böyük təyziqlər olunurdu. Məhz buna görə bayrağımıza dəyişikliklərlə bağlı 1918-ci ilin noyabrın 9-da Fətəli xan Xoyskinin hesabatı əsasında Azərbaycan Xalq Cümhuriyyətinin haqqında bayrağı qərar qəbul edildi. Bu qərara görə göy, qırmızı və yaşıl rəng üzərində təsvir edilən 8 güşəli ulduz və aypara Cümhuriyyətimizin əsas simvolu oldu. Cümhuriyyətin Dövlət bayrağı Aprel işğalı nəticəsində ləğv edilsə də, Azərbaycan xalqının istiqlal mübarizəsində böyük rol oynadı. 1988-ci ildə Milli Azadlıq Hərəkatı başlandıqda üçrəngli bayraq yenidən qaldırıldı. Bununla da Məhəmməd Əmin Rəsulzadənin uzaqgörənliklə dediyi “Bir kərə yüksələn bayraq bir daha enməz” - kəlamı özünü doğrultdu [7, s.5-6].

Hər bir gerb müəyyən ölkənin, dövlətin, millətin, şəhərin özünəməxsus milli adət-ənənələrini, dini və mifik görüşlərini, həmçinin tarixi, siyasi-ideoloji və mədəni baxışlarını müxtəlif simvollar vasitəsilə başqalarına-digər xalqlara, millətlərə, dövlətlərə çatdırmağa, bəyan etməyə xidmət edir. Dövlət gerbinin layihəsi Azərbaycan Xalq Cümhuriyyəti dövründə hazırlansa da, o illərdə onun qanunvericilik səviyyəsində təsdiqi və qəbul edilməsi mümkün olmamışdı. Dövlət gerbi və Dövlət möhürü haqqında ilk dəfə 1919-cu il martın 23-də müsabiqə elan olunmuşdu. Dövlət gerbinin və möhürünün təsvirinin hazırlanması ilə bağlı müsabiqə elan edilməsi haqqında Azərbaycan Xalq Cümhuriyyəti Nazirlər Şurası iki dəfə qərar qəbul etmişdir. Birinci qərara əsasən, 1919-cu ilin martın 23-də "Azərbaycan" qəzetində Azərbaycan Xalq Cümhuriyyətinin dövlət gerbi və möhürü layihələrinin hazırlanması üçün müsabiqə elan edilmişdi. Qərara əsasən, layihələr həmin il aprelin 20-sinə qədər təqdim olunmalı idi. Çox güman ki, müsabiqəyə təqdim olunmuş layihələr bəyənilməmiş və qəbul edilməmişdir. Buna görə də 1920-ci il yanvarın 30-da Hökumət hərbi ordenlər, milli himn, dövlət gerbi və möhürü layihələrinin hazırlanması üçün müsabiqə elan etmək barədə yenidən qərar çıxarmışdı. Ordenlərin layihəsinə baxılması işi hərbi nazirliyə, himn, gerb və möhür layihələrinə baxılması isə xalq maarifi nazirliyinə tapşırılmışdı. Xalq maarifi nazirliyi bu məqsədlə "Azərbaycan" qəzetində dəfələrlə elan verərək bildirmişdi ki, təqdim ediləcək ən yaxşı dövlət himni layihəsinə görə 50 min manat, ən yaxşı gerb və möhür layihələri üçün isə 25 min manat mükafat müəyyən olunmuşdur. Elanda bildirilirdi ki, müsabiqədə iştirak etmək istəyənlər həmin il mayın 1-nə qədər öz layihələrini məxfi zərflərdə xalq maarifi nazirliyinin dəftərxanasına təqdim etməlidirlər. Azərbaycan Xalq Cümhuriyyəti Nazirlər Şurası 1920-ci il yanvarın 30-da "Azərbaycan

Respublikasının gerbi və möhürünün, milli himninin və hərbi ordenlərinin layihələrinin hazırlanması haqqında" yenidən qərar qəbul etdi. Qərarın birinci bəndində hərbi ordenlərin yaradılması üçün müsabiqə elan edilməsi Hərbi Nazirliyə, ikinci bəndində isə milli himnin, dövlət gerbi və möhürünün layihələrinin hazırlanması ilə bağlı müsabiqə keçirilməsi isə Xalq Maarif Nazirliyinə həvalə edilmişdi. Bu qərarı əsas tutan Xalq Maarif Nazirliyi 1920-ci ilin fevralın 19-da “Azərbaycan” qəzetində dövlət gerbi və möhürünün təsvirinin, eləcə də milli himnin mətninin layihələrinin hazırlanması barədə müsabiqə elan etdi. Müsabiqədə ən yaxşı milli himnin mətni və musiqisi üçün 50 min rubl, gerb və möhürün ən yaxşı təsvirinə görə isə 25 min rubl mükafat təyin edilmişdi. Layihələr Xalq Maarif Nazirliyinə təqdim edilməli, Milli İstiqlalın ikinci ildönümünədək təsdiq edilməli idi. Lakin 1920-ci il aprelin 27-də Azərbaycanın Sovet Rusiyası tərəfindən işğalı bu mühüm dövlət tədbirinin başa çatdırılmasına imkan vermədi. Azərbaycan müstəqilliyini bərpa edəndən sonra dövlət gerbi haqqında yeni müsabiqə elan olundu. Müsabiqə komissiyasına daxil olan eskizlər Azərbaycan Respublikasının Milli Məclisində geniş müzakirə edildi, lakin onlar qənaətbəxş hesab olunmadı. Buna görə də yuxarıda bəhs olunan gerb layihəsini bərpa etmək qərara alındı [10].

Azərbaycan Xalq Cümhuriyyəti hökuməti tərəfindən digər dövlətçilik atributları ilə yanaşı, Dövlət himnimizin yaradılması sahəsində də müəyyən addımlar atılmış, qərarlar qəbul edilmişdi. Müstəqil Azərbaycan Respublikasının dövlət himninin layihəsi 1919-1920-ci illərdə hazırlanmışsa da, o dövrün tarixi-siyasi hadisələri onun qanunvericilik səviyyəsində qəbuluna imkan verməmişdir. Belə ki, Azərbaycan Xalq Cümhuriyyətinin Nazirlər Şurası Maarif Nazirliyinin təklifinə baxaraq 1920-ci il yanvarın 30-da Azərbaycan Respublikasının milli himni, dövlət gerbi və möhürü, hərbi ordenlərinin layihələrinin hazırlanması haqqında qərar qəbul etmişdi. Bu məqsədlə müsabiqə elan edilməsi Xalq Maarif Nazirliyinə həvalə edilmişdi. Həmçinin hökumət qərarı ilə milli himnin yaradılması məqsədilə müsabiqə qalibinə 50 min rubl vəsait ayrılması nəzərdə tutulmuşdu. Bu qərarı əsas tutaraq 1920-ci il fevralın 19-da Xalq Maarif Nazirliyi “Azərbaycan” qəzetində milli himn, dövlət gerbi və möhürünün hazırlanması üçün müsabiqə elan etmişdir. Bu atributların Azərbaycan Xalq Cümhuriyyətinin yaranmasının ikinci ildönümünədək – yəni 28 may 1920-ci ilədək qanunvericilik səviyyəsində qəbul edilməsi nəzərdə tutulurdu. Lakin məlum işğal səbəbindən himnimiz qəbul edilmədi.

Yuxarıda qeyd etdiyimiz kimi, 1919-cu il martın 23-də Azərbaycan Xalq Cümhuriyyətinin dövlət möhürünün layihəsini hazırlamaq üçün müsabiqə elan olunması barədə qərar qəbul etdi. Qərara əsasən, layihələr həmin il aprelin 20-nə qədər Poçt və Teleqraf nazirliyinə təqdim edilməli idi. Lakin həmin müsabiqənin nəticələri barədə hələlik məlumat aşkar edilməmişdir. İkinci dəfə isə Cümhuriyyət Hökuməti 1920-ci il yanvarın 30-da Dövlət himni və gerbi ilə yanaşı, Dövlət möhürünün də layihəsini hazırlamaq barədə qərar qəbul etdi.

Qərara əsasən, bu məsələ ilə bağlı müsabiqə elan olunması xalq maarifi nazirinə həvalə olundu. Xalq maarifi nazirliyi müsabiqə barədə qəzetlərdə verdiyi elanlarda Dövlət himni, gerbi və möhürü üçün müsabiqəyə təqdim olunacaq layihələrin həmin il mayın 1-nə qədər məxfi zərflərdə xalq maarifi nazirliyinin dəftərxanasına göndərilməsini xahiş edirdi. Müsabiqənin nəticələri Azərbaycan İstiqlalının ikinci ildönümünə, yəni 1920-ci il mayın 28-nə qədər elan olunmalı idi. [5.s.458-459].

Hökumət 1919-cu ilin əvvəllərindən dövlətin ən mühüm sayılan kağız pullar buraxmağa başladı. 1919-cu il ərzində 25, 50, 100, 250 manatlıq kağız pullar buraxıldı. 1920-ci ilin əvvəllərində dövriyyəyə daxil olmuş ən iri nominalın-500 manatlıq əsginasın üzərində Azərbaycan Xalq Cümhuriyyətinin və nominalın adı Azərbaycan, rus və fransız dillərində verilmişdi. 1919-1920-ci illərdə buraxılmış pul vahidlərinin adları Azərbaycan dilində manatla, rus dilində isə rublla göstərilirdi. Bundan əsas məqsəd uzun illər boyu Rusiya kağız pullarına öyrəşmiş əhalidə yeni milli pula tədricən inam yaratmaq idi. Azərbaycan Xalq Cümhuriyyətinin bu sahədə siyasətinin mahiyyəti milli valyutanı – manatı beynəlxalq miqyasda tanıtmaqla bağlı idi. 500 manatlıq əsginasın üzərində Cümhuriyyətin və nominalın adlarının fransızca verilməsi də bununla əlaqədar olmuşdur.

**Ədəbiyyat siyahısı:**

1. Azərbaycan Demokratik Respublikası 1918-1920/ – Bakı: Səda, – 2004, – 201 s.
2. Nəsibzadə, N. Azərbaycanın xarici siyasəti (1918-1920) / Nəsibzadə, N. – Bakı: Ay-Ulduz, – 1996, – 304 s.
3. Мадатов, Г. Победа Советской власти в Нахичевани и образование Нахичеванской АССР / Г.Мадатов. – Баку, – 1968. – 188 с.
4. Azərbaycan Xalq Cümhuriyyəti Ensiklopediyası: [2 cilddə] / – Bakı: Lider, – 2004. – 440 s.
5. Azərbaycan Xalq Cümhuriyyəti. 1918-1920-ci illər. Parlament (Stenoqrafik hesabat): [2 cilddə]. – Bakı: Azərbaycan, – 1998. – 976 s.
6. Məmmədova, H. Azərbaycan Xalq Cümhuriyyəti dövründə Yuxarı Qarabağda siyasi vəziyyət: Erməni terrorizminin güclənməsi (1918-1920) / H.Məmmədova – Bakı: Nağıl evi, – 2006. – 150 s.
7. Nəsibzadə, N. Azərbaycan Demokratik Respublikası /N.Nəsibzadə. – Bakı: – 1990. – s.9.
8. Mehdiyev, R. Milli məfkurə, dövlətçilik, müstəqillik yolu ilə / R.Mehdiyev. – Bakı: Şərq-Qərb, – 2006, – c.1.
9. Ağamalıyeva, N. Azərbaycan Demokratik Respublikası parlamentinin fəaliyyətinə dair / N.Ağamalıyeva. – Bakı, – 1996. – s.90
10. Azərbaycan Xalq Cümhuriyyəti (1918-1920). Parlament (Stenoqrafik hesabatlar). II cild. – Bakı: Azərbaycan, – 1998, – 992 s.

# ERMƏNİLƏRİN CƏNUBİ QAFQAZA KÖÇÜRÜLMƏSİ

**Rəşad Cabarov**
*Bakı Dövlət Universiteti Fəlsəfə tarixi və mədəniyyətşünaslıq kafedrasının doktorantı, Azərbaycan tarixi (humanitar fakültələr üzrə) kafedrasının müəllimi*
oguz.azercell@mail.ru

**Açar sözlər:** Cənubi Qafqaz, ermənilər, Rusiya imperiyası, Qarabağ, erməni vilayəti
**Keywords:** South Caucasus, Armenians, Russian Empire, Karabakh, Armenian province

Azərbaycanın şimal torpaqlarını işğal edən Rusiya imperiyası Cənubi Qafqazda müstəmləkə siyasətinin tərkib hissəsi kimi köçürmə siyasətini həyata keçirməyə qərar verdi. Şimali Azərbaycan üçün strateji planın mahiyyəti bu ölkəni Rusiya imperiyasının ayrılmaz bir hissəsinə çevirmək idi. Bu məqsədə çatmaqla, Rusiya Şimali Azərbaycan ərazisində köçürmə siyasətini həyata keçirir, burada xristianları sistematik şəkildə yerləşdirir və ölkənin ruslaşması və burada müsəlman elementinin tədricən zəifləməsi üçün nəzərdə tutulan digər tədbirlər həyata keçirirdi. Ruslar köçürmə siyasətini öz fəthlərinin tərkib hissəsi hesab edirdilər [12, s.41].

XIX əsrin əvvəllərində, kolonializm siyasətinin mərkəzində ermənilərin Türkiyə və İrandan Qafqaza, ilk növbədə Qərbi Azərbaycan və Qarabağa köçürülməsi məsələsi olmuşdur. Rusiya - İran müharibəsi dövründə və sonra 1804-1813 və 1826-1828-ci illərdə ermənilərin Cənubi Qafqaza, xüsusilə də Qarabağa kütləvi miqrasiyası nəticəsində bu ərazilərdə yaşayan ermənilərin sayı artmağa başladı. Məsələn, 1826-1828-ci illərdə Rusiya-İran müharibəsi zamanı 18 min erməni ailəsi İran və Cənubi Azərbaycandan yuxarıdakı ərazilərə köçürülmüşdü.

Bu dövrdə regionun zəngin təbii sərvətləri üzərində nəzarəti ələ keçirmək istəyən çar Rusiyası XVIII əsrin sonu – XIX əsrin əvvəllərində Türkiyə və İrana qarşı müharibə apararkən "erməni amili"ndən siyasi alət kimi istifadə etməklə, əhalinin erməniləşdirilməsi siyasətini də həyata keçirmişdir. Bu zaman ermənilərin köçürülməsinin əsas istiqamətlərindən biri məhz mühüm strateji əhəmiyyət kəsb edən Qarabağ ərazisi olmuş, bu bölgəyə çarizm tərəfindən xüsusi diqqət yetirilmişdir. Belə ki, XIX əsrin əvvəllərində Qafqaz qoşunlarının baş komandanı P.D.Sisianov Gəncəni tutduqdan sonra 1805-ci il 22 may 19 №-li raportunda yazırdı ki, Qarabağ özünün coğrafi mövqeyinə görə Azərbaycanın, eləcə də İranın qapısı hesab edilir, buna görə də onu itaətdə saxlamalı və burada mövqeyimizi möhkəmlətməyə daha çox cəhd göstərməliyik [1, s.9].

1828-1830-cu illərdə Naxçıvana səfər edən V. Qriqorev, erməni köçkün-

lərin yerləşdirilməsini ətraflı izah edərək, hakimiyyətin onlara qayğısından söz edir: "... İrandan gələn 2551 ailə var idi; Bunlardan şəhərdə 416 ailə, 1869 ailə Naxçıvan, 226 ailə Ordubad kəndlərində məskunlaşmışdır" [2, s.39-40].

Ermənilərin Qafqaza köçürülməsi işində erməni mənşəli rus məmurları da az rol oynamamışlar. Rusiya işğalları zamanı mühüm vəzifələrdən birini tutmuş X.E.Lazaryev soydaşlarının (erməni) Şimali Azərbaycana köçürülməsində Türkmənçay müqaviləsinin XV maddəsinin yerinə yetirilməsində A.S.Qriboyedovun demək olar köməkçisi rolunu ifa etmişdir.

Türkmənçay sülh müqaviləsi şərtlərinə əsasən, erməni əhalisinin sərbəst köçürülməsinə icazə verildi. Bu müqavilə İrandan ermənilərin Cənubi Qafqaza, o cümlədən Qarabağa kütləvi miqrasiyası üçün geniş imkanlar verdi. Çar hökumətinin Cənubi Qafqazda, o cümlədən Qarabağdakı ermənilərin köçürülməsi məsələsində və Qafqazdakı demoqrafik vəziyyətə dair bu köçürülmənin təsirindən ötəri əsas məqsədi ilə əlaqədar olaraq N.Şavrov yazırdı: "Biz Zaqafqaziyada imperial siyasəti Rus əhalisinin köçürülməsi ilə deyil, digər xalqların köçürülməsindən yürütməyə başladıq. 1828-ci ildən 1830-cu ilə qədər İrandan 40 mindən çox erməni və Türkiyədən 84 mindən çox köçürülmüş və onları Yelizavetpol və İrəvan quberniyalarının ən yaxşı ərazilərinə yerləşdirmişdik ki, burada öncə erməni əhalisi azlıq təşkil edirdi. Yerləşdirmə üçün 200 mindən çox dövlətə məxsus torpaq payı ayrılmış, onlar üçün 2 mln. manatdan çox məbləğdə torpaq satın alınmışdır. Yelizavetpol əyalətinin dağlıq hissəsi (Qarabağın dağlıq hissəsi) və Göyçə gölünün ətrafı ermənilər tərəfindən məskunlaşdırılıbdır . Köçkünlərin və qeyri-rəsmi olaraq hərəkət edənlərin ümumi sayı 200 min nəfərdən çox idi. XX əsrin əvvəllərində bu köçürmələrin nəticəsi olaraq, Cənubi Qafqazda yaşayan 1.3 milyon erməni, yerli xalqı deyil, bizim tərəfindən köçürülmüşdür" [9, s.59-61].

Azərbaycan tarixində mənfi iz buraxmış Türkmənçay müqaviləsini və digər müqavilələri şərh edən Kərim Şükürov yazır ki, Azərbaycanın əlverişli təbii-coğrafi şəraiti, geostrateji mövqeyi, təbii sərvətləri, əməksevər insanlarının zəhməti hesabına yaranan zəngin var-dövləti və s. bütün uzaq və yaxında yerləşən dövlətlərin diqqətini cəlb etmişdir. Dostluq, əməkdaşlıq və ticarət əlaqələrinə əsaslanan sülh münasibətləri ilə birgə təcavüzkar, iddialı niyyətlər də olmuşdur. Tarix göstərir ki, ikincilər üstünlük təşkil etmiş, Azərbaycan tarixində yadelli hücumlarına qarşı mübarizə, zülm və əsarət əleyhinə çıxışlar xətti başlıca yer tutmuşdur. Təəssüf ki, bəzən düşmən güclü olmuş, öz niyyətlərini həyata keçirməyə nail ola bilmişdir. Belə tarixi dövrlərdən biri də XVIII yüzilin sonları - XIX yüzilin başlanğıcında yaranmış, nəticədə Rusiya ilə İran arasında bağlanmış Gülüstan (1813) və Türkmənçay (1828) müqavilələri ilə tarixi Azərbaycan torpaqları bölüşdürülmüşdü. Lakin məsələ bununla bitməmiş, Azərbaycan torpaqlarının Rusiya və İran daxilində bölüşdürülməsi də davam etdirilmişdi. Azərbaycanın siyasi, sosial-iqtisadi və mədəni inkişafı ciddi problemlərlə qarşılaşmış, ölkənin və xalqın yaradıcılıq və quruculuq potensialının həyata keçirilməsi, dünya birliyində layiqli yerini

tutması, qüdrətli bir dövlətə çevrilməsi yolunda ağlagəlməz əngəllər yaradılmışdı. Gülüstan və Türkmənçay dövründə yaşayan və bundan sonra dünyaya gələn hər bir nəsil bunu öz üzərində hiss etmişdir. Buna müxtəlif reaksiyalar olmuşdur. Lakin bütün hallarda belə bir sual hər kəsi düşündürmüşdür: bu necə olmuşdur? Bu barədə müxtəlif kitablarda bəhs olunmuş, ədəbi-bədii əsərlərdə söz açılmışdır. Ermənistan Respublikasının gizli müttəfiqləri ilə birlikdə Azərbaycana qarşı işğalçı müharibəsi və Dağlıq Qarabağı qoparmaq cəhdləri bu sualı bir daha aktuallaşdırır, tarixdən nəticə çıxarmağı zəruri edir [10, s.7].

Rus tarixçisi V. Velichko yazırdı: "Paskeviç, təxminən 40 min ermənini Zaqafqaziya ölkəsinə dəvət etmək üçün İrana göndərilmişdir. Burada Eçmiadzin patriarxı da iştirak etdi. Beləliklə, İrandan erməni keşişlərinin köçürülməsi barədə göstəriş verdi. Adrianopol müqaviləsinə əsasən, 100 mindən artıq erməni Türkiyədən köçürüldü. Ərzurumdan Karapet adlı bir arxiyepiskop təxminən 70 min ermənini yola salındı. Bundan sonra ermənilərin müsəlman ölkələrindən Rusiyaya köçürülməsi davamlı oldu və kütləvi xarakter aldı" [11, s.121-122].

Digər Rusiyalı alim S.Qlinka ermənilərin köçürülməsi haqqında yazırdı: "9 mart 1828-ci ildə son rus ordusu Təbrizdən ayrıldı ... Türkmənçay müqaviləsinə əsasən, müxtəlif kəndlərdən olan ermənilər Qarabağa doğru yola düşdülər ... Lazarev, Təbrizdəki knyaz Arqutinsky-Dolqorukini ləngitdi ki, Marağada səbirsizliklə gözləyən ermənilərin köçürülməsi bir neçə məmurla müşayiət edilsin [4, s.81].

Beləliklə, Türkmənçay müqaviləsi çərçivəsində erməni əhalisinin İran və Türkiyədən İrəvan xanlıqları, Qarabağ və digər Azərbaycanın əyalətlərinə köçürülməsi nəticəsində demoqrafik vəziyyət böyük dəyişikliklərə məruz qalmışdır. Köhnə İrəvan xanlığının ərazisində qurulan "Erməni vilayətində, əgər 1828-ci ildə Azərbaycan türklərinin nisbəti 73,8%, onda 1834-1835-ci illər idisə bu rəqəm 46.2%-ə endi" [3, s.314].

1832-ci ildə kameral hesablamalara əsasən, Qarabağ vilayətində 32.4 min azərbaycanlı (64.8%) və 17.4 min erməni (38.8%) qeydə alınmışdı. Beləliklə, 1823-cü ildə erməni əhalisi 8.4% idisə, bununla müqayisədə erməni əhalisi nisbətən qısa müddətdə dörd dəfə artmışdı. Aşağıdakı hesablamalara görə, 1880-ci illərin sonlarında Şuşa qəzasında azərbaycanlıların nisbəti 41,5% -ə düşüb, ermənilərin payı isə 58,2%-ə çatmışdı. 1897-ci ildə Ümumrusiya hesablamalarına görə, eyni göstəricilər sırasıyla 53% və 45% idi [6, s.3].

Ermənilərin inzibati-idarə sistemində möhkəmlənməsi də köçürülmə vasitəsi ilə həyata keçirilirdi [8, s.40]. XIX əsrin 80-ci illərinin sonlarında, Şuşa qəzasında Dağlıq Qarabağ ərazisini əhatə edən kütləvi köçürülmə nəticəsində ermənilər artıq əhalinin 58 faizini təşkil edirdi [6, s.48-61]. Köçürmə siyasətini həyata keçirmək üçün çarizmin atdığı ciddi addımlardan biri də Cənubi Qafqazda ermənilər üçün xüsusi "vilayət" təşkil edilməsi oldu. Belə ki, 1828-ci il martın 20-də Türkmənçay müqaviləsi ratifikasiya edildikdən bir gün sonra,

martın 21-də çar I Nikolay "Erməni vilayətin"in yaradılması haqqında fərman imzaladı. Qeyd edək ki, "Erməni vilayəti" Azərbaycanın tarixi torpaqlarının hesabına yaradılmışdı, vilayət inzibati olaraq İrəvan və Naxçıvan əyalətlərinə və Ordubad dairəsinə bölünmüşdü. Vilayətin idarəsi isə gürcü knyazı, general-mayor A.Q.Çavçavadzeyə tapşırılmışdı [7, s.60].

Bunun müqabilində ermənilərin də öz niyyətləri vardı. Bütün dövrlərdə olduğu kimi bu zaman kəsiyində də erməni siyasi düşüncəsnin başlıca hədəfi müəslman-türk torpaqları əsasında böyük Ermənistan xülyasının reallaşmasına çalışılması idi [13, s.99].

**Ədəbiyyat siyahısı:**

1. Əhmədov, E.İ. Ermənistanın Azərbaycana təcavüzü: etnik təmizləmə, soyqırımı, terror, işğal. II kitab. – Bakı: Azərbaycan Respublikasının Prezidenti yanında Elmin İnkişafı Fondu, – 2015. – 408 s.
2. Григорьев, В. Статистическое описание Нахичеванской провинции // – СПб., – 1833, – с.39-40.
3. Грузия МДТА, Ф.2. сп.1, дело 3859, стр.314, л.20.
4. Глинка, С. Описание переселения армян Азербайджанских в пределы России / С.Глинка, – Баку: Элм. – 1990, – с.81.
5. Кавказский календарь Российской империи 1897 г., LXIII - Елизаветпольская губерния. – СПб, – 1904, – с.3.
6. Кавказский календарь на 1896 г., V отд. – с.48-61.
7. Mirzəzadə, A. XIX əsrın 20-30-cu illərində çar Rusiyası tərəfindən ermənilərın Cənubi Qafqaza kütləvi köçürülməsi və bölgədə "ermənı amili"nin yaranması // Tarix və onun problemləri, – 2014. № 4, – s.57-62.
8. Mahmudov, Y.M. Qarabağ: real tarix, faktlar / Y.M.Mahmudov, K.K.Şükürov. – Bakı: Təhsil, – 2005, – 380 c.
9. Шавров, Н. Новая угроза русскому делу в Закавказье/ Н.Шавров. – СПб., – 1911, – с.59-61.
10. Şükürov, K. Türkmənçay – 1828: Tarixi xronika (İxtisarla) / K.Şükürov. – Bakı: 2006, – 188 s.
11. Величко, В. Кавказ. Русское дело и междуплеменные вопросы. – Баку: Элм, – 1990, – с.121-122.
12. Вердиева, Х.Ю., Переселенческая политика Российской империи в Северном Азербайджане (XIX - начале XX вв.). – Баку, Ecoprint, – 2016, – 420 с.
13. Yaqubov, Y. 1918-1920-ci illərdə erməni siyasi ideologiyası və insanlıq əleyhinə cinayətlər // Tarix və onun problemləri, – 2013, № 1. – s.99-103.

*Azərbaycan Xalq Cümhuriyyətinin yaranmasının 103-cü ildönümünə həsr edilmiş*
*"Azərbaycan Xalq Cümhuriyyəti tarixi tədqiqatlarda"*
*Respublika elmi konfransı. 27-28 may 2021-ci il. Bakı*

# AZƏRBAYCANDA İLK XALQ HAKİMİYYƏTİNİN QURULMASI (1918-1920)

**Sevda Süleymanova**
*BDU-nun Azərbaycan tarixi (təbiət fakültələri üzrə) kafedrası,*
*tarix üzrə elmlər doktoru, professor*
s.u.suleymanova@mail.ru

**Açar sözlər:** Dövlətçilik, Cümhuriyyət, İstiqlal bəyannaməsi, xalq hakimiyyəti, demokratiya
**Ключевые слова:** Государственность, Республика, Декларация свободы, народная власть, демократия

Azərbaycanın qədim dövlətçilik tarixinin, xüsusilə ilk demokratik cümhuriyyətinin dərindən və hərtərəfli araşdırılması hər zaman öz aktuallığını saxlamaqdadır. Belə ki, dövlətçilik ənənələrimizin kökləri hələ e.ə. III-I minilliklərə gedib çıxır. Cənub torpaqlarımızda Urmiya gölü ətrafında yaşamış kuti, lullubi, turukki və digər qədim tayfalar qədim Şərq dövlətləri olan Akkad, Şumer, Assur çarlarının hücumlarını dəf etmək məqsədilə birləşərək dövlətçiliyin astanasına çatsalar da buna müvəffəq olmamışlar. Yalnız e.ə. IX-IV əsrlərdə qədim Azərbaycan ərazisində Manna və Atropatena, Araz çayından şimalda isə Alban dövlətləri yaradılmışdır. Təəssüf ki, bu dövlətlərimizin tarixinə İran və Ermənistan sahib çıxmağa çalışırlar. Bu cəhətdən də qədim dövlətlərimizin tarixinin öyrənilməsi də ilk xalq cümhuriyyətimizin tarixinin elmi təhlili və təbliği qədər vacib və əhəmiyyətlidir.

Orta əsrlər dövründə Azərbaycan ərazisində mövcud olan dövlətlər yeni ictimai-iqtisadi və siyasi inkişaf mərhələsinə qədəm qoydular. IX-XII əsrlərin feodal pərakəndəliyi dövründə şimal torpaqlarımızda Şirvanşahlar və Şəddadilər, cənubda Rəvvadilər, Araz çayının hər iki sahilini əhatə edən Saci və Salari dövlətləri mövcud olmuşdur. Görkəmli tarixçimiz S.Əliyarlının yazdığına görə, sərhədləri Qafqaz dağ silsiləsindən 36-cı paralelin keçdiyi Dəclə çayının qolu Kiçik Zab çayının başlanğıcını götürdüyü Qurd dağına qədər böyük bir ərazini əhatə edən "Azərbaycan çarlığl" terminini Mir Yəhya Qəzvini, İsgəndər bəy Münşi və b. öz əsərlərində istifadə etmişlər [2, s.418]. XVI əsrdə Şah İsmayil Xətayi tərəfindən yaradılmaış Səfəvi imperatorluğu Azərbaycan dövlətçilik tarixində ən geniş əraziyə (2,8 milyon kv.km) malik olmuşdur. Nadir şah Əfşarın imperatorluğu dağıldıqdan sonra Azərbaycanın şimalında və cənubunda müstəqil xanlıqların yaranması ilə yenidən feodal pərakəndəliyi və ara müharibələrinin başlanması vətənimizin qonşu Rusiya və İran arasında indiyə qədər davam edən iki yerə parçalanması ilə nəticələndi. 1828-ci il 10 fevral tarixli Türkmənçay sülhü ilə İrana birləşdirilmiş Cənubi Azərbaycanda XX əsrin I yarısında 3 dəfə: 1905-1911, 1917-1920 və 1945-1946-cı illərdə milli dövlətçiliyin qurulmasına cəhd olunsa da, onların ömrü çox qısa sürmüş, İran, Rusiya və İngiltərənin silahlı

dəstəyi ilə süquta uğramışdır.

Şimali Azərbaycanda isə hələ XIX əsrin sonundan görkəmli ictimai-siyasi xadimlərimiz M.F.Axundov, H.Zərdabi, Ə.Hüseynzadə, Ə.Ağaoğlu, Ə.M.Topçubaşov, M.Ə.Rəsulzadə və bir çox digər ziyalılarımız milli şüur, milli özünüdərk, nəhayət milli-azadlıq hərəkatının oyanışı və yüksəlişində mühüm rol oynadılar. Yüksək savada malik vətənpərvər siyasi xadimlərimiz milli burjuaziyanın dəstəyi ilə usanmadan apardıqları azadlıq uğrunda mübarizədə qalib gəlib ilk xalq hakimiyyətini qurdular. Beləliklə də XIX əsrin əvvəllərində dövlətçiliyini itirən xalqımız 100 il sonra çarizmin müstəmləkəçilik buxovlarından azad olaraq suveren xalqların cərgəsinə qoşuldu.

Cümhuriyyətin yaranması bir çox cəhətlərinə görə dünyada, Rusiya imperiyasında və Cənubi Qafqazda cərəyan edən siyasi, hərbi proseslərin tərkib hissəsi kimi beynəlxalq əhəmiyyət kəsb edirdi. İslam dünyasında ilk demokratik cümhuriyyətin məhz Azərbaycanda yaranması XIX əsrin sonu-XX əsrin əvvəllərində burada baş vermiş mütərəqqi ictimai-siyasi, sosial-iqtisadi və mədəni-mənəvi dəyişikliklərin, mütəfəkkir maarifçi ziyalıların millətin oyanışı və dirçəlişi uğrunda apardıqları mücadilənin məntiqi nəticəsi idi. Bu həm də Azərbaycançılıq ideyasının əməli surətdə həyata keçirilməsi sahəsində atılan addım sayılır. O vaxta qədər bütün Şərqdə mövcud olmuş despotik dövlətlərdən fərqli olaraq, Azərbaycan Cümhuriyyəti müasir Avropa siyasi, mədəni dəyərlərinə tam cavab verən, öz demokratik prinsiplərinə görə, hətta bir çox Avropa dövlətlərini qabaqlayan mütərəqqi siyasi sistemə malik idi. Bütün müsəlman Şərqində ilk dünyəvi, demokratik milli dövlət olan Azərbaycan Cümhuriyyətini M.Ə.Rəsulzadə, həmçinin ilk demokratik türk dövləti adlandırırdı. Belə ki, türk mənşəli bütün digər dövlətlər başlıca olaraq dini təməl üzərində qərar tutduqları halda Azərbaycan Respublikası müasir milli-mədəni müstəqillik təməlinə, türk milli-demokratik dövlət qurumu zəmininə əsaslanır və bu baxımdan bizim respublikamız ilk türk dövlətidir [3, s.77].

1918-ci il mayın 28-də Azərbaycan Şurayi-Milliyyəyi İslamiyyəsi 6 maddədən ibarət Akt (Əqdnamə) qəbul etdi. “İstiqlal bəyannaməsi” adlanan bu sənədin 2-ci maddəsində deyilir ki: “Müstəqil Azərbaycan dövlətinin şəkli-idarəsi Xalq Cümhuriyyəti olaraq təqərrür ediyor”[1, s.316; 4, s.8]. Milli ideyanın və Azərbaycan Cümhuriyyətinin banisi M.Ə.Rəsulzadə ilk xalq hakimiyyətinin Şimali Azərbaycanın Sovet Rusiyası tərəfindən istilası nəticəsində devrilməsindən 9 il sonra yazırdı: “İslam dünyasında ilk dəfə olaraq təəssüs edən bir Türk Cümhuriyyətinin istiqlalını təsbit etmiş 28 May Bəyannaməsi... Böyük Fransız ixtilalı, Böyük Amerika istiqlal hərbi, Böyük Almaniya istixlası, Böyük İtalyan ittihadı kibi hürriyyət və milliyyət hərəkatlarında əsas təşkil edən və nəhayət, Vilsonun 14 maddəsində yer bulan Millətlər Cəmiyyəti fikrinin əsasını təşkil edən böyük fikir müqtəziyatının Azərbaycan xüsusiyyətilə imtizac etdiyini göstərən bir vəsiqədir”[4, s.9].

Cümhuriyyətin qurulması ilə Azərbaycan xalqı tarixində ilk dəfə dövlət statuslu bir millətə çevrildi. “İstiqlall bəyannaməsi”nin nəşr olunması

iləAzərbaycan kəlməsi sadə coğrafi, etnoqrafi və linqvistik bir kəlmə olmaqdan çıxaraq siyasi bir aləm olmuşdur [5]. Bəyannamənin siyasi-hüquqi əhəmiyyəti həm də ondan ibarət idi ki, o yeni dövlətin siyasi sisteminin demokratik, parlament idarəçiliyi formasında respublika, ali dövlət hakimiyyət orqanları sistemi, milli siyasətin əsaslarını müəyyənləşdirirdi. İlk Azərbaycan parlamentində müxtəlif millətlərin nümayəndələrinin təmsil olunması və bütün siyasi partiyaların fraksiyalarının yaradılması Cümhuriyyətin əsl xalq hakimiyyəti olduğunu sübut edir.

**Ədəbiyyat siyahısı:**

1.Azərbaycan tarixi. V c. (1900-27 aprel 1920). – Bakı: Elm, – 2001. – 629 s.
2.Əliyarlı, S. Республика Азербайджан: Заметки о государственных границах в прошлом и настоящем//Tariximiz. Açıqlanmamış mövzuları ilə. – Bakı: – Mütərcim, – 2012. – 560 s.
3.Hüseynov, Ş. Müstəqilliyin çətin yolu. Biz hara gedirik. –Bakı: Azərnəşr, – 1996. –157 s.
4.Rəsulzadə, M.Ə. Əsərləri, V c. (1918-aprel 1920). – Bakı: Qanun, – 2014. – 564 s. // "İstiqlal" məcmuəsi, – 28 mayıs 1919. – №1; "Odlu yurd", – 28 may 1929. – №4, – s.118-121.
5.Rəsulzadə, M.Ə. İstiqlal qəzeti, – 1933. 28 may.

## AZƏRBAYCAN XALQ CÜMHURİYYƏTİNİN XARİCİ SİYASƏTİ

**Sevinc Əliyeva**
*Bakı Dövlət Universiteti, magistr*
sevincali1997s@gmail.com

**elmi rəhbər: BDU-nun siyasi elmlər üzrə fəlsəfə doktoru: Nigar Dünyamalıyeva**

**Açar sözlər:** AXC, xarici siyasət, müstəqillik, diplomatiya
**Keywords:** APC, foreign policy, independence, diplomacy

Azərbaycan Milli Şurasının 1918-ci il mayın 28-də Tiflisdə Azərbaycanın dövlət suverenliyi haqqında İstiqlal Bəyannaməsini qəbul etməsi ilə Azərbaycan dövlətçiliyi Azərbaycan Xalq Cümhuriyyəti formasında elan olundu. İstiqlal Bəyannaməsində, həmçinin bir çox diplomatik sənədlərdə AXC-nin xarici siyasətinin əsas məqsəd, prinsip və vəzifələri ifadə olunmuşdur. İstiqlal Bəyannaməsi AXC-nin xarici siyasətinin əsas dayaq nöqtəsi sayılır. AXC-nin xarici siyasətinin əsas məqsəd və vəzifələrini və onun prioritetlərini aşağıdakı kimi ifadə etmək olar:

1. Yeni müstəqillik qazanmış Azərbaycan dövlətçiliyinin beynəlxalq birliyin bərabərhüquqlu üzvü statusuna nail olması və gücləndirilməsi;
2. Dövlətin ərazi bütövlüyünün təmin edilməsi, ermənilərin hərbi təcavüzünün qarşısının alınması və əsassız torpaq iddialarına son qoyulması;
3. Qərbin böyük dövlətləri başda olmaqla qonşular, Rusiya, Qafqazda yaranan yeni respublikalar, o cümlədən bütün ölkələr və millətlərlə normal əlaqələrin qurulması.

AXC-nin xarici siyasətinin əsas prioritet istiqamətlərini ardıcıl olaraq nəzərdən keçirsək burada suverenliyin qorunması; başqa dövlətlərin ərazi bütövlüyünə və bir-birinin müstəqilliyinə hörmətlə yanaşması; beynəlxalq hüqunun bütün normalarına riayət edilməsi və s. qeyd etmək olar. Yeni yaranmış dövlətçiliyinin davamlı və möhkəm olması xarici siyasətin necə yürüdülməsindən aslı idi.

AXC hökumətinin birinci kabinəsində Xarici İşlər Nazirliyinin yaradılması xarici siyasətin həyata keçirilməsi üçün əsas addım idi. AXC dövründə Xarici İşlər Naziri vəzifəsini sırası ilə M.Hacınski (I hökumət kabinəsi), Ə.Topçubaşov (II hökumət kabinəsi), F.Xoyski (III hökumət kabinəsi), M.Y.Cəfərov (IV hökumət kabinəsi) və yenidən F.Xoyski (V hökumət kabinəsi) həyata keçirmişdir. XİN-nin digər strukturlarının yaradılması ilə yanaşı onun aparatının təşkili də formalaşdı.

Bu dönəmdə AXC-nin bir sıra dövlətlərdə diplomatik nümayəndəliklərin korpusları fəaliyyətə başladı. Bir sıra səbəblərə görə 30-dan çox işçisi olan Ermənistan və 19-dan çox işçisi olan Gürcüstan səfirliklərinin təşkili və fəaliyyətinə daha çox diqqət göstərilirdi. Bundan sonra Bakıda bir çox xarici diplomatik missiyalar fəaliyyətə başladı. Avropa dövlətlərində diplomatik korpusların açılmasının çətinliyinə görə Osmanlı səfirlikləri vasitəsilə AXC-nin təmsilçiliyi razılaşdırıldı.

AXC dövründə xarici siyasətin fəaliyyəti dövlət quruculuğunda mühüm əhəmiyyət kəsb edirdi. Milli təhlükəsizliyin diplomatik cəhətdən təmin olunması AXC-nin xarici siyasətində mühüm yer tuturdu. XX əsrin əvvəllərində regionda cümhuriyyətlərin yaranması ilə Qafqazın siyasi həyatında mühüm dəyişikliklər oldu. Bu vəziyyət Qafqazda bir sıra proseslərin yaşanmasını zəruri edirdi:

- Ərazi-sərhəd və millətlərarası probleminin həllinin tənzimlənməsi;
- Bir sıra Qərb dövlətləri tərəfindən de-yure tanınma və qonşu dövlətlərlə münasibətlər qurmaqla beynəlxalq münasibətlər sisteminə qatılmaq;
- Sadalanan 2 proseslə əlaqəli olaraq dövlətçiliyin müdafiəsi

AXC-nin xarici siyasətinin uğurlarına və yanlışlarına nəzər salaq:

Xarici siyasətin əsas vəzifələrinin və prioritet istiqamətlərini dəqiq şəkildə müəyyənləşdirilməsi; Osmanlının hərbi siyasi yardımına qarşı düzgün diplomatik addımın atılması, xarici amillərin və Beynəlxalq təhlükəsizliyin hər zaman diqqət mərkəzində saxlanılması; Batum şəhərinə beynəlxlaq status verilməsi; AXC-nin de-fakto da olsa tanınması, Beynəlxalq hüququn aktoruna çevrilməsi və beynəlxalq münasibətlər sisteminə qatılması; AXC və

Gürcüstanın birlikdə Qafqaz konfranslarının keçirilməsi və Gürcüstanla hərbi müdafiə sazişi tipli normal münasibətlərin qurulması, ermənilərin Azərbaycana qarşı olan ərazi iddialarına son qoyulması; AXC-nin tanınması səbəbindən Azərbaycana aid olan məsələlərin Rusiyanın daxili problemindən çıxması; AXC-nin Paris Sülh Konfransına qatılması, Ə.Topçubaşın İstanbul missiyası və başqa məsələlər üzrə diplomatiya meydanında əsaslı addımların atılması AXC diplomatiyasının mühüm uğurları idi.

Diplomatiyamızın yanlışlıqlarına İrəvanın Azərbaycan Milli Şurası tərəfindən Ermənistana güzəştə gedilməsi; hərbi qüvvələrimizin 1919-cu il 23 noyabrda imzalanmış Azərbaycan-Ermənistan sazişinə əsaslanaraq Zəngəzurdan çıxarılması; Qarabağ, Zəngəzur və Naxçıvanla əlaqəli məsələlərdə qərb dövlətlərinin ikili siyasət aparmasının düzgün dəyərləndirilməməsi; Bölgədə sabitliyin pozulmasına təsir edən Qafqaz dövlətləri arasındakı ərazi-sərhəd mübahisələrinin arbitraj vasitəsi ilə həllindən qaçılması. AXC-nin Antanta dövlətləri tərəfindən de-yure tanınmasının həddindən artıq ləngidilməsi; ingilislərin çox az istisnalarla Qafqazdakı sülhyaratma fəaliyyətinin ikili mahiyyət daşıması və ardıcıl olmaması; "vahid və bölünməz Rusiyanın" təzyiqlərinin qarşısının alınmasının mümkünsüzlüyü; ermənilərin "Qafqaz Birliyi" ideyasının həyata keçirilməsinin qarşısının alına bilməməsi aid idi.

Qeyd olunan daxili və xarici amillərin bir-biri ilə üst-üstə düşməməsi AXC-nin o dönəmki diplomatiyasının uğurlarına kölgə salsa da yeni yaranmış hökumət öz xarici siyasət kursu ilə beynəlxalq aləmdə nüfuz qazanmağa çalışırdı.

Azərbaycan Xalq Cümhuriyyətinin ikiillik fəaliyyətinə nəzər salsaq mürəkkəb beynəlxalq şəraitdə Azərbaycan xalqının milli maraqlarına uyğun xarici siyasət kursunun həyata keçirilməsini görə bilərik. Hökumətin başlıca məqsədi Azərbaycan Respublikasının dünya birliyi tərəfindən tanınmasına nail olmaq idi.

## Ədəbiyyat siyahısı:

1. İsgəndərov, A. Azərbaycan Xalq Cümhuriyyətinin yaranması və onun tariximizdə yeri / A.İsgəndərov. – Bakı, – 2018. – 36 s.
2. Azərbaycan Xalq Cümhuriyyəti Ensiklopediyası / – Bakı, c.1. 2004, – 440 s.
3. Həsənli, C. Azərbaycan Respublikası Xarici İşlər Nazirliyi, Azərbaycan Xalq Cümhuriyyətinin Xarici Siyasəti: (1918-1920) / – Bakı. – 2009.
4. İsmayıl, M. Azərbaycan Respublikasının Xarici Siyasəti: I hissə: Azərbaycan beynəlxalq münasibətlər sistemində: (mart 1917-aprel 1920-ci illər), – Bakı-2011, – 312 s.
5. Vəkilov, R. Azərbaycan Xalq Cümhuriyyətinin yaranma tarixi: Azərbaycan. – 1919, 28 may.

# İŞĞALDAN AZAD EDİLƏN ƏRAZİLƏRDƏ TARİXİ ABİDƏLƏRİN BƏRPASI MƏSƏLƏSİ

**Sevinc Qurbanova**
*Gəncə Dövlət Universiteti, Ümumi Tarix kafedrasının müəllimi*
sevincakifqizi@mail.ru

**Açar sözlər:** Gövhər ağa Məscidi, Alban kilsəsi, Avropa Konvensiyası, Xudavəng monastrı
**Keywords:** Govhar Agha Mosque, Albanian Church, European Convention, Khudavang Monastery

Şanlı Azərbaycan Ordusunun 44 günlük zəfər yürüşü doğma Qarabağımızın azadlığa qovuşdurulması ilə yanaşı, tarixi, mədəni irsimizi də erməni vandallarından xilas etdi. Müzəffər Ordumuz tarix səhifələrimizi qaralamağa, silməyə, saxtalaşdırmağa, təməlini laxlatmağa çalışanlara layiqli dərs verərək yerinə otuzdurdu. İşğalçılar bu illər ərzində yer adlarımızı, toponimlərimizi dəyişdirib, uydurma adlar qoyub, tariximizə iddia edə bilmədikləri məqamlarda isə barbarlığa əl ataraq maddi-mədəni, dini abidələrimizi vəhşicəsinə dağıdıblar. Erməni millətçiləri xalqımızın tarixi yaddaşını yox etmək, qədim Azərbaycan torpaqlarında türk-müsəlman mədəniyyətinin izlərini silmək üçün hər cür namərdliyə əl ataraq çirkin əməllərini illər boyu davam etdiriblər. 30 il müddətində işğal altında saxladıqları Qarabağda dünyada misligörünməmiş talançılıqla məşğul olub, bütün tarixi, dini abidələrimizi məhv ediblər.

İşğal altında olmuş torpaqlarımızda Azərbaycan xalqına məxsus çoxlu tarixi dini abidə mövcud olub. Müxtəlif qədim türbələrin olduğu Cəbrayıl rayonundakı Tumas-ata abidəsi bütpərəstlik dövrünün yadigarıdır.Tarixi Xudafərin körpüsü də Cəbrayıl rayonunda yerləşir.Dünyanın ən qədim insan məskənlərindən olan, qədim dövrün mədəni abidələri kimi UNESCO-nun dünya irsi siyahısına daxil edilən Azıx və Tağlar mağaraları Füzuli rayonunun ərazisindədir.İşğaldan əvvəl Şuşada dövlət tərəfindən qorunan 248 tarixi abidə mövcud olub.Məşhur Yuxarı Gövhər ağa Məscidi, Qala divarı (uzunluğu 8 kilometr), Pənah xanın sarayı, Natəvanın evi, İbrahim xanın bürcü, İbrahim xanın qəsri, Vaqifin məqbərəsi Şuşa memarlığının incilərindən sadəcə bir neçəsidir. “Azərbaycan Respublikasının işğaldan azad olunmuş ərazilərində müvəqqəti xüsusi idarəetmənin təşkili haqqında” Azərbaycan Respublikası Prezidentinin 2020-ci il 29 oktyabr tarixli 1170 nömrəli Fərmanına uyğun olaraq Azərbaycan Respublikasının işğaldan azad olunmuş ərazilərində Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin nümayəndələri tərəfindən tarix və mədəniyyət obyektlərinin (abidələrinin və müəssisələrinin) ilkin inventarlaşdırılması və mühafizəsi məqsədilə abidələrin və mədəniyyət müəssələrinin monitorinqlərinə başlanılmışdır.İndiyədək aparılmış monitorinqlər zamanı dövlət qeydiyyatında olan 312 tarix-mədəniyyət abidəsinin monitorinqi həyata

keçirilmişdir. Bundan əlavə, həmin ərazilərdə yerləşən dövlət qeydiyyatında olmayan tarixi, memarlıq, arxeoloji əlamət daşıyan 106 obyekt (yeni aşkar olunmuş abidə) aşkar edilmişdir.

Təəssüflə qeyd etməliyik ki, işğaldan azad olunmuş ərazilərdə məscidlər, mədrəsələr, körpülər, məbədlər nəinki dağıdılmış, eyni zamanda bir çox hallarda təyinatına uyğun olmayan şəkildə istifadə olunaraq xalqımızın milli mənəvi dəyərləri təhqir edilmişdir.Burada, Füzuli rayonunda Hacı Ələkbər məscidi, Dədəli, Merdinli, Gecəgözlü, Yuxarı Veysəlli kənd məscidləri, Horadiz kəndindəki iki məscid, Cəbrayıl rayonunda Süleymanlı və Papı kənd məscidləri, Qubadlı rayonunda Məmər və Yusifbəyli kənd məscidləri, Zəngilan rayonunda Zəngilan şəhər məscidi, Malatkeşin və Zəngilan kənd məscidləri xüsusilə qeyd olunmalıdır.Qaraağac qəbiristanlığında yerləşmiş yerli əhəmiyyətli memarlıq abidəsi olan Uğurlu bəyin türbəsi də daxil olmaqla XIX əsrə aid 4 türbə tamamilə məhv edilmişdir.Ağdam şəhərində yerləşən Pənahəli xanın (XIX əsr) və Mehdiqulu xanın türbələrinin dağıntılara məruz qoyulduğu, işğalçı Ermənistan tərəfindən abidələrə ciddi ziyan vurulduğu müəyyən olunmuşdur. İbrahimxəlil xanın türbəsi (XIX əsr) isə tamamilə dağıdılmışdır. Eyni zamanda Ağdam şəhərində Üzərlik təpə abidəsi, Xaçındərbənd kəndindəki Qutlu Sarı Musaoğlu günbəzi (1314-cü il), Kəngərlidəki (XIV əsr) türbə və daş abidələr, Papravənddəki XVII əsrdən qalan Xanoğlu türbəsi, XVIII əsrə aid məscid və digər türbələr, Xan qızı Natəvanın və oğlunun şərəfinə tikilmiş 19-cu yüzilliyin türbəsi, Şahbulaq qalası kimi tarixi-memarlıq abidələri də dağıdılmışdır [4, s.6]. Bu maddi-mənəvi abidələr qruplaşdırılaraq, "Azərbaycan Respublikasının ərazilərində dövlət mühafizəsinə götürülmüş daşınılmaz mədəniyyət abidələrinin əhəmiyyət dərəcəsinə görə bölgüsü" adlı kitaba daxil edilib.

Ermənistan tərəfinin vandalizmi yalnız müsəlman tarixi dini-memarlıq abidələrinə deyil, həmçinin xristian tarixi-dini abidələrinə münasibətdə də özünü göstərmişdir. Belə ki, Kəlbəcər rayonunda yerləşən Xudavəng və Gəncəsər monastırları da daxil olmaqla Qafqaz Albaniyasına aid bir çox məbədlər mənimsənilərək vandalizmə məruz qalmışdır. Xudavəng monastırına aid Arzu xatun kilsəsinin şərq divarındakı, Xudavəng monastırının incisi hesab olunan freska xüsusi üsullarla kəsilərək götürülmüşdür. Gəncəsər monastırında aparılmış qanunsuz təmir işləri nəticəsində onun əzəli görkəminə zərər dəymişdir. Qeyd edək ki, hətta son atəşkəsdən sonra XIII əsrdən Azərbaycanın Kəlbəcər rayonunda yerləşən Xudavənd monastırının zəngləri, xaçları və qədim əlyazmaları, eləcə də Ağdam rayonundakı Şahbulaq qalası yaxınlığında qanunsuz arxeoloji qazıntılar zamanı tapılmış və yerli muzeylərdə saxlanılan qiymətli əşyalar qanunsuz olaraq Ermənistana daşınıb. Bu, 1954-cü il Haaqa Konvensiyasının və onun iki Protokolunun, eləcə də 1970-ci il Konvensiyasının kobud şəkildə pozulması deməkdir [5, s.1]. Prezident İlham Əliyev Kəlbəcərin işğaldan azad edilməsi ilə əlaqədar xalqa müraciətində vurğuladı ki, Qafqaz Albaniyasına aid olan tarixi abidələr, kilsələr bizim tarixi-mədəni sərvətimizdir: "Tarixə baxmaq kifayətdir, hər kəs görsün ki, 1830-cu illərdə çar

Rusiyası alban kilsəsini ləğv etdi, alban kilsəsinin bütün mülkiyyətini erməni Qriqorian kilsəsinə verdi və erməni keşişləri, onların havadarları bu kilsələri mənimsəməyə başladılar. Qafqaz Albaniyasının tarixini silmək, unutdurmaq onların başlıca vəzifəsi idi. Amma biz imkan vermədik. Azərbaycanda bu məsələ ilə bağlı kifayət qədər böyük elmi baza var, əsərlər var. Bu əsərlər nəinki elmi ictimaiyyətə, bütövlükdə dünya ictimaiyyətinə çatdırılır və çatdırılmalıdır. Qafqaz Albaniyası böyük dövlət olub.Onun paytaxtı Qəbələ şəhəri olub. Qafqaz Albaniyasına aid olan tarixi abidələr, kilsələr bizim tarixi-mədəni sərvətimizdir.Biz bu kilsələri qoruyuruq” [6, s.1].

Ermənistan tərəfinin mədəniyyət obyektlərinə qarşı bu cür vandalizm aktları bir çox beynəlxalq sənədlərə, o cümlədən 1954-cü ildə Haaqada qəbul edilmiş "Silahlı münaqişə zamanı mədəni sərvətlərin qorunması haqqında Konvensiya"nın, "Arxeoloji irsin qorunması haqqında" Avropa Konvensiyasının, “Ümumdünya mədəni və təbii irsinin mühafizəsi haqqında Konvensiya”nın müddəalarını kobud şəkildə pozmuşdur. Əminik ki, çox tezliklə onlar tarixi abidələrimizə qarşı törətdikləri vəhşi əməllərinə görə hüquqi müstəvidə də cavab verəcəklər.

Əlbəttə, tarixi yaddaşımızı silmək erməni vandallarına qismət olmadı və əksinə, işğaldan azad olunan torpaqlarımızda yenidən tarixi izlərimizi bərpa etməyə ruhlanlandırdı, səfərbər etdi. Şübhə yoxdur ki, işğaldan azad olunmuş torpaqlarımızda Azərbaycan xalqının tarixi abidələri yenidən bərpa olunacaq, bəşəriyyətin ixtiyarına veriləcək. Prezident İlham Əliyevin dediyi kimi, işğaldan azad olunmuş şəhərlərimizi yenidən abadlaşdıracağıq, o kəndlərə qayıdacağıq: “Biz öz torpaqlarımızı yenidən abad, müasir şəhərə çevirəcəyik. Bu torpaqlara yenidən həyat qayıdacaq”. O an artıq yetişmişdir.

**Ədəbiyyat siyahısı:**

1. Azərbaycan Respublikasının işğaldan azad olunmuş ərazilərində müvəqqəti xüsusi idarəetmənin təşkili haqqında Azərbaycan Respublikası Prezidentinin Fərmanı: [Elektron resurs]/ URL: https://president.az/articles/44886.
2. İlham Əliyev tarixi abidələrimizi də işğaldan azad etdi // Azərbaycan. – 2020. – 30 yanvar, – s.1.
3. İşğaldan azad olunmuş ərazilərdə tarix və mədəniyyət obyektlərin vəziyyətinə dair məlumat: [Elektron resurs]/ URL: http://mct.gov.az/az/umumi-xeberler/13467.
4. Nərimanoğlu, M. İşğal olunmuş abidələr //Azərbaycan. – 2010. – 23 iyul. – s.6.
5. Abdullayev, M. İşğaldan azad olunmuş ərazilərdə tarixi abidələrimiz bərpa olunacaq//Xalq qəzeti. – 2020. – 9 dekabr. – s.1.
6. Tarix və mədəniyyət abidələrinin qorunması haqqında. Azərbaycan Respublikasinin Qanunu: [Elektron resurs]/ URL: http://www.e-qanun.az/framework/3526.

# AXC-NİN XARİCDƏKİ DİPLOMATİK NÜMAYƏNDƏLİKLƏRİNİN YARANMASI VƏ FƏALİYYƏTİ

**Sübhan Talıblı**
*AMEA Şərqşünaslıq İnstitutunun aparıcı elmi işçisi,*
*tarix üzrə fəlsəfə doktoru, dosent*
subhantalibli@gmail.com

**Açar sözlər:** Azərbaycan Xalq Cümhuriyyəti, xarici siyasət, diplomatiya, diplomatik nümayəndəlik, Xarici işlər nazirliyi.
**Keywords:** The Azerbaijan Democratic Republic, foreign policy, diplomacy, a diplomatic mission, Ministry of Foreign Affairs.

Azərbaycan Xalq Cümhuriyyətinin hakimiyyəti zaman etibarilə böyük bir dövrü əhatə etməsə də XX əsr Azərbaycan tarixində xüsusi rol oynayıb. Dövrün tələbi və milli mənafeyimiz naminə bərqərar olan respublika milli sərvətlərimiz üzərində ali hakimiyyət hüququ əldə etməklə xalqımızın beynəlxalq aləmdə tanınması yolunda da mühüm addımlar atdı. XIX əsrin ilk illərindən çarizmin zülm yükünü öz üzərində daşımağa məcbur olmuş bir xalq, 1918-ci ilin 28 mayında milli istiqlaliyyətini elan etdi, müstəqil daxili və xarici siyasət yeritmək imkanı əldə etmiş oldu. Məhəmməd Əmin Rəsulzadə və onun məsləkdaşları qısa bir vaxtda yurdumuzun müstəqil bir ölkə kimi beynəlxalq aləmdə tanınmasına heç də asan yolla nail olmadılar, qarşıya son dərəcə ciddi maneələr çıxırdı. Bu maneələrin yaranmasında müstəmləkəçi dövlətlərlə yanaşı xalqımıza düşmən kəsilmiş erməni daşnakları və onları dəstəkləyən qüvvələr də az rol oynamadılar.

Azərbaycan Xalq Çümhuriyyəti dövründə xarici siyasət və diplomatik əlaqələr Xarici İşlər Nazirliyi, Azərbaycanın xarici dövlətlərdəki səfirlikləri, diplomatik nümayəndəlikləri, konsulluqları, habelə, xarıci dövlətlərin Azərbaycandakı diplomatik nümayəndəlikləri və konsulluqları vasitəsilə həyata keçirilmişdir.

AXC dövründə xarici işlər nazirləri - Məmmədhəsən Hacınski 28 may - 6 oktyabr 1918-ci il, Əlimərdan bəy Topçubaşov 6 oktyabr - 26 dekabr 1918-cil, Fətəli xan Xoyski 26 dekabr 1918-ci il - 14 aprel 1919-cu il, 22 dekabr 1919-cu il - 27 aprel 1920-ci il, Məmmədyusif Cəfərov 14 aprel - 22 dekabr 1919-cu il tarixlərində olmuşdur.

Azərbaycan beynəlxalq şəraitdəki mürəkkəblik və ziddiyyətlik AXC hökumətindən çox çevik xarici siyasət həyata keçirməyi tələb edirdi. Onun xarici siyasətinin başlıca istiqamətlərini Azərbaycanın müstəqilliyini qorumaq və inkişaf etdirmək təşkil edirdi. Bu məqsədlə o, dövlət strukturunda Xarici İşlər Nazirliyinin təşkilinə və onun işinin təkmilləşməsinə xüsusi diqqət verirdi.

Bundan Azərbaycanın mili maraqlarını dünyada təmsil etmək üçün AXC Azərbaycanın xaricdəki səfirlikləri, nümayəndəlikləri və konsulluqları fəaliyyət göstərirdi. Paris sülh konfransında nümayəndə heyətinin rəhbəri - Əlimərdan bəy Topçubaşov, Ermənistanda diplomatik nümayəndə- Məhəmməd bəy Təkinski, Əbdürrəhim bəy Haqverdiyev, Teymur bəy Makinski, Gürcüstanda diplomatik nümayəndə- Məmmədyusif Cəfərov, Faris bəy Vəkilov, Dağlı Xalqları Respublikasında diplomatik nümayəndə - Əbdürrəhim bəy Haqverdiyev, Türkiyədə diplomatik nümayəndə - Əlimərdan bəy Topçubaşov, Yusif bəy Vəzirov (Çəmənzəminli), İranda səfir - Adil xan Ziyadxanov, Ənzəlidə vitse-konsul - Məhəmməd bəy Xəlilov (1920-ci il aprelin 1-də Təbrizdə baş konsulluq, Rəştdə konsulluq, Məşhəddə vitse-konsulluq, Xoy və Əhərdə konsul agentlikləri yaradılmışdır), Türküstanda (Zakaspidə) nümayəndə - Əkbər ağa Sadıqov, Kuban və Don hökumətləri yanında səlahiyyətli nümayəndə və ticarət agenti - Cəfər bəy Rustəmbəyov (1890-1938), Batumda baş konsul - Mahmud bəy Əfəndiyev, Ukraynada diplomatik nümayəndə - Yusif bəy Vəzirov (Çəmənzəminli), konsul - Camal Sadıqov, Krımda konsul agenti - Şeyx Əli Hüseynov olmuşdur.

1918-1920-ci illərdə Azərbaycan Xalq Cümhuriyyəti hökumətinin Türkiyə, Gürcüstan, Ermənistan, Dağlılar Respublikası və Türküstanda diplomatik nümayəndəliyi, İranda səfirliyi, Kuban və Don hökumətləri yanında səlahiyyətli nümayəndəsi, Paris Sülh Konfransında səlahiyyətli nümayəndə heyəti fəaliyyət göstərmişdir.

Həmin illərdə Bakıda bir sıra dövlətlərin nümayəndəlikləri fəaliyyət göstərmişdir. Böyük Britaniyanın vitse-konsul Gevelke, Ermənistannın diplomatik nümayəndəsi G.A. Bekzadyan, Belçikanın konsulu Ayvazov, Yunanıstanın konsulu Kusis, Gürcüstanın diplomatik nümayəndə N.S. Alışbey, Danimarkanın konsul E.F. Bisrinq, İtaliyanın Səkkizinci missiyanın başçısı Enrico İnsom, Litvanın konsul agenti V.İ Mitskeviç, İran hökumətinin nümayəndəsi - Məhəmmədxan Said ül-Vüzəra, İranın Lənkərandakı konsulu - Sadıqxan Sadü-dövlə, Polşanın konsul agenti S. Rılskiy, ABŞ-ın vitse-konsulu Randolf, Ukraynanın vitse-konsulu Golovan, Finlandiyanın Konsul agenti Veqelius, Fransanın konsul agenti Yemelyanov, İsveçrənin konsulu Klottyu, İsveçin konsul R.K. Van-der-Pluq vəzifəsini Bakıda icra etmişdir.

Azərbaycanın müstəqilliyi Antanta Ali Şurası tərəfindən tanındıqdan sonra hökumətin hazırladığı "Qərbi Avropa və Amerikada Azərbaycan Cümhuriyyətinin diplomatik missiyalarının yaradılması və Paris sülh konfransındakı Azərbaycan nümayəndəliyinin ləğv edilməsi haqqında" qanun layihəsi Parlamentdə müzakirə olundu və qəbul edildi. Həmin qanuna görə, 1920 il aprelin 1-dən etibarən Böyük Britaniya, Fransa, İsveçrə, İtaliya, ABŞ, Almaniya, Rusiya və Polşada (Latviya, Litva, Estoniya, Finlandiya, Ukrayna, Rumıniya) Azərbaycan Xalq Cümhuriyyətinin diplomatik nümayəndəlikləri təsis olunmalı idi. Lakin sovet-bölşevik rejiminin beynəlxalq hüquq normalarım kobudcasına pozaraq Şimali Azərbaycanı işğal etməsi və de-fakto

tanınmış müstəqil Azərbaycan Xalq Cümhuriyyətini aradan götürməsi nəticəsində Azərbaycanın xarici ölkələrlə diplomatik əlaqələrinə və beynəlxalq münasibətlər sistemində təmsil olunmasına son qoyuldu.

## İKİNCİ QARABAĞ MÜHARİBƏSİ: AVROPA MEDİASININ YANAŞMASI

**Sünbül Zalova**
*BDU, Jurnalistika fakültəsi, magistr,*
sunbulzalova@gmail.com

**Açar sözlər:** Dağlıq Qarabağ, müharibə, Avropa mediası
**Keywords:** Nagorno-Karabakh, war, European media

ATƏT-in Minsk Qrupu çərçivəsində həllini tapmayan Dağlıq Qarabağ münaqişəsi 2020-ci il 27 sentyabr tarixində növbəti mərhələsinə qədəm qoymuşdur. Ermənistan silahlı qüvvələrinin hücumu nəticəsində başlayan müharibə 44 gün davam etmişdir. II Qarabağ müharibəsi dövründə həm internet mediasında, həm də bir çox regional və beynəlxalq mediada Azərbaycanla bağlı materiallar yayımlanmışdır. Ən yaxşı nümunə isə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin dünya ölkələrinin media orqanlarına verdiyi müsahibələr olmuşdur. Bu məlumatlar əsasında Azərbaycanın səsini dünyaya eşitdirmək mümkün olmuşdur. Xarici jurnalistlər, xüsusilə Qərb mediası işğalçı Ermənistana Gəncə, Tərtər, Bərdə və digər ərazilərimizdə ballistik raketlərlə, kassetli bombalarla "Smerç"dən istifadə edərək terror törətmələri, istifadə edilən silahları haradan əldə etmələri ilə bağlı suallar vermək əvəzinə, məqsədi işğal edilmiş ərazilərini azad etmək olan Azərbaycana qərəzlə yanaşması münaqişənin hansı səbəbdən 30 il müddətinə nizama salınmamasına bir daha aydınlıq gətirmişdir.

Prezident İlham Əliyevin müharibə dövründə xarici KİV-ə verdiyi müsahibələrdə azərbaycançılığın xarakterik xüsusiyyətlərindən olan insanlığın, humanizmin, tolerantlığın, başqa xalqlara dözümlü münasibətin, multikulturalizmin təbliğatı və təqdimatı olduqca yüksək səviyyədə ifadə olunmuşdur. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev xarici KİV-ə müsahibələrində dəfələrlə vurğulamışdır ki, Ermənistandan fərqli olaraq, Azərbaycan sivilləri hədəfə almır: "...Ermənistanın bu çirkin siyasəti anlaşılandır. Çünki onlar hər zaman döyüş meydanında məğlubiyyətə uğrayanda belə çirkin əməllərə əl atırlar. Mülki şəxslərə, əliyalın insanlara qarşı qəddarlıq göstərmək onlar üçün adi bir şeydir. Azərbaycan xalqı bunu Xocalı soyqırımının timsalında görmüşdür. Bu dəfədə bütün cəbhəboyu Azərbaycan Ordusu uğurlu əməliyyat keçirərək bir neçə şəhər və kəndimizi işğaldan azad etmişdir və işğaldan azad etmə əməliyyatımız uğurla davam

edir... Ermənistanın bu xain hücumunun səbəbi odur ki, onlar bu münaqişənin coğrafiyasını genişləndirmək, üzv olduğu Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatını münaqişəyə cəlb etmək istəyirlər. Məhz buna görə Ermənistan ərazisindən Azərbaycan torpaqlarını, mülki şəxsləri atəşə tuturlar və bizi cavab atəşinə təhrik edirlər. Fəqət, mən demişdim ki, bizim qisasımız döyüş meydanında olacaq. Biz heç zaman mülki şəxslərə qarşı heç bir addım atmırıq və bizim bütün hədəflərimiz hərbi hədəflərdir".

Prezident İlham Əliyev "BBC News", İspaniyanın "EFE" informasiya agentliyinə, İtaliyanın "La Republica", Almaniyanın "ARD" televiziya kanalına, Rusiyanın İnterfaks informasiya agentliyinə, İtaliyanın "RAİ-1" tv kanalına, ABŞ-ın "Fox News" tv kanalına, Fransanın "Figaro", Yaponiyanın "Nikkei" qəzetlərinə, Rusiyanın TASS informasiya agentliyinə, Fransanın "France 24" tv kanalına həmçinin bütün dünyada yayımlanan "CNN İnternational", "Euronews", "Əl-Ərəbiyyə", "Əl-Cəzirə" və s. bu kimi kanallara verdiyi geniş müsahibələri nümunə göstərmək olar. Həmçinin Rusiyanın TASS, İnterfaks və "RİA Novosti" informasiya agentlikləri, "Lenta.ru" "News.ru", "VestiKavkaza", "Pravda.ru" saytları, "Moskovski komsomolets" və "Kommersant" qəzetləri, "REN TV", "TVC", "360 tv" kanalları, Avropa İttifaqının "EU Politics" informasiya-analitik nəşri, Misirin "Asyaelyoum" agentliyi və "Aldiplomasy" nəşri, Rumıniyanın "News24hours", Ukraynanın "РБК-Україна", Qırğızıstanın "Golden bridge news" portalları, Gürcüstanın "Interpressnews", "Dalgatv", "24news", "News" saytları Prezident İlham Əliyevin müsahibəsi ilə bağlı materiallar yayıb, sitatlar gətirmişlər.

Avropa mediasında yayımlanan materiallarda bəzən açıq şəkildə qərəz hiss olunmuşdur. Əsasən Franasanın və beynəlxalq televiziya kanallarının hazırladıqları materiallarda müsahibələrdə qərəzli suallar verilmişdir. 2020-ci il oktyabrın 14-də Prezident İ.Əliyev "France 24" televiziya kanalına verdiyi müsahibədə jurnalistin – "Lakin Azərbaycan da atəşi davam etdirib, elə deyilmi? Dünya Dağlıq Qarabağdakı Xankəndidə mülki şəxslərin artilleriya atəşinə tutulması görüntülərini görüb" kimi qərəzli suallar Fransanın hadisələrə birtərəfli yanaşdığının bariz nümunəsidir. Digər bir nümunə isə ermənilərin Gəncə və Bərdədə mülki vətəndaşları hədəf alması və dinc əhalinin öldürülməsi faktını görməzdən gələrək hadisələrin Xankəndidə baş verdiklərini söyləməsi və bəzi media qrumlarının bu məlumatları dünyaya yaymaq cəhdidir[1].

Müharibə dövründə bəzi Rusiya dövlət kanallarının da ermənipərəst mövqeydən çıxış etdiyinin şahidi olduq. Belə bir dövrdə ziyalılarımızın, xalqın dövlətlə birliyi, informasiya müharibəsində vətəndaşların rolu böyük əhəmiyyət kəsb etmişdir. "Rossiya-1" telekanalının "60 dəqiqə" proqramında canlı yayımda efirə qoşulan Prezident İlham Əliyevin cavabları verilişin ermənipərəst mövqeyi ilə seçilən aparıcısı Olqa Skabeyevanın iki başlı suallarına ən yaxşı cavab idi[2].

"CNN International" televiziya kanalının "Connect the World"

verilişinin jurnalisti də müsahibə zamanı qərəzli mövqe nümayiş etdirmişdir. Prezident İ.Əliyev bildirmişdir: "Səmimi desəm, Ermənistan Prezidentinin dünyaya mesaj ünvanlamaq üçün CNN vasitəsilə şayiə yaymaq məqsədilə bu imkandan istifadə etməsi məni təəssüfləndirir. Mən bunu başqacür adlandıra bilmirəm"[3].

İtaliyanın "La Repubblica" qəzetinin müxbiri isə həmkarlarından fərql iolaraq "Cənab Prezident, Siz artıq qələbəni dadmısınız?" sualı ilə söhbətə başlamaqla erməni diasporasının qəzəbinə tuş gəlmişdir. Adıçəkilən qəzetin əməkdaşı Peitro Del Rey təzyiqlərə məruz qalmışdır. Demokratik prinsipləri inkar və təhdid edən erməni lobbi və diaspor təşkilatları bu prinsiplərin mühüm göstəricisi sayılan söz azadlığına qarşı demarş nümayiş etdirmişdir[4].

Dünyanın ən böyük informasiya agentliklərindən olan ABŞ-ın Associated Press informasiya agentliyi də əsasən Ermənistanın mövqeyindən çıxış etmişdir. Avet Demourianın qələminin məhsulu olan yazılarda Ermənistanın sülh tərəfdarı olması, Türkiyənin dəstək olduğu Azərbaycanın mövqeyinin Qarabağı separatçı qüvvələrdən tam azad olunması olduğunu vurğulamışdır.

Euronews informasiya kanalının müharibənin ilk günündə Frans-Press informasiya agentliyi ilə birgə yayımladığı "Dağlıq Qarabağ: Azərbaycanla Ermənistan arasında atışma gücləndikcə onlarla insan öldürüldü" başlıqlı yazı ABŞ, Fransa, Rusiya, Kanada və digər ölkələrin münaqişədən narahat olduqları, tərəfləri atəşkəsə çağırmaları və ATƏT-in Minsk qrupu çərçivəsində həll yolu haqqında olmuşdur.

Bütün bunlara baxmayaraq, 44 günlük Vətən Müharibəsində Azərbaycan təkcə hərbi sahədə deyil, diplomatik arenada və informasiya müharibəsində də birmənalı qələbə qazanmışdır.

**Ədəbiyyat siyahısı:**

1. Azərbaycan Prezidenti İlham Əliyev "France 24" televiziya kanalına müsahibə verib // – Azərbaycan, 2020, 15 oktyabr: [Elektron resurs] // URL: https://www. azertag.az/xeber/ Prezident_Ilham_Aliyev_ France_24_televiziya_kanalina_ musahibe_verib_ YENI LANIB__VIDEO-1613181.
2. Prezident İlham Əliyev "Rossiya-1" telekanalının "60 dəqiqə" proqramında sualları cavablandırıb. Prezident.az, 2020, 29 sentyabr: [Elektron resurs] // URL: https://www.president.az/articles/41172.
3. Prezident İlham Əliyevin "CNN International" televiziya kanalının "Connect the World" verilişində müsahibəsi, AzTV, 2020, oktyabr: [Elektron resurs] // URL: https://www. facebook.com/ aztvresmi/ videos/ prezident-ilham-%C9%99liyevin-cnn-international-televiziya-kanal%C4%B1n% C4% B1n connecttheworl/1236271173438069.
4. Prezident İlham Əliyev İtaliyanın "La Republica" qəzetinə müsahibə verib", APA, 2020, 4 noyabr: [Elektron resurs] // URL:

https://www.apa.az/az/xarici_siyaset/Prezident-Ilham-liyev-Italiyanin-La-Republica-qzetin-musahib-verib-613645.

## MƏHƏMMƏD ƏMİN RƏSULZADƏNİN ƏSƏRLƏRİNDƏ AZƏRBAYCAN XALQ CUMHURİYYƏTİ İLƏ OSMANLI İMPERİYASI ARASINDAKI QARDAŞLIĞIN TƏSVİRİ

**Sürəyya Allahverdiyeva**
*Bakı Dövlət Universitetinin doktorantı, Bakı, Azərbaycan*
allahverdiyevasurayya@mail.ru

**Açar sözlər:**Azərbaycan Xalq Cümhuriyyəti, Osmanlı, müəllif, M.Ə.Rəsulzadə, Bakı, Qafqaz İslam Ordusu
**Keywords:** Azerbaijan Democratic Republic, Ottoman, author, MA Rasulzade, Baku, Caucasus Islamic Army

Azərbaycanın tarix elmində həm XX əsrin əvvəllərində dünyada baş verən siyasi proseslərin Cənubi Qafqazda mövcud olan xalqlara təsirini, həm də qonşu dövlətlərin Cənubi Qafqaza münasibətini təhlil etmək üçün M.Ə.Rəsulzadənin öz qələmi ilə qeydə aldığı əsərlər və məqalələr əhəmiyyətli tarixi mənbə hesab edilir. Bu qəbildən olan əsərləri təhlil edərək isdər Cənubi Qafqaz və Osmanlı imperiyası arasındakı AXC yaranmazdan əvvəl ki, istərsə də AXC yarandıqdan sonrakı münasibətləri təhlil etmək mümkündür. Siyasi fəaliyyətinin ilk illərindən etibarən Osmanlıda baş verən hadisələri yaxından izləyən M.Ə.Rəsulzadə öz məqalələrində və əsərlərində bu məsələyə xüsusi diqqət ayırmışdır.

Müəllifin 1907-ci il, 17 fevral tarixində "Təkamül" qəzetində ilk dəfə olaraq Türkiyədən bəhs edən "Şurayi-Osmani" adlı məqaləsi çap edilir. O, bu məqalədə "Şurayi-Osmani" cəmiyyətinin 10 maddədən ibarət olan proqramını təhlil edir və alqışlayırdı. Daha sonra 1909-cu ilin fevral ayında İ.V.Stalinin xahişi ilə M.Ə.Rəsulzadə "Gənc türklərin qələbəsi haqqında" məqalə yazır və Bakıda rus dilində cəmisi 2 sayı çap edilən "Volna" jurnalının 1-ci sayında çap etdirir. Bu məqalədə müəllif tərəfindən "Gənc Türklər"in ölkə daxilində həyatın təzələnməsi və konstitusiya əsaslarının möhkəmlənməsi, ölkəni hər cür təcavüzlərdən qorumaq məsələləri vurğulanırdı.

I Dünya müharibəsi başlayandan bəri Osmanlının daxili prablemınə çevrilən "erməni məsələsi"nə M.Ə.Rəsulzadənin də məqalələrində yer verilmişdir. Bu məqalələrdən biri də 1916-cı il avqust ayının 15-də "Açıq söz" qəzetinin 259-cu nömrəsində dərc edilən "Türkiyədə ermənilər" adlı məqaləsidir. Məqalədə həm Osmanlıda baş verənlər təsvir edilir, həm də Osmanlıda yaşayan ermənilər ilə Qafqazda yaşayan ermənilərin müqayisəsi verilirdi. Məqalədə uzun illər Osmanlıda ermənilərin dövlət işlərində

çalışdığını, müəllifin dili ilə desək “osmanlının ümuri-maliyyəsində” vacib yer aldığını qeyd edərək Anadoluda türklər ilə ermənilər arasınadı fikir ayrılıqlarının 1877-ci ildən etibarən başladığını əks olunur. Balkan xalqları Osmanlı imperiyasının tərkibindən ayrılmaq üçün mübarizəyə başladıqları zaman bu abu-hava ermənilərə də təsir etdi. Erməniləri bu mübarizədə təşkilatlandıran ilk növbədə erməni kilsəsi və din xadinləri daha sonra isə 1890-cı ildən bəri fəaliyyət gösdərən Daşnaksütyun partiyası olmuşdur. Bununla da Osmanlı dövlətində ermənilərə olan inam və etibar itmiş real mübarizə başlamış və Osmanlı tərəfi də bu xəyanətə görə erməniləri müəllifin ifadəsi ilə desək cəzalandırmışdır:

“Ermənilərin Türkiyədə gördükləri bu mədəni və milli azadlıq sayəsindədir ki, erməni lisanının osmanlı şiyvəsi daha zəngin olub və osmanlı erməniləri Qafqaz ermənilərinə nisbətlə daha sağlam qalmışlardır. Qafqasiyadaki ermənilər ruslaşmış olduqları halda Osmanlı erməniləri əski ənənati-milliyyə və ədəbiyyələrini əhya etməklə təmayiz etmişlərdir. Erməni ədəbiyyati-cədidəsində Turkiyə ermənilərinin gördükləri xidmət isə Qafqasiya ermənilərincə də müsəlləmdir” [3, s. 494-495]. Bu cümlələr dövrün istər Anadolu da, istərsə də Qafqazdakı vəziyyətini anlamağa kifayət edir.

Artıq müəllif məqalələrdə təkcə regiondakı siyasi mənzərələri deyil bütün dünyada baş verən siyasi prasesləri diqqətlə izləyirdi. M.Ə.Rəsulzadə I Dünya müharibəsi illərində siyasi fəaliyyətini müəyyən qədər zəiflətməsinə baxmayaraq Osmanlıya yardım çərçivəsində müxtəlif xeyriyyə tədbirlərində fəal iştirak edirdi. Həmin dövrdə onun Osmanlıya dəstək çərçivəsində apardığı təbliğat nəticəsində yüzlərlə soydaşımız qardaş ölkəyə gedərək döyüşən ordu sıralarında düşmənlə döyüşə atıldılar. Onlardan çoxu düşmənlə döyüşlərdə şəhid oldu. Bu təbliğatların yaratdığı siyasi və mənəvi nəticələrinin həm sözü gedən dövürdə, həm də daha sonra tarix boyu baş verən münasibətlərdə görmək mükündür.

AXC yarandıqdan sonra da bu əməkdaşlıq bu qardaşlıq münasibətləri daha da möhkəmlənir. Bildiyimiz kimi istiqlaliyyətimizin elan edilməsində, ərazi bütövlüyümüzün bərpasında Osmanlı dövlətinin və türk soydaşlarımızın hər tərəfli dəstəyini alaraq qarşılıqlı əməkdaşlığımızı davam etdirdik. 1918-ci il sentyab 6-da AXC-nin nümayəndələri ilə Osmanlı hökumət dairələri arasında baş tutan qəbulu M.Ə.Rəsulzadə bu ifadələrlə xatırlayır: “Bizim heyətimiz təntənəli bir surətdə Türkiyə Sultanı tərəfindən qəbul edildi. [5, s.70]” AXC-nin istiqlaliyyətini elan etməsinin ilk günlərindən etibarən hər zaman həm Türkiyyə mətbuatı, həm də hökumət dairələri tərəfindən istiqlaliyyətimizin dəstəkləndiyi oxuculara çatdırılmışdır. “Azərbaycan” qəzetinin 39-cu nömrəsində Nuru paşa və Bakıda olan digər türk əsgərlərinin şərəfinə verilmiş ziyafətdə M.Ə.Rəsulzadənin çıxışı çap edilmişdir. Çıxışın ümumi məzmununa nəzər yetirdikdə AXC-də Qafqaz İslam Ordusunun timsalında türk əsgərlərinə olan etimadı görmək mümkündür. Türk əsgərlərinin Bakının işğaldan azad edilməsindəki rollarını hər fürsətdə vurğulayan M.Ə.Rəsulzadə Osmanlı

türkləri ilə olan bu əməkdaşlıqdan tam məmnuniyyətini ifadə edir [5, s.79]. Bakını Bolşevik istilasından qurtaran Qafqaz İslam Ordusunun qəhraman əsgərlərinin davamçıları əsirlər sonra eyni qardaşlığı göstərərək Qarabağın erməni işğalından azad edilməsində istənilən platformada yenədə öz dost-qardaş dəstəyini bizlərdən əsirgəmədilər. Bu əbədi dostluğu bundan sonra da davam etdirməli və gələcək nəsillərin də qardaşlıqla yaşaması üçün zəmin yaradılmalıdır. "Azərbaycan" jurnalının 42, 45, 47-ci nömrələrində M.Ə.Rəsulzadənin Osmanlı ilə bağlı bir digər çıxışı hissə-hissə nəşr edilmişdir. Bu çıxışda ən diqqət çəkən məsələ müəllifin Osmanlının I Dünya müharibəsinə qoşulmasına haqq qazandırması və bunun düzgün addım olduğunu deməsi idi. Belə ki Osmanlının müharibəyə qoşulması ilə Çar Rusiyasının bu günkü parçalanmasının zəmini yaranmış oldu. Çıxışında Çanaqqala zəfərinə də toxunan müəllif bununla da türklərin ən çətin anda belə öz torpaqlarını qorumağa qadir olduğunu sübut etmiş olmalarını fəxarətlə qeyd edir.

Sonrakı tarixi hadisələrdən də bildiyimiz kimi, Osmanlı I Dünya müharibəsinin məğlub tərəfi kimi 1918-ci il 30 oktyabr tarixində Mudros müqaviləsi ilə müharibədən çıxır. Müqavilədə Osmanlı tərəfinin boynuna götürdüyü öhdəliklərdən biri Osmanlı ordusunun Qafqazdan çıxarılması idi. Nəticədə Qafqaz İslam Ordusu da Qafqazı tərk edir. Əvəzində isə müharibənin qalib tərəfi olan Antanta təşkilatının müttəfiqlərindən olan İngiltərənin nümayəndələri general Tomsonun rəhbərliyi ilə AXC-dəki ictimai-siyasi vəziyyəti təftişə Bakıya gəlir. M.Ə.Rəsulzadə əsərlərində də dəfələrlə Türkiyə tərəfinin AXC və İngiltərə münasibətlərini yalnış anladığını, Azərbaycanda Türkiyəyə qarşı olan etimadın və dostluğun əbədi olduğunu qeyd edir. Müəllifin "Əsrimizin Səyavuşu" əsərində bu məsələyə xüsusi yer verilmiş və Türkiyənin istiqlalımızın elan edilməsindəki əvəzsiz rolu bir daha oxucuların diqqətinə çatdırılmışdır. Əbəs deyildir ki, AXC süqut etdikdən sonra M.Ə.Rəsulzadə harda olmasından asılı olmayaraq Türkiyəyə gedib orda yaşamağın mübarizəsini aparmış və elə ömrünün son günlərində Türkiyə Cümhuriyyətində yaşamış, 1955-ci ildə Ankarada vəfat etmişdir.

**Ədəbiyyat siyahısı:**

1.Azərbaycan Xalq Cümhuriyyəti və Qafqaz İslam Ordusu // – Bakı: Qafqaz Universiteti Qafqaz araşdırmaları institutu nəşriyyatı. – 2008. – 695 s.
2.Rəsulzadə M.Ə. Əsrimizin Səyavuşu. Çağdaş Azərbaycan ədəbiyyatı. Çağdaş Azərbaycan tarixi / M.Ə.Rəsulzadə. – Bakı. – 1991. – 110 s.
3.Məhəmməd Əmin Rəsulzadənin əsərləri /– Bakı: Elm, – 2012, – c.3. – 596 s.
4.Məhəmməd Əmin Rəsulzadənin əsərləri / – Bakı: Qanun, – 2013, – c.4. – 456 s.
5.Məhəmməd Əmin Rəsulzadənin əsərləri/ Bakı: Qanun, 2014, c.5. – 564 s.
6.Nəsiman Yaqublu. Məhəmməd Əmin Rəsulzadə Ensiklopediyası/ – Bakı, – 2013. – 506 s.

# AZƏRBAYCAN XALQ CÜMHURİYYƏTİNİN TARİXİ VARİSİ OLAN MÜSTƏQİL AZƏRBAYCAN RESPUBLİKASININ ERMƏNİ FAŞİZMİNƏ QARŞI MÜBARİZƏSİ

**Tohid Məmmədov**
*tarix üzrə fəlsəfə doktoru*
Email:tohid.mamedov@mail.ru
**Əhliman Dadaşzadə**
*SDU-nun müəllimi*
Email: ehlimandadaszade@gmail.com

**Açar sözlər:** Azərbaycan, Ermənistan, İnterpol, Milli Mərkəzi Büro, kommunikasiya
**Keywords:** Azerbaijani, Armenia, İnterpol, National Central Bureau of İnterpol, Communication

Azərbaycan Xalq Cümhuriyyəti Azərbaycan xalqının tarixində ən parlaq, ən şanlı səhifələrdən biridir.

Azərbaycan Xalq Cümhuriyyətinin elan olunduğu gün-1918-ci ilin 28 may günü Azərbaycan torpaqlarının Gülüstanda (1813) və Türkmənçayda (1828) Rusiya İmperiyası ilə Qacarlar dövləti arasınsda bölüşdürülməsindən sonra ilk dəfə olaraq Azərbaycan xalqının qədim dövlətçilik ənənələrinin yenidən dirçəldiyi günüdür.

Öz dövrünün ən demokratik respublikalarından biri olan Azərbaycan Xalq Cümhuriyyəti, eyni zamanda, bütün şərqdə ilk dəfə olaraq demokratik, hüquqi və dünyəvi dövlətin məhz Azərbaycan xalqı tərəfindən yaradılması demək idi.

Azərbaycan Xalq Cümhuriyyəti Azərbaycan xalqının ilk demokratik respublikası idi.

Azərbaycan tarixinin maraqlı,eyni zamanda mürəkkəb və ziddiyyətli dövrü 1918-1920-ci illəri əhatə edir. Bir cox xüsusiyyətlərinə görə uzun müddət üzərindən sükutla keçilən və mənəvi represiyalara məruz qalan bu iki il Azərbaycan xalqının təkcə şərəfini və vicdanını deyil,eyni zamanda onun milli mövcudluğunu da zamanın imtahanına çəkmişdir.

Dünya tarixində yeni – respublikatipli demokratik idarəçiliyi formasının geniş yayılmağa başladığı dövrdə yaranmış Azərbaycan Xalq Cümhuriyyəti xalqımızın tarixinin ən qədim qatlarından başlanan zəngin dövlətçilik ənənələrinin qanunauyğun davamı idi.

Azərbaycan xalqı dünyanın ən qədim və ən zəngin dövlətçilik mədəniyyətinə malik xalqlarındandır. Azərbaycanın təqribən 5 min illik dövlətcilik tarixi vardır. Məlum olduğu kimi, Azərbaycan ərazisində ilk dövlət qurumları hələ eramızdan əvvəl 4-cü minilliyin sonu 3-cü minilliyin

əvvəllərində yaranmağa balamışdı.

Zaman keçdikcə, Azərbaycanın dövlətçilik mədəniyyəti daha da yüksəlmiş,ölkə ərazisində daha təkmil və daha geniş əraziləri əhatə edən yeni dövlətlər yaranmışdı [1, s.3].

XX əsrin əvvələrində Azərbaycan xalqının milli – azadlıq hərəkatının ən böyük nailiyyəti özünün müstəqil dövlətini yaratmaq idi. Azərbaycan Xalq Cümhuriyyəti Avropanın demokrartik dəyərləri ilə Şərq mədəniyyəytinin xüsusiyyətlərini üzvi şəkildə birləşdirən dövlət modeli idi. Bu nümunəvi model sonralar dövlət müstəqilliyi əldə etmiş cümhuriyyətlər üçün də örnək oldu. 23 aylıq fəaliyyəti dövründə Azərbaycan Xalq Cümhuriyyətinin görkəmli qurucuları ölkədə demokratik, hüquq və azadlıqların bərqərar edilməsi, etnik və dini məsubiyyətlərdən asılı olmayaraq bütün vətəndaşlara bərabər hüquqların verilməsi sahəsində böyük işlər həyata keçirilmişdir. Müstəqilliyə aparan yol heç də asan olmamışdır [1, s.3]. 70 il totalitar rejimin ideoloji- siyasi buxovları altında yaşamalı olan Azərbaycan xalqının qəlbində kök salmış dövlətçilik ideyaları dahi şəxsiyyət Heydər Əliyevin tarixi xidmətləri sayəsində gerçəkləşdi. Xalqının milli idrak və özünüdərkinin ali təzahür forması olan müstəqil dövlət ideyasının praktik həyata vəsiqə alması məhz Heydər Əliyev şəxsiyyətinin uzaqgörənliyi sayəsində mümkün oldu. Ulu öndər müstəqil Azərbaycan Dövlətini Xalq Cümhuriyyətinin varisi hesab etmişdir:

1918-ci ildə yaranmış Azərbaycan Xalq Cümhuriyyəti bizim milli sərvətimizdir, tariximizin parlaq səhifəsidir, xalqımızın böyük nailiyyətidir. Məhz bunlar hamısı birlikdə indiki müstəqil Azərbaycanın həm iqtisadi, həm intellektual, həm də mədəni potensialını yaradır.

Cümhuriyyətin süqutu onu göstərirdi ki, müstəqilliyi qoruyub saxlamaq, müdafiə etmək onu əldə etməkdən daha çətindir.

Sovet illərində Azərbaycan formal olaraq müstəqil olsa da əslində bu əsarətdən başqa bir şey deyildi. Xalqın bütün milli, mənəvi dəyərləri əlindən alınmış, tamamilə yad idealogiyaların təsiri altına düşmüşdür. Üstəlik zəngin iqtisadi potensialı - neft olan Azərbaycan, ittifaqın xammal bazası rolunu oynayırdı. Respublikanın iqtisadi və sosial göstəricilərinə görə SSR ölkələri arasında axırıncı yerdə dururdu .

1969-cu ildə Heydər Əliyev ölkəyə rəhbərliyə başladıqdan sonra hər şey dəyişdi, xalqın mənəvi dəyərləri özünə qaytarıldı. Ölkə xammal bazasından istehlakçıya çevrildi. Bu gün Politoloqlar haqlı olaraq Heydər Əliyevin Azərbaycan Hakimiyyətinin birinci dövrünü ölkəmizin intibah dövrü adlandırdılar. Nəhayət 70 illik fasilədən sonra Azərbaycan özünün dövlət müstəqilliyini bərpa etdi. Xalq Cümhuriyyətinin ideyalarını davam etdirərkən bu tarixi varislik üzərində yeni Azərbaycan dövləti yaradıldı.

XX əsrin sonunda öz müstəqilliyini bərpa edən Azərbaycan Respublikası Xalq Cümhuriyyətinin varisi olaraq Üzeyir Hacıbəyovun və Əhməd Cavadın yaratdıqları dövlət himnini, Xalq Cümhuriyyətinin üçrəngli bayrağını və gerbini bərpa etdi. Bu dövlətçilik atributları bu gün də hər bir Azərbaycan

vətəndaşı üçün olduqca əzizdir. Bu dövlət, bu quruluş 1918-ci ildə yaradılmış ilk Xalq Cümhuriyyətinin varisidir. Bütün dövlət onun varisidir, bütün respublika onun varisidir, xalq onun varisidir” - deyə Heydər Əliyev bildirdi. Müstəqilliyin ilk illəri ölkəmiz üçün çox ağır keçib və biz ikinci şansı da əldən verə bilərdik. Ölkədə hökm sürən anarxiya, özbaşınalıq və total böhran faktiki olaraq Azərbaycanı parçalamağa sürükləyirdi. Müstəqillik 1991- 1993-cü illərdə formal xarakter daşıyırdı, həmin dövrdə bir tərəfdən daxili çəkişmələr və hakimiyyət uğrunda aparılan mübarizə, vətəndaş müharibəsi, digər tərəfdən, Ermənistanın Azərbaycana etdiyi təcavüz nəticəsində torpaqlarımızın 20 % işğal altına düşdü.

Beləliklə 1993-cü ildə Azərbaycan xalqının tələbi ilə Ulu Öndər Heydər Əliyevin siyasi qayıdışından sonra ölkədə vəziyyət stabilləşdi.

Ümummilli lider Heydər Əliyevin hakimiyyətə qayıtmasına qədər 23 sentyabr 1989-cu ildə Azərbaycan SSRİ Ali Soveti tərəfindən dövlət suverenliyi haqqında Konstitusiya qanunu, 30 avqust 1991-ci ildə dövlət müstəqilliyinin bərpası haqqında bəyannamə, 18 oktyabr 1991-ci il tarixdə Dövlət müstəqilliyi haqqında Konstitusiya aktı imzalansa da, hüquqi, demokratik, dövlət quruculuğu sahəsində kifayət qədər iş görülməmişdir. Ölkədə real imkanlar, xalqın mentaliteti nəzərə alınmaqla demokratiya, qanunculuq, plüralizm münasib yollar və vasitələrlə inkişaf edirdi [4, s.3].

Beləliklə, 1993-cü ildə Azərbaycan xalqının tələbi ilə ulu öndər Heydər Əliyevin siyasi hakimiyyətə qayıdışından sonra ölkədə vəziyyət stabilləşdi. 1999-cu ilin ortalarında Azərbaycan bütün qeyri-qanuni silahlı birləşmələrdən xilas olunmuş, tamamilə möhkəmlənib keyfiyyətcə yeni bir mərhələyə daxil olmuş, dövlət quruculuğunda böyük işlərə başlamaq üçün möhkəm ictimai-siyasi sabitlik və qanunçuluq şəraitinə gətirilmiş dövlətə çevrilmişdi.

Ümumxalq səsverməsi referendum yolu ilə 1995-ci il noyabr ayının 12-də Azərbaycan Respublikasının Konstitusiyası dövlətin ilk əsas qanunu qəbul olundu.

Azərbaycan Respublikasının dövlət quruculuğunun hüquqi, qanuni əsası qoyuldu. Konstitusiya bəyan etdi:

Azərbaycan xalqının və dövlətinin ən mühüm məqsədləri Azərbaycan dövlətinin müstəqilliyini, suverenliyini və ərazi bütövlüyünü qorumaq, Konstitusiya çərçivəsində demokratik quruluşa təminat vermək, vətəndaş cəmiyyətinin bərqərar olmasına nail olmaq, xalqın iradəsinin ifadəsi kimi, qanunların aliliyini təmin edən hüquqi, dünyəvi dövlət qurmaq, ədalətli, iqtisadi və sosial qaydalara uyğun olaraq bütün dünya xalqları ilə dostluq, sülh və əmin-amanlıq şəraitində yaşamaq və bu məqsədlə qarşılıqlı fəaliyyət göstərməkdir.

Azərbaycan Respublikası Konstitusiya maddələrinin ⅓ hissəsi (158 maddənin 48-i) insan hüquqlarına və onların azadlıqlarına həsr edilmişdir. Hakimiyyət bölgüsü konsepsiyasına uyğun olaraq konstitusiya təsbit edir ki, İcra hakimiyyəti, Qanunvericilik hakimiyyəti Azərbaycan Respublikasının

Milli Məclisinə, Məhkəmə hakimiyyəti isə müstəqil məhkəmələr həyata keçirirlər [5, s.3].

1995-ci il noyabrın 12-də Müstəqil Azərbaycan Respublikası Parlament seçkiləri keçirdi. Parlamentdə digər komissiyalar ilə yanaşı, insan hüquqlarına dair komissiya təşkil olundu.

1998-ci ilin fevral ayında Azərbaycan prezidenti Heydər Əliyev "İnsan və vətəndaş hüquq və azadlıqlarının təmin edilməsi sahəsində tədbirlər haqqında" fərman verdi.

1998-ci il iyulun 18-də "İnsan hüquqlarının müdafiəsinə dair dövlət proqramı" təsdiq edildi. Bu sahədə həyata keçirilən tədbirlərin səmərəliliyini artırmaq üçün, AMEA-da İnsan hüquqları institutu yaradıldı.

Hüquqi dövlətçiliyin təmin olunmasında mühüm vasitələrdən biri də, hüquq-mühafizə orqanlarının inkişaf etdirilməsi və möhkəmləndirilməsi idi. 1998-ci ildə konstitusiya məhkəməsi təşkil olundu, "Vəkillik fəaliyyəti haqqında, Məhkəmələr və hakimlər haqqında" qanunlar qəbul edildi. 2002-ci ilin sentyabr ayında Azərbaycanda üçpilləli məhkəmə sistemi formalaşdı.

Respublikanın Daxili İşlər və Milli Təhlükəsizlik Nazirlikləri, onların yerli təşkilatları silahlı hissələri təsadüfi, cinayətkar, xain və satqın ünsürlərdən əsasən təmizləndi.

Dövlətin ən mühüm və daimi fəaliyyətlərindən biri ictimai asayişin qorunmasıdır. Müstəqilliyin ilk illəri Azərbaycan Hüquq mühafizə orqanları, eyni zamanda Azərbaycan Daxili İşlər Nazirliyi SSR dövründə olan qaydada fəaliyyət göstərirdi. 1991-1994 cü illərdə Azərbaycana qarşı erməni qəsbkarlarının elan edilməmiş müharibəsi nəticəsində və Azərbaycanın daxilində olan xaosla əlaqədar asayiş pozulmuşdur.

Bu dövrdə Azərbaycanın bütün hüquq mühafizə orqanları Azərbaycanın daxili işlər nazirliyi hərc mərcliyin, qanunsuzluğun qarşısını almaq üçün ciddi işlər görmüşdü. Bundan başqa İnterpolun baş assambleyasının 2 oktyabr 1992-cü il tarixində Seneqalın Dakar şəhərində keçirilən 61-ci sessiyasında müstəqil Azərbaycan Respublikası İnterpolun tam hüquqlu üzvü qəbulu edildi və İnterpolun Azərbaycan Milli Mərkəzi Bürosu fəaliyyətə başladı.

Azərbaycanda İnterpolun Milli mərkəzi bürosu Respublika Hüquq mühafizə orqanları ilə İnterpolun üzvü olan ölkələrin müvafiq hüquq mühafizə orqanları arasında nizamnamənin 3-cü maddəsində göstərildiyi kimi siyasi, hərbi, dini və irqi xarakterli cinayətlərə qarışmamaq şərti ilə ümumi cinayətkarlıq və beynəlxalq axtarış tədbirlərinin həlli istiqamətində beynəlxalq əməkdaşlığı təmin edən qurumdur. Buna görə də Milli Mərkəzi Büro öz fəaliyyətində Azərbaycan Respublikasının Qanunlarını digər hüquqi normativ aktları, ölkəmizin tərəfdar olduğu beynəlxalq sahələri, İnterpolun nizamnaməsini və digər normativ sənədlərini, İnterpolun Azərbaycan Milli Mərkəzi bürosu haqqında əsasnaməni rəhbər tutur [6].

Burada bir məsələ diqqəti cəlb edir ki, Azərbaycanın Milli Mərkəzi Bürosunun əsas fəaliyyət konsepsiyası Beynəlxalq axtarışının praktiki olaraq

təşkil edilməsindən, istintaq orqanlarının ayrı-ayrı tapşırıqlarını yerinə yetirməkdən, oğurlanmış qiymətli əşyaların (mədəni sərvətlərinin, avtonəqliyyat vasitələrinin) və sairə axtarışın, hüquq quruculuğu sahəsində informasiya mübadiləsinin təşkil edilməsindən ibarət olduğu halda Baş Katibliyin ayrı-ayrı ölkənin Milli Mərkəzi Bürosunun analoji xahişi və məlumatları icraata götürməsi və Respublikanın hüququna mühafizə orqanlarının vasitəsi ilə onların xahiş etdikləri şəxs və sənədlərin icrası üçün tədbirlər həyata keçirilməsinə üstünlük verməsinə baxmayaraq Azərbaycan ərazisindən (Qarabağ bölgəsinin işğal olunmuş ərazilərindən) maddi mədəniyyət nümunələrini, azərbaycan xalqına məxsus muzey eksponatlarını xarici ölkələrə keçirməklə məşğul olan şəxslər haqqında ciddi tədbirlər görülmürdü. Halbuki, aidiyyəti olmayan ölkələrin Milli Mərkəzi Bürolarına və zəruri hallarda Baş Katibliyə xarici ölkə vətəndaşları tərəfindən ölkəmizdə törədilən cinayətlər barədə, cinayət törətdikdə şübhəli bilinən cinayət məsuliyyətinə cəlb edilən və barəsində həbs qəti imkan tədbirləri seçilən xarici vətəndaşlar barədə məlumat göndərilir. Beynəlxalq polis əməkdaşlığı prosesində şəxslər, faktlar və sənədlər barədə verilmiş məlumatlar əsasında məlumat bazası yaradır. Cinayətkarlıqla mübarizə sahəsində beynəlxalq əməkdaşlığın problemləri üzrə, xülasələr, məruzələr hazırlanır, lakin yuxarıda qeyd etdiyimiz kimi erməni əsilli cinayətkarlara qarşı tədbirlərin görülməsində laqeyd münasibətlər böyük təəccüb doğurur. Çox maraqlıdır ki, beynəlxalq axtarışda olan canilər haqqında həbs qəti imkan tədbirləri seçildiyi halda hələ heç biri məhkəmə qarşısında oturdulmamışdır. Azərbaycanılara qarşı siyasi-hərbi təxribatların, terrorun, iqtisadi dağıntıların təşkilatçısı olan Ermənistan Respublikasının keçmiş prezidentləri Ter Petrosyan, R.Köçəryanın, S.Sarkisyanın indiki Prezidentləri Nikol Paşinyan və eləcə də 1994-cü il hadisələrinə görə İnterpol tərəfindən haqqında axtarış elan edilmiş Zori Balayanın məsuliyyətə cəlb edilməməsi bu sahədə də ikili standartla yanaşılmaların mövcud olduğunu göstərir. Belə cəzasızlıqların mənfi nəticəsidir ki, baş verən cinayərlərin sayı getdikcə artır, beynəlxalq xarakter aır, hətta kütləvi qırğınlara gətirib çıxarır.

Azərbaycanda İnterpolun Milli Mərkəzi Bürosunun yaradılmasından, yəni 2 oktyabr 1992-ci ildən indiyə qədər ötən müddət ərzində Beynəlxalq hüquq normalarının öyrənilməsi, yayılması, qanunçuluğun təkmilləşdirilməsi və əməkdaşlığın genişləndirilməsi sahəsində xeyli iş görülmüşdür. İnterpolun üzvü olan ölkələrdə birgə əməliyyat tədbirləri keçirilməsi üçün çevik iş birliyi yaradılmış, əlaqələrin dinamikliyi artmışdır.

Respublikamızda İnterpolun Milli Mərkəzi Bürosu öz xidməti fəaliyyətini Azərbaycan Respublikasının Qanunları və Beynəlxalq Hüquq normalarına uyğun qürur, qanunçuluğun təmin olunması üçün beynəlxalq polis əməkdaşlığını daha da genişləndirir. Cinayətkarların beynəlxalq axtarışı, kriminal xarakterli məlumatların dəqiqləşdirilməsi, eyni təmayüllü təşkilatlar arasında ədalətli yayılması üçün bütün imkanlar səfərbər edilir. Azərbaycanda

dövlət quruculuğunun yeni mərhələyə qədəm qoyması, ölkəmizin beynəlxalq miqyasda nüfuzunun artması potensial imkanlara güclü təkan verir.

Azərbaycanın dünya dövlətləri ilə iqtisadi əməkdaşlığının genişlənməsisübhəsiz ki,dövlət və komersiya sturukturarında yeni münasibətlər formalaşdırır.Bəzi hallarda isə,yeni yaranan beynəlxalq qurumlar arasında iqtisadi cinayətkarlıq faktları aşkara cıxarılır.Belə cinayətkarlığın istintaqı ilə bağlı sorğu materialları da İnterpolun üzvü olan dövlətlərin Milli Mərkəzi Büroları bir-birinə şardırır.

Birmənalı şəkildə demək olar ki, İnterpolun Azərbaycan Respublikası MMB-si Beynəlxalq polis əməkdaşlığının düzgün qurulması nəticəsində cinayətlərin açılması, ayrı-ayrı sənədlərin dövlətlərarası axtarışlarının təmin olunması üçün konkret tədbirlər görür. Son illərdə beynəlxalq polis təşkilatları narkotik maddələrin dövriyyəsini məhdudlaşdırmaq üçün ardıcıl tədbirlər görmüş, birgə əməliyyatlar keçirmişlər.

Burada belə bir məsələni xatırlatmaq lazımdır ki, beynəlxalq cinayətkarlığın əsas obyektlərindən biri dövlətlərin iqtisadi və sosial inkişafına zərər yetirən cinayətlər hesab edilir.

Məlumdur ki, Ermənistanın Azərbaycana təcavüzü, müharibə ərəfəsində, müharibənin gedişi zamanı və müharibədən sonrakı atəşkəs dövründə Azərbaycan Respublikasına qarşı çox böyük iqtisadi terrorizm və vandalizm baş vermişdir. İşğalçılar Azərbaycan Respublikasının Yuxarı Qarabağ bölgəsini və ətrafındakı 7 rayonu işğal etməklə, minlərlə insanı qətlə yetirməklə bərabər mədəni irsimizə dağıdıcı zərbə vuraraq 927 kitabxananı, 100 arxeoloji abidəni, 454 tarixi abidə və muzeyi, 60 qədər məscid dağıdılmış və donuz danına çevirmişlər, 40 min muzey eksponatını qəddarcasına məhv etmişlər. İşğal olunmuş ərazilərdə nadir flora və faunaya malik meşə sərvətləri amansızcasına qarət edilərək Ermənistana daşınmışdır. İlkin hesablamalara görə işğal nəticəsində Azərbaycan öz iqtisadi potensialının 16 faizini itirmiş və ölkəyə 60 milyard ABŞ dollarında ziyan dəymişdir. Ermənilər işğal olunan ərazilərdə yanğınlar törətmiş, narkotik maddələr yetişdirmiş, yeraltı və yerüstü sərvətlərimizi mənimsəmişdir.

Ermənistan Respublikasının işğal etdiyi Azərbaycan torpaqlarında 900-ə yaxın yaşayış məntəqəsi, 2389 sənaye, tikinti və kənd təsərrüfatı obyekti (173 sənaye, 122 tikinti) 3225 ticarət obyekti, 131 min ev, 1025 məktəb, 798 səhiyyə ocağı təcavüzün qurbanı oldu, 280 min hektar meşə, 1 milyon hektar məhsuldar torpaq, 1200 km irriqasiya sistemi işğalçıların əlinə keçdi. İşğal zamanı 100 milyonlarla dollar dəyərində şəxsi və dövlət əmlakı, maddi sərvətlər işğal olunmuş ərazilərdən Ermənistana daşındı.

Ermənistan dövləti tərəfindən Azərbaycan Respublikasının Dağlıq Qarabağ bölgəsində həyata keçirilən qaçaqmalçılıq, təbii sərvətlərin talanması, narkotik maddələrin becərilməsi və tranziti adi hal almışdı.

İnterpolun Azərbaycan Respublikası MMB-si Beynəlxalq polis əməkdaşlığının düzgün qurulması nəticəsində cinayətlərin açılması, ayrı-ayrı

sənədlərin dövlətlərarası axtarışlarının təmin olunması üçün konkret tədbirlər görür. Son illərdə beynəlxalq polis təşkilatları narkotik maddələrin dövriyyəsini məhdudlaşdırmaq üçün ardıcıl tədbirlər görmüş, birgə əməliyyatlar keçirmişlər.

Beləliklə, həyatın bütün sahələrində, bütün siyasi, iqtisadi və mədəni əlaqələri kobudcasına pozan, regionda mövcud olan yeni kommunikasya layihələrindən özünü kənarda qoyan Ermənistan Respublikası ilə münasibətlər yaradılmasına ciddi mane olur. Bu azmış kimi işğal altında saxladığı Azərbaycan Respublikasının yaşayış hüququndan məhrum etdiyi minlərlə dinc əhalisinin torparlarında narkotik maddələr əkib-becərirlər. Bütün bunlar İNTERPOL kimi mötəbər beynalxalq təşkilatın üzvü olan Azərbaycan Respublikası MMB-nin bu məslələrə daha həssas yanaşmasnı əsaslandırır və bu sahədə fəaliyyətinin gücləndirilməsini zəruri edir [7, s.150]**.**

Heydər Əliyevin hakimiyyəti dövründə başlamış siyasi, iqtisadi, sosial və məhkəmə hüquq islahtlarının Azərbaycanın dünya birliyinə inteqrasiya etmə istiqmətində mühüm addımlar atılmasını təmin etdi .

Heydər Əliyev siyasi kursunun layiqli davamçısı Prezident İlham Əliyev tərəfindən həyata keçirilən mühüm siyasi xətt Azərbaycan dövlət müstəqilliyinin daha da qüdrətlənməsinə xidmət edir.

Son 17 ildə Azərbaycanda həyata keçirilən milli demokratik keçidin mahiyyətində, məhz iqtisadi firavanlıq müəyyənləşdirir. Azərbaycan xalqının ümummilli lideri böyük türk oğlu Heydər Əliyevin apardığı uzaqgörən daxili və xarici siyasəti nəticəsində çoxəsrlik dövlətçilik ənənələrinə malik Azərbaycan daha da inkişaf etdirildi. Heydər Əliyevin yaratdığı dövlətimizin atributu sayılan Azərbaycanın silahlı qüvvələri, Azərbaycanın nizami ordusu başda Azərbaycan Respublikasının prezidenti, silahlı qüvvələrin ali baş komandanı İlham Əliyevin rəhbərliyi altında erməni faşistlərinə qarşı ordumuzun qələbəsi .44 günlük Vətən Müharibəsində doğma Qarabağımız düşməndən azad olunmuş, ölkəmizin ərazi bütövlüyü bərpa edilmişdir. Hal-hazrda erməni vandallarının dağıtdığı şəhər, qəsəbə və kəndlərimizin bərpasına start verilmişdir.

Ümummilli liderimiz Heydər Əliyevin nəzəri ideyaları, onun layiqli davamçısı İlham Heydər oğlu Əliyev tərəfindən həyata keçirməklə demokratik, hüquqi, dünyavi dövlət olan Azərbaycan Respublikasında uğurlu islahatlar aparılır, Azərbaycan çiçəklənən respublikaya çevrilməkdədir.

## Ədəbiyyat siyahısı:

1. Azərbaycan qəzeti. – 2008, 28 may, – s.1-2.
2.Xalq qəzeti. – 2010, 25 may.
3.Mahmudov Y.M. AMEA Tarix institutu elmi əsərləri. – Bakı: 2013, – c.38, – s.3.
4.Cəfərov, İ.M. Azərbaycan Respublikası Konstitusiyasının şərhi / – Bakı: Hüquq ədəbiyyatı nəşriyyatı, – 2010.

5.Azərbaycan Respublikasının Konstitusiyası / – Bakı: Qanun, – 2016.
6.Azərbaycan Respublikasında interpolun Milli Mərkəzi Bürosunun əsasnaməsi. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 9 fevral 1993-cü il tarixli 72 nömrəli qərarı ilə təsdiq edilmişdir.
7.Məmmədov, T.D. Azərbaycan Respublikasının Beynəlxalq Cinayət Polisi təşkilatı və onun “İnterpol”sistemində fəaliyyəti / T.D.Məmmədov. – Bakı: Elm və Təhsil nəşriyyatı, – 2020. – 528 s.

## ŞİMALİ AZƏRBAYCANDA İSTİQLALİYYƏT UĞRUNDA MÜBARİZƏ TÜRKİYƏ TARİXŞÜNASLIĞINDA

**Vidadi Umudlu**
*AMEA A.A.Bakıxanov adına Tarix İnstitutunun aparıcı elmi işçi,*
*tarix üzrə fəlsəfə doktoru, dosent*
v.umudlu@yahoo.co.uk

**Açar sözlər**: Türkiyə tarixçiləri, çar Rusiyası, Şimali Azərbaycan, milli demokratik hərəkat, Müsavat partiyası, M.Ə.Rəsulzadə,
**Keywords:** Turkish historians, Tsarist Russia, Northern Azerbaijan, National Democratic Movement, Musavat Party, M.E. Rasulzade,

XX əsrin əvvəllərində xalqımızın müstəqillik uğrunda apardığı mübarizə və Azərbaycan Xalq Cümhuriyyətinin elan olunması tariximizin mühüm mərhələsini təşkil edir. Tədqiq etdiyimiz bu məsələ qardaş Türkiyə tarixşünaslığında da özünəməxsus yer tutur. Milli tarixşünaslığımızı zənginləşdirmək baxımından türk tarixçilərinin mövzu ilə bağlı tədqiqatlarını aşkar edib təhlil etmək mühüm əhəmiyyət kəsb edir. Türkiyə tarixşünaslığının nümayəndələri olan S.Şimşir, M.Bala, H.Baykara, T.Sünbül və digərləri öz əsərlərində Azərbaycanda istiqlaliyyət uğrunda aparəlan mübarizədən ətraflı şəkildə təhlil etmiş və əldə olunmuş nəticələri Türkiyə elmi ictimaiyyətinin diqqətinə çatdırmışlar.

1905-ci ildə Rusiya imperiyasında başlayan ümum demokratik hərəkat çar hökumətini güzəştə getməyə və vətəndaşlara bir sıra siyasi hüquqlar vəd edən “Oktyabr manifesti”ni imzalamağa məcbur etdi. Nəticədə ölkədə siyasi partiya və təşkilatların açılmasına, eləcə də demokratik ruhlu qəzet və jurnalların nəşrinə icazə verildi. Bu hadisələr Şimali Azərbaycana da öz müsbət təsirini göstərdi.

M.Bala yazır ki, 1905-ci ilə qədər çox məhdud imkanlara sahib olan türklər, ictimai qurumlar təsis etmə fürsətinə sahib idilər. 1905-ci il inqilabından sonra Rusiyada yaşayan türklər arasında milli hərəkatlar başladı [3, s.29]. Bu dövrü xarakerizə edən tarixçi N.Devlet qeyd edir ki, bu manifestin elan edilməsi ilə Rusiyada yaşayan hər kəsə söz, mətbuat və sərbəst toplaşmaq

hüququ müəyyən etdi. Bu tarixə qədər təməl hüquq və azadlıqlarından məhrum olan məzlum millətlər məhdud da olsa azadlıqlarını əldə etdilər. 1905-ci il inqilabı çar Rusiyasında yaşayan bütün millətlər üçün nisbi də olsa sərbəstlik imkanı verdi [4, s.112]. Təhsildən mətbuata, teatrdan xeyriyyə cəmiyyətlərinə qədər bütün təşəbbüslərə maliyyə dəstəyi verən sərmayədarlar Azərbaycan türklərinin milli şüurunun inkişafına önəmli töhfə verdilər. Azərbaycan türk ziyalıları 1905-ci ilin martında Zeynal Abidin Tağıyevin evinə toplaşdılaraq, Qafqazda zəruri hesab etdikləri islahatları çar hökumətinə təqdim etməyə qərar verdilər. Onların əsas istəkləri ruslarla müsəlmanlar arasında bütün sahələrdə bərabərlik, bütün qurumlara seçilmək hüququ, ana dilində təhsil, pulsuz təhsil, məktəblər açma azadlığı və torpaq islahatı idi [3, s.24].

1905-ci ilin qanlı hadisələrindən bəhs edən türk tarixçisi H. Baykara “Azerbaycan İstiklal Tarihi” adlı əsərində qeyd edir ki, Azərbaycan türkləri arasında ilk olaraq “Hümmət” adlı siyasi partiya gizli şəkildə fəaliyyətə başladı.. İkinci siyasi partiya 1905-ci ildə Qafqazda, ermənilərin türk və müsəlman xalqa hücum edərək, kütləvi qırğın hərəkətini həyata keçirdikləri zaman Əhməd bəy Ağaoğlu tərəfindən qurulan “Difai” firqəsidir. Adından da göründüyü kimi ermənilər tərəfindən tüklərə qarşı yönələn qırğın hücumunu dəf etmək anlamına gəlir. Qurulduğu tarixdə Azərbaycan xalqına çox xidməti olmuşdur [1, s.77]. Onu da qeyd edək ki, Azərbaycan əhalisinin erməni terrorizmindən müdafiəsində mühüm rol oynayan “Difai” partiyasının qurulması türk tarixçilərinin də çox rəğbətlə yanaşdığı bir hadisədir.

Azərbaycanın müstəqilliyi uğrunda mübarizədə ən mühüm hadisə “Müsavat” partiyasının təsis edilməsi oldu. T.Sünbül partiyanın təşkili ilə bağlı yazır ki, fəaliyyəti dayandırılan “Hümmət” partiyasının bir sıra üzvləri 1911-ci ildə “Müsavat” partiyasının əsasını qoydular. Partiyanın lideri , jurnalist Məmməd Əmin Rəsulzadə oldu [6, s.42]. D.Çelik qeyd edir ki, “Müsavat” partiyası qısa müddətdə bütün Azərbaycan türklərinin ümidinə çevrilmişdi. Azərbaycan türklərinin milli müstəqillik uğrunda mübarizəsində heç bir siyasi təşkilat “Müsavat” partiyası kimi aparıcı rola malik olmamışdır [5, s.60-79]. H.Baykara yazır ki, Azərbaycanın istiqlaliyyətinin elanında partiyanın roluna gəlincə, partiyanın göstərdiyi xidmətləri inkar etmək mümkün deyil [1, s.26]. ].“Müsavat” partiyasının qurulması müstəqillik və hakimiyyət uğrunda gedən mübarizəyə xüsusi canlanma və milli ruh gətirdi.

Balkan müharibəsi dövründə Rusiyada şiddətlənən şovinist siyasi cərəyanın açıq-açığına türk aləminə qarşı yönəlmiş olması, qeyri-rus millətlərin milli hislərini gücləndirən təsirlərə səbəb olduğunu qeyd edir. Müəllif yazır ki, Birinci Dünya müharibəsi illərində Azərbaycan demokratik ziyalıları bəzən açıq, bəzən də gizli şəkildə Osmanlı dövlətini müdafiə etmiş, mövcud imkanlarla onlara yardım etməyə çalışmışlar. Osmanlı dövlətinə olan həssasiyyətini müxtəlif vəsilələrlə dilə gətirən Azərbaycan ziyalıları Rusiyanın Osmanlı dövlətinə qarşı müharibəsini dəstəkləməmiş, 1912-ci il Balkan müharibələrində də Osmanlıya qarşı çıxış edən Rusiyanın siyasətindən

məmnun olmadıqlarını bəyan etmişdilər [2, s.25].

Birinci Dünya müharibəsinin başlanğıcında ortaya çıxan fövqəladə şərtlər Qafqazdakı yerli partiyaların inkişafına böyük maneələr törətdi. Digər partiyalar qədər olmasa da, vəziyyət “Müsavat”a da ös təsirini göstərdi. 1915-ci il hərbi əməliyatlarında Rusiyanın vəziyyətinin ağırlaşması səbəbindən, partiya əhalini sakitlədirmək üçün çar hökumətindən “Açıq söz” qəzetinin fəaliyyətinə icazə ala bildi. Qəzet Azərbaycan türkləri arasında milli ideyaların yayılmasında böyük rol oynadı [3, s.47]. Partiya Birinci Dünya müharibəsinin başlanğıcında Azərbaycan türklərinin milliyyətçilik duyğularının əsas ifadəsiçi oldu [5, s.60-79].

Məlumdur ki, “Açıq söz” qəzeti “Bakı müsəlman xeyriyyə cəmiyyəti”nin fəaliyyəti haqqında da geniş məlumatlar çap edirdilər. “Cəmiyyət”in qurucusu olan Bakı milyonçusu H.Z.Tağıyev bu işlərdə yaxından iştirak edərək, heç bir köməyini əsirgəmirdi. Yeri gəlmişkən onu da qeyd edək ki, Azərbaycanda ictimai fikrin və milli şüurun formalaşmasında demokratik ruhlu ziyalılar və siyasi partiyalar ilə yanaşı, yerli burıuaziya nümayəndələri özünə məxsus yer tutmuşlar.

Azərbaycan Xalq Cümhuriyyətinin elan olunmasında “Müsavat” partiyası və onun rəhbərləri mühüm rol oynamışlar. S.Şimşir qeyd edir ki, M.Ə.Rəsulzadənin qurduğu partiya Azərbaycanın müstəqilliyi uğrunda mübarizədə öz məqsədinə çatan ilk siyasi partiya olmuşdur [7, s.14]. Tədricən inkişaf edən partiya 1918-ci ildə Azərbaycanın müstəqilliyi uğrunda mübarizədə mühüm rol oynadı [5, s.60-79].

Göründüyü kimi, Türkiyə tarixçiləri Azərbaycanın müstəqilliyi uğrunda mübarizədə siyasi partiya, təşkilat və cəmiyyətlərin təsis olunması və fəaliyyətini təqdirəlayiq hal hesab etmişlər. Bu mübarizədə öndə gedən bir partiya kimi “Müsavat” avanqard rolunu oynamış, bütün çətinliklərə baxmayaraq geniş əhali kütləsini öz arxasınca apara bilmiş və nəticədə Azərbaycan Xalq Cümhuriyyətinin elan edilməsinin əsas təşkilatçılarından birinə çevrilmişlər.

## Ədəbiyyat siyahısı:

1.Baykara, H. Azerbaycan İstiklal Mücadilesi Tarihi / – İstanbul: Genclik Kitabevi, – 1975, – 331 s.
2.Bal, H. Azerbaycan Cumhuriyyetinin Kuruluş Mücadelesi(1914-1918) ve Kafkas İslam Ordusu / – İstanbul: İdil Yayınları, – 2010, – 280 s.
3.Bala, M. Milli Azerbaycan Hareketi. Ankara:Azerbaycan Kültür Derneği Yayınları, – 1991, – 239 s.
4.Devlet, N. Rusiya Türklerinin Milli Mücadele Tarihi / – Ankara: Türk Tarih Kurumu, – 1999, – 347 s.
5.Çelik, D. XIX Ve XX. Yüzyillarda Azerbaycan //Erciyez Universitesi Bilig (Bilim Ve Kültür Dergisi). – Sayı 3, – 1996, – s.60-79.
6.Sünbül, T. Azerbaycan Dosyası / – Ankara: Kök Sosyal Ve Stratejik

Araştırmalar Yayınları 1990, – 128 s.
7.Şimşir, S. Mehmet Emin Resulzade / – İstanbul: Doğu Kütuphanesi, – 2012, – s.1.

## НАЧАЛО РЕВОЛЮЦИИ ДВИЖЕНИЯ И БОРЬБА ТРУДЯЩИХСЯ ШОССЕ ГОРОДА ШУШИ в начале XX в.

**Гюлджамал Садыхова**
*Старший научный сотрудник Института истории им.А.А.Бакиханова НАН Азербайджанской Республики, доктор философии по истории*

**Ключевые слова**: Город Шуша, революционная движение борьба, партия, Дифаи, Комитет
**Keywords:** Shusha, revolutionary movement, struggle, party, Difai, Committee

Шушинские рабочие продемонстрировали политическую активность в борьбе против самодержавия в ходе революции 1905-1907 годов. Забастовки и демонстрации в период первой русской революции, охватившие всю страну после «кровавого воскресенья» 9 января 1905 года, эхом отозвались и в Шуше.

В начале июля 1905 года здесь состоялась всеобщая стачка рабочих шелкообрабатывающих фабрик и других предприятий. В числе требований, предъявляемых рабочими, были сокращение рабочего дня, повышение заработной платы, улучшение условий работы, запрещение грубого обращения с рабочими и т.п.

Одной из форм борьбы царизма против народного движения в Азербайджане, в т.ч. и в Шуше, являлась организация межнациональных столкновений. Так, 16 августа 1905 г. совершенно неожиданно для азербайджанского населения Шуши здесь начались трагические события.

В связи с обострением армяно-азербайджанских конфликтов появилась необходимость создания единой национальной политической организации.

Такой организацией стала партия «Дифаи». Наиболее крупным отделением этой партии являлся «Меджлис Гарабахского единства». Головной комитет меджлиса находился в Шуше. Его председателем являлся Керим бек Мехмандаров. Эта организация имела боевую дружину в составе 400 человек. Меджлис стремился к законности и установлению правовых норм в обществе, к политическому пробуждению масс.

Революционные события 1905-1907 годов способствовали росту политической активности, сплоченности, организованности азербайджанского населения Шуши, развивается национальное

самосознание, прослеживается связь Шуши с другими городами Азербайджана, их взаимопомощь.

## ВНЕШНЕПОЛИТИЧЕСКАЯ ДЕЯТЕЛЬНОСТЬ ПАРЛАМЕНТА АЗЕРБАЙДЖАНСКОЙ ДЕМОКРАТИЧЕСКОЙ РЕСПУБЛИКИ

**Зульфия Бабаева**
*Бакинский Государственный Университет, кафедра Политологии и Социологии, док.фил. по полит. наукам, доцент*
shehreban@yahoo.com

**Ключевые слова:** парламент, конференция, независимость, дипломатическая делегация, де-факто

**Keywords:** parliament, conference, independence, diplomatic delegation, de facto

Провозглашение 28 мая 1918 года Азербайджанской Демократической Республики (АДР) явилось выдающимся событием мировой истории. Следует обратить внимание на то, что впервые был заложен фундамент парламентаризма на основе многопартийности и плюрализма политических позиций в практике стран мусульманского Востока [6].

Важно подчеркнуть, что Парламент АДР занимает особое место в истории парламентаризма Азербайджана. За время своей работы, на обсуждение парламента было вынесено более 270 законопроектов, из которых около 230 были приняты. В Парламенте был представлен широкий спектр политических течений, что нашло свое выражение в оформлении парламентских фракций. В подготовке, обсуждении и утверждении парламентских законов принимали участие депутаты от 11 фракций и групп. Названия комиссий следующие: центральная комиссия по финансово-бюджетным, законодательным предложениям, проведению выборов в Собрание Учредителей, комиссии по мандатным, военным, аграрным вопросам, по запросам, хозяйственно-распорядительная комиссия, комиссии по вопросам контроля за использованием производственных мощностей страны, редакции и рабочих [7, с. 356].

Особенно хочу сконцентрировать внимание на внешнеполитической деятельности парламента АДР. Следует отметить, что одним из приоритетов АДР была внешняя политика и установление добрососедских отношений со всеми участниками международного общения [3, с. 31]. Естественно, правительству АДР было необходимо добиться признания государства на международном уровне в первую очередь. С этой целью правительство АДР 28 декабря 1918 года сформировало дипломатическую делегацию для участия в работе Парижской

мирной конференции, на которой державы-победительницы в Первой мировой войне решали судьбу побежденных и новообразовавшихся стран. В обращении Национального Совета «Всему населению Азербайджана» было выражено большая надежда на этот форум. Главой делегации был назначен председатель парламента АДР Алимардан Топчибашев, его заместителем – член правительства М.Г.Гаджинский. Помимо этого, Топчибашев был назначен чрезвычайным посланником и полномочным министром АДР в Стамбуле. Именно через Стамбул лежал путь делегации АДР в Париж на конференцию [5, с.44].

Надо учитывать тот факт, что несмотря на большие трудности и искусственные препятствия, усилия правительства Азербайджана, направленные на то, чтобы его представители приняли участие в Парижской мирной конференции, наконец-то принес свои результаты. Впервые вопрос о государственной независимости Азербайджана был обсужден 2 мая 1919 года по инициативе президента США В.Вильсона на заседании Совета Четырех, где были представлены главы государств США, Великобритании, Франции и Италии. Вместе с тем, выдвинув на встрече с В.Вильсоном требования, состоявшие из шести пунктов, азербайджанская делегация просила президента США оказать содействие в их выполнении. К сожалению, эти требования азербайджанской стороны не были приняты В.Вильсоном, заявив, что США не намерены делить мир на мелкие части [4, с. 105].

Однако, пройдя определенное время, признание независимости Азербайджанской Республики на Парижской мирной конференции стало возможным благодаря успешной внешней политике азербайджанского правительства, особенно азербайджанской делегации. Учитывая возможность расширения географии угрозы, создаваемой Советской Россией в Закавказье, страны Антанты пришли к решению активизировать внешнеполитический курс на данном направлении. С этой целью 11 января 1920 года по инициативе Великобритании на Высшем совете Парижской мирной конференции был обсужден вопрос о признании независимости Азербайджана и Грузии, также было принято решение о признании «правительства Азербайджана и Грузии на уровне де-факто» [1, с. 314].

Надо отметить, что в Азербайджане это историческое событие было отмечено с большой торжественностью. Правительство Азербайджана, столкнувшись после признания своей государственной независимости с давлением со стороны Советской России, продолжило деятельность по его преодолению. Министерство иностранных дел Азербайджана совместно с военным министерством, учитывая создавшуюся вокруг Азербайджанской Республики ситуацию, подготовило и направило в экспертный совет союзных стран меморандум об организации обороны страны и о нуждах национальной армии [3, с. 98].

Как следствие этого, в тот период в Баку начали функционировать консульства европейских государств, также была проведена важная работа по налаживанию экономических связей Азербайджана с США, Великобританией и Италией. Созданы дипломатические отношения между Азербайджаном и Ираном. Именно благодаря укреплению отношений между двумя странами, в короткий срок в Тегеране открылось посольство Азербайджана. Одновременно в Тебризе, Реште, Мешхеде, Хое и Эрдебиле были созданы консульства Азербайджана. 15 апреля 1920 года в парламенте Азербайджана был обсужден проект закона о направлении дипломатических представительств в европейские страны и США. А на заседании парламента 19 апреля принят закон об учреждении дипломатических представительств в Великобритании, Франции, Италии, США, Швейцарии, Польше, Германии и России [2, с. 675].

Надо учитывать тот факт, что успехи, достигнутые правительством и парламентом Азербайджана в области внешней политики в период до апрельского кризиса 1920 года, сыграли важную роль в признании национальной независимости нашего народа. В 1918-1920 годах в определении внешнеполитического курса и достижении важных дипломатических успехов велика заслуга таких личностей, как А.М.Топчибашев, Ф.Х.Хойский и М.Гаджинский [6].

Исходя из вышеизложенного, можно прийти к выводу о том, что проводимая в 1918-1920 годах внешняя политика АДР сыграла важную роль в признании своей независимости международным сообществом как цивилизованной и демократической республики. Несмотря на то, что многое зависело от подхода держав-победителей к новому мироустройству, парламентская делегация АДР сумела достичь поставленной цели.

**Список использованной литературы:**

1. Азербайджанская Демократическая Республика. Внешняя политика /Документы и материалы/ – Баку: Азербайджан, – 1998, – 632 с.
2.Азербайджанская Демократическая Республика (1918-1920). Парламент. (Стенографические отчеты)/ – Баку: Азербайджан, – 1998, – 992 с.
3.Акт независимости Азербайджана. Азербайджанская демократическая республика / Сборник статей, посвященный 90-летию Первой республики. – Москва: SALAM press, – 2008, – 136 с.
4.Давыдова, Т.Н. Внешняя политика первой Азербайджанской Демократической Республики (АДР) и США в контексте признания независимости АДР на Парижской мирной конференции 1919–1920 гг. // Universum: общественные науки: электрон. научн. журн. 2017. № 5 (35): [Electronic resource] / – URL: https://7universum. com/ru/ social/archive/item/4807 (дата обращения: 05.05.2021).

5. Дипломатические беседы А.А.Топчибашева в Стамбуле (записи чрезвычайного посланника и полномочного министра Азербайджанской Республики). 1918–1919 гг. / – Баку: Эргюн, – 1994, – 160 с.
6. Общая информация. Парламент Азербайджанской Демократической Республики: [Electronic resource] / – URL: https://axc. preslib. az/ru/page/gBRaSnNI10.
7. Yusifova, Sh. The recognition of the independence of Azerbaijan Democratic Republic in Paris Peace Conference and the attitude of Iran // Mediterranean Journal of Social Sciences, – 2014. № 19, – p.355–364.

**MÜNDƏRİCAT:**

**Arifə Adigözəlova . AZƏRBAYCAN XALQ CÜMHURİYYƏTİNİN MƏHKƏMƏ SİSTEMİ . . . . . . . . . . 7**

**Aydın Məmmədov. AZƏRBAYCAN XALQ CÜMHURİYYƏTİ XADİMLƏRİNİN ƏHALİ MƏSKUNLAŞMASI VƏ ARTIMINA DAİR TARİXİ DEMOQRAFİK BAXIŞLARI. . . . . . . . . .10**

**Aytən Kürdədehli. AZƏRBAYCAN XALQ CÜMHURİYYƏTİ XARİCİ SİYASƏTİNDƏ PARİS SÜLH KONFRANSININ ROLU. . 13**

**Billurə Qurbanzadə. QAFQAZ İSLAM ORDUSUNUN AZƏRBAYCANA XİLASKARLIQ YÜRÜŞÜ 20-30-CU İLLƏR MÜHACİR TARİXŞÜNASLIĞINDA. . . . . . . . . . 15**

**Cavid Bağırzadə. AZƏRBAYCAN XALQ CÜMHURİYYƏTİNİN BEYNƏLXALQ İQTİSADİ ƏLAQƏLƏRİNƏ DAİR. . . . . . . .18**

**Cəmilə Rüstəmova. 1918-1920-Cİ İLLƏRDƏ ERMƏNİLƏRIN AZƏRBAYCANA QARŞI ƏSASSIZ TORPAQ İDDİALARI. . . . . . . .20**

**Dünya Cəlili. AZƏRBAYCAN XALQ CÜMHURİYYƏTİNİN İQTİSADİ SİYASƏTİ. . . . . . . . . . 25**

**Elçin Qarayev. MÜSƏLMAN ŞƏRQİNDƏ İLK PARLAMENTLİ RESPUBLİKA: ƏRAZİSİ, ƏHALİSİ VƏ DÖVLƏT RƏMZLƏRİ . . 28**

**Elnur Əbilov. HEYDƏR ƏLİYEVİN ƏSƏRLƏRİNDƏ AZƏRBAYCAN XALQ CÜMHURİYYƏTİNİN TARİXİ ROLU. . . . . . . . . .31**

**Elnur Kəlbizadə. QACARLAR İRANI-ERMƏNİSTAN MÜNASİBƏTLƏRİ VƏ AZƏRBAYCAN XALQ CÜMHURİYYƏTİ .34**

**Əzət Dadaşova. AZƏRBAYCAN XALQ CÜMHURİYYƏTİ HÖKÜMƏTİNİN XALQIMIZA BƏXŞ ETDİYİ ŞAH ƏSƏR: BAKI DÖVLƏT UNİVERSİTETİ. . . . . . . . . . 36**

**Faiq Ələkbərli.AZƏRBAYCAN CÜMHURİYYƏTİNİN TƏŞƏKKÜLÜ ƏRƏFƏSİNDƏ SİYASİ-İDEOLOJİ CƏRƏYANLAR (1901-1918-Cİ İLLƏR) . . . . . . . . . . 39**

**Firuzə Sadıqova. CÜMHURİYYƏT DÖVRÜNDƏ YARANMIŞ MİLLİ**

**UNİVERSİTETİMİZ..........................................44**

**Günel Əliyeva-Məmmədova. NƏSİB BƏY YUSİFBƏYLİ ŞƏXSİYYƏTİ İBRƏTAMİZ NÜMUNƏ.................................47**

**Xəyal Abdullayev. AZƏRBAYCAN XALQ CÜMHURİYYƏTİNDƏ MİLLİ DÖVLƏT QURUCULUĞU MƏSƏLƏLƏRİ.................49**

**Xəyalə Əsgərova. AZƏRBAYCAN XALQ CÜMHURİYYƏTİNDƏ ORDU QURUCULUĞU VƏ ERMƏNİSTAN TƏCAVÜZÜNƏ QARŞI MÜBARİZƏ...............................................52**

**İman Vəliyev. MÜSƏLMAN ŞƏRQİNDƏ İLK DEMOKRATİK VƏ HÜQUQİ DÖVLƏT OLAN AZƏRBAYCAN XALQ CÜMHURİYYƏTİNİN ƏRAZİSİ, ƏHALİSİ VƏ DÖVLƏT RƏMZLƏRİ HAQQINDA TARİXİ ARAŞDIRMA..............................55**

**Kəmalə Qurbanova. CÜMHURİYYƏT ORDUSUNUN UĞURLU QARABAĞ ƏMƏLİYYATLARINDA CƏMŞİD XAN NAXÇIVANSKİNİN YERİ VƏ ROLU...........................58**

**İradə Hüseynova. AZƏRBAYCANIN İLK ALİ TƏHSİL OCAĞI BİZİM MİLLİ SƏRVƏTİMİZDİR.......................................61**

**Qasım Hacıyev. AXC DÖVRÜNDƏ CƏNUBI QAFQAZDA QAÇQINLAR PROBLEMİ...... ...............................64**

**Lalə Mehtiyeva. AZƏRBAYCAN-ABŞ MÜNASİBƏTLƏRİ..........66**

**Lamiyə Süleymanlı. VƏTƏN MÜHARİBƏSİNDƏ QAZANILAN QƏLƏBƏ: TARİXİ ƏHƏMİYYƏTİ VƏ NƏTİCƏLƏRİ ............69**

**Nailə Hüseynova. AXC DÖVRÜNDƏ HÖKUMƏTİN NEFT SİYASƏTİ.72**

**Nurlan İsgəndərov. ŞƏRQDƏ İLK DEMOKRATİK DÖVLƏT-AZƏRBAYCAN XALQ CÜMHURİYYƏTİ........... ......... 75**

**Rəşad Cabarov. ERMƏNİLƏRİN CƏNUBİ QAFQAZA KÖÇÜRÜLMƏSİ............................................. 81**

**Sevda Süleymanova. AZƏRBAYCANDA İLK XALQ HAKİMİYYƏTİNİN QURULMASI (1918-1920)..................85**

**Sevinc Əliyeva. AZƏRBAYCAN XALQ CÜMHURİYYƏTİNİN XARİCİ SİYASƏTİ ........................................................ 87**

**Sevinc Qurbanova. İŞĞALDAN AZAD EDİLƏN ƏRAZİLƏRDƏ TARİXİ ABİDƏLƏRİN BƏRPASI MƏSƏLƏSİ ................... 90**

**Sübhan Talıblı. AXC-NİN XARİCDƏKİ DİPLOMATİK NÜMAYƏNDƏLİKLƏRİNİN YARANMASI VƏ FƏALİYYƏTİ.... 93**

**Sünbül Zalova. İKİNCİ QARABAĞ MÜHARİBƏSİ: AVROPA MEDİASININ YANAŞMASI................................... 95**

**Sürəyya Allahverdiyeva. MƏHƏMMƏD ƏMİN RƏSULZADƏNİN ƏSƏRLƏRİNDƏ AZƏRBAYCAN XALQ CUMHURİYYƏTİ İLƏ OSMANLI İMPERİYASI ARASINDAKI QARDAŞLIĞIN TƏSVİRİ ........................................................ 98**

**Tohid Məmmədov, Əhliman Dadaşzadə. AZƏRBAYCAN XALQ CÜMHURİYYƏTİNİN TARİXİ VARİSİ OLAN MÜSTƏQİL AZƏRBAYCAN RESPUBLİKASININ ERMƏNİ FAŞİZMİNƏ QARŞI MÜBARİZƏSİ ............................................ 101**

**Vidadi Umudlu. ŞİMALİ AZƏRBAYCANDA İSTİQLALİYYƏT UĞRUNDA MÜBARİZƏ TÜRKİYƏ TARİXŞÜNASLIĞINDA .... 108**

**Гюлджамал Садыхова. НАЧАЛО РЕВОЛЮЦИИ ДВИЖЕНИЯ И БОРЬБА ТРУДЯЩИХСЯ ШОССЕ ГОРОДА ШУШИ в начале XX в............................................. 111**

**Зульфия Бабаева. ВНЕШНЕПОЛИТИЧЕСКАЯ ДЕЯТЕЛЬНОСТЬ ПАРЛАМЕНТА АЗЕРБАЙДЖАНСКОЙ ДЕМОКРАТИЧЕСКОЙ РЕСПУБЛИКИ........................................ 112**

**Azərbaycan Xalq Cümhuriyyətinin yaranmasının 103-ci ildönümünə həsr edilmiş "Azərbaycan Xalq Cümhuriyyəti tarixi tədqiqatlarda" Respublika elmi konfransı. 27-28 may 2021-ci il. Bakı.** Bakı: - 2021. 118 s.